# II FƏSİL

# TARİX

# TARİX

Ən əski və davamlı toplumlardan biri olan türklər aşağı-yuxarı dörd min illik keçmişləri boyunca Asiya, Avropa və Afrika qitələrinə yayılmış böyük bir millətdir. Orta Asiyadakı anayurddan ətrafa gerçəkləşdirdikləri sürəkli köç hərəkətləri türklərin eyni zamanda əhali baxımından çox olduğunu da göstərir. Türklər bu əhali çoxluğu və fəallığı dolayısıyla dünya tarixində mühim rol oynamışlar. Türk tarixini dəyərləndirərkən onu həm zaman, həm coğrafi baxımdan digər toplumların tarixindən ayıran bu nöqtələr göz önündə tutulmalıdır:

A. Bütün digər millətlərin fərdləri toplu olaraq bir arada olduğu üçün istənilən vaxtda onların vəziyyətini açıqca təsbit və tədqiq etmək mümkün olduğu halda, dağınıq şəkildə yaşayan türk kütlələrinin bir-birlərindən fərqli gəlişmə yolları təqib etmələri üzündən türk tarixini müəyyən bir zaman kəsiyində bütöv halda dəyərləndirmək asan deyil.

B. Tarixləri bəlli bir coğrafi çevrənin sərhədləri içində cərəyan edən digər millətlərin yayılmaları da dəyişməyən vətən torpaqları civarında meydana gəldiyi halda, müxtəlif türk kütlələri əsrlərcə yeni iqlimlər, yeni yurdlar arayaraq tarixlərini müxtəlif bölgələrdə yaratmışlar. Bu etibarla tarixinin hər hansı bir dövründə ayrı-ayrı yerlərdə müxtəlif türk toplum, idarə və dövlətlərini müşahidə etmək mümkün olduğundan türk tarixi deyilincə tək bir toplumun müəyyən bir coğrafiyadakı tarixi deyil, türk adı və ya xüsusi adlar altında və ayrı hökmdar ailələrinin idarəsində görünməklə bərabər, dili, dini, törəsi və gələnəkləri ilə eyni milli kültürün daşıyıcısı olan türk zümrələrinin müxtəlif bölgələrdə ortaya qoyduğu tarixlərin məcmusu anlaşılmalıdır. Bu coğrafi və siyasi bölünmə nəticəsində türklərdən bir qismi bozqırlı tipi olaraq yaşadığı halda digər bir qismi oturaq həyata bağlanmış, bir bölgədə siyasi nüfuzunu itirərkən, digər bölgələrdə iqtidarın zirvəsinə çatan türk kütlələri eyni zamanda mövcud olmuş və türk tarixi, əski, yeni bir çox millətlərin tarixi ilə bir arada, hətta iç-içə inkişaf etmişdir. Geniş türk tarixinin elmi yollardan araşdırılıb incələnməsini fövqəladə dərəcədə çətinləşdirən bu vəziyyəti bir baxıma türk millətinin dünya tarixində dərin iz buraxan qüdrət və fəaliyyətinin nişanəsi saymaq lazımdır.

## 1."TÜRK" ADI

Türklərin qədim bir millət olması araşdırıcıları türk adını ən əski tarix qaynaqlarında aramağa sövq etmişdir. Keçən əsrdən bəri bir çox bilgin tərəfindən irəli sürülən görüşlərə görə, Herodotun (m.ö. V əsr) Şərq qövmləri arasında zikr etdiyi tarqitalar (J. v. Hammer, 1832), "skif" torpaqlarında yaşadıqları söylənən "tyrkae"lər (yurkae) (W.Tomaschek, 1887), müqəddəs Tövratda adı keçən, Yafəsin nəvəsi Togharma (J. v. Hammer, 1832), əski hind qaynaqlarında təsadüf edilən turukha (və ya turuşkalar) (V. de St. Martin, 1899; J. Marquart, 1901), thraklar (F. Erdmann, 1862), əski Ön Asiya mixi yazılı mətnlərdə görülən turukkular (H. Z. Koşay, 1955), Çin qaynaqlarında m.ö. I minillik içində rol oynadıqları bilinən tik və ya dilər (De Groot, 1921) və hətta troyalılar[1] və başqaları türk adını daşıyan türk qövmləri sanılmışdır. İslam qaynaqlarında ayrıntılı şəkildə nəql edilən İran mənşəli Zend-Avesta rəvayətləri ilə İsrail mənşəli Tövrat rəvayətlərində də "türk" adı aranmış, Nuhun nəvəsi (Yafəsin oğlu) Türk də (Təbəri, Məsudi, ibn ül-Əsir, ibn Xordadbeh, Gərdizi, Mahmud Kaşğari və başqaları) və ya İran rəvayətindəki hökmdar Firidunun (Fraetaona) oğlu Turac və ya Tur (Turan adı buradan gəlir) da[2] türk" adını daşıyan ilk qövm olaraq göstərilmək istənmişdir. Türklər uzun bir keçmişə sahib olmaqla hətta İran-Turan mübarizələrinə aid xatirələrdə zikr edilən ƏfrAsiyab (Tunqa Alp Ər və ya Alp Ər Tunqa) əslində bir türk başbuğu olmaqla bərabər, son arxeoloji araşdırmalar və kültür tarixi tədqiqləri nəticələrinə zidd düşən yuxarıdakı fərziyyələrin linqvistik baxımından da doğruluğu təsbit edilməmişdir[3]. Bu kəlmələrin bir qisminə görə, türk adının miladdan öncəki əsrlərdə dəxi bugünkü tələffüzü ilə, yəni tək hecalı olaraq söylənmiş olması lazım idi. Halbuki adın tək hecalı duruma Göytürk çağında (m.s. VI-VIII əsr) keçməkdə olduğunu Orxon kitabələri göstərməkdədir. Bu kitabələrdə ad "türk", fəqət daha çox “türük" şəklində qeyd edilmişdir. Adın çincə transkripsiyası da iki heca-

[1] Gy. Moravcsik, Byzantinische Humanisten über den Volksnamentürk, s. 381 və ardı.
[2] Ət-Təbəri, əl-Məsudi, ibn ül-Əsir. Ayrıca bax: İA, Turan maddəsi.
[3] Bax: Gy. Németh, Der Volksname "Türk", s. 275-282.

lıdır: tu-küe[4] (çincədə r səsi yoxdur). Son araşdırmalarda “türk" sözünün VI-VIII əsrlərdən öncə yalnız qoşa hecalı söyləndiyi, daha əskidən isə "törük" şəklində ola biləcəyi göstərilmişdir[5]. Ayrıca, adları türkə bənzədiyi irəli sürülən bütün toplumlarla türk qövmü arasında irqi, lisanı, iqtisadi və başqa bağ təsbit edilə bilməmişdir. Türk adına həm qaynaqlarda, həm də araşdırmalarda dürlü mənalar verilmişdir: tu-küe (türk)=dəbilqə[6]; trk (türk)=tərk edilmiş[7]; türk=olğunluq çağı[8]; takye=dəniz sahilində oturan adam; cəzb etmək və s.[9]. Keçən əsrdə A.Vamberinin (1879) elmi izaha doğru ilk addım qəbul edilən fikrinə görə, “türk” kəlməsi "türəmək"dən çıxmışdır. J. Deny (1939) də bu fikirdədir. Z. Gökalp (1923) adı "türəli" (qanun və nizam sahibi) deyə açıqlamışdır. W. Bartholdun (1927) düşüncəsi də buna yaxındır. Sözün törük>türük>türk şəklində inkişafını mümkün görməyən və bunun bir qəbilə adı da olmadığını bildirən G. Doerferə (1965) görə, Orxon kitabəsindəki “türk” təbiri daha zıyadə "dövlətin əsas xalqını təşkil edən millət" ("staatsvolk") mənasına gəlir. Fəqət "türk" sözünün isim kimi "güc-qüvvət", sifət kimi güclü-qüvvətli mənasını daşıdığı 1911-ci ildə nəşr edilən əski bir türkcə sənəddən anlaşılmışdır[10]. Burada keçən "türk" sözünün millət adı "türk" ilə eyni olduğu A. v. Le Coq tərəfindən irəli sürülmüş[11] (1912), Göytürk kitabəsini çözən V. Thomsen tərəfindən də qəbul edilən (1922) bu görüş daha sonra Gy. Némethin araşdırmaları ilə tam (1927) dəqiqlik qazanmışdır[12]. Türk kəlməsi semantik olaraq meydana çıxmış və formalaşmış, çox inkisaf

[4] Bu çincə şəklin əsl tələffüzü haqqında dürlü görüşlər: türküt (P.Pelliot, 1915,1926); türkit (A. v. Gabain, 1943,1955); türküz (P.A.Boodberq, 1951, 1962); türkü (G. Clauson, 1962), türk (E.G. Pulleyblank, 1965), türk (G. Doerfer, 1965), turkyt (J. Harmatta, 1972). Söz çincəyə soğd dilindəki şəklindən (twrky, cəm şəkli twrkyt=turkit, turkid) keçdiyi üçün sondakı +t-nin monqolca ilə ilgisi yoxdur. Bax:J.Harmatta, Acta Orientalia,XXV, s.263 və ardı, 273.

[5] L. Bazin, Notes sur les mots "Oğuz" et “Türk", s. 315-322.

[6] Çin qaynaqları: Bax: Liu Mau Tsai, Die chinesischen Nachrichten zur Geschichte der Ost-Türken, I, s. 40.

[7] İslam qaynaqları: İbn ül-Fakih; BGA, V, s. 224; Gerdizi, bax: KSz, II, s. 2.

[8] Kaşgarlı Mahmud, DLT, I, s. 351.

[9] Müxtəlif araşdırmalarda, bax: Gy. Németh, həmin yer.

[10] Bax: F. W. K. Müller, Uigurica II, s. 10, 97. Digər uyğur sənədlərində (bax: R. R. Arat, Eski Türk Şiiri, s. 388) və Kutadgu Bilig, III, s. 481-də, DLT, I, s. 353-də verilən mənanın da güc-qüvvə ilə ilgisi açıqdır; R. Grousset, L’Emp. d. Steppes, s. 125, qeyd 1.

[11] Ein manichaischer Buch-Fragment aus Chotscho, s. 151.

[12] Gy. Németh, həmin əsər, s. 278; yenə onun: A Türk népnév, s. 273; A.v. Gabain, Hunnisch-Türkische Beziehungen, s. 18; G. Doerfer, Türkische und Mongolische Elemente im Neupersischen, II, 1965, s. 483-495.

etmiş, qüvvət(li) mənalarını qazanmış olmalıdır[13]. Çin qaynaqlarına görə, “türk" deyimi ünlü Aşina ailəsinin mənsub olduğu qəbiləni tövsif etməkdə idi (bax: aş. Göytürk xaqanlığı). Xüsusi isim halında çox əskidən bəri türkcədə mövcud olması gərəkən “türk” sözünün "altaylı" (Seyhun ötəsi, turanlı) qövmləri ifadə etmək üzrə 420-ci il tarixli bir pers mətnində, daha sonra, yenə xüsusi isim olaraq, 515-ci il hadisələri dolayısıyla "türk-hun" (qüvvətli hun) təbirində zikr edildiyi bildirilməkdədir[14]. Fəqət «türk» kəlməsini türk dövlətinin rəsmi adı olaraq ilk işlənən təşəkkül Göytürk imperatorluğudur (552-744). Bütün bunlar «türk» adının müəyyən bir topluma məxsus etnik bir isim olmayıb, siyasi bir ad olduğunu ortaya qoymaqdadır[15]. Göytürk xaqanlığının qurulmasından etibarən öncə bu dövlətin, daha sonra bu imperatorluğa bağlı, öz xüsusi isimləri ilə də anılan, digər türklərin ortaq adı olmuş və zamanla türk soyuna mənsub bütün toplumları ifadə etmək üzrə milli ad payəsinə yüksəlmişdir. Millət və dövlət adı olaraq «türk» kəlməsi ilk dəfə Çində chou sülaləsi (557-579) salnaməsində, Qərbdə bizanslı tarixçi Agathiasın (ölümü: 582) əsərində[16], ərəbcədə cahiliyyə dövrü şairi Nəbiqət üz-Zübyaninin (ölümü: m. 600-ə doğru) divanında[17] və slavyancada XII əsrin ilk rus xronikasında zikr edilmişdir. Coğrafi ad olaraq "Türkiyə" (=Turkhia) təbirinə ilk dəfə Bizans qaynaqlarında təsadüf edilməkdədir. VI əsrdə "Türkiyə" təbiri Orta Asiya üçün işlədilirdi (Menandros). IX-X əsrlərdə Volqadan Orta Avropaya qədər olan sahəyə bu ad verilməkdə idi. (Şərqi Türkiyə =Xəzərlərin ölkəsi, Qərbi Türkiyə=Macar ölkəsi). XIII əsrdə türk dövləti zamanında Misir və Suriyaya "Türkiyə" deyilirdi. Anadolu isə XII əsrdən etibarən "Türkiyə" (Turcia) olaraq tanınmışdır[18].

---

[13] Bax: L. Bazin, həmin əsər, s. 322. Ancaq G. Doerfer (həmin əsər, s. 492), əslində "güc-qüvvət" mənasına gəldiyini və daima “türk" şəklində oxunması gərəkdiyini söylədiyi kəlmənin "zühur etmək" mənasını daşımadığı düşüncəsindədir.

[14] H. V. Haussig, Theophylaktos, Excurs über die skytischen Völker, s. 310, qeyd 92; Ayrıca bax: yenə onun: CAJ, II, 1, s. 23; W. Samolin, CAJ, II, 4, s. 314. Asiya hun hökmdar ailəsi və ya qəbiləsinin adı olan tu-ka kəlməsinin əslində «türk» sözünün çincə transkripsiyası olması ehtimalı göstərilmişdir. Bax: W. Eberhard, Çin Tarihi, s. 137; ayrıca, aş. qeyd 107.

[15] Bax: G. Doerfer, həmin əsər, II, s. 485.

[16] Bax: Gy. Moravcsik, Byzantino-turcica, I, s. 104.

[17] T. Kowalski, Die aeltesten Enwaehnungen der Türken in der arabischen Literatür, s. 38-41.

[18] Təfsilat üçün bax: İ. Kafesoğlu, Tarihte "Türk” Adı, s. 306-319; A. N. Kurat. Göktürk Kağanlığı, s. 2-6; Cl. Cahen, Le probleme ethnique en Anatotie, s. 360, qeyd. 12; O.Turan, Selçuklular Tarihi ve Türk-İslam Medeniyeti, s. 258 və ardı, qeyd 150.

## 2.TÜRK SOYU

Tarixdə türk toplumları haqqındakı antropoloji tövsiflər olduqca qarışıqdır. Həm Çin salnamələrində[19], həm də Qərb qaynaqlarında[20] türklər daha çox monqol tipində (sarı rəngli və dolikosefal) təsvir edilmişlər. Türklərlə monqollar arasında dil birliyi baxımından[21] və etnoloji yöndən bir əlaqə olmadığı[22], xüsusilə Orta Asiyadakı qazıntılarda əldə edilən antropoloji materialın incələnməsi nəticəsində bu iki qövm arasında soy birliyinin olmadığı da ortaya qoyulduğuna görə[23], əski çağlarda türklərin monqoloid göstərilmələri o zamanın türk dövlətlərində monqol ünsürünun çoxluğu ilə açıqlana bilər. Türklərin tarix boyunca ən sıx təmasları yaxın qonşuları monqollarla olmuş, böyük monqol kütlələri türk idarəsinə alınmış (Asiya hunlarında, tabğaçlarda olduğu kimi) və on minlərcə monqol türklərlə birlikdə uzun köçlərə qatılmışdır (Qərb hunlarında və avarlarda olduğu kimi). Ayrıca, sıx təmasların mümkün qıldığı bəzi irqi qaynaşmalar da düşünülsə, yabançıların dışdan müşahidələrinə heyrət etməmək lazımdır. Son yarım əsr içində aparılan antropoloji incələmələr türklərin bəyaz irqə

[19] Bax: R. Grousset,L’Empire des Steppes, s. 55.

[20] Bax: P. Vaczy, Hunlar Avrupada, bax: Attila ve Hunları, s. 60 və ardı.

[21] J. Németh, Die Türkisch - mongolische Hypothese, s. 549-576; M. F. Köprülü, İA, mad. Altaik; J. Benzing, Einführung in das Studium der altaischen Philohgie und der Türkologie, s. 27, 42; L. Bazin, Appartenances linguistiques, s. 135 və ardı; İ. Kafesoğlu, Türk Tarihinde Moğollar ve Cengiz Meselesi, s. 113-125; G. Clauson, The Case against the Altaic theory, s. 181-187; yenə onun: The earliest Türkish..., s. 174-187; yenə onun: Türk, Mongol, Tungus, s. 109-112; G. Doerfer, həmin əsər, I, s. 51-105. Bəzi monqolistlər (G.J.Ramstedt, 1915, N. Poppe, 1926, U. Posch, 1958 və b.) əks fikirdədir.

[22] Bax: W. Eberhard, Çin Kaynaklarına Göre Orta Asya’da At Cinsləri, s. 189; yenə onun: Çin’in Şimal Komşuları, s. 45-64; yenə onun: Eski Çin Kültürü ve Türkler, s. 27, Ailə, din, hökmranlıq, iqtisadi fərqlər haqda bax: aş. Kültür fəsli.

[23] Təfsilən bax: B. Ögel, İslamiyetten Önce Türk Kültür Tarihi: s. 3-14,47-49, 196; ayrıca bax: W. Eberhard, Çin Kaynaklarına Göre Orta Asiya’da At Cinsləri, həmin yer.

mənsub olduqlarını göstərmişdir[24]. Yer üzündə mövcud dörd böyük bəyaz irq qrupundan "europid" adı verilən qrupun "turanid" tipindəki brakisefal türklərin özlərini başda dolikosefal monqoloidlər olmaq üzrə digər irqlərdən ayıran antropoloji cizgilərə sahib olduqları anlaşılmışdır[25].

Bilindiyi kimi, Tövratda nəql edilən əski gələnəklərdə türk soyu (Ham və Şamdan deyil, Yafəsdən törəmiş olaraq) bəyaz irqdən göstərilir[26]. Turan tipini təmsil edən Orta Asiya, Mavəraünnəhr və digər Yaxın Şərq türkləri bəyaz tənli, tünd parlaq gözlü, dəyirmi üzlü (“ay üzlü, badam gözlü"), əndamlı, sağlam vücudlu kişi və qadınları ilə [27] ortaçağ qaynaqlarında gözəlliyə örnək olaraq göstərilmiş, hətta İran ədəbiyyatında «türk» sözü gözəl insan mənasında işlənmişdir (bax: IV fəsil).

---

[24] Xüsusilə Asiyada m.ö. III minillikdən bəri mövcud kurqanlardan çıxarılan skeletlər üzərində G. F. Debets, 1948, 1950,1958; V. V. Ginzburq, 1946, 1950, 1954 və ardı, türk irqi: brakisefal, savaşçı, bəyaz irq: "Andronovo insanı" (=türk irqi, bax: B. Ögel, həmin yer. Rus antropoloqlarının son təsbitlərinə görə Andronovo tipi: "Dunkles Haar, geblich-weisse Hautfarmittlere Körpergrousse (um 167 cm.), einen kubischen, brachy-kephalen Kopf, langliches ovales Gesicht, breite Backenknocken, nicht mongol id Augen, aber haufige Fallung des Lidspaltenrandes..." = "Tünd rəngli saç, xəfif əsmərə çalan bəyaz [buğdayı rəngli] tən, brakisefal qafa, orta boy (ortalama 167 sm), uzunca-bəyzi [dəyirmi] üz, xəfif çəkik, fəqət monqoloid olmayan göz [badam] və s." Bax: A. Kollautz, Geschichte und Kultur..., I, s. 197. Müq. et: aş. qeyd 25, 621.

[25] Uzaq Şərq və Orta Şərqdə əsrlərcə iqamətin və anayurd dışındakı bölgələrdə coğrafi şərtlərin səbəb olduğu bəzi dəyişikliklər diqqətə alınmaq üzrə türkün (Turan tipinin) dominant vəsfi bəyaz rəng, düz burun, dəyirmi çöhrə, xəfif dalğalı saç, orta gurluqda saqqal və bığdır. Bax: L. Bartucz, A. Magyar ember, Budapest, 1938, s. 414 və ardı., L. Rásonyi, Tarihte Türklük, s. 9; B. Ögel, həmin əsər, s. 196; Monqoldan və "sarı" çinlidən fərqli bəyaz türk irqi. J. Deniker, Les races et les peuples de la terre, Paris, 1926, s. 459; G. E. Smith, Human History, s. 146; W. M. McGovern, The Eariy Empires of Central Asia, s. 95 və ardı, W. Eberhard, Eski Çin Kültürü ve Türkler, s. 27. Əsərini Attilanın ölümündən yüz il sonra yazmış olan Jordanesin Atillanı xalis monqol tipində təsvir edən və oradan Qərbdə məktəb kitaplarına da keçən sətirlərinin gerçəklə ilgisi olmadığı haqqında bax: III fəsil, qeyd 495.

[26] Bax: İ. Kafesoğlu, Tarihte "Türk" Adı, s. 308 və ardı; Urfalı Mateos, s. 171, q.154.

[27] Örnək olaraq, göytürk şahzadəsi Kül Təginin büstü: bax: Belleten, sayı 107, s. 408, rəsm II; Bir Selçuklu Prensesinin Başı, bax: A. V. Pope, A Survey of Persian Art, VI, London, 1939, (New York Metropolitain muzeyində).

## 3.TÜRKLƏRİN ANA YURDU

İlk türklərin köçlərdən əvvəl yaşadığı torpaqlar məsələsi keçən əsrdən bəri müzakirə mövzusudur. Qərbli alimlərin əksəriyyəti məsələni öz məşğul olduqları elm sahələri baxımından ələ aldıqlarından bu xüsusda müxtəlif nəticələrə gəlmişlər. Tarixçilər Çin mənbələrinə dayanaraq Altay dağlarını türklərin ana yurdu qəbul edərkən (J.Klaprothe, 1824; J.v. Hammer, 1832; W.Schott, 1836; M. A. Castren, 1856; A. Vamberi, 1885; E. Oberhummer, 1912), sənət tarixçiləri Tanrı dağları–şimal-qərb Asiya sahəsini (J. Strzygowsky, 1936,) bəzi kültür tarixçiləri İrtış-Ural arasını (İ. Zichy, 1938) və ya Altay-qırğız bozqırları arasını (O. Menghin, 1937), yaxud Baykal gölünün cənub-qərbini (W. Koppers, 1937) göstərmişlər, bəzi dil araşdırıcıları Altay dağlarının şərqini (W. Radloff, 1891; L. Ligeti, 1940) və ya Kinqan silsiləsi bölgəsini (G. J. Ramstedt, 1928) və ya 90-cı meridianın şərqini (K. H. Menges, 1968) türk ana yurdu olaraq düşünmüşlər. Bunlara baxaraq əski türk yurdunun coğrafi sərhəddini çəkə bilmək az-çox mümkün olmaqla bərabər müəyyən və daha dar bir bölgəni təyin etmək olduqca müşküldür. Bunun səbəbi türklərin daha ilk zamanlardan etibarən geniş bir coğrafiyaya yayılmaları və kültürlərini uzaqlara qədər götürmələri olmalıdır. Son linqvistik araşdırmalar isə bu sahənin Altay-Ural dağları arasına alınması, hətta Xəzər dənizinin şimal-şərq bozqırlarının əsl türk yurdundan sayılması ehtimalını qüvvətləndirmişdir. Çünki m.ö. II minilliyin ortalarına (1500-cü illər) aid bəzi dil yadigarlarının ortaya qoyduğu kimi[28] türklərin o tarixlərdə həm şimal-qərbdəki əski urallı qövmlərlə, həm də cənub-qərbdəki hind-Av-

[28] Gy. Németh, A honfoglaló magyarság kialakulása, s. 93 və ardı; İ. Kafesoğlu, Türk Tarihinde Moğollar..., s. 119 və ardı.

ropa dıllərində danışan arilərlə təmas edə bilmələri[29] ancaq bu coğrafi ərazidə mümkün ola bilərdi[30].

Orta Asiyada S.V. Kiselyov və S.S. Çerniqov tərəfindən aparılan arxeoloji araşdırmalar (m.ö. II minillikdən daha öncəki durum) türk ana yurdunu təsbitdə daha qəti nəticələr vermişdir. Buna görə, Minusinsk bölgəsindəki Afanasyevo kültürü (m.ö. 2500-1700)[31] ilə eyni bölgədəki Andronovo kültürünün (m.ö. 1700-1200)[32] təmsilçiləri olub ətrafdakı dolikosefal monqolidlərdən, habelə dolikosefal Aralıq dənizi tiplərindən fərqli olan "brakisefal savaşçı bəyaz irq" türk soyunun proto-tipi idi və daş dövrünün ilk çağlarından bəri Altay-Sayan dağlarının cənub-qərb bölgəsində (təqr. Minusinsk-Tuva-Abakan bozqırları) yaşamaqda idi[33].

---

[29] Son olaraq bax: L. Rásonyi, Tarihte Türklük, s. 7. Aynca: B. Ögel, Türk Kültür Tarihi, s. 26.

[30] Bax: Gy. Németh, Türklüğün Eski Çağı, Ülkü, sayı 88, s. 299-304; sayı 90, s. 509 və ardı; yenə onun: Probleme der Türkischen Urzeit, s. 58-63, 84-95; müq.et: H. Haussig, İndogermanische und altaische Nomadenvölker im Grenzgebiete İrans, s. 233-248.

[31] Bax: F. Hančar, Das Pferd in praehistorischer und früher historischer Zeit, s. 225-230.

[32] Bax: F. Hančar, həmin əsər, s. 230-250; A. M. Tallgren, Some North-Eurasian Sculptures, ESA, XII, 1938.

[33] Təfsilən bax: B. Ögel,həmin əsər, s. 3-8,128,196; ayrıca bax: yuxarıda qeyd. 24.

## 4.TÜRKLƏRİN YAYILMALARI

Əski və orta çağlar dünya tarixində xüsusilə türk toplumları üçün xarakterik olan böyük köç hərəkətlərinin başlanğıc dövrü yuxarıdakı incələmələr işığında artıq olduqca aydınlıq qazanmışdır. Bundan 40 il qədər öncə elm adamları m.ö. IV əsrdə Qobinin cənubu, Kan-su, Huang-ho dirsəyi dolaylarında görünən türklərin (əsgəri, iqtisadi özəllikləri, dil, din ayrılığı və s. dolayısıyla) dışarıdan gəldiklərini bildirmişdilər[34]. Son zamanlarda varılan arxeoloji və antropoloji nəticələr isə daha çox "Asiya hunları" deyə tanınan bu türk kütlələrinin ana yurd bölgəsindən çıxış tarixini və köç yönlərini təsbitə imkan verməkdədir. Yuxarıda söyləndiyi kimi, daş dövrünün ilk çağlarından bəri Altay-Sayan dağlarının cənub-qərb qismində yaşayan brakisefal bəyaz irq, Afanasyevo kültürünün inkişafı ilə xarakterinin daha müəyyən hala gəldiyi sezilən Andronovo insanının təmsilçisi olaraq S. V. Kiselyov ilə S. S. Çerniqovun təsbitlərinə görə, köçəri və savaşçı kütlələr halında m.ö. 1700-cü ildən etibarən ətrafa hakim olmağa başlamış və sonrakı iki əsr içində Altay və Tanrı dağlarını bürümüşdü. Digər tərəfdən, eyni irqə mənsub olanların, yəni proto-türklərin (türklərin əcdadlarının) bir qismi bugünkü Qazaxıstan üzərində Mavəraünnəhrə qədər yayılaraq oradakı dolikosefal Aralıq dənizi irqləri ilə təmas qurarkən, qərbə doğru gedən qruplar da Ural (fin-uqor) qövmləri ilə bağlantı yaratmışdılar[35] ki, bu durumun yuxarıda göstərildiyi üzrə m.ö. 1500-cü illərdə bir yandan Ural dili, digər yandan hind-Avropa dilləri ilə türkcə arasında söz mübadiləsinin gerçəkləşdirdiyi anlaşılmaqdadır. Proto-türk yayılması və ya genişlənməsinin yönünü və zamanını müxtəlif yerlərdə görülən Andronovo kültürünün özəlliklərinə baxaraq təqib etmək mümkündür (bax: aş. Bozqır kültürünün mənşəyi: altaylı nəzəriyyəsi). Buna görə, türklər m.ö. 700-ci ilə qədər Altaylara yerləşərkən bir yandan da bəlkə m.ö. 1100-cü illərdən etibarən izdihamlı kütlələr halında Çinin cənub-qərbindəki Kan-su, Ordos bozqırlarına doğru gəlməyə davam etmişlər. Çünki burada cənubi Çin mənşəli olub, əkinçiliyə dayanan

[34] L.Ligeti, Asya Hunları, s. 30; W. Eberhard, Eski Çin Kültürü ve Türkler, s. 22-25, 29.

[35] Bax: B. Ögel, Türk Kültür Tarihi s. 5-8.

Lung-shan adlı əski kültür yerinə monqollar və tibetlilərə nisbətən türklərin daha təsirli müdaxiləsi nəticəsində fərqli bir kültür meydana gəlmişdir. "Yang-shao" adlandırılan və bugünkü Çin kültürünün əsasını təşkil edən yeni kültürdə bunun siyasi sahədə nişanəsi olan Chou dövlətindəki (m.ö. 1050-256) görüntülərindən anlaşıldığı üzrə, iqtisadi (at bəsləmə), dini (göy kültü), idari (gəlişmiş əsgəri xarakter), sənət (heyvan üslubu) və s. kimi əsl türk ünsürləri müşahidə edilmişdir[36]. Sonraki Çin mənbələrində "Hiung-nu" adı ilə göstərilən toplumun çəkirdəyi şübhəsiz bu Asiya hun (türk) kütləsidir. Yang-shao kültürünün başda gələn bir özəlliyi olaraq boyalı keramika göstərilməkdədir ki, bu cür keramikanın daha ziyadə Ön Asiya mənşəli olması bu iki bölgənin münasibətlərini ortaya qoyur. Bağlantını quran ünsürün türklər ola biləcəyini irəli sürən W.Eberhardın düşüncəsi[37] daha sonrakı qazıntılarla dəstəklənmiş kimidir. Andronovo kültürünün üç bulaq və ya "meander" şəklindəki basma bəzəklərlə süslənmiş keramikası m.ö. II minillikdə yavaş-yavaş Andronovo kültür çevrəsinə girən Xarəzmdə (Uzboy kültürü) eynən mövcud idi[38]. Beləcə, m.ö. 1300-1000-ci illərdə bir qisim türklərin Türküstan sahəsində olduqlarına və bu bölgənin daha sonra hind-avropalılara keçdiyinə dair görüş[39] qüvvət qazanmış olur. Əsasən tarixi dövrlərdə Mavəraünnəhrdə yaşadığı bilinən soğd bölgəsi xalqının atalarının (ehtimal Alp Ər Tonqanın hökmdarlıq etdiyi əski Kang-kü xalqı)[40], Ceyhun cənubu, İran, Pamir və Əfqanıstandakı dolikosefallardan ayrı və Altay brakisefalları ilə çox yaxın qohum olan "turanid irq" (V.V. Ginzburg, 1950) və ya "iki çay arası tipi" (İ. Schwidetskii, 1950) olduğu göstərilmişdir[41]. Andronovo kültür çevrəsi hələ m.ö. II minilllyin ortalarında olduqca genişlənmiş durumda idi: şərqdə Baykal gölü və Selenqa çayı qıyılarına, cənubda Tanrı dağlarına, cənub-qərbdə Qazaxıstana və Xarəzmin cənubuna, qərbdə Sibir üzərindən Don çayına qədər yayılmış və Andronovonun özəlliklərindən olan at və qoyun bəsləmə buralarda da görülməyə başlamışdı[42]. Saydığımız yerlərdə kənarlardan mərkəzə getdikcə qüvvətlənmək üzrə Andronovo kültürü davam edərkən və bu kültür Çu vadisi, cənubi Monqolustan və qərbi Çin

[36] Təfsilat üçün bax: W. Eberhard, Eski Çin Kültürü ve Türkler, s. 25-29; yenə onun: Çin'in Şimal Komşuları, s. 144 və ardı; yenə onun: Çin Tarihi, s. 33-39, 69.

[37] Eski Çin Kültürü ve Türkler, s. 26.

[38] B. Ögel, Türk Kültür Tarihi, s. 25, 27.

[39] W. Eberhard, Çin Kaynaklarına Görə Orta ve Garbi Asya Halkları, s. 184.

[40] Buna dair Avestada da bəzi xatirələr müşahidə edilir. Bax: İA, mad. Turan.

[41] B. Ögel, həmin əsər, s. 6 və ardı.

[42] B. Ögel, həmin əsər, s. 18, 24, 27. Ayrıca, G. Clauson, The earliest Turkish..., s. 180.

(Ordos bölgəsi) ilə sıx şəkildə bağlı ikən (K.Jettmar, 1951; Kiselyov, 1951), mərkəzdəki bir kəsinti diqqəti çəkməkdədir: Karasuk adlı qazıntı yerinin (Minusinsk həvalisi) təmsil etdiyi bu kültür Andronovodan fərqli idi. M.ö. 700-cü illərdən etibarən cənubi Sibiri, Baykal bölgəsini, Monqolustanı, Yeddisu hövzəsini təsiri altına alan Karasuk kültürü[43] Çin ilə Rusiya arasında təması təmin edən qövmlər kütləsinə aid idi, digər tərəfdən bu tarixlərdə monqoloid bir irqin Yenisey bölgəsində, cənubi Sibirdə etnik yöndən üstünlük qazandığı görünürdü. Yenə Karasuk kültürü zamanında Türküstan və Xarəzmə İrandan bəzi kütlələrin gəldiyi sezilirdi[44]. Demək ki, Altay-Sayan dağları cənub-qərbindəki (Tuva-Minusinsk-Abakan bozqırları) anayurd sahəsini boşaldan proto-türklər şərqdə Ordosa doğru və qərbdə Volqaya, Qara dənizin şimal düzənliklərinə doğru olmaq üzrə iki qismə ayrılmış və cənub-qərbdə də Asiyanın şimal-qərbinə doğru yönəlmişdilər. Bu coğrafi ayrılığın əsl türkcədə də bəzi dəyişikliklərin meydana gəlməsinə, ləhcələrin doğmasına səbəb olmuşdur. Gy. Németh öncə iki böyük türk ləhcəsini təsbit etmişdir. Biri y-li türkcə (şərq türkləri ləhcəsi), digəri s-li türkcə (yakut və çuvaş türkləri ləhcəsi). (Fərqlər xüsusilə söz başlarında görünür: şərq türkcəsində yeddi /7/, yakutcada səttə, çuvaşçada sütə, şərq türkcəsində yaka, yakutca və çuvaşcada sağa, suga və s. Yakutların özlərinə "saka" demələri də bu y-s fərqindəndir). Yakutlar indiki uzaq şimal-şərqi Sibirdəki yurdlarına bu tarixlərdə çəkilmiş ola bilərlər, çünkü dilləri çox çətin anlaşılacaq qədər dəyişən türk qövmü budur[45]. Bir müddət birlikdə yaşayan bu iki türk qövmündən çuvaşların ayrılaraq qərbə yönəldikləri, yaxud yakutlar indiki yurdlarına çəkilərkən bugün çuvaş dediyimiz kütlənin Ural dağlarının cənubuna doğru gəldiyi, çuvaş ləhcəsinin eyni zamanda Qərb türkcəsi özəlliklərini daşımasından anlaşılır[46]. Zira türk ləhcələrində ikinci böyük fərqliləşmə z və r səslərində meydana gəlmişdir[47]. Şərq türkləri (hunlar, tabğaçlar, göytürklər, uyğurlar, sabarlar /qismən/, xəzərlər, peçeneqlər, kumanlar, oğuzlar və dolayısıyla Azərbaycan, İraq, Suriya, Anadolu və Balkan türkləri) z-li türkcə danışarkən, Qərb türkləri (oğurlar, bulğarlar və çuvaşlar) r-li ləhcəni danış-

[43] Təfsilən bax: F. Hančar, həmin əsər, s. 250-256.

[44] Təfsilən bax: B. Ögel, həmin əsər, s. 29-33.

[45] Təfsilən bax: Gy. Németh, Türklüğün Eski Çağı," Ülkü, sayı 90, s. 513; yenə onun: Probleme der türkischen Urzeit, s, 87; N. Poppe, Die jakutische Sprache, s. 53-60.

[46]Bax: J. Benzing, Das Tshuwaschische, Hb. d. O. həmin əsər, s. 61-71.

[47] Təfsilən bax: O. Pritsak, Der Rhotazismus und Lambdaizmus, s. 337-349.

mışlar[48]. Son araşdırmalara görə, bu ayrılma III əsrdə artıq gerçəkləşmişdi[49]. Qərb türklərindən bir qisminin m.ö. V-III əsrlərdə Xəzər-Volqa ətrafında və hətta daha qərbdəki bozqırlarda İran əsilli skiflərlə birlikdə və ehtimal hakim zümrə olaraq ("çar skifləri") yaşadıqları[50], bir qisminin də m.ö. III əsrdə qurulan Asiya Böyük hun imperatorluğuna daxil olaraq İç Asiyanın şimal-qərb bölgələrində ikən, daha sonra qərbi Sibirə doğru yollandıqları anlaşılmaqdadır (bax: aş. Oğurlar). Digər tərəfdən Hindistanın Hind-Pəncab həvalisinə doğru ilk türk hərəkətinin m.ö. I minilliyin başlarina rastladığı təxmin edilmişdir[51]. Daha əski tarixlərdə türklərin İran yaylası üzərindən Mesopotamiyaya enmiş olmaları da mümkündür. Bunlar ilk mədəni qövm sayılan şumerlərdir ki, dilləri sami və ya hind-avropai olmayıb türkcənin daxil olduğu "iltisaqi" qrupdandır[52]. Ancaq şumerlərin mənşəyi məsələsi həll edilməmiş, daha doğrusu, əslən Orta Asiyalı və ehtimal ki, türk soyundan olduqları elm dünyası tərəfindən hələ dəqiq qəbul edilməmişdir[53].

Miladdan sonraki əsrlərdə meydana gələn türk köçlərinə qatılan boylar və köç zamanları haqqında olduqca dəqiq tarixi bilgilərə sahibik: hunlar Orxon bölgəsindən cənubi Qazaxıstan bozqırlarına, Türküstana (I əsr sonları-II əsr ortaları) və Avropaya (375-ci və sonrakı illərdə), 350-ci illərdə uar-hunlar Əfqanıstana və şimali Hindistana (ağ hun-eftalitlər), oğurlar cənub-qərbi Sibirdən cənubi Rusiyaya (461-465-ci illər), oğuzlar Orxon bölgəsindən Seyhun çayı kənarlarına (X əsr) və sonra Mavəraünnəhr üzərindən İrana və Anadoluya (XI əsr), avarlar Qərbi Türküstandan Orta Avropaya (VI əsr ortası), bulğarlar Qara dənizin şimalından Balkanlara və Volqa çayı qıyılarına (668-ci ildən sonrakı illərdə), macarlarla birlikdə bəzi türk boyları Qafqaz dağlarının şimalından Orta Avropaya (830-cu ildən sonra), sabarlar

---

48 Məsələn, Təngiz=dəniz~təngər, öküz~ökör, kız~khır kimi. Təfsilən bax: Gy. Németh, A honfoglaló..., s. 85-98; İ. Kafesoğlu, Türk Tarihinde Moğollar..., s. 116-125; L. Rásonyi, Tarihte Türklük, s. 14; R. Rahmeti Arat, Türk Şivelerinin Tasnifi, s. 96 və ardı.

49 Bax: K. Czeglédy, Nomádnépek vandorlása, s. 108 və ardı, ayrıca bax və müq.et: G. Clauson, Türk, Mongol, Tungus..., s. 117.

50 B. Ögel, həmin əsər, s. 34; K. Jettmar, Die frühen Steppenvölker, s. 15 və ardı.

51 W. Ruben, Hindistanın En Eski Demircileri..., s. 237.

52 Son bir araşdırma olaraq bax: M. Tosun, Sümer Dili İle Türk Dili Arasında Karşılaştıma, s. 147-168.

53 İndilik bax: W. Koppers, Cihan Tarihinin Işığında İlk Türklük ve İlk İndo-Germenlik, s. 444-447; A. Caferoğlu, Türk Dili Tarihi, I, s. 40-48. Ayrıca, m.ö. II minilliyin başlarında Orta Şərqdə görülən sakaların türklük ilə ilgisi olmayan hind-avropalı kütlələr olduğunu da bildirək.

Aralın şimalından Qafqaz dağlarına (V əsrin ikinci yarısı), peçeneq, kuman (qıpçaq) və uzlar (oğuzlardan bir qol) Xəzər dənizinin şimalından Şərqi Avropa və Balkanlara (IX-XI əsr), uyğurlar Orxon çayı bölgəsindən İç Asiyaya (840-cı ildən sonrakı illərdə) köç etmişlər[54]. Bunlardan özəlliklə hun və oğuz köçləri həm uzun məsafələr qət etmək surətilə gerçəkləşdirilmiş, həm də çox mühüm tarixi nəticələr vermişdir. Bu köçləri yeni vətən qurma məqsədini güdən böyük miqyasda fütuhat xarakterizə edir. Türk köçlərini müəyyən qayələrdən məhrum və sonu məchul birər macəra girişimi olmaqdan qurtarıb uğurlu şəkildə hədəflərinə çatdıran başlıca səbəb də bütün köçlərin türk hökmdar ailəsi mənsubları tərəfindən sərt bir intizam altında sövq və idarə edilməsidir. Beləcə, əski türk hökmranlıq anlayışına görə (bax: aş. Kültür) qutsal sayılan xanədan üzvlərinin başda olması, onlara qarşı duyulan sayğı və bağlılıq dolayısıyla türk kütlələrinin hərəkət birliklərini mühafizə edərək müxtəlif iqlimlərdə tarixi missiyalarını gerçəkləşdirmələrini mümkün qılmışdır. Tarixdə türk yayılmalarının digər bir şəkli də "sızma" deyə biləcəyimiz yoldur ki, öz ölkələrində iqtisadi sıxıntı içində qalan bəzi izdihamlı boy hissələrinin və ya ailələrin, yaxud sağlam vücudlu gənclərin əcnəbi dövlətlərdə xidmət etmələri şəklində olur. Bu şəkildə də türklərin qatıldıqları toplumlar içində üstün bir qabiliyyət göstərərək hərbi qüvvələrə və ya siyasi həyata hakim olduqları, hətta dövlətlər qurduqları bilinməkdədir (məsələn, Misirdə, Hindistanda, aş. bax:)[55].

Türklərin həm fütuhat, həm də sızma şəklində ətrafa yayılmaları, şübhəsiz, hər zaman rahat cərəyan etmir, bəzən şiddətli çarpışmalara səbəb olurdu. Bu durum ağır zərbələrə məruz qalan yabançılar tərəfindən türklərin sevimsiz qarşılanmalarına gətirib çixarırdı. Bozqırların coğrafi şərtlərinə uyğun olaraq haşin, sərt, iradəli və mübariz bir ruh halına sahib, əslində

[54] Sıraladığımz türk köçlərinin tarixini uğursuz bir xülasə təcrübəsi üçün bax: K. H. Menges, The Turkic Languages and Peoples, s. 16-53. Başlanğıcdan XIII əsrə qədər türk tarix və kültürünü özətləmə baxımından eyni durum bu əsərdə də görünür: L. Kwanten, İmperial Nomâds..., s. 9-68. Yeni yayınlanan (1979) bu bir növ monqol tarixində uğursuzluq müəllifin mövzu ilə əlaqədar ədəbiyyata biganə qalmasından irəli gəlmişdir.

[55] İqtisadi sıxıntı üzündən yabancı ölkərə sızan bu türklər, təbii ki, kölə deyildilər. Hərbi xidmətçi və bu vəzifələrinə görə pul alan kimsələrdi. Öz bacarıqları ilə hökmdar olur, xanədanlar qururdular. İslam qaynaqlarının bunlardan bəhs edərkən "məmlük" deyimini işlətmələri araşdırıcıları yanıltmış və onların yanlış olaraq "kölə" göstərilmələrinə səbəb olmuşdur ("Köləmən sultanlar", "Slave Kings" kimi). Köləlik ilə hökmdarlıq eyni şəxsdə birləşə bilməz. Köləlik başqa şeydir (bax: aş. Kültür, Xalq, qeyd 133).

yaxşı, haqsevər və adil insanlar olan türklər haqqındakı xəyal məhsulu dürlü suçlamalar bundan irəli gəlmiş olmalıdır.

Əski dünyanın üç böyük qitəsində görülən geniş türk yayılmalarının çox ciddi səbəblərə dayanması lazımdır. Tarixdə köçlər mövzusunun araşdırıcıları ən ibtidaisi daxil olmaqla heç bir qövmün özlüyündən və kef üçün yer dəyişdirmədiyini, oturulan torpaqdan əbədiyyən ayrılmanın bir insan üçün çox müşkül olduğunu və köçlərin ancaq bir sira zərurətlər üzündən meydana gəldiyini göstərmişlər[56]. Tarixi mənbələrdə türk köçlərinin də iqtisadi sıxıntı, yəni türk anayurd torpaqlarının keçim baxımından yetərsiz qalması dolayısıyla baş verdiyi göstərilmişdir[57]. Böyük ölçüdə quraqlıq[58], əhali artıqlığı və otlaq darlığı[59] türkləri köçə məcbur etmişdir[60]. Təbiətın qeyri-zənginliyi dolayısıyla əhalini bəsləməyə kifayət etməyən bozqırlarda, cüzi ziraət dışında ancaq heyvan bəsləyə bilən türklərin normal bir həyat sürə bilmək üçün, müxtəlif qida maddələri, geyim əşyası və s. kimi başqa iqtisadi vasitələrə də ehtiyacları var idi ki, bunlar iqlimi əlverişli, təbii sərvətlərlə zəngin və o çağlarda çox az əhalısi olan qonşu ölkələrdə mövcud olub, yetəri qədər faydalanılmadan torpaqda yatmaqda idi. Türk tarixinə dair qeydlərdə köçlərin və axınların başlıca səbəbi olaraq zikr edilən bu xüsuslar türklərin yalnız başqa məmləkətlərə yönəlmələrinə deyil, bəzən iqtisadi və ticari yöndən nisbətən daha çox imkanlara sahib digər türk torpaqlarına saldırmalarına da səbəb olurdu. Beləcə, tarixi dövrlərdə türklərdən bir kütlə başqa bir türk zümrəsini yerindən çıxararaq köçə məcbur etmişdir. (Məsələn, IX-XI əsr köçləri). Gərək bu şəkildə, gərək yabançı ağır dış basqıya məruz qalan (məsələn, V əsr juan-juan basqısı; XI əsr monqol kidan hücumu) türklər əsa-

---

[56] Bax: A.C. Haddon, The Wanderings of Peoples, s. 1-6; P. L. Zambotti, Les origines et la diffusion de la civilisation, s. 20 və ardı.

[57] Qərbi Asiya bozqırlarında böyük quraqlığa səbəb olan "dövri" iqlim dəyişiklikləri haqqında E. Huntingtonun görüşü üçün bax: W. Samolin, East Türkistan to the 12th. Century, s. 13 və ardı.

[58] Məsələn, hun köçü üçün bax: F. Altheim, Atilla et les Huns, s. 72, 219; Uyğur köçü üçün "Kutlu Dağ Efsanesi" bax: Ata Melik Cuveyni, Tarih-i Cihanguşa, I, s. 45; B. Ögel, Sino-Turcica, s. II və ardı.

[59] Oğuz köçü üçün bax: Şeref üz-Zaman Mervezî, Tabayi'ul-hayavan, İng. tərc. s. 29 və ardı, 95, mətn, s. 18; Er-Ravendi, Rahat'us-sudur, s. 86; Hamdullah Mustavfi, Tarih-i Güzide, I, s. 434.

[60] Aclığın deyil, daha ziyadə toxluğun istilalara səbəb olduğunu irəli sürən və Avrasiya bozqırlarındakı iqlim dəyişikliklərini Atlantik okeanından qalxıb Altay dağlarına qədər gedən yağmur daşıyıcı siklonların istiqamətinə bağlayan L. N. Qumilyovun görüşü üçün bax: S. Szyszman, Decouverte de la Khazarie, s. 81 və ardı.

rəti qəbul edib istiqlaldan məhrum qalmaqdansa, məmləkəti tərk etməyi üstün bilirdilər. Oturaq qövmlər tərəfindən gerçəkləşdirilə bilməyən bu durum bozqırlı üçün mümkündü (bax: aş. Kültür: Ölkə).

Türklərin bir-biri ardına müxtəlif yönlərdə yayılmalarına asanlıq yaradan başqa bir amil də türk mənəviyyatının sağlamlığıdır. Zərurət nəticəsi də olsa, bilinməyən üfüqlərə doğru axmaq, hər an qarşılaşılacağı aşkar təhlükələrə sinə gərməyə hazır olmaq və fasiləsiz bir ölüm-qalım savaşı içində yaşamaq hər millət üçün təbii sayılacaq bir davranış deyildir. Türklərdə açıq şəkildə müşahidə edilən və onların tarix boyunca hərəkətli bir toplum halında süreklliliyini mümkün qılan bu ruhi zindəlik uğurlarla birlikdə daha da artmış, hər əsgəri uğur yeni bir siyasi hədəfə səbəb olmuş və ölkələr zəbt edildikcə yeni fəth arzuları ortaya çıxmışdır. Bu durum türklərdə zamanla dünyanı hüzur və barışa qovuşdurmağı qayə sayan bir fütuhat fəlsəfəsi və hər yerdə adil, bərabərlikçi türk törəsini qüvvəyə mindirmək üzrə bir cahan hakimiyyəti ülküsü doğurmuşdur. (Bax: aş. Kültür: Hökmranlıq).

## TÜRK DÖVLƏTLƏRİ

Əslində çöl deyil, yayla iqliminə sahib bozqır xalqı olan türklərin yayılmalar əsnasında bozqır coğrafi və iqtisadi şərtlərinin yer almadığı və kültürlərinin yaşama imkanının zəiflədiyi sərhədlərdə duraqladıqları, meşəlik, isti və ya çox rütubətli bölgələrə çox da girmədikləri görülməkdədir. Öz həyat tərzi və anlayışlarına uymayan coğrafiyaya və yabançı kütlələr basqısının şiddətli olduğu bölgələrə nüfuz etmiş türk zümrələrinin isə oralarda barına bilməmələri və çox zaman varlıqlarını itirmələri diqqəti cəlb edir (Çində tabğaçlar, Balkanlarda bulğarlar, Şimali Hindistanda müxtəlif türk dövlətləri kimi). Bu etibarla türklərin irili-xırdalı sıyasi quruluşlar meydana gətirərək mövcudiyyətlərini davam etdirdikləri sahə daha ziyadə Şimali Çindən başlayaraq, bütün Orta Asiyanı, İranı və Anadolunu içinə alacaq şəkildə, Avropada Dunay dirsəyinə qədər davam edən geniş coğrafi sahə olmuşdur. Bugün də türk toplumları ümumiyyətlə həmin geniş Şimali Çin-Orta Avropa sahəsi üzərində yaşayır.

# 1. HUN İMPERATORLUQLARI

## a. Asiya hunları

Türk köçlərinin şərq yönündə davam etdiyi əsrlərdə Çində qurulan Chou dövlətinin (m.ö. 1050-256) türklərlə ilgisi üzərinə diqqət çəkilmiş, hökmdar sülaləsində göy dini, günəş və ulduzların qutlu sayılması kimi inanclarla, hərbi qüvvədə döyüş arabalarının olması və dövlətin daha çox türklərlə məskun bölgədə (Şen-si, qərbi Şan-si, Kan-su) qurulmuş olması müxtəlif elm sahələrindən bəzi alimləri (F.Hirth, B.Karlgren, Ed. Chavannes, J.C. Anderson, R. Wilhelm, W. Eberhard və s.) bu xanədanın əslən türk ola biləcəyi və yaxud dövlətdə türk ünsürünun hakim olduğu düşüncəsinə sövq etmişdir[61]. Bununla bərabər, əslində, daha ziyadə türk kültürü təsiri açıq hiss edilən və bir Çin dövləti və cəmiyyəti kimi görünən Chou dövlətinə aid bu fərziyyə dəqiqlik qazanıncaya qədər Asiya türk tarixini hunlarla başlamaq yerində olacaqdır. Çin qaynaqlarında m.ö. IV əsrdən etibarən türklərlə birlikdə monqol, tunquz soyundan bəzi qrupların başındakı "Şimal barbarları" xanədanını təyin etmək üzrə hiung-nu (hsiung-nu) deyə anılan kütlənin hansı soydan olduğu haqqında dürlü görüşlər irəli sürülmüşdür: Bu görüşlərdə əskidən Çin qaynaqlarının hiung-nularla ilgili olaraq verdikləri örf, adət və iqtisadi fəaliyyətlərə aid yaxşı incələnməmiş bilgi diqqətə alınmış, son zamanlarda isə xeyli irəliləyən dil və kültür araşdırmaları əsas təşkil etmişdir. Bunlara görə, hiung-nular türkdür (J. De Guignes, 1757; J. Klaproth, 1825; F. Hirth, 1899; J. Marquart, 1903; P. Pelliot, 1920; O. Franke, 1930; Gy. Németh, 1930; McGovern, 1939; R. Grousset, 1942; W. Eberhard, 1942; B. Szàsz, 1943; L. Bazin, 1949; F. Altheim, 1953; H.V. Haussig, 1954; W. Samolin, 1958; O. Pritsak, 1959; G. Clauson, 1960 və b.). K.

---

[61] Bax: W. Eberhard, Eski Çin Kültürü ve Türkler, s. 25; yenə onun: Çin Tarihi, s. 33-39; B. Ögel, İslamdan Önceki Türk Devletlerinde Timar Sistemi, s. 243; M. N. Özerdim, Chou'lar ve..., s. 1-23 (Chou'lardan öncəki dövrlər üçün Çin salnaməsində verilən bilgilər xəyalidir; nağıldan ibarətdir. Bax: L. Ligeti, Asya Hunları, s. 27 və ardı).

Shiratori[62] öncə türk qəbul etmiş, sonra[63] isə monqol olduqlarını söyləmişdir[64]. L. Ligetiyə[65] görə hiung-nuların kimliyini təsbit etmək müşküldür. A. v. Gabain[66] türk-monqol qarışığı olduqları fikrindədir. Hiung-nuların böyük imperatorluğunda türklərin yanında monqol, tunquz və başqa yabançı qövmlərin də yer almaları təbii olsa da, dövləti quran və idarə edən əsl ünsürün türk olduğuna şübhə yoxdur. Bu dövlətdə əslində meşə qövmü olan monqol və tunquz[67] deyil, türk bozqır kültürü hakim olub[68] göy tanrıya inanılır (əslində, totemçi olan monqollara tanrı sözü sonra türklərdən intiqal etmişdir. Bax: aş. Kültür: din), ailə "ata hüququ" üzərinə qurulu idi (bax: aş Kültür: sosial struktur)[69]. Nəhayət, hiung-nu dövlətində idarəçi zümrənin və xanədanın dili türkcə idi[70]. Siyasi və kültürəl münasıbətlər vəsiləsi ilə Çin salnamələrində hiung-nu dilindən zəbt edilən bu kəlmələr: tanrı, kut, börü, il (el), ordu, tuğ, qılınc və s. türkcə olub[71] türk dilinin ən əski yadigarlarındandır[72]. Və nəhayət, dövlətin sahibləri özlərinə türkcə "qövm, xalq" mənasında olan "hun" (xun=kün) deyirdılər[73]. "Hun" adı bir görüşə görə, m.ö. I minil-

[62]Über die Sprache der Hiung-nu und der Tunghu-stamme, Tokio, 1900, bax: KSz, IV, 1903, s. 240 və ardı.

[63]Sur l'origine des Hiung-nu, s. 71-82.

[64]Ayrıca bax: B. Szász, A Húnoktörténete, Attila Nagykirály, s. 24.

[65]Asya Hunları, s. 28 və ardı.

[66]Hun-Türk Münasebetleri, s. 908; yenə onun: Hunnisch-Türkische Beziehungen, s.27.

[67]G. Clauson, Türk, Mongol, Tungus, s. 110 və ardı.

[68] Çin qaynaqlarında "Hiung-nuların kültür maddələri olaraq nələrdən bəhs edilirsə, bunlar eynən göytürklər üçün də təkrarlanır"; W. Eberhard, Çin'in Şimal Komşuları, s. 90 və ardı. Monqol və türk kültürləri arasındakı fərqlər üçün bax: W. Eberhard, Eski Çin Kültürü ve Türkler, s. 21, 29. Məsələn, türklər at yetişdirmişlər və tarixləri boyunca donuzla əsla maraqlanmamışlar. Halbuki monqollar və tunquzlar yaxşı donuz bəsləyicisi idilər. Aynca bax: W. Eberhard, Çin'in Şimal Komşuları, s. 51, 62 və ardı., 94. Türklərdə qurd əfsanəsinə qarşılıq monqollarda köpək rol oynayır.

[69]Monqollarda ailə madərşahi (ana-ərkil) idi. Bax: B. Ögel, Türk Mitolojisi, s. 56.

[70] Bax: Gy. Németh, A honfoglalö Magyarsag.., s. 141-149; B. Szàsz, A Húnoktörténete..., s. 29 və ardı; G. Clauson, Türk, Mongol, Tungus, s. 114 və ardı; W. Eberhard, DTCF Dergisi, V, 4, s. 460; Asiya hunlarlarıın bir qolu olan Orta Şərq hunlarının elə o tarixlərdə "türk" deyə anıldığı haqqında bax: aş. qeyd 181.

[71] Bax: A.v. Gabain, Hunnisch-Türkische, s. 21 və ardı; W. Eberhard, Belleten, sayı 35, s. 322, 332 və ardı. Ayrıca çincədə pozulmuş şəkilləri ilə ehtimal ki, dəvə, böyü, doğru (t'o-ki) və b. kimi kəlmələr, bax: B. Szàsz, A Húnok története, s. 26 və ardı.

[72] Asiya hunlarının türk olduğu haqda bax: W. Eberhard, Çin'in Şimal Komşuları, s. 90 və ardı. Aynca aş. bax: Göytürklər.

[73] Gy. Németh, A honfoglaló..., s. 145-149; yenə onun: Hunlann Dili, s. 223; P. Pelliot - L. Hambis, Histoire dəs campagnes de Gengis Khan, s.306; Hiung>Hung>Khun=Hun, bax:

liyin başlarında kwan, gun, V əsrdən öncə kun, IV-III əsrlərdə isə xun kimi tələffüz edilmişdi[74]. Ağırlıq mərkəzinin Orxon-Selenqa çayları və türklər tərəfindən qutlu ölkə sayılan Ötükən həvalisi-Ongin çayı üzərindəki Qaraqum ilə Ordos bölgəsi arasında olduğu anlaşılan hun siyasi birliyinin qəti tarixini m.ö. IV əsrdən etibarən təqib etmək mümkün olmaqdadır. Hunlarla əlaqədar ən əski yazılı sənəd m.ö. 318-ci ildə yazılan bir müqavilədir[75]. O zaman Chou iqtidarının zəifləməsi nəticəsində meydana çıxan 14-ə qədər böyük feodalın mübarizə sahəsi olan Çində bir-birləri ilə savaş halındakı bu feodal dövlətlərdən Chin-in (Tsin) getdikcə qüvvətlənməsindən əndişələnən qonşu beş "krallıq" (dərəbəylik) həmin il hun birliyi (hiung-nu) ilə ittifaq müqaviləsi bağlamışdı. Hunlar daha sonra Çin torpaqlarında təzyiqi artırdılar. Məhəlli xanədanlar uzun müdafiə savaşları zamanı qorunmaq məqsədi ilə məskun sahələri və hərbi yığınaq yerlərini divarlarla çevirirdilər. Choulardan iqtidarı m.ö. 256-cı ildə tamamilə təhvil alan Chin dövləti Şen-sidenin ünlü hökmdarı Shih-huang-ti (m.ö. 247-210) şimal hücumlarına qarşı sərhədlərini büsbütün qapamaq üçün divarların iç qisimlərini sökdürərək əldə etdiyi material ilə dış divarları bir-birinə bağlamaq və boş yerləri tamamlatmaq surəti ilə məşhur Çin səddini (yüksəkliyi 15 m, eni 9 m, düz xətt halında uzunluğu isə 1845 km) meydana gətirdi (m.ö. 214)[76]. Beləcə çinlilərin ən təsirli qorunma tədbiri aldıqlarına inandıqları bu əsnada iki mühüm hadisə meydana gəldi: Çində uzun müddət dirayətli imperatorlar yetişdirən han sülaləsinin (ilk han m.ö. 206-m.s. 22, ikinci han m.s. 24-220) qurulması və hun dövlətinin başına da Mo-tun (və ya Mao-tun, Mav-dun; əski oxunuşlar: Moduk, Mei-tei, Mo-te, Mə-tə) adlı xaqanın keçməsi (m.ö. 209). Çin qaynaqlarında hunların tu-ku (=türk?) adlı ailə və ya qəbiləsinə mənsub ol-

Gy. Németh, A Hiung-nuktól az Oszmanli nyelvtanig, s. 325; Gy. Moravcsik, Byzantinoturcica, II, s. 203. Və ya adın əsli, türkcə güc, qüvvət mənasında: “qun” sözü ilə bağlı, bax: F. Altheim, Geschichte der Hunnen, l, s. 8,29.

[74] O. Pritsak, Xun, der Volksname der Hsiung-nu, s. 27-34; buna qarşı bax: O. Maenchen-Helfen, Archaistic Names of the Hiung-nu, s. 249-261; buradakı etiraza qarşı Hiung-nu= hun eyniliyi üçün bax: R. Shafer, The Earilest Huns, s. 4-8.

[75] M. De Groot, Die Hunnen der vorchristlichen Zeit, I, s. 38; L. Ligeti, Asya Hunian, s. 28; B. Szàsz, həmin əsər s. 50. "Hiung-nu" adı ilk dəfə bu münasibətlə keçir; A Kollautz, Geschichte und Kultur..., I, s. 42.

[76] Təfsilən bax: O. Franke, Geschichte des Chinesischen Reiches, I, s. 195, 241-244; R. Groussel, L’Emp. D. Steppes, s.54. W.Eberhard, Çin Tarihi, s. 83. Pekinin şimalından dənizə çatan, qərbdə isə Kan-suya qədər uzanan bu divar daha sonrakı əsrlərdə fasiləsiz olaraq təmir ve təqviyə edilmişvə XV əsrdə bugünkü görünüşünü almışdır.

duğu bildirilən Mo-tun[77] (Bəy-tun) öz oğlunu taxta oturtmaq istəyən ögey anasının təşviqi ilə atası T'u-man tərəfindən taxtdan məhrum edilməsi təşəbbüsü qarşısında əmrindəki dəmir intizam altında yetisdirilmiş 10 min atlı ilə qatıldığı bir sürək ovunda T'u-manın öldürülməsi nəticəsində hun hökmdarı elan edilərək (m.ö. 209-174) hun dilində "imperator" mənasında "sonsuz genişlik, ucalıq, ululuq" ifadə edən və Asiya türk dövlətlərində 6 əsr qədər işlənən tanhu (dürlü oxunuşlar: tanju, jenuye, şanu və son olaraq, həmin çincə işarənin bugünkü söylənişi ilə şan-yü, şanı) ünvanını aldı[78]. Dövlətini yenidən düzənlədi və onu yaxşı tanımadıqları anlaşılan tunq-huların (şərqdəki monqol-tunquz qəbilələr birliyi) israrlı torpaq tələbləri qarşısında savaş açaraq onları pərişan etdi. Beləliklə, hakimiyyətini şimalda Peçiliyədək genişləndirdikdən sonra Orta Asiyada Tanrı dağları-Kansu həvalisindəki hind-Avropa mənşəli sayılan yüe-çiləri (yü-ehchih)[79] məğlub etdi (m.ö. 203). O zaman hun dövləti "Sol Bilgə eliki"nin Shang-kuda, "Sağ Bilgə eliki"nin Shang-kündə (Şen-si) iqamət etdiyi təxmin olunan bu dövrdə[80] Mo-tun daha sonra Çin torpaqlarına yönəldi, 3 il qədər sürdüyü anlaşılan (201-199) bu savaşlarda Ma-i, Tai-yuan bölgələrini zəbt etdi. Han sülaləsinin qurucusu imperator Kao-tinin (m.ö. 206-195) 320 minlik ordusunu Pai-tengdə bozqır üsulu saxta ricət ("Turan taktikası" bax: aş. Kültür: Ordu) ilə çəmbər içinə aldı. İmperator bozqır bölgələrinin hun dövlətinə tərk edilməsi, yeyəcək və ipək verilməsi və illik vergi şərtləri ilə özünü və ordusunu qurtarmağa müvəffəq oldu[81]. Şərqi Asiya tarixində iki böyük dövlət arasında bağlanmış ilk millətlərarası müqavilə olduğu bilinən bu müqaviləyə[82] (m.ö. 201) görə Mo-

[77] Bk. W. Eberhard, Çin Tarihi, s. 137,144, 174. Türkcə adın çincələşmiş şəkli olan Mo-tun kəlməsinin əsli: Bagatur? və ya Davgu=Yabgu?: G.Clauson,Asia Major, N.S.VIII,1,s.115 və ya gerçəyə ən yaxın olan Vikhtun - Biktun (aş. bax: bulğar xaqanları siyahısı, bax: V. Beşevliev, Die protobulğarischen İnschriften, s. 322)=Beg tun=(Bəy nəsli) Bəy soyu (Fürstensippe), təfsilən bax: F. Altheim, Geschichte der Hunnen, I, s. 20-24. Türkçə beg> bəy kəlməsi çincədə ümumiyyətlə "Mo" şəklinə girir (örnək: Mo-ç'o=Bəy-ço, bax: aş. II. Göytürk xaqanlığı); tun=ilk doğum, ilk nəsil, bax: G. Clauson, An Etymological Dictionary of Pre-thirteenth Century Turkisch, s. 513a; ayrıca bax: DLT, III, s. 137. Digər bir Asiya hun başbuğunun adı Ta-tun idi (W. Eberhard, Birkaç Eski Türk Ünvanı Hakkında, s.325).

[78] Bax: De Groot, həmin əsər,s. 47-50.

[79] Təfsilən bax: W. Eberhard, Orta ve Garbi Asya Halkları, s. 140-150,170-175.

[80] Bax: De Groot, həmin əsər, s. 58; ayrıca bax: W. Samolin, East Turkistan, s. 20; K. Shiratory, On the Territory of the Hsiung-nu Prince Hsiu-t'u Wang and his Metal Statues for Heaven-wonhip, s. 5 və ardı.

[81] De Groot, Die Hunnen..., s. 63 və ardı; B. Szász, A Húnok.., s. 52 və ardı.

[82] Bax: W. Eberhard, Çin Tarihi, s. 89.

tunun bir Çin şahzadəsi ilə də evlənməsi nəticəsində Çin ilə dostluq havası içində imperatoriçə Lü (m.ö. 195-179) və imperator Wen-ti (m.ö. 179-157) zamanlarında da davam etmiş olan ticari münasibətlər inkişaf etdirilərkən Mo-tun Baykal gölü qıyılarından İrtış yatağına qədər olan bozqırları və daha qərbdəki tinglinglər, bəzi oğur (ho-chieh-o-kue) qolları (bax: aş. oğurlar) ilə məskun ərazini, Şimali Türküstanı zəbt etdi və oradakı yüe-çilərin qonşusu wusunları himayəsinə aldı[83]. Bu surətlə böyük hun hökmdarı o çağda Asiya qətəsində yaşayan türk soyundan olan bütün toplumları öz idarəsində tək bayraq altında toplamış olurdu. İmperatorluq hüdudlarının şərqdə Koreyaya, şimalda Baykal gölü və Ob, İrtış, İşim çaylarına, qərbdə Aral gölünə, cənubda Çində Wei çayı-Tibet yaylası-Qaraqorum dağları xəttinə çatdığı bu tarixlərdə hunlara tabe olanlar arasında monqollar, tıbetlilər, tunquzlar və çinlilər də vardı. Mo-tun tərəfindən Çin hökumətinə göndərilən m.ö. 176-cı il tarixli məktubdan anlaşıldığına görə, yalnız İç Asiyada türk dövlətinə bağlı qövm və şəhər-dövlətciklərinin sayı 26 idi[84] və hamısı tanhunun ifadəsi ilə "yay gərənlərlə tək bir ailə" halında birləşmişdilər[85]. Mo-tun m.ö. 174-cü ildə öldüyü zaman mülki və hərbi təskilatı, iç və dış siyasəti, dini, ordusu, hərbi texnikası və sənəti ilə yüksək vəsfli bir cəmiyyət halında, daha sonrakı bütün türk dövlətlərinə örnək olan, tarixi dəqiq bilinən ilk türk siyasi təşəkkülü -"Böyük hun dövləti" qüdrətinin zirvəsində idi. Göründüyü kimi, bu dövlət öz idarəsindəki məhdud əkin sahələrinə qarşılıq, daha ziyadə, otlağı bol, heyvandarlığa əlverişli bozqırlar bölgəsində qurulmuşdu. İqtisadiyyatının təməli başda at olmaq üzrə, heyvandarlıq idi. Buna görə sosial durumu da torpağa bağlı "kəndli" kültüründəki geniş ərazi sahibi Çin "gentry" təbəqəsi ilə kölə sinifindən çox fərqli idi. Nə malikanələrə, nə də torpaq kölələrinə rastlanmayan hun bölgələrində xalq qan qohumluğu ilə bir-birinə bağlı ailələrin meydana gətirdiyi sosial və siyasi birliklər olaraq intizamli və özlərini müdafiə üçün daima silahlı qəbilələr (boylar) halında yaşayır və dövlət bu qəbilə birliklərinin (bodunlar) öz aralarında sıx əməkdaşlığından doğurdu. Dövlət bu quruluşuna görə və ələlxüsus ordunun Mo-tun tərəfindən tənzimindən sonra mərkəzdən idarə edilən bir "hərbi təşkilat" səciyyəsi qazan-

[83] M.ö. 176-cı ilə qədər. Təfsilən bax: B. Ögel, Çin Kaynaklarına Göre Wusunlar ve Siyasi Sınırları Hakkında Bazı Problemler, s. 259-278.

[84] Bunlar haqqında bax: W. Eberhard, həmin yer.

[85] Fr. Hirth, Hunnenforschungen, s. 84; De Groot, həmin əsər, s. 76 və ardı; B. Szász, həmin əsər, s. 55; L. Ligeti, həmin əsər, s. 40; Liu Mau-Tsai, Kutscha und seine Beziehungen in China vom 2. Jh. bis zum 6. Jh n. Chr. 1,s.119.

dığı səbəbi ilə hərbi xarakterdə idi və gərəkli şərtlər (bozqırda təlim keçmək, at və silah) hazır olduğu üçün də fütuhata açıqdı. Bu yöndən də "kəndli" Çin dövlətindən ayrılırdı. Çində əsas rejim feodalizm olduğu halda[86], hun dövlətində mərkəziyyətçilik diqqəti çəkəcək qədər müəyyən idi. Kiçik məmurlar və bəzi müşavirlər bəlkə çinli idi, fəqət əmrlərindəki silahlı qüvvələrlə eyni zamanda birər komandan olan bütün yüksək görəvlilər ilə birinci dərəcədə məsul məqam sahibləri daim hun əsilli idi, dövlət təşkilatının da (məsələn, sağ-sol və ya şərq-qərb təqsimatı və s.) çinliliklə heç bir əlaqəsi yox idi[87]; Mo-tun tərəfindən gerçəkləşdirilən və toplumda qəbiləçilik meyllərini qıraraq dövlətə milli toplum havasını gətirən ordudakı 10-lu tərtib də türk idi (bax: aş. Kültür: Ordu). Əsasən dövlətin milli xarakterinin qorunmasına diqqət edildiyinə dair bəzi davranışlar gözə çarpırdı. Məsələn, Pai-tengdə imperator idarəsindəki Çin ordusunu mühasirə edən Mo-tunun Çinin daxilinə dalaraq bozqırdan uzaqlaşmasına zövcəsi və hər halda dövlət məclisi mane olmuşdu[88]. İnanc yönündən də nə monqol totemçiliyi, nə də Çin torpaq tanrıçılığı ilə əlaqəsi olmayan bozqır türk göy tanrı etiqadındakı hun dövlətinin (bax: aş. Kültür: Din) meydana gəlməsində "Çin imperatorluğumun model təşkil etdiyinə dair yayğın görüş[89] (normal ölçülərdəki qarşılıqlı kültür təsirləri dışında) doğru sayılmamalıdır. Zira bu düşüncənin gərəkcəsində irəli sürülən "hiung-nu hökmdarının eynən Çin imperatoru kimi göyün (tanrının) oğlu olaraq görünmək və Çindəkinə bənzər saray ərkanına sahib olmaq lüzumu hun dövləti üçün zəruri deyildi. Əvvəla, dövlət Çin torpaqlarında deyil, "hiung-nular sahəsində qurulmuşdu[90]; dolayısıyla Çin məşruiyyət prinsiplərini bu dövlətdə aramaqda isabət yoxdur. İkincisi, Mo-tunun "göyün oğlu" deyə bir ünvan aldığı şübhəlidir, çünkü onu tövsif edən Tenq-li Ko-to (həmin çincə işarənin bugünkü söylənişi ilə Ch’enq-li ku-t’u) tanhu[91] təbirindəki indiyə qədər "oğul" mənasına gəldiyi sanılan ikinci kəlmənin "qut" (siyasi iqtidar) demək olduğu anlaşılmışdır (bax: aş. Kültür: qut). Üçüncüsü, Çin dövlətində "göyün oğlu" anlayışı da əslən Çin deyil, türk

86 O tarixlərdə Çində senyorlar sayının 2000-ə çıxdığı dövrlər olmuşdur. Təfsilən bax: W. Eberhard, Çin Tarihi, s. 34-80.

87 W. Eberhard, Ülkü, sayı 92, s. 190.

88 De Groot, həmin əsər, s. 63 və ardı; W. Eberhard, Çin Tarihi, s. 89.

89 B. Szàsz, həmin əsər, s. 54; W. Eberhard, həmin əsər, s. 88 və ardı; A. Kollautz, Geschichte und Kultur..., I, s. 44

90 Bununla bərabər bu dövlətdə monqol, tunquz və ya Tibet cizgisi demək olar ki, heç görünmür. Bax: W. Eberhard, həmin əsər, s. 16-18,147,153 və ardı.

91 De Groot, Die Hunnen..., s. 53 və ardı; G. Clauson, Asia Major, N.S. VIII, 1, s. 115.

mənşəlidir. (Təfsilən bax: aş. Kültür: hökmranlıq). Bütün bunlardan dolayı, Mo-tun zamanında dəqiq şəklini aldığı görünən Böyük hun dövləti etnik yöndən və hakimiyyət anlayışı, sosial strukturu, idari və hərbi quruluşları (sosio-politik vahidlər, dövlət məclisi = toy, sağ-sol təşkilatı, bilgə eliklər və s.) dini və dünya görüşü ilə türk millətinin tarix və kültüründə feyzli təsirini iki min il sürdürən bir ana qaynaq durumundadır. Bu etibarla türk və dünya tarixində çox böyük önəm daşıyır. Mo-tunun oğlu tanhu Ki-ok (Chi-yü. /Kök?/ və ya Lao-shanq[92], m.ö. 174-160) hun imperatorluğunun bu böyüklüyünü mühafizə etməyə çalışdı. Yurdlarından oynatdığı yüe-çilərin Əfqanıstana gedərək Baktriya (Bəlx) bölgəsində vaxtilə İskəndər tərəfindən qurulmuş olan yunan hakimiyyətinə son verdikləri tarixdə (m.ö. 166) izdihamlı ordusu ilə Çinə gırərək paytaxt Chanq-an yaxınlığındakı imperator sarayını yaxan Ki-ok bu səfərdəki qayəsinə uyğun olaraq Çin ilə iqtisadi ilişkilərini dostanə bir şəkildə sürdürmək üçün bir Çin şahzadəsi ilə evləndi. Şübhəsiz, Çin sarayı ilə davam etdirilən qohumluq siyasi mahiyyətdə bir davranışdan ibarətdi. Fəqət bu surətlə irəlidə Çin ilə təmas halındakı bütün türk dövlətləri baximından pis nəticələr verəcək olan bir cığır dərinləşdirilmiş oldu. Çünkü xanədanlar arasındakı bu yaxınlaşmalar hər zaman Çin hiylə mexanizmının hərəkətə keçməsi üçün fürsət təşkil etməkdə idi. Hun mərkəzində çinli şahzadənin himayəsindən faydalanan Çin diplomat və vəzifəliləri hun imperatorluğu torpaqlarında sərbəstcə gəzib dolaşır, türklər və tabe qövmlər arasında mənfi təbliğat aparır, dövləti sinsicə qüvvədən salmağa çalışırdılar. Bundan başqa, ticarət malı kimi ölkəyə gətirilərək hun əyanları arasında rəğbət görən Çin ipəyi lüks və zövq yolu ilə rəhavəti artırmaqda idi[93]. Ki-ok dövründə çox da hiss edilməyən bu mənfi vəziyyət onun oğlu Kün-çin (Chün-chen) zamanında (m.ö. 160-126) gerçək bir narahatlıq qaynağı olaraq özünü göstərdi. Çünki han sülaləsinə kürəkən olan bu tanhu atası və babası qədər dirayətli və əsgər ruhlu bir hökmdar olmadığı üçün hun iqtidarında sarsıntılar yarandı. Çinlilərin bu dövrdə (imperator Chinq-ti: 157-141) sərhəddə kiçik miqyaslı axınları dayandırdığı görünürdü. İlk dəfə imperator Wu-ti (m.ö. 141-87) izdihamlı ordular təşkil edərək hun hakimiy-

---

[92] "Qoca və ən yüksək" və ya "səmavi və yüksək" mənalarına gələn Laoshang deyiminin (B. Szàsz, həmin əsər, s. 77, qeyd 46) əslində türkcə bir kəlmə olması mümkündür. (De Groot, həmin əsər, s, 80).

[93] Hun dövlətinin iqtisadi çöküntüyə gediş səbəbləri üçün bax: W. Eberhard, Conquerors..., s. 74. Hun xalqını "yozlaşdırıb" dövləti içdən çökərtmək üçün Çin tərəfindən görülən tədbirlər (hunlar üçün "5 yem") üçün bax: aş. Kültür: diplomatiya (eiçi-bilgəlik).

yətinin yıxılmasını hədəf alan planların tətbiqinə girişdi. Təbliğatı artırdı. Qayələrindən biri də Çin üçün böyük gəlir qaynağı olan ipəyə qərb bölgələrində yeni bazarlar tapmaq və İç Asiya-İran üzərindən Aralıq dənizi sahillərinə çatan məşhur İpək-yolunu[94] əmniyyət altına almaqdı. Dolayısıyla Orta və Qərbi Asiyada yabançıların qüdrətini qırması lazımdı. Bilindiyi kimi, təqr. m.s. I minilliyin sonlarına qədər türk-Çin mübarizələrinin əsas səbəblərindən biri bu karvan yoluna nəzarət etmək məsələsi olmuşdur[95]. Wu-tinin ipək yolu üzərindəki məmləkət və qövmləri öyrənmək və hunlara qarşı onlarla işbirliyi təmin etmək məqsədi ilə qərbə göndərdiyi yüksək rütbəli bir əsgər olan Çanqkienin (Chanq-chien) gizli vəzıfəsini yerinə yetirərkən hunlar tərəfindən bir müddət gözaltında tutulmasına rəğmən buralarda keçirdiyi uzun müddət ərzində (m.ö. 138-126) əldə etdiyi məlumatı, təmaslarını və hökumətə tövsiyələrini ehtiva edən mühüm raport imperatoru məmnun etmiş və sonraki Çin siyasəti üçün başlıca sənəd olmuşdur[96]. Bu arada çinlilər çox əhəmiyyətli bir uğur daha əldə etmişdilər ki, o da ordularını türk üsuluna görə qurmaları və hun silahları ilə təchiz etmələri idi. Hələ Motundan çox öncə 318-ci il andlaşması ilə əlaqədar hunlara qarşı hərbi gücünü artırmağa çalışan Chao (Şan-sidə) krallığında Wu-ling (m.ö. 325-298) zamanında başlayıb, daha sonra şimali Çində feodal hökumətlərin yerini alan böyük Chin dövlətinin imperatoru Shih-huanq-ti zamanında sürətlə davam edən bu hərbi islahat hərəkətləri han imperatoru Wu-tinin komandanlarından Wei-tsing ilə hun tərzində 140 minlik bir süvari qüvvəsi çıxaran Ho Kü-ping tərəfindən böyük uğurla həyata keçirilmişdi. M.ö. 127-117-ci illər arasında Ordosdakı hunlara qarşı qazandıqları zəfərlər hun ağırlıq mərkəzinin Qobidən şimala, Orxun çayı bölgəsinə keçməsinə səbəb olmuşdu. Hunlar artıq əskisi kimi deyildilər. Axınları duraqlamış, xüsusilə tanhu Tsü-ti-hou (Chute-ho) zamanından etibarən (m.ö. 101-96) 40 il boyunca zəngin cənub-qərb

---

[94] Bax: Ed. Chavannes, Les pays d'occident d'apres le Wei Lio (III əsr). TP, II, s. 528-539, 552-563; A. Herrmann, Die alten Seidenstrassen zwischen China und Syrien, Berlin: 1910; bax: R. Grousset, L'Empire des Steppes, s. 78 və ardı; A. T'serstevens, Les Pricurseurs de Marco Polo, s. 20-29.

[95] Tarixi yöndən təfsilat üçün bax: W. Samolin, East Turkistan to the Twelfih century, The Hague, 1964.

[96] O. Franke, həmin əsər, 1. s. 337 və ardı; R. Grousset, həmin əsər s. 70 və ardı; B. Szász, A Húnok..., s. 58 və ardı, L. Ligeti, Bilinmiyen İç Asya, s. 51-58. Səyahət raportunun ingiliscəyə tərc. F. Hirth, The Story of Chang Kien. Cinas Pionier in Western Asia, Journ. Amer. Or. Soc. 1917, s. 89-152; almancaya tərc. M. De Groot, Westlände Chinas in der vorchristlichen Zeit, II, 1926, s. 9-51.

torpaqlarının (Tanrı dağları-Cunqariya, Turfan, Yarkənd, Kuça və b.) düşmən istilasına uğraması ilə dövlət gəliri azalmış, o zamana qədər Çindən vergi və hədiyyə olaraq gələn maliyyə dəstəyi kəsilmişdi. İç hüzursuzluq, idarəçilərlə başbuğların arasını vurmağa yönələn kəsif Çin təbliğatı ilə getdikcə dərinləşirdi. Hun şahzadələrinin bir-birləri ilə olan anlaşmazlıqları mücadiləni şiddətləndirdi. İqtisadi darlıq və hərbi gücsüzlük qarşısında maddi yardım təmin etmə düşüncəsi ilə çıxar yol olaraq tanhu Ho-han-yehin (m.ö. 58-31) Çin hımayəsini istəmə meyli durumu büsbütün qarışdırdı. Sol bilgə eliyi (Sol qanad kralı) olan Çi-çi (Chih-chih, Tsit-ki) bu qardaşının tanhuluğunu tanımadı. Məsələ hun dövlət məclisində (türkcəsi: toy. Bax: aş.) ağır diskussiyaya səbəb oldu. İstiqlalın fəda edilməsini "gülünc və utanc verici" bir davranış sayan və bunu atalara qarşı hörmətsizlik kimi qəbul edən Çi-çi tərəfdarları Ho-han-yehin təklifini rədd etdilər (bax: aş. Kültür: eldə istiqlal)[97]. Tanhunun fikrində dirənməsi hunları ikiyə ayırdı (m.ö. 55). Dövlət birliyinin parçalanması ilə Çin üzərindəki hun təhdidi ortadan qalxdığı üçün Şərqi Asiya tarixində bir dönüş nöqtəsi olan bu illərdə hun şahzadələri arasında möhkəmcə alovlanan açıq mücadilə sonunda rəqiblərini məğlub edən, bu arada tanhuluq mərkəzini də işğal edən və hun imperatoru durumuna yüksələn Çi-çi qarşısında Ho-han-yeh özünə bağlı kütlələrlə birlikdə dəstəyini aldığı Çin'in şimal-qərb hüdud bölgəsinə (Ordos, Pinq-çu) çəkildi (m.ö. 54)[98].

Dövlətini gücləndirmək və iqtisadi imkanlara qovuşdurmaq üçün hakimiyyətini qərbə doğru yaymağı uyğun görən Çi-çi tanhu m.ö. 51-ci ildə hərəkətə keçdi. Öncə Tanrı dağlarının şimalı - İssık göl həvalisindəki wusunların müqavimətini qırdı[99], Tarbaqatay bölgəsindəki oğurları, daha şimaldakı qırğızları və İrtış ətrafındakı ting-lingləri tabeliyinə aldı. İki il içində qazandığı bu uğurlardan sonra wu-sun axınlarından qurtulmaq istəyən Kang-kü (Çu-güney Qazaxıstan bozqırı-Mavəraünnəhr) kralının arzusu ilə (bu dövləti himayə etmək vəsiləsi ilə) Aral gölünə qədər bütün qərb bölgəsini idarəsi altına alaraq geniş Orta Asiya hun imperatorluğunu ehya etdi. Çi-çi hökumətinin şimali Monqolustandakı ağırlıq mərkəzini də Çu-Talas çayları arasına keçirərək orada ətrafı divarlarla çevrili yeni bir paytaxt inşa

[97] De Groot, həmin əsər, s. 209 və ardı., 220 və ardı.

[98] Təfsilən bax: De Groot, həmin əsər, s. 214-222.

[99] Bax: B. Ögel, Çin Kaynaklarına Göre Wu-sunlar..., s. 259-278; yenə onun: İlk Töles Boyları, s. 801-805.

etdirdi (m.ö. 41) ki, beləliklə, mövqeyi dolayısıyla İran, Əfqanıstan, Hindistan, Şərqi və Orta Avropa coğrafiyası baxımından Asiya tarixinin bundan sonraki inkişafında sürəkli təsiri görüləcək olan Türküstan sahəsinə türk xalqının yaxşıca nüfuz etməsini təmin edir, (qərb hunları), Fərqanə və Baktriya (Bəlx) həvalisini özünə bağladıqdan sonra Çin qaynaqlarına görə An-si bölgəsini, yəni güney-qərb hüdudları ta Anadoluya qədər uzanan parf imperatorluğunun şimal-şərq qismini zəbt etmək üçün planlar hazırlayırdı[100]. Fəqət Çi-çinin hakimiyyəti uzun sürmədi. Torpaqları çox genişdi və hun dövləti bu bölgələrdə hələ yaxşıca yerləşmiş, idari nizamı qurmuş, tabe kütlələr və qonşuları ilə normal münasibətlərini gəlişdirmiş deyildi. Çi-çinin hərəkətini addım-addım təqib edən Çin wu-sunları Kang-kü dövlətini öz tərəfinə çəkə bildi və dərhal hücuma keçdi. Ətrafdan aldıqları yardım və 70 minə yaxın orduları ilə basqın şəklində hun torpaqlarına girərək sürətlə irəliləyən çinlilər tərəfindən mühasirə edilən Talas çayı üzərindəki divarlı hun paytaxtı tamamilə dağıdıldı (m.ö. 36). Paytaxt heyrətamiz şəkildə müdafiə edilmiş, küçələrdə qanlı savaşlar getmiş, hətta tanhuluq sarayı içində otaq-otaq çarpışılmış və Çi-çi, oğlu və xatunlar daxil saray mənsublarından 1518 adam əllərində qılınc dövlətləri uğrunda həyatlarını fəda etmisdilər[101].

Çi-çinin qərbə uzaqlaşmasından sonra özünü toplayan və Çin hökuməti ilə anlaşma imzalayaraq (m.ö. 43) dövlət məclisinin qərarı ilə paytaxtını Orxon bölgəsinə nəql edən, fəqət m.ö. 36-cı ildən etibarən təkrar Çin tabelıyinə girən Ho-han-yehə (ölümü: m.ö. 31) bağlı kütlələr onun övladları tərəfindən bir müddət idarə edildikdən sonra təkrar toparlanmağa başlamışlar və qüdrətli bir dövlət adamı olduğu anlaşılan Yu (Ho-to-dzsi-si) tanhu zamanında (m. 18-46) Çinə qarşı istiqlallarını əldə edərək şərqdə Mancuriyaya, qərbdə Kaşğara qədər olan geniş bölgəni təkrar idarələrinə almağa müvəffəq olmuşdular. Fəqət Yunun ölümündən etibarən daxili anlaşmazlıqlara düşmələri və uzun sürən qıtlıq illərinin səbəb olduğu çox sayda heyvan tələfatı ilə ölkədə başlayan aclıq hunları müşkül duruma saldı. Yunun oğlu tanhu P’u-nuya qarşı mücadilə edərək şimaldakı hun qəbilələri arasına çəkilən Pinin (P’u-nunun qardaşı oğlu) orada özünü tanhu elan etməsi hadisəsi (m. 48) hunları təkrar və artıq bir daha birləşə bilməmək üzrə ikiyə ayır-

---

[100] Təfsilən bax: McGovern, The Earty Empires of Central Asia, s. 185-194; B. Szàsz, həmin əsər, s. 66 və ardı; K. Czeglédy, Nomádnipek vandorlasa, s. 40 və ardı.

[101]Təfsilat üçün bax: De Groot, Die Hunnen... s. 225-238; McGovern, həmin əsər, s. 194 və ardı; B. Szàsz, həmin əsər, s. 68 və ardı; W. Eberhard, Belleten, sayı 29, s. 143 və ardı; Liu, Kıtscha und seinə Beziehungen zu China...,s. 119 və ardı.

dı: şimal hunları (şimalda və ya Dış Monqolustanda) və cənub hunları (cənubda və ya İç Monqolustanda).

Beləliklə, 48-ci ildə ayrı siyasi vəsfləri qətilik qazanan iki hun dövləti arasındakı böyük fərq cənubdakının Çinə tabeliyini davam etdirməsi, şimal dövlətinin isə istiqlalını daima qoruması idi. Bundan başqa, Cənubi Sibir, Cunqariya ötəsinə qədər Qərbi və İç Asiyada iqtisadi əhəmiyyəti bilinən bütün şəhər-dövlətlər də Şimali Hun dövlətinin idarəsində idi. Dolayısıyla, siyasi və hərbi Çin hücumlarının ana hədəfini təşkil edirdi. Hələ hun imperatorluğunun bölünməsi ilə nəticələnən daxili mübarizələri ustalıqla istismar edən Çin hunlara bağlı şərqdəki monqol-tunquz qarışığı wu-huan və sien-pi (hsien-bi) kütlələrini təhrik etmiş, bunların sürəkli basqıları nəticəsində hun dövləti Şərqi Monqolustanda nəzarəti itirərkən, qərb bölgəsində də təhrikçi Çin siyasəti ilə qarşılaşmışdı. Bu səbəblə ən təsirlisi Yarkənt krallığı olmaq üzrə Şan-şan (İou-lan, Lob-norun cənubu), Turfan və başqa bölgələrdəki qiyamlar ilə uğraşmaq zorunda qalındı (46-60-ci illər)[102]. Hun dövlətinin buralarda, xüsusilə Çinin müstəmləkəçi tutumu ilə Yarkənd kralı Kienin çox mərhəmətsiz davranışından pərişan olan xalq tərəfindən qurtarıcı kimi qarşılanması və duruma hakim olduqdan sonra yenidən basqı altına aldığı Çini hüdud qəsəbələrində sərbəst ticarətə məcbur etməsi (61-65) Çini tam qərarlılıq içində və doğrudan-doğruya hərbi hərəkatla hun dövlətini çökərtmək hazırlığına sövq etdi. İmperator Minq-ti (58-75), Çenq-ti (75-89) və Ho-ti (89-105) dövrlərinin ünlü generalı Pan Çaonun yüksək kumandanlığında izdihamlı Çin ordularının 30 il çəkən hərəkatı sonunda Kang-küyə qədər (Kaşğar, Hami, Yarkənt, Xotən daxil) sayı 50-yə çatan zəngin və karvan yolu üzərində olduğu üçün iqtisadi yöndən önəmli şəhər Çin idarəsinə keçdi[103].

Xüsusilə 73-74 və 89-91-ci illər hərəkatında ağır itkilərə uğrayan hunlar İç Asiyada hakimiyyətlərini itirərkən şərqdə də sien-pilərin hücumlarına (ən şiddətlisi 89-91-ci illər arasında) məruz qalırdılar. İki cəbhədə sürəkli savaşmaq zorunda qalan Şimali hun dövləti son tanhuların uğurlu müdafiələrinə baxmayaraq qüvvədən düşdü, vəziyyət onların əleyhinə inkişaf etdi. Hakimiyyətlərini Cənubi Sibir və Cunqaryaya qədər genişləndirməyə mü-

[102] Təfsilən bax: McGovern, həmin əsər s. 231-254; B. Szàsz, həmin əsər, s. 69-74; W. Eberhard, Muahhar Han Devrində Hun Tarihine Kronolojik Bir Bakış, s. 346-349.

[103] 73-101-ci illərdə. Təfsilən bax: W. Eberhard, Muahhar Han Devrində..., s. 354-364; McGovern, həmin əsər, s. 255-291; W. Samolin; East Turkistan..., s. 21 və ardı; Liu, Kutscha..., s. 139-145.

vəffəq olan sien-pilərin hökmdarı Tan-shih-huai (təqr. 147-156) tərəfindən nəhayət yox edilən şimal hunlarının (ehtimal tanhu Avitokhol zamanında (bax: aş. Böyük Bulğariya) torpaqları düşmən qəbilələrin istilasına uğradı. Siyasi iqtidarlarının zəifləməyə üz tutduğu tarixlərdə əsasən məmləkəti tərk etməyə başlayan hunlardan (böyük çapda köçlər 91-ci ildə[104] və 155-ci ilə doğru. Bax: aş. Bulğar dövlətləri) Kuça civarında qalan yüepan-yüebanlar[105] dışındakı izdihamlı kütlələr qərbə çəkilmişdilər ki, bunların indiki Cənubi Qazaxıstan bozqırındakı soydaşlarına (Çi-çi hunları) qatıldıqları anlaşılır.

48-ci ildən bəri Çin hüdud bölgəsində yaşayan və şimaldan gələcək saldırılar üçün Çinin önündəki bir tampon dövlət durumunda olan cənub hunları da o qədər hüzurlu deyildi. Kukla tanhulara qarşı hun qəbilələri tez-tez qiyam qaldırırdılar. 94, 124 və 140-cı illərdə görünən qiyamlar güclüklə basdırılmış, bunları 153-cü il və 158-ci il üsyanları təqib etmişdi. Bu illərdə Şimali Monqolustanı işğal edən sien-pilər cənuba doğru təzyiqlərini artıraraq hun dövləti üçün təhlükəli olmağa başladılar (177-ci ildən etibarən). 188-ci ildə Çin hökuməti tərəfindən təyin edilən tanhunun tamamən Çinə təslim olma qərarı üzərinə hunlar tərəfindən öldürülməsi dövləti başsız qoydu. Qəbilələr təyin edilən digər iki tanhuyu da tanımadılar və dağınıq qəbilə həyatına döndülər. Son tanhunun Çin paytaxtında həbs edilməsi və ölkənin 5 əyalətə bölünərək çinli hərbi valilərin nəzarətinə verilməsi ilə cənubi hun dövləti də süqut etdi (216-cı il)[106].

Bununla bərabər, sien-pi basqısı üzündən xüsusilə III əsrin ikinci yarısında cənuba gəlmək surətilə Çində sayları getdikcə artan hunlar Çin idarəsi altında və çinli xalq arasında varlıqlarını qorumağı bacardılar. Çində han sülaləsi iqtidarının zəifləməyə üz tutduğu tarixlərdə (180-ci ildən etibarən) bir-birləri ilə mübarizəyə girışən generalların tutumu böyük dəyişiklik meydana gətirmiş, siyasi birlıyin parçalanmasına səbəb olmuşdu ("16 dövlət" dövrü). Sui xanədanının birliyi ehya etdiyi 589-cu ilə qədər sürən bu dövrədə türk kütlələri başda tabğaç (wei) sülaləsi (bax: aş.) olmaq üzrə müstəqil dövlətlər qurmuşlar və han iqtidarının tənəzzülü ilə m.s. 220-ci illərdə təkrar səhnədə görünən cənubi hun qəbilə başbuğlarının idarəsində nüfuzlarını artıraraq zamanla bütün Şimali Çini türk hakimiyyətinə almağı bacarmışdılar. Bunu tə-

[104] Bu köçə qatılanlar 123-cü illərdə Aral golünə qədər Orta Asiyaya hakim olmuşdular (bax: M. Mori, Kuzey Asyadakı Eski Bozkır Devletlerinin Teskilatı, s 219).

[105] W. Eberhard, Çin'in Şimal Komsuları, s 89; K. Czeglédy, Nomád népek..., s. 51.

[106] Bax: McGovern, həmin əsər, s. 292-314; B. Szàsz, həmin əsər, s. 84-87. W. Eberhard. Muahhar Han Devrində Hun Tarihine..., s. 337-385.

min edən qüvvə yuxarıda zikr edilən asi generallardan biri olan Tsao Tsao-nun savaşlarında yardımları olduğu üçün Şan-si bölgəsinə yerləşdirdiyi 19 hun qəbiləsi idi. İzdihamlı olan və hər fürsətdə Çin idarəsinə qarşı çıxan (məsələn, 271, 294, 296-cı illərdə) bu türk kütləsi milli mənliyini qoruyur və əski tanhu ailəsi mənsublarına qarşı sayğı bəsləməyə davam edirdi. 19 qəbilədən biri to-pa (tabgaç), biri də böyük tanhu Mo-tun ailəsinin mənsub olduğui tu-ku və ya t'u-ko10 idi[107]. Hun tu-ku (t'u-ko) başbuğu əski tanhu-lar nəslindən və hun eliklərindən olan Liu Yüan (Liu bu dövrdə tu-ku ailə-sinə çinlilərin verdiyi addır) çətin bir hürriyyət mücadiləsi verdikdən sonra diqqət çəkici bir siyasi anlayışla 500 il əvvəlki atalarının əski han sülaləsi ilə olan dostluğunu və qardaşlığını irəli sürərək və hətta öz sülaləsinə "han" adını verərək bu Çin bölgəsində (mərkəz: P'ing ç'eng) türk dövlətini qurma-ğa müvəffəq oldu (304-329. I Chao). Çin paytaxtı Lo-yanqı zəbt etdi (311). Özündən sonra Çinin digər paytaxtını da ələ keçirən qardaşı Liu Tsunqun inkişaf etdirdiyi bu siyasi hakimiyyət şüuru başbuğ ailələri arasında idarə dəyişəndə də davam etdi (başlıca hun sülaləri: II Chao: 329-351, Hsia: 407-431, Şimali Lianq: 401-439 və bunun davamı: Lou-lan krallığı, 442-460; Turfan civarında). Eyni şüur Tsü-kü (Chu-chü) Məngsün tərəfindən qurul-muş olan son hun dövləti "Şimali Lianq"ın 439-cu ildə tabgaç hökmdarı Tai-wunun basqısı ilə (paytaxt Qutsanq işğal edilərək) yıxılması nəticəsində buradan qaçıb qurtulduğu anlaşılan türk Aşina ailəsinin təmsil etdiyi böyük göytürk xaqanlığına çatdı[108] (aş. bax:).

Çin sahəsində hun adı altındakı siyasi həyatları beləcə tarixə qarış-maqla bərabər, m.ö. I əsrdə Çi-çi iqtidarının yıxılması nəticəsində ətrafa da-ğılmış olaraq Soğdiananın /Seyhun arxası/ şərqində, Qafqaz dağlarının şi-malında, hətta Dnepr çayı civarında[109] və xüsusilə Aral gölünün şərq boz-qırlarında varlıqlarını davam etdirən türk kütlələri oradakı digər türk zümrə-ləri və I əsr sonlarından II əsrin ikinci yarısına qədər şərqdən gələn hun qa-

---

[107] Bax: M. Köymen, Hsiung-nu'ların Tu-ku Kabilesi, s. 51-59 (burada tu-ku=türk olduğu irəli sürülmüşdür). W. Eberhard, Çin Tarihi, s. 137, 144,174; O. Pritsak, UAJhb, XXVI, s. 218, 220. L. Bazinə görə Tu-ku=Tuğlug=Tuğlu=tuğ sahibi, baş qəbilə; bax: F. Altheim, Geschichte der Hunnen, I, s. 24.

[108] Təfsilən bax: W. Eberhard, Çin Tarihi, s. 123-153, 164, 182; yenə onun: Liu Yüan və Ts'unq'un Biyografileri, 1942; McGovern, həmin əsər, s. 316-355; A Kollautz, Geschichte un Kultur..., I» s. 295 və ardı.

[109] Bax: A. Berthelot, L'Asie ancienne centrale et sud-orientale, d'aprés Ptolemée, s. 100 və ardı,216; F. Altheim, Geschichte der Hunnen, I, s. 3; B. Szàsz, A Húnok..., s. 39.

lıntıları ilə çoxalmışlar və uzunca bir müddət sakit bir həyat yaşamaq surətilə güclərini artırmışlar. Bunların böyük ehtimalla iqlim dəyişıkliyi üzündən (bax: yux.: Türklərin yayılmaları) və ya son illərdə meydana çıxan yeni bir görüşə görə[110], 350-ci illərdə şərqdən gələn uar-hun basqısı qarşısında qərbə yönəldikləri və sonra Avropa hun imperatorluğunu qurduqları anlaşılmaqdadır[111]. Bu kütlələrin Qərbi Sibirə doğru Çin sahəsindən uzaqlaşmalarından dolayı haqlarında 2 əsr qədər uzun bir müddət yazılı məlumat olmadığı gərəkcəsinə dayanılaraq hiung-nularla eyni qövm sayıla bilməyəcəkləri barədə bəzi iddialara[112] rəğmən Attila zamanında bütün Avropada türk hakimiyyətini gerçəkləşdirənlərin bu Asiya hunları nəslindən olduqları müxtəlif sənədlərlə bəlgələnməkdədir.

## B. Qərb (Avropa) hunları

Kimlikləri haqqında 200 ildən bəri dürlü təxminlər yürüdülən və bəzi bilginlər tərəfindən monqol (K. Shiratory, Asiya hunlarını monqol saydığı üçün), türk-monqol qarışığı (P. Pelliot, R. Grousset), türk-monqol-mançu qarışığı (L. Cahun və b.), fin-uqor (Klaproth, K. F. Neumann və b.) olduqları və ya doğrudan-doğruya slavyan mənşəyindən gəldikləri (Venelin, İlovayski, Zabelin, İnostrantsev), yaxud german soyuna mənsub olduqları (Müllephoff, A. Fick, R. Much, J. Hoops), və ya Qafqaz qövmlərindən bir qol təşkil etdikləri (L. Jeliç, Gy. Meszaros) irəli sürülən Qərb hunlarının[113] Asiya hunlarının nəvələri olduqları son zamanlardakı araşdırmalarla daha da açıqlıq qazanmışdır. Bu xüsusda bir çox tarixi, coğrafi, linqvistik və kültürəl dəlillər göstərilmişdir: coğrafiyaçı Strabon (ölümü: 25) hunların yunan-Baktriya krallığının şərqində olduqlarını söylərkən, tarixçi Plinius (ölümü: 125) adı keçən krallığın hunlar tərəfindən yıxıldığını qeyd edir ki, bu hunları Çin qaynaqları hiung-nu olaraq tanıtmışdır. Orosius (I əsrin sonları) və Ptolemey (m.ö. 160-170) xəritələrində "hunların oturduqları bölgələri[114] Çin

[110] K. Czeglédy, Nomádnépek vandorlasa... s. 14 və ardı, s. 53-64.

[111] De Groot, Die Hunnen..., s. 220 və ardı; L. Bazin, Appartenancəs Linguistiques..., s. 134; B. Ögel, İlk Töles Boyları, s. 797, n. 9, 801; yenə onyn: Doğu Gök Türkleri Hakkında Notlar, s. 101; F. Altheim, Attila..., s. 72, 119.

[112] Maenchen - Helfen, Huns and Hsiung-nu, s. 222-243; Ph. T. Fund, 1, 685 və ardı.

[113] Adları keçən araşdırıcılar üçün bax: B. Szàsz,A Húnok..., s, 24, L. Ligeti, Attila Hunlarının Menşei, s. 23; O.M. - Helfen, həmin əsər, s. 223.

[114] Bax: F. Altheim, Geschichte der Hunnen, həmin yer.

qaynaqlarında hiung-nuların torpaqları olaraq göstərmişlər[115]. Qərb hunlarının Asiya hunlarından olduqları haqqında qüvvətli bir dəlil də Fr. Hirth tərəfindən ortaya qoyulmuşdur. Buna görə, 355-365-ci illərdə alan ölkəsinin (Xəzər-Aral arası) istila edilməsi münasibəti ilə Çin qaynaqları (Wei-shu) bu məmləkətin hiunq-nular tərəfindən zəbt olunduğunu qeyd edərkən, o dövrün latın yazarı A. Marcellinus (IV əsr sonu) fəthin hunlar tərəfindən gerçəkləşdiyini göstərmişdir[116]. Eyni hadisə haqqında bir-birini doğrulayan bir Uzaq Şərq və bir Qərb qaynağının təsbit etdiyi hiunq-nu=hun eyniliyi, Çində hun başbuğu Liu Yüan sülaləsi (304-329) tərəfindən Lo-Yanqın alınması zamanı (311-ci il) əsir düşən soğd tacirlərindən bəhs edən və Çin tabğaç hökmdarı Kao-çunqa (452-465) soğd dilində yazılmış bir mətnlə də ayrıca təsdiq edilməkdədir[117].

Geniş hun imperatorluğu torpaqlarında başda qotca olmaq üzrə müxtəlif german ləhcələri, slavyan, irani və fin-uqor dilləri, latınca və yunanca danışılmaqda idi. Qaynaqlarımızda hunlardan qalma dil yadıgarlarından bir qisminin bu yabançı dillərə aid olması təbii görünə biləcəyi kimi, hətta hun hökmdar ailəsindən və ya yaxın qohumlarından bəzilərinin adlarının -xüsusilə qotlarla çox sıx münasibət dolayısıyla- qot dılində olması[118] da mümkündür. Fəqət hökmdar sülaləsinin soyca türk olduğuna və hun kütləsinin türkcə danışdığına şübhə yoxdur[119]. Hökmdar ailəsində təsbit edilən adlar belədir: Qaraton (qara don=siyah rəngdə əlbisə, yaxud Kara-tun=güclü soy, (qara üçün bax: aş. Kültür: Xalq), Muncuk (muncuq, eyni zamanda "bayraq" mənasında, Attilanın atası), Attila[120], İlək[121], Dəngizik (=dəngiz=dəniz),

[115]"Təfsilən bax: B. Szàsz, həmin əsər, s. 14-16. Bir görüşə görə, hunların hələ m.ö. 250-ci illərdə əski hind mənbələrində qərbdə Kəşmir həvalisində olduqları zikr edilmişdilər. Bax: R. Shafer, The Earliest Huns, s. 4.

[116] Təfsilən bax: Fr. Hirth, Über Wolga Hunnen und Hiung-nu, s. 245-278; yenə onun: Hunnenforschungen, s. 84-87; B. Szàsz, A Húnok..., s. 16-20.

[117]W. B. Henning, The Date of the Sogdian Ancient Letters, s. 615; F. Altheim, Attila..., s. 52 və ardı. Ayrıca, B. Ögel, DTCF Dergisi, XVII, 1-2, s. 162, 272; R. Shafer, The Earliest Huns, s. 5-8; K. Czeglédy, Nomád népek..., s. 15 və ardı, 64 və ardı, 70 və ardı, 95, 121. Ayrıca bax: və müq. et: K. Enoki, Sogdiana and the Hsiung-nu, s. 43-62; W. Samolin, Hsiung-nu, Hun, Turk, s. 143-150.

[118] Məsələn, Rua-Ruqa-Roa-Rugila; Laudaricus; Bleda; bax: Gy. Németh, Hunların Dili, s. 217-220 (bax: aş. Kültür: Eldə təşkilat).

[119] Bax: L. Ligeti, Attila Hunlarının Menşei, s. 26.

[120] Doğulduğu yer olduğu təxmin edilən Atıl, Etil, İtil (=Volga) adından, bax: Nagy Geza, Magyar Törtenet I, s. 295; J. Marquart, Die Chronologie der Alttürkischen İnschriften, s.

İrnək[122] (Attilanın üç oğlu), Aybars, Oktar (Attilanın əmiləri), Arıkan (Arığ-xan)[123]. Tanınmış kimsələr: Basık, Kursık, Atakam, Eşkam. Toplum: akatir, şar (sarı=ak)-oğur. Ayrıca: kımız[124]. Hətta Dura-Europosda (Fərat çayının orta məcrasında Suriya-İraq hüduduna yaxın qazıntı yeri) tapılan III əsrin ortalarından qalma parf və pars dilindəki kitabədə Cənubi Qafqazdakı hunların Ərk Kapğan, Topçak, Tarkan-bəg, Kubrat, Kurtak kimi türkcə adlar daşıdıqları irəli sürülməkdə[125] və Qərbi hun hökmdar ailəsinin Asiya tanhularından çıxdıqlarını təsbit etmək mümkün görünməkdədir[126]. Hunlar IV əsrin ortalarında alan ölkəsini ələ keçirdikdən sonra 374-cü ildə İtil (Volqa) sahillərində göründülər. O tarixlərdə Qara dənizin şimalındakı düzənliklər bir german qövmü olan qotların işğalı altında idi. Don-Dnepr nəhrləri arasında şərq qotları (ostroqot), onun qərbində qərb qotları (viziqot) olurdu. Daha qərbdə Transilvaniya və Qaliçyada gepidlər, bugünkü Macarıstanda Tisza çayı həvalisində vandallar vardı. Bu dörd german qövmü dışında həmin bölgədə iranlı və slavyan kütlələr, daha başqa kiçik german toplumları da yaşıyırdı. Hun başbuğu Balamırın və ya Balambərin idarəsindəki böyük hücum öncə şərq qotlarına çarpdı və bu dövləti yıxdı (374), kral Ermanarikh intihar etdi. Yerinə keçən Hunimund[127] hunlar tərəfindən təyin edilmişdi. "Heyrət ediləcək bir hərəkət qabiliyyəti və gəlişmiş bir süvari taktikası ilə" davam edən hun hücumunun[128] Dnepr kənarında vurduğu ağır zərbə qərb

77; W. Samolin, CAJ. III, 2, s. 144 qeyd 8. Bizans qaynaqlarında (bax: Gy. Moravcsik, Byz. turc., II, s. 81) adın Attilas (=Volga çayı) olaraq qeyd edilməsi (latınca şəkli Attila) də bunu dəstəkləyir. Adın türkcə əsli Ətil olmalıdır (L. Rásonyi, Sur Quelques Categories des Nonts de Personnes en Turc, s. 349; yenə onun: The Psycholgy and Categories..., s. 216).

[121] İlək=İllig=Elig (kral)=İlig. Bax: Gy. Németh, A Honfoglató..., s. 134; B. Szàsz, həmin əsər, s. 32. İl və ya daha doğru söylənişi ilə el üçün bax: W. Eberhard, Birkaç Eski Türk Ünvanı Hakkında, s. 319 və ardı; G. Clauson, An Etymological Dictionary..., Türkish, s. 121b.

[122] İrnək="Kiçik-ər", Gy. Németh, həmin əsər, s. 135.

[123] Gy. Moravcsik, Byz. Turc. II, s. 137/"Arığ-kan (xan)"=gözəl, əsil hökmdar (kraliçə); Gy. Németh, həmin əsər, s. 191. Bu dörd türkcə isim üçün ayrıca bax: Gy. Németh, Hunların Dili, s. 220- 223.

[124] Priskos (V əsrdə), bax: B. Szàsz, A Húnok..., s. 27.

[125] F. Altheim - R. Stiehl, Das erste auftreten der Hunnen..., Baden, 1953, bax: B. Ögel, həmin əsər, s. 270; müq. et: J. Harmatta, Studia Antiqua, II, 4.1955, s. 290; O. Maenchen, Helfen, Akatir, s. 286.

[126] O. Pritsak, Die sogenannnte bulğarische Fürstenliste und die Sprache der Protobulğaren, s. 193 və ardı, 218, 220, 232; müq. et: F. Altheim, Geschichte der Hunnen, l. s.16-28. Bu xüsusda başqa görüş üçün bax: L. Ligeti. Attila Hunlarının Menşei, s.19-22.

[127] "Hun + ağız"lı, bax: B. Szàsz, həmin əsər, s. 112,135; F. Altheim, Attila,.. s. 180.

[128] Alföldidən nəqlən L. Rásonyi, Tarihte Türklük, s. 68 və ardı.

qotlarını da çökərtdi və kral Atanarikh izdihamlı viziqot kütlələri ilə qərbə doğru qaçdı (375). Beləcə, hun hərbi qüdrətinin hərəkətə keçirdiyi və müxtəlif qövmlərin bir-birlərini yerlərindən ataraq, torpaqlarından çıxararaq, Roma imperatorluğunun şimal əyalətlərini alt-üst edərək ta İspaniyaya qədər uzanmaq surətilə Avropanın etnik çöhrəsini dəyişdirən tarixi "gövmlər köçü" başlamış oldu. Ani və şiddətli hun zərbələrinin, gözlənilməz yerlərdə görünən hun axınçı müfrəzələrinin Şərqi Avropa qövmləri arasında oyatdığı dəhşət Qərb dünyasında qorxunc əks-sədalar yaratmış, hunlar əleyhinə çoxu latın və yunan qaynaqlarında qeyd edilmiş inanılmaz rəvayət və hekayələrin meydana çıxmasına və yayılmasına səbəb olmuşdur[129]. Hunlar qotlardan, alanlardan və german tayfalarından təşkil etdikləri köməkçi qüvvələrlə birlikdə ilk dəfə 378-ci ilin baharında Dunayı keçdilər və romalılardan müqavimət görmədən Trakiyaya qədər irəlilədilər. Ancaq Roma torpaqlarında görünən bu qüvvələr kəşfiyyat vəzifəsini görən avanqard idi. Həmin tarixlərdə bugünkü Macarıstan ovalarına qədər axınlar tərtiblənmişdi[130]. Hunlardan qorxan bugünkü Avstriya ərazisindəki markomanlarla kuadlar Roma torpaqlarına keçməyə hazırlaşarkən İran əsilli sarmatlar sərhədləri ("liməs") aşıb Roma imperatorluğuna girir, öncə Transilvaniyada duraqlamış olan qərb qotları da Roma hüdudlarını keçirdilər (381-ci il). Digər tərəfdən bəzi german mənşəli kütlələrlə iranlı baştarnalar Pannoniyadan (Qərbi Macarıstan) Alplara doğru axaraq İtaliyanı təhdidə başlamışdılar.

Hunlar Roma imperatoru I Theodosiosun ölüm ili olan 395-ci ildə yenidən hərəkətə keçdilər. Bu hərəkət iki cəbhəli idi: hunlardan bir qismi Balkanlardan Trakiyaya irəlilərkən, daha böyük sayda digər bir qismi Qafqaz dağları üzərindən Anadoluya yönəldilmişdi. Hun dövlətinin Don çayı həvalisindəki şərq qanadı tərəfindən tərtiblənən Anadolu axını Basık və Kursık adlı iki başbuğun idarəsində idi. Romalıları olduğu qədər sasani imperatorluğunu da təlaşa düşürən bu axında hun süvariləri Ərzurum bölgəsindən etibarən Qarasu, Fərat vadilərini təqibən Meliteneyə (Malatya) və Kilikiyaya (Çuxurova) irəliləmişlər, bölgənin ən möhkəm qalaları olan Edessa (Urfa) və Antakyanı bir müddət mühasirə etdikdən sonra Suriyaya enərək Tyrosu (Sur) basqı altına almışlar, oradan Qüdsə yönəlmişdilər. Çox sürətli cərəyan edən bu hərəkatdan qorxuya qapıldıqları üçün hunlara dair əcaib

[129] Təfsilat üçün bax: F. Altheim, həmin əsər, s. 78-106.
[130] B. Szàsz, həmin əsər, s. 115-118.

hekayələr uyduran kilsə xadimlərinin [131] dəhşət dolu gözləri önündə axınçılar payıza doğru şimala üz tutaraq Orta Anadoluya, Kappadokiya-Qalatiyaya (Kayseri-Ankara və həvalisi) çatdılar və oradan Azərbaycan-Bakı yolu ilə şimala öz mərkəzlərinə döndülər (395-396-cı il)[132]. Bu, türklərin Anadoluda tarixi qeydlərə düşən ilk görünüşləri olmalıdır. 398-ci ildə daha kiçik çapda təkrarlanan bu axınlar qarşısında Şərqi Romanın gənc imperatoru Arkadius heç bir ciddi tədbir ala bilməmişdi. Qərbdə hun basqısı 400-cü ilə doğru, başbuğ Uldız[133] komandanlığında möhkəm hiss edildi. Balamırın oğlu və ya nəvəsi olduğu sanılan Uldız Atillanın son illərinə qədər təqib ediləcək hun dış siyasətinin əsaslarını təsbit etmişdi[134] ki, buna görə, Şərqi Roma, yəni Bizans daima basqı altında tutulacaq, Qərbi Roma ilə yaxşı münasibətlər davam etdiriləcəkdi. Çünkü Bizansın hun nüfuzuna alınması ilk hədəfi təşkil edir, buna qarşılıq, Qərbi Roma torpaqlarına təcavüz edərək hüzursuzluq çıxaran barbar qövmlər eyni zamanda hunların da düşmənləri olduqları üçün Qərbi Roma ilə müştərək hərəkət gərəkirdi. Uldızın Dunayda görünməsi ilə qövmlər köçünün ikinci böyük dalğası başlamış, Asding vandalları, hunlardan qaçan viziqotlar İtaliyada görünmüşdülər. Alarikhin idarəsindəki bu qot təhlükəsi romalı komandan Stilikho tərəfindən çətinliklə önləndi (aprel 402). Fəqət daha qorxunc bir barbar meydana çıxdı ki, bu da hun qorxusu ilə yerlərini tərk etmiş olan vandalları, suebləri, kuadları, burqundları, saksonları, alamanları və başqalarını öz dəmir yumruğu altında birləşdirmiş olaraq Roma üzərinə atılan Radaqais idi. İtaliyada müdhiş təxribat törədir, Romanı yer üzündən siləcəyini elan edirdi. Stilikhonun belə Pavia savaşında dayandırmağa müvəffəq ola bilmədiyi barbar şef ancaq türklər qarşısında məhkum oldu. Böyük Feasulae (=Fiesole, Florensiyanın cənubunda) müharibəsində şəxsən Uldızın komanda etdiyi, romalı qüvvələrlə möhkəmləndirilmiş hun ordusu tərəfindən məğlub edilən Radaqais yaxalandı və edam edildi (avqust 406). Bu zəfəri ilə Uldız Romanı xilas etdi[135]. O eyni zamanda hun qüdrətindən bir kərə daha ürkən vandal,

[131] St. Hieronymus, St. Ephraim və Eufemia əfsanələri ilə Edessa xronikalarındakı qeydlər üçün bax: B. Szàsz, həmin əsər, s. 123 və ardı., 158, 568; S. Eckhardt, Efsanede Attila, s. 145 və ardı.

[132] B. Szàsz, A Húnok..., s. 123 və ardı; F. Altheim,həmin əsər, s. 29.

[133] Yunan qaynaqlarında: Uldız, Gy. Moravcsik, Byz. turc. II, s. 198. Latınca şəkli; Huldin, Uldin, F. Altheim, Attila...., s. 109 və ardı; A. Vamberiyə görə, Uldız=türkcə Ildız (Yıldız), bax: B. Szàsz, həmin əsər, s. 29.

[134] Bax: B. Szàsz, həmin əsər, s. 127; F. Altheim, həmin əsər, s. 109.

[135] B. Szàsz, həmin əsər, s. 180,202 və ardı ; P. Vaczy, Hunlar Avrupada, s. 82, 124.

alan, sueb, sarmat, kelt və başqa kütlələrini Reyn çayının o tərəfinə, Qaliyaya getməyə məcbur etməklə hunların qərbə doğru yolları üzərindəki maneələri qaldırmış, buralarda hun qüvvələrinin sərbəst hərəkətlərinə imkan hazırlamışdı.

Hüdudları Asiyada Aral gölünün şərqinə qədər uzandığı anlaşılan[136] hun imperatorluğunun qərb qanadının kralı (=elik, bax: aş. Kültür: Hökmdar) olduğu təxmin edilən Uldız[137] 404-405-ci illərdə və xüsusilə 409-cu ildə Dunayı keçərək, çayın cənubunda bəzi körpü-başlarını tutmaq surətilə Bizansa hun təhdidinin azalmadığını göstərmiş və yunan qaynaqlarına görə (Sozomenos, Codex Theodosianos və b.) barış müzakirəsi üçün göndərilən Trakiya generel-qubernatoruna (magister militum) "Günəşin batdığı yerə qədər hər yeri zəbt edə bilərəm" deyərək meydan oxumuşdu[138]. Uldızın ölümündən (410-ci illər) sonra hun imperatorluğunun başında Karaton dururdu. Bunun haqqında bildiyimiz sadəcə 412-ci ildə Bizans elçisi Olympiodorosun onun yanına getmiş olduğudur[139]. Karaton daha çox şərq işləri ilə uğraşmış görünür. 422-ci ilə qədər hunlar haqqında bilgi verilmədiyindən o qanaddakı məşğuliyyətin on sənə qədər sürdüyü təxmin edilməkdədir. 422-ci il Avropa hunları tarixində yeni bir dövrün başlanğıcı kimidir. Həmin il hun hökmdar ailəsinə mənsub dörd qardaşdan (Rua, Muncuk, Aybars, Oktar) biri olan Rua imperatorluq məqamına oturdu, Muncuk (Attilanın atası) erkən öldüyü üçün digər iki qardaş "qanad elikləri" vəzifəsində idi. Siyasətdə Uldızın izində yürüyən Rua Bizansın hun ordusunu üsyana təşviq etmək və tabe qövmləri hunlardan ayırmaq məqsədi ilə hun torpaqlarında fəaliyyətə keçirdiyi casusluq şəbəkəsini və təbliğatçıları irəli sürərək tərtib etdiyi Balkan səfərində (422) müqavimət göstərməyən Bizansı illik vergiyə bağladı: 350 librə altın (25,200 solidus)[140]. İmperator II Theodosiosun (408-450) 423-cü ildə hələ 4 yaşında ikən Qərbi Roma imperatoru elan edilən III Valentinianus qarşısında Romaya sahib olmaq iddiası ilə İtaliyaya ordu və donanma sövq etməsi Qərbi Romanı hunlara daha çox yaxınlaşdırdı. Roma senatının da kiçik imperatorun yerinə I "Notarius" (dövlət baş müstəşarı) Johannesi seçməsi üzərinə o zaman 35 yaşında olan ünlü əsilzadə F. Aetius

[136] Latın qaynaqlarında da "regulus"="kiçik kral" olaraq verilir, bax: P. Vàczy, həmin əsər, s. 75.
[137] Szàsz, həmin əsər, s. 129.
[138] Gy. Moravcsik, Byz. turc., I, s. 288.
[139] B. Szàsz, həmin əsər, s. 165, 171. Bir librə təqr. 450 qram.
[140] F. Altheim, həmin əsər, s. 110.

(Aesius) yardım istəmək üçün Ruanın yanma gəldi[141]. Hun imperatoru 60 min süvari başında İtaliyaya yönəldi. Savaşa girmədən qüvvələrini çəkən Bizansdan ağır bir hərb təzminatı alındı. İrəlidə Attila ilə hesablaşacaq olan Aetius gənclik çağının Roma taxtı işlərinə qarışmaqdan doğan böhranlı anlarını hun yardımı ilə atlatmış, "magister militum" ikən konsulluğa yüksəldiyi 432-ci ildə Afrikada vandal kralı Geiserikh ilə mücadilə edən rəqibi Bonifacius qarşısında canını Ruaya sığınmaqla qurtarmış, imperator Valentinianusun anası Placidia da hun qüvvələrinin İtaliyaya yönəlməsi üzərinə Aetius ilə uzlaşmağa məcbur olmuşdu.

Bütün bunlar Ruanın qüvvətli şəxsiyyəti ilə hun dövlətinin hər iki Romanın iç və dış siyasətinə yön verdiyini göstərməkdə idi. Artıq hunlara tabe barbar qövmlərin Romaya güvənərək hər hansı bir hərəkətə qalxışmaları haqda söz ola bilməzdi. Ancaq Bizans tarixçisi Priskosun ifadəsi ilə "Ruadan barışı ildə 350 librə altınla satın almış olan II Theodosıos[142] yenə də hun idarəsində yaşayan yabançıları gizlicə təhrik etməkdən geri qalmırdı. Bu səbəblə Rua o zamana qədər bizanslıların hun imperatorluğundakı yabançılardan muzdlu əsgər toplama fəaliyyətlərini və bızanslı tacirlərin hun torpaqlarında ticarət etmələrini yasaqladı. Ölkəsi daxilində heç bir yunan sərbəst dolaşa bilməyəcək və ticarət müəyyən hüdud qəsəbələrində aparılacaqdı. Bu arada Rua bir müddət öncə Bizansa sığınmış olan hun əyanlarından Mama və Atakamın oğullarının və digər hun qaçaqlarının geri verilməsini istədi. II Theodosios sürətlə müqavilə bağlamaq ümidi ilə elçilik heyətini hun paytaxtına göndərməyə qərar verdi. Fəqət o sırada Rua öldü (434-cü ilin baharı). Bizans qüdrətli bir düşməndan qurtulduğu üçün sevinir, yepiskop Prokulos vəzlərində tanrının mömin imperator Theodosiosun dualarını qəbul edərək Bizans üzərindən bir təhlükəni qaldırdığını söyləyirdi. Fəqət hun hüdudlarına gələn Bizans elçilik heyəti Ruanı da kölgədə qoyan bir başbuğ ilə qarşılaşdı: Attila (Ətil). Hunların başına keçdiyi zaman 39-40 yaşlarında olan Attila, atası Muncuk erkən öldüyü üçün əmisi Ruanın yanında yetişmiş, onunla birlikdə səfərlərə qatılmış, müxtəlif qövmləri yaxından tanımaq imkanını əldə etmiş, dövlət idarəsini, hun iç və dış siyasətinin əsaslarını öyrənmişdi. Məmləkəti böyük qardaşı Bleda (sonralar macarlar tərəfindən Buda adlandırılmışdır) ilə birlikdə təhvil almışdılar. Fəqət qaynaqlarda açıqlandığına görə, əyləncədən xoşlanan, enerjisi az Buda ikinci planda qalaraq, dövləti ciddi bir hökmdar vəsfi daşıyan qardaşına tərk et-

[141] B. Szàsz, həmin əsər, s. 169.

[142] F. Altheim, həmin əsər, s. 133, B. Szàsz, A Húnak. , s. 173.

mişdi. Ordu və dış əlaqələrin düzənlənməsi Attilanın əlində idi. Əmiləri Aybars (şərq qanadı eliki) və Oktar (qərb qanadı eliki) Rua zamanındakı öz yerlərini qoruyurdular. Aralarında iddia edildiyi kimi bir rəqabət-fılan yox idi, Bleda da "iqtidar hirsi ilə yanan" Attila tərəfindən ortadan qaldırılmış deyildi. Attilanın köməkçisi sifəti ilə 11 il hun imperatorluğunun idarəsində iştırak edən Bleda 445-ci ildə öz əcəli ilə ölmüşdür[143].

434-cü ilin baharında hun sərhədlərinə gələn Bizans elçilərini Attila Dunay ilə Morava çayının birləşdiyi yerdəki Bizans Marqos (bugünkü Dubrovitsa) qalasının tam qarşısında, Dunayın şimal sahilində yerləşən Konstantia divarları önündə at üzərində qarşıladı və dincəlmələrinə dəxi izin verməditi elçilərin (biri konsul-general, digəri seçkin bir diplomat) təmsilçilərinə tələblərini barış şərtləri olaraq yazdırdı. Konstantia və ya Marqos sülhü deyə anılan bu andlaşmanın başlıca maddələrınə görə, Bizans bundan belə hunlara bağlı qövmlərlə müzakirələrə, ittifaqlara girişməyəcək, hunlardan qaçanlara (əsir alınmış Bizans təbəələri daxil) sığınma haqqı tanımayacaq, Bizansın əlindəki adamlar geri veriləcək (yunan əsilli olanlar üçün fidyə ödənə biləcək), ticari münasibətlər yenə müəyyən hüdud qəsəbələrində davam edəcək və Bizansın ödəməyi təəhhüd etdiyi illik vergi iki qatına (700 librə altın və ya 50.400 solidus) çıxarılacaqdı[144].

II Theodosios eynən qəbul etdiyi bu anlaşmanın hökmlərinə uyğun olaraq, hunlara qaytarılan qaçaqları Attila hələ Bizans ölkəsi içində Trakiyada Karsus (Bolqarıstanda Xirsovo) qalasında asdırdı. Bu durum hunlar arasında olduğu qədər Bizansda, Romada və digər qövmlər arasında da Attila adının dəhşət saçan bir avtoritetin timsalı halına gəlməsinə səbəb oldu. Bundan sonra Attila imperatorluğun şərq bölgələrində at üzərində aylarca sürən bir təftişə çıxaraq İtil (Volqa) sahillərindəki şarağurların (ağ-oğur) qiyam təşəbbüsünü yatırtdı (435). Qərb qanadının ağırlıq mərkəzi Dunay ətrafında, şərq qanadının ağırlıq mərkəzi Dnepr həvalısində olduğu təxmin edilən bu tarixlərdə hun imperatorluğunda qaynaqlardan (Priskos, Jordanes, P. Diaconus, J. Honorius və s.) təqib edılə bildiyi qədər başlıca bu toplumlar yer almışdılar:

A) Germanlar (şərqdən qərbə): şərqi qot, gepid, turcilinq, sueb, markoman, kuad, herul, ruqi, skir.

[143] Öldürülmə iddiaları və qarşı dəlillər üçün bax: B. Szàsz, həmin əsər, s. 194 və ardı, 212, qeyd 84.

[144] F. Altheim, Attila..., s. 134; B. Szàsz, həmin əsər, s. 178 və ardı.

B) Slavyanlar (Orta və Qərbi Rusiyada): veneda, ant, sklaven.

C) İranlılar (Qafqazlardan Dunaya qədər, dağınıq halda): alan, sarmat, baştarna, neur, roxolan.

D) Fin-uqorlar (Uraldan Baltikə qədər): çeremis, mordvin, merya, veşi, çud, est, vidivari.

E) Türklər: imperatorluğun hər tərəfinə yayılmış olaraq hunlar, Qara dənizin şimal düzənliklərindən Volqaya qədər beş-oğur, altı-oğur, on-oğur, şarağur, Azovun qərbində akatir[145], Volqanın şərqində sabar və başqa türk kütlələri[146].

Sayları 45-ə varan və müxtəlif dil və soydan olan bu qövmlər yalnız siyasi yöndən bir birlik təşkil etməkdə, yabançı qövm və ya zümrələr ancaq rəisləri, şefləri və kralları vasitəsi ilə dövlətə bağlı idilər. Hun imperatorluğu daxilində sükunət vardı. 442-ci ildə hun dövlət məclisi başqanı və baş naziri olan[147] (bax: aş. Kültür: Hökmranlıq, Hökumət) Onegesios[148] ilə Attilanın böyük oğlu İlək idarəsindəki hun orduları tərəfindən yatırılan akatir üsyanı dışında bu sükunət pozulmamışdı. Halbuki Roma imperatorluğunda qövmlər köçü dolayısıyla hərəkət halında olan qövmlərin keçiş yolları üzərində geniş ölçüdə təxribat etmələri, yerli xalqın məhsullarını zorla əllərindən almaları və s. üzündən başlayan və genişləyən kəndli (baqaudlar) üsyanları nizam və asayişi möhkəm sarsıtmış, buna qarşı Roma Aetius vasitəsi ilə bir daha hunlara müraciət etməyə məcbur olmuşdu. İki il qədər sürən müdaxilə sonunda Attilanın göndərdiyi hun müfrəzələrinin yardımı ilə üsyanın rəhbərləri Aetius tərəfindən ortadan qaldırılsa da[149] bu dəfə kral Qundikar idarəsində bugünkü Belçika bölgəsinə saldıran burqundlarla savaşmağa məcbur oldular. Xüsusilə Necker çayı boyunca cərəyan edən muharibələrdə hun or-

---

[145] Priskosda (V əsr) akatir; Yordanəsdə (VI əsr) akatzir. Əskidən türkcə ağac-əri deyə qəbul edilən adın bu açıqlanması haqlı tənqidlərə uğramış və daha doğru izah təcrübələri verilmişdir: Hamiltona görə, (Toquz-Oguz et On Uygur, s. 34) Xəzər (Kazar) türklərinin ataları və ya bir Xəzər qolu olması ehtimal daxilindədir: (Aq-Qazır=Ak Xəzər). Bu və bənzər izahlara qarşı etirazlar üçün bax: O.Maenchen-Helfen, Akatir, s. 275-286.

[146] Təfsilən bax: B. Szàsz, A Húnok..., s. 180, 202 və ardı.

[147] Bax: B. Szàsz, həmin əsər, s. 494 və ardı.

[148] Priskosda Oneki+siyos. Ad əslən türkcədir. türkcədə şəxs adı olaraq da işlənən On iki (əski və orta yunancada isimlərə əlavə edilməsi adət olan "sios" şəkilçisi ilə birlikdə). Bax: L. Rásonyi, Les noms de nombre dans İ'anthroponymie Turquə, s. 64 və ardı. (Adın yenə türkcə və ilgili digər izah təcrübələri də buradadır) və ya Onuqa (On-ügə+z: z əski türkcədə cəm şəkilçisidir: ügə türkcə ünvan, bax: aş. Kültür: Dövlət məclisi).

[149] 536-cı ildə F. Altheim, Attila..., s. 115.

dusuna qərb qanadı eliki Oktar komanda edirdi ki, rəvayətə görə, kral Qundikar da daxil olmaqla 20 min burqundun öldüyü bu hun-burqund mücadiləsi almanlarm məşhur "Nibelungen" dastanlarına mövzu təşkil etmişdir[150]. Bütün “Germaniya”nın hunlar tərəfindən zəbtini tamamlayan bu savaşlar nəticəsində 436-cı illərdən sonra bu qövmlərin də türk idarəsinə alındığı anlaşılmaqdadır: burqundlar, bayavurlar, yut-hanqlar, aşağı Reyn sahəsindəki franklar, türinglər, lonqobardlar hun hakimiyyətinin "okean adaları”na, yəni Şimal dənizi və La-Manş sahillərinə çatdığı hadisələrin müasiri tarixçi Priskos tərəfindən bildirilmişdir[151].

440-cı ildən etibarən Attila Bizansa qarşı təzyiqi artırdı. Çünki II Theodosios Konstantia andlaşmasının hökmlərinə zidd olaraq, hunlardan qaçanları geri verməkdə ağır davranır, hətta bunlardan bəzilərini yüksək məqamlara təyin edirdi. Məsələn, qot mənşəli Arnegisclusa general rütbəsi ilə Trakiyada hun sərhədində vəzifə vermişdi. Müştərək bazar yerlərində yunan tacirləri hunları aldadırdılar. Marqos yepiskopu Konstantia civarında qiymətli metallardan düzəldilmiş silahları və zinət əşyası ilə birlikdə gömülən hun böyüklərinin məzarlarını soymuş[152], bu davranış hunları qəzəbləndirmişdi. Nəhayət, Bizans, yuxarıda bəhsi keçən akatirlər üsyanında təhrikçi rol oynamışdı. Digər tərəfdən, Şimali Afrika vandal kralı Geiserikh Aralıq dənizindəki hərəkətini əngəlləyən Bizansa qarşı Attiladan yardım istəmişdi. Bu səbəblərlə Attilanın idarəsində Marqosun zəbti ilə başlayan I Balkan səfəri (441-442) Sinqidunum (Belqrad) və Naissus (Niş) üzərindən Trakiyaya doğru genişləyərkən Qərbi Romanın vasitəçiliyi nəticəsində sürətini kəsdi. Roma orduları baş komandanı Aetius bundan belə Theodosiosun andlaşma şərtlərinə riayət edəcəyini qarantiləmək üzrə öz oğlu Karpilionu hun sarayına girov olaraq göndərmişdi[153]. Bu səfər sonunda Dunay boyundakı qalalar hun idarəsinə keçmiş, daha geri xətlərdəki istehkamlar dağıdılmış, Balkanlarda hunlara qarşı dura biləcək müqavimət yuvaları yox edilmişdi.

445-ci ildə Bledanın ölümü nəticəsində tək başına hun imperatoru olan Attila iqtidarının zirvəsinə yüksəlməkdə idi. Qərbi Asiyaya və Orta Avropaya hakimdi. Hər iki Romanm vəziyyəti ortada idi. Attilaya qarşı çıxacaq

---

[150] F. Altheim, həmin əsər, s, 117-124; B. Szàsz. həmin əsər, s. 183 və ardı.: Ş. Akkaya, Eski Alman Destanlarında Attila’nın Akisləri, s. 561-568.

[151] B. Szàsz: A Húnok..., s. 207.

[152] F. Aitheim, həmin əsər, s. 146; yenə onun: Geschichte der Hunnen, IV, s. 290, V, s. 269; B. Szàsz, həmin əsər, s. 190.

[153] F. Altheim, Attila..., s. 168; B. Szàsz, s. 193.

bir qüvvənin yoxluğu psixoloji bir əlaməti kimi savaş tanrısı Aresin qılıcını Attilanın əllərinə verdiyi fikrini yaymışdı. Priskosa görə, uzun zamandan bəri itmiş olan bu qutlu qılınc bir hun çobanı tərəfindən tapılaraq Attilaya gətirilmişdi. Artıq dünyanın fəthi yaxındı, zira Aresin qılıncı vasitəsi ilə yer üzünə hökm etmə yetkısinin Tanrı tərəfindən Attılaya verildiyinə inanılırdı[154]. Buna əlavə olaraq, Bizansın qaçaqları geri verməkdən çəkinməsi, illik vergini ödəmədə istəksizliyi II Balkan səfərının açılmasına səbəb oldu (447). Attilanın idarəsi altında bir neçə nöqtədən Dunayı keçən hun ordusu iki qoldan irəliləyərək qalaları, Sardika (Sofiya), Philippopolis (Filibe), Markianopolis (Preslav), Arkadiopolis (Lüləburqaz) istehkam, mövqe və şəhərlərini zəbt edə-edə və Tesaliyada Termopilə qədər geniş bir dairə cızdıqdan sonra Bizans paytaxtını mühasirə etmək üzrə Athyraya (Böyük Çəkməcə) çatdı. Orada sülh bağlamaq üçün Theodosiosun sürətlə göndərdiyi magistr və patricius Anatolios Attila tərəfindən qəbul edildi və anlaşmaya varıldı (Anatolios sülhü). Buna görə, Dunayın cənubunda beş günlük məsafədəki yerlər əsgərdən arındırılacak, buralardakı bazarlar yerinə artıq bir hun hüdud şəhəri halına gələn Naissusda (Niş) ortaq bazar qurulacaq[155], Bizans hərbi təzminat olaraq 6.000 librə altın ödəyəcəkdi. Ayrıca illik vergi üç qatına (2.100 librə altın və ya təqr. 150.000 solidus) çıxarılmışdı[156].

Bizans baxımından ən ağır şərt illik vergi idi. Hər il bu qədər altın tədarük edilməsi imperatorluğun gücünü aşırdı. Şaşırdığı anlaşılan Theodosios sarayındakı əyanların da tövsiyəsi ilə qəribə bir qurtuluş yolu tapdı, bir sui-qəsd ilə Attılanı ortadan qaldırmağı planlaşdırdı. Başında Edekon (ümumən qəbul edildiyinə görə, skir germanlarının rəisi, fəqət A. Vamberiyə görə, türkcə adın əsli Edikkün) və Orestesin (pannoniyalı bir romalı) olduğu hun elçilik heyəti ilə birlikdə Bizans paytaxtından Attilanın dövlət mərkəzinə, yəni Orta Macarıstana doğru yola çıxan, tanınmış hüquq bilgini Maximinos başqanlığındakı heyətdə yol qeydləri, başda Attila və çağı olmaq üzrə V əsr Avropa türk tarixini ayrıntılı şəkildə öyrənməmizə yardım edən katib Priskos da daxil idi. Sui-qəsdi gerçəkləşdirməklə vəzifəli Bigilanın da qatıldığı heyət 448-ci ilin yayında hun paytaxtına (yeri təyin edilə bilməmişdir) gəldiyində Edekon vasitəsi ilə vəziyyətdən hali olan Attila keçirdiyi şifahi

---

[154] B.Szàsz, həmin əsər, s. 215, 249, qeyd 1; F.Altheim, həmin əsər, s. 133; S. Eckhardt, Efsanede Attila, s. 149. Ayrıca bax: aş. Kültür: Hökmranlıq və cahan hakimiyyəti.

[155] Bax: P. Vaczy, Hunlar Avrupa'da, s. 88.

[156] Hunların Balkan səfərləri üçün təfsilən: İ. Kafesoğlu, XII. Asra Kadar İstanbul'un Türkler Tarafından Muhasaraları, s. 1-6.

sorğuda Bigilaya məqsəd və fəaliyyətlərini etiraf etdirdi. Bizanslıların heç birinə toxunmadı, fəqət Theodosiosa xitabən yazdığı bu mesajı xüsusi elçi ilə imperatora yolladı: "Theodosios Attila kimi əsalətli bir atanın oğludur. Attila atası Muncukdan aldığı əsaləti mühafizə etmiş, fəqət Theodosios Attilanın xərac-güzarı olmaqla kölə vəziyyətinə düşmüşdür. Theodosios kölələik heysiyyətini də qoruya bilməmişdir, çünki əfəndisi olan Attilanın canına qıymaq istəmişdir"[157]. Attilanı təskin etmək üzrə Bizansdan dərhal yuxarıda adı keçən Anatolios ilə magistr və kanselyar Nomos başqanlığında ikinci bir heyət yola çıxarıldı. Bu elçilər hun paytaxtında Attilanı təxminlər xilafina sakit və yumşaq gördülər. Zira hun dış siyasəti dəyişməkdə idi: imperator Theodosiosun şəxsində Bizansı tamamən öz iradəsinə bağlı qəbul edən Attila artıq Qərbi Romaya yönəlmə zamanının yaxınlaşdığı qənaətinə varmışdı.

Qərbi Romaya son mühüm hərbi dəstək 439-cu ildə göstərilmiş, ondan sonra yardımlar tədricən kəsilmişdi. Qərbi Roma hun dövlətinə illik vergisini müntəzəm ödəməklə bərabər[158] yeni vəziyyətin fərqində olan baş komandan Aetius mühtəməl bir hun-Roma toqquşmasına hazırlaşırdı: Barbarlarla münasibətlərini düzəltmiş, onlardan aldığı muzdlu əsgərlərlə türk üsulunda çoxu süvari birliklərindən ibarət ordular təşkilinə girişmiş, hunlara bağlı bəzi qövmlərlə gizli təmaslar aramağa başlamışdı. Buna qarşılıq Attila da 443-cü ildə təkrar alovlanan və Qaliyadan İspaniyaya da sıçrayan kəndli üsyanları ilə yaxından maraqlanır, Romaya qarşı vandallarla işbirliyi imkanlarını araşdırırdı. O da, şübhəsiz, Roma imperatorluğu və barbarlardan meydana gələn bütün Qərb dünyası ilə hesablaşacağı üçün işin əhəmiyyət və nəzakətini təqdir etməkdə idi.

448-ci ildən etibarən iki il qədər sürən hun siyasi və hərbi hazırlığı tamamlanınca Attila ilk diplomatik hücumunu Romaya yönəltdi. İmperator III Valentinianusun bacısı, vaxtilə ərə getmək arzusu ilə Attilaya nişan üzüyü göndərən və 425-ci ildən bəri imperator hüququna sahib olduğunu göstərmək üçün "Avqusta" ünvanı ilə anılan, dəlisov təbiətli Honoriyanı zövcəliyə qəbul etdiyini bildirən Attila cehiz olaraq imperatorluğun Honoryianın hissəsinə düşən yarısını və ya Avqustanın əri sifəti ilə Roma imperatorluğunun

157 Priskos, FHG. IV. 96-97, bax: B. Szàsz. A Húnok..., s. 245.261; P. Vaczy, Hunlar Avrupa’da, s. 104.

158 F. Altheim, Attilla.., s. 169.

idarəsində iştirak haqqını istədi[159]. Öncə oyalama yolunu tutan Valentinianus ilə Aetiusun təklifi nəhayət açıqca rədd etmələri böyük hun səfərini məşrulaşdırdı. Reyn sahillərindəkı Ripuar frankları və vizigotlarla əlaqədar bir-iki anlaşmazlıq da savaş havasını qızışdırdı.

451-ci ilin əvvəllərində Orta Macarıstandan qərbə hərəkətə keçən hun qüvvələrinin mövcudu 80-100 mini türk, bir o qədəri də yardımçı german və slavyan olmaq üzrə 200 min civarında idi. Hun orduları mart ayı ortalarına doğru Reyn çayını üç nöqtədən keçərək Qaliyaya girdıyi zaman İtaliyadan yola çıxdıqdan sonra hun düşməni barbarların verdiyi yardımçı qüvvələrlə sayı yenə 200 minə yüksələn Aetius komandanlığındakı Roma ordusu Qaliyadan şimala doğru sürətlə irəliləyir; hun orduları Mettisi (Metz) (7 aprel) və Durocortorumu (Rheims) zəbt edərək Paris yaxınındakı Aurelianum (Orleans) şəhərinə çatdığı zaman Aetius da oraya yetişmişdi. Fəqət qarşılaşma Attilanın türk taktikasına daha uyğun gördüyü Katalaunumda (və ya Campus Mauriacus/Kampus Mavriyakus/ sahəsi, Troyes şəhrinin qərbində Şampan ovasına doğru) oldu (20 iyun 451)[160]. Qərb dünyasının iki yarısının birbiri üzərinə yükləndıyi, nəhayət, 24 saat sürən, iki tərəfin də çox ağır itkilər verdiyi (Jordanesə görə, 165 min ölü!) mühəqqəq olan bu böyük savaşda kimin qalib gəldiyi hələ də mübahisə mövzusudur[161]. Avropalı tarixçilər ta A. Thierrıdən bəri (1856) Attilanın yenildiyini söyləyirlər və buna Roma qüvvələrinin məhv edilmədən hunların çəkildiyini dəlil olaraq göstərirlər. Ancaq son araşdırmalar məsələyə bir az daha işıq tutmuş görünməkdədir: anlaşılmışdır ki, savaş gününün axşamı Roma ordusu dağılmış[162], birlikləri arasında irtibatı itirən başkomandan Aetius belə yanlışlıqla düşdüyü hun hissələri arasından güclüklə qurtulmuş[163], ertəsi gün erkən saatlarda Romaya bağlı qərbi qot ordusu savaşda ölən kral Theodorikhin oğlu Thorismund idarəsində müharibə meydanından uzaqlaşmış, ağır itkilərə uğrayan frank qüvvələri də onları təqib etmişdi. Ayrıca bu savaşda Attilanın qayəsinə çatdığı da aşkardı. Qərbi hakimiyyəti altına ala bilmək üçün Roma imperatorluğunun insan və əsgər anbarı sayılan Qaliya barbarlarım səf dışı etmək istəyi ilə öncə Qaliyaya yürümüş olan Attila Romanın bu təbii müttəfiqlərinin savaş

159 F. Altheim, həmin əsər, s. 172; B. Szàsz, həmin əsər, s. 270.

160 F. Altheim, həmin əsər, s. 177; təfsilən bax: yenə onun: Geschichte der Hunnen. IV, s. 321-329.

161 Təfsilən bax: B. Szàsz, həmin əsər, s. 296-299,339-343.

162 Alföldi, Magyarorszag Nipel is a Römai birodahm, s. 55 və ardı.

163 F. Altheim. Attila..., s. 178.

gücünü qıraraq Romanı dəstəksiz buraxmağa müvəffəq olmuşdu. Ünlü Aetiusun Romada gözdən düşməsi[164] bunun nəticəsi idi. Ordularını Qaliya ortasından olduqca sağlam və intizam içində 20 gün qədər bir zamanda öz paytaxt bölgəsinə gətirə bilən Attila qüdrət və qorxuncluğunu mühafizə etdiyinə görə, o vaxt Romada Kampus Mauriakusdan tez-tez soruşulan suallardan biri də bu idi: qərb imperatorluğu bu savaşdan nə qazandı? Heç bir il keçməmiş Attila İtaliya səfərinə başladığı zaman Romanın hunlara qarşı çıxaracaq qüvvəsi qalmamışdı. Hadisələrin müasiri Prosper Tironun (Papa I Leonun katibi) qeyd etdiyinə görə[165], Aetius müqavimət imkansızlığı dolayısıyla imperator Valentinianusun İtaliyadan ayrılmasını tövsiyə etməkdə idi.

Attila 452-ci ilin baharında nüvəsini süvari qüvvələrin təşkil etdiyi 100 minlik ordusunu Julia Alplarından keçirərək bugünkü Venesiya düzənliyinə endirdi. Oradakı məşhur Aquileia qalasını zəbt etdikdən sonra Po ovasına girdi. Aemilia bölgəsini işğala başlayıb Roma imperatorluğunun o zamankı paytaxtı Ravennanı təhdid etməsi məsələnin nəhayətə çatdırılmasına kafi gəldi. Roma sarayı əndişəli, xalq təlaşlı, senat nə olursa-olsun sülh bağlamaq qərarında idi. Kilsə də bu arzuya qatıldı. Sürətlə bir heyət hazırlandı. Xitabəti ilə məşhur I Papa Leo ("Böyük Leo") başqanlığında konsul G. Avianus və əski "praefecture" Trygetiusdan ibarət bu heyət Mincio çayının Po çayına töküldüyü düzənlikdə ordugahını qurmuş olan Attila tərəfindən qəbul edildi (452-ci il iyulun ortası). Papa imperator və bütün xristian dünyası adından böyük türk başbuğundan Romanı əsirgəməsini rica etdi. Beş il qədər öncə böyük bir qüvvə ilə Çəkməcəyə qədər gəldiyi halda İstanbulu təxrib etməkdən necə qaçınmış isə papanın ağzından Romanın təslim olduğunu öyrəndikdən sonra bu əski mədəniyyət mərkəzini qorumağı da vəzifə sayan Attila müzəffər ordusu ilə paytaxtına dönərkən, şübhəsiz, eynən Bizans kimi Qərbi Roma imperatorluğunun da öz iradəsinə bağlandığı qənaətində idi[166]. Priskosun 448-ci ildə hun paytaxtında Qərbi Roma elçisi Romulusdan duyaraq bildirdiyi kimi[167], indi növbə Orta Şərqdəki sasanilərdə idi. Oranın da himayəyə alınması ilə "dünya hakimiyyəti" gerçəkləşəcəkdi. Fəqət bu, Attilaya nəsib olmadı. İtaliya səfərindən dönəndə, rəvayətə görə,

---

[164] B. Szàsz, həmin əsər, s. 356; Alföldi, həmin yer.

[165] Bax: B. Szàsz, A Húnok... s. 348.

[166] Bu qanadla ilgili olaraq "4 köşə"= butung: 1- İskitiya, 2- Germaniya, 3- Şərqi Roma və 4- Qərbi Roma görüşü, bax: aş. Kültür: Hökmranlıq.

[167] F. Altheim, Attila .., s 169; B. Szàsz, həmin əsər, s 298, F. Altheim,Geschichte..., II, s. 182.

zifaf gecəsində daxili qanaxma nəticəsində ağzından, burnundan qan boşalmaq surətilə öldü (453)[168]. Yaşı 60 civarında idi.

Attila millətlərin hafızəsində tarixin ölümsüzlüyə çatmış nadir simalarından biridir. Xatirəsi ətrafında İtaliyada, Qaliyada, german məmləkətlərində, Britanyada, Skandinaviyada və bütün Orta Avropada əsrlərcə ağızdan-ağıza dolaşan əfsanələr törəmiş[169], romançılara, rəssamlara, heykəltəraşlara mövzu olmuş, haqqında ən çox kitab yazılan şəxsiyyətlərdən biri durumuna yüksəlmiş, dramaturqlara, bəstəkarlara ilham vermiş, adına bir düjünə yaxın opera bəstələnmişdir[170]. Son yarım əsrdə aparılan tərəfsiz tarix araşdırmaları onun xristian ortaçağının təəssüb qoxulu uydurmaları ilə əlaqəsi olmadığını, Nibelunq dastanları başda olmaq üzrə o dövrkü qeydlərin onu xeyirxah, babacan, çox yüksək vəsfdə bir hökmdar kimi tanıdığını ortaya qoymuşdur[171].

Attilanın ölümündən sonra xatunu Arığ-kandan doğulan üç oğlu sırasıyla İlək, Dəngizik, İrnək atalarının yerini tuta bilmədilər. İmperator olan İlək qiyam edən german qövmləri ilə girdiyi Nedao (Avstiryada) savaşında həyatını itirdi (454-cü il). Çox cəsur, fəqət siyasi zəkadan məhrum Dəngizik imperiyanın birliyini yenidən qurmaq üçün nəticəsiz mübarizələlər içində çırpına-çırpına, nəhayət, bir bizanslının qılıncı ilə can verdi (469-cu il). İrnək isə böyük qardaşlarının ölümündən sonra artıq Orta Avropada qalmağın çətinliyini anlayaraq, savaşlarda yorğun düşən hunların böyük qismi ilə Qara dənizin qərb sahillərinə döndü. İrnək idarəsindəki hunların öncə Güney Rusiya düzənliklərində görünən, sonra Balkanlarda və Orta Avropada birər dövlət quran bulğarlarla macarların təşəkkülündə böyük rol oynadığı anlaşılmaqdadır. Tarixi qeydlərdə bulğar-türk dövlətinin hökmdar ailəsi olan Dulo (Doulo) sülaləsinə (bax: aş. Böyük Bulğariya dövləti) mənsub göstərilən İrnək macar gələnəklərində, macar qəbilələrini Dunay boyuna gətirərək orada yerləşdirən Arpad xanədanı tərəfindən əcdad olaraq tanınmaqdadır. IV əsrdə hunlara Volqadan qərbə doğru rəhbərlik edən geyik motivli "Sehrli geyik"

[168] Ölümü haqqında digər rəvayətlər və tənqidləri üçün bax: B. Szàsz, həmin əsər, s. 365-368; S. Eckhardt, Efsanede Attila, s. 149-152.
[169] Təfsilən bax: S. Eckhardt, həmin əsər, s. 140-214.
[170] Təfsilən bax: B. Szàsz, həmin əsər, s. 414-417.
[171] S. Eckhardt, həmin yer; A. Alföldi, Menschen, die Geschichte Machten: I, Wien, 1931, s. 229-234; Ş. Akkaya, həmin yer.

əfsanəsində[172] də hunlarla macarlar (Hunor-Moger) qardaş göstərilmişdir (bax: aş. Xəzər xaqanlığı). Nəhayət, Macarıstanda yaşamış sekellərin hunların xidmətçiləri olduğu zənnini oyadan bir başbuğ Çaba əfsanəsi var[173].

Avropa hun kütləsi yalnız bu türk dövlət və toplumlarının təşəkkülünə və kültür yönündən Qərbi Avrasiyaya sağlam bir zəmin verməklə qalmamış, daha mühüm olaraq, Asiya qitəsində yer darlığı, qıtlıq üzündən və ya siyasi-hərbi bir səbəblə sıxıntıya düşən və bu tədirginlikdən qurtulmaq üçün hüzurlu, rahat, hür yeni iqlimlər arayan türk kütlələrinə qərb yönünün açıcısı olmuşdur. Eyni zamanda, yol üzərindəki hind-İran və german qruplarını (alanlar, sarmatlar, qotlar və b.) irəliyə, uzaqlara qovaraq və ya qismən öz içində əridərək təmizləmək surətilə bu yolu sonrakı 900 il müddətlə türk köçlərinin xidmətinə hazırlamışdır. Bu nöqtənin xüsusilə göstərildiyi[174] qərb araşdırmalarında hunlar üzərində Avropanın müxtəlif kültürəl təsiri mövzusunda görülən aşırılıq da diqqətdən qaçmamaqdadır[175].

Attilanın sarayında yabançı kökənli görəvlilərin olduğu, bunların yüksək mövqelər tutduğu və türk, qot, latın dillərinin eyni dərəcədə danışıldığı doğrudur. Ancaq xalqı german və latın olan Avropa qitəsində təbii sayılması gərəkən bu durumun dərin kültür təsirindən ziyadə hun-türk imperiyasının səciyyəsindən doğduğunu qəbul etmək daha isabətli olar. Çünki hun toplumu nə dil, nə də həyat tərzi yönündən dəyişikliyə uğramamış[176], siyasi iqtidar sona çatınca da oraları tərk etmək və türk çevrəsinə dönmək tərcih edilmişdir. Buna qarşılıq, hun hakimiyyəti çağının Avropada aşağıdakı dərin təsirləri olmuşdur:

a) "Qövmlər köçü" yolu ilə etnik (Avropa əhalisinin bir-biri ilə qarışması, təqribən bugünkü durumun təməli);

b) Savaşlar və ya dostca münasibətlər yolu ilə ədəbi (Nibelungen dastanı, əfsanələr və s.);

c) Bozqır sənəti yolu ilə estetik[177];

---

[172] S.Eckhardt, həmin əsər, s.150, 189 və ardı; Gy. Németh, Hunlar ve Macarlar, s. 261-265; B. Szàsz, həmin əsər, s. 400-408; ayrıca bax: B.Ögel, Türk Mitolojisi, s.578-581; A. Ahmetbeyoğlu, Avrupa Hunlarının "Sihirli Geyik Efsanesi", s. 65-68.

[173] B. Szàsz, həmin əsər, s. 408 və ardı; S. Eckhardt, həmin əsər, s. 198 və ardı.

[174] Məsələn, bax: Attila ve Hunları, s. 278.

[175] Xülasətən bax: TM, IX, s. 191-198.

[176] Bax: A. Alföldi, Magyarorszag nepei.., s. 50 və ardı.

[177] Bax: N. Fettich, Hunların Arkeoloji Hatıraları, s. 245-260; B. Ögel, Türk Kültür Tarihi, s. 91-108.

ç) Qərbi Roma imperiyasının yıxılması (476-cı il. İtaliyanın ilk yabançı kralı Odovakar Attilanın sadiq adamlarından Edekonun oğlu idi) və böyük istila hərəkətlərinin başlaması nəticəsində çox mühüm bir tarixi inkişaf olaraq, Roma-german qruplaşma meylinin oyanması[178] yolu ilə siyasi;

d) Hətta kəndlinin və gücsüzün qorunmasına yönələn "cəngavərlik" (dar mənada, atlı savaşçılıq) həyatının və Roma imperatorluq anlayışına qarşı milli duyğuların yaradıcısı olaraq sosial[179];

e) Avropa ordularının türk sisteminə görə islahı hərəkətləri (bax: aş. Kültür: Ordu) dolayısıyla hərbi baxımlardan türk kültür təsirləri Qərbdə bütün orta çağ boyunca davam etmişdir.

## C. Orta Şərq hunları

Ağ hun-eftalit dövləti böyük qismi Volqadan qərbə keçən hunlardan Cənubi İrana və Qərbi Əfqanıstana enən bir bölük olduğu təxmin edilən Orta Şərq hunlarının[180], heç olmazsa, ağ hun-eftalit dövləti xanədan ailəsi ilə hakim zümrəsini təşkil etdikləri irəli sürülmüş və ya bu dövlət töleslərdən chao-chalara (kao-kü)=uyğurların ataları) bağlı hua qolu mənsublarının Cunqariya bozqırlarından Xorasan bölgəsinə keçərək V əsrin ortalarına doğru bir siyasi təşəkkül halına gəlməsi ilə ilgili görülmüşdür[181]. Hun tarixinin bu nöqtəsi olduqca qaranlıq bir mənzərə ərz edir. Hakimiyyətini Xəzər sahillərindən Şimali Hindistana, Əfqanıstana, İç Asiyaya qədər genişləndirən bu qövmün və ya qövmlər toplumunun müxtəlif sənədlərdə bir-birindən fərqli adlarla anılması[182] durumu daha da

---

178 F. Altheim, Attila..., s. 6.

179 Bax: M. Percheron, Les conquerants d'Asie, Paris 1951, s. 60 və ardı; Gy. Németh, Attila ve Hunları, s. 6.

180 F. Altheim, həmin əsər, s. 71; L Ligeti, Attila Hunlarının Menşei, s. 25

181 B. Ögel, İlk Töles Boyları, s. 826. Bu hunların daha o tarixlərdə sasani dövrü pəhləvicə sənədlərində (Bundahişn, Nemokre-Hrad, bax: A. Kollautz, həmin əsər, I., s. 94) və Bizans qaynaqlarında (bax: H.W. Haussig, Theophylactos excurs..., s. 311. n. 96) "Türk" deyildiyi gösərilmişdir.

182 Priskosda "Kidarita və ya kidara hunları". Ehtimal ki, türkcə kiderti, kidirti-batı (A. v. Gabain. Gram., 1941, s. 314) sözündən: "Qərb hunları", yəni ağhunların qərb qanadı, bax: F. Altheim, Geschichte der Hunnen, I, s. 39 və ardı. (R. Ghirshmana görə, kidara əslən yüehçidir. Bax: həmin əsər, s. 190). Digər Bizans qaynaqlarında: khunni, ephtalita, goytürk xaqanı Tardunun məktubunda: abdel; erməni mənbələrində: hephtag, thedal; İran dillərində: khyon, h'yaona, haytal; hind mənbələrində: huna; latın qaynaqlarında: khionita; Suriya

qarışdırmış kimidir. Vaxtilə Ed. Chavannes[183] ye-taların nəşət etdiyi hua (hoa) toplum adı ilə "hun" kəlməsinin yaxın ilgisi olduğunu düşünmüş və J. Marquart[184] dürlü adlarla zikr edilən bu qövmün Priskosdakı kidaritalardan (sasani imperatorluğu hüdudunda Qafqaz dağlarında oturan hunlar) ibarət olduğunu irəli sürmüşdü. Bizanslı tarixçi Theophanesə (VIII əsrin ikinci yarısı) görə, "ephtalit" adı sasani imperatoru Pe-rozu (Firuz, 459-484) məğlub edən hun hökmdarı Ephtalanosdan alınmışdır[185]. Bu adın əslində eftalit pulları üzərində görülən Hephthal-khion olduğu və birinci kəlmənin sülalə adını, ikincisinin də qövm ismini göstərə biləcəyi bildirilmişdir[186]. Digər tərəfdən İskəndəriyyəli Kosmas İndikopleustes (545-549-ci illər arası) ilə Bizans tarixçisi Prokopiosun (545-550-ci illər arası) əsərlərində və əski hind sənədlərində həmin qövmdən ağ hunlar (Bizans: devkhoi ounni; hind: şveta-huna) deyə bəhs edilmişdir[187]. 520-ci ildə ağ hun-eftalit hökmdarını ziyarət edən çinli səyyah Song Yünün qeydlərindən bu qövmün hunlarla qohum olduğu anlaşılırdı[188]. V əsrin ilk yarısında sasanilərlə çarpışan ağ hun hökmdarı "kxaqan" ünvanını daşıyırdı və Əfqanıstan bölgəsindəki ağ hun şahzadəsinin ünvanı da "təgin" idi[189]. Bölgənin yerli xalqının İran mənşəli olduğu şübhəsizdir[190].

Ağ hun-eftalit məsələsi son zamanlarda xüsusilə K. Czegledinin geniş araşdırması ilə[191] olduqca açıqlıq qazanmış görünür. Buna görə, tarixi proses 350-ci illərdə Altay dağları həvalisindən qərbə doğru cərəyan edən böyük köç hərəkəti ilə ilgilidir. İç Asiyada hun idarəsindən sonra iqtidara gələn sien-pilərin yerində qurulan böyük juan-juan dövlətində (bax: aş.) uar və

---

mənbələrində: khiyonaye; İon; Baktriya eftalit pullarında: Oiono; soğdca: khun, khyon; Çin salnamələrində: Yeh-ta, Yeh-ta-i, i-ta, yeh-tai-i-il-t'o.

[183] Ed. Chavannes, Documents sur les Tou-kiue (Turcs) occidentaus, s. 222 və ardı.

[184] Marquart, Über das Volkstum der Komanen, s. 70 və ardı.

[185] Ed. Chavannes, həmin əsər, s. 223.

[186] Bax: W. Samolin, East Turkistan.., s. 53, qeyd 30.

[187] Bax: Gy. Moravcsik, Byz. turc. I, s. 306; H. Humbach, Baktrische Sprachdenkmaeler, s. 31; W. Samolin, həmin əsər, s. 51.

[188] Ed. Chavannes, Voyagə de Song Yun dans l'Udyana ət la Gandhara, s. 402 və ardı.

[189] Bax: F. Laszló, A kágan és családja, s. 31; B. Szàsz, həmin əsər, s. 459; Ed. Chavannes, Documents..., s. 225.

[190] R. Ghirshman, Les Chionites-Hephthalites, Cairo, 1943. Bax: W. Samolin, A Not on Kidara..., s. 295; G. Clauson, Asia Major, N.S. VIII, 1, s. 105; ayrıca, hephtalit qrupu üçün; W. Eberhard, TM, VIII, s. 139 və ardı, 170 və ardı.

[191] Nomádnépek Vándorlasa..., s. 16,64, 53-74.

hun adlarında iki qəbilə qrupu 350-ci illərdə bilinməyən bir səbəblə o dövlətdən ayrılaraq bugünkü Cənubi Qazaxıstan bozqırına gəlmiş, buranın əski hun xalqını Volqaya doğru sürdükdən (Avropa hunları) az sonra cənuba yönələrək Əfqanıstanın Toxaristan bölgəsinə enmişdi. 367-ci ilə doğru buradakı əski Kuşan (Böyük Yüe-çi) ölkəsinə hökm edən "kidarita" xanədanını (ehtimal ki İran mənşəli) da Baktriyaya (Bəlx həvalisi) sürən bu İç Asiyalı kütlə, söyləndiyi kimi, uar (= avar; bax: aş. Avar xaqanlığı) və hun qəbilələr birliyi idi. Bu birlik daha sonra Kang-kü (Çu-Mavəraünnəhr) və soğdun (Səmərqənd və həvalisi) hakimləri olaraq (çincədəki hiung-nu və Avropa dillərindəki hun şəkilləri arasında məhəlli söylənişlərə görə bəzi xırda dəyişikliklər göstərən) yuxarıda sadaladığımız adlar altında anılmışdır[192]. Hakimiyyətini qərbdə Hirkaniyaya (Gürgan, Xəzər dənizinin cənubu) qədər genişləndirən bu dövlət V əsr ortalarından etibarən Heftal adında yeni bir hökmdar ailəsinə sahib olmuş (bu ad ilk dəfə 457-ci ildə görünür) və yıxıldığı 557-ci ilə qədər həm sülalə, həm qövm olaraq (digər adlar və ağ xun adı ilə birlikdə) bu adı da daşımışdır. Aparılan təsbitlərə görə, dövlətdə rol oynayan qəbilələrdən bəziləri bunlardı: kadis-hun (Herat civarında. Pers qaynaqlarında hvon, Prokopiosda eftalit deyə zikr edilən bu qəbilə sonra İranın qərbinə köçmüşdür; "Kadisiya" yer adının mənşəyi, Zavul (Zabul; bundan Zabulistan), Çol (Çöl? Gürgan=Curcaniyə həvalisində), Kərmikhion (Karmir-hyon= Qızıl? hun), Askil-Eskil[193]. Bunlardan heç olmazsa bir qisminin yerli olduğu aşkardır.

Soğd bölgəsini ələ keçirdikdən sonra İran üzərinə basqı edən uar hunların 9 il qədər sürən (358-ci ilə doğru) şiddətli hücumları qarşısında yıxılma təhlükəsi keçirən sasani imperatorluğu II Şapurun qeyrətləri ilə qurtuldu. Hətta iki tərəf arasında ittifaqa varan bir andlaşma oldu və bu durum üç nəsildən artıq bir müddət davam etdi (bu arada, Şapurun 359-cu ildə Amidanın (Diyarbakır) mühasirəsində yardımçı olaraq hun qüvvələri də iştirak

---

[192] Uar-hunların Asiya hun-türk qollan olduğunu göstərən bu müxtəlif adların eyni köktən gəldiyi haqqında təfsilən: K. Czeglédy, həmin əsər, 6. 75-89, W. Samolin, Hsiung-nu, Türk, s. 148 və ardı; F. Altheim, Attila..., s. 34-38. Çin qaynaqlarındakı hua adı da "hun" kəlməsinin deyil, uar adının çincə şəklidir. Hoa isə Qunduz civarındakı paytaxtın adıdır: Bax: K. Czeglédy, həmin əsr., s. 48, 87, 121; müq.et:şərqdə "Hua dövləti" üçün: Liu. Kutscha..., s 165; H.W. Haussig, Die Quellen..., s. 34, qeyd 54.

[193] Bax: K. Czeglédy, həmin əsər, s. 62-74. "Kermikhion"lar (Don çayının doğusundakı türklər? oğurlar?) üçün bax: Ed. Chavannes, Documents,.., s. 231 və ardı; C.A. Macartney, həmin əsər, s. 272, 274; H. W. Haussig, Die Quellən..., s. 37 və ardı və ya Kermi: "Böcək"? A. Kollautz,həmin əsər, 1., s. 163.

etmişdi). Fəqət Bəhram Gur zamanında (420-438) başlayan yeni hücumlar (427-ci ildən etibarən) sasaniləri sarsıtdı. Soğd bölgəsindən Ceyhunun cənubuna doğru gəlişən istila hərəkətinin Bəhram Gur tərəfindən uğurla dayandırılması onun ən şöhrətli ("xilaskar") İran imperatorlarından sayılmasına vəsilə oldu. Xələfi II Yəzdgird zamanının (438-457) sonlarına doğru uarhunların (ağ hun) başında böyük hökmdar, eftal (abdet) xanədanından Künhan (Kun-kan[194], Priskosda Kougkhas, islam qaynaqlarında Akh.ş.n. vardı) İranın daxili işlərinə qarışaraq, himayəsinə aldığı vəliəhd Pe-rozu (Firuz) sasani taxtına çıxarmış (459-484), hakimiyyətini Şimali Hindistana doğru genişləndirərək orada başında Skandaquptanın durduğu Qupta dövlətini dağıtmışdı (470-ə doğru). 484-cü ildə Ceyhun sahillərində ağ hun-eftalitlər tərəfindən məğlub edilərək Herat bölgəsini itirən və illik vergiyə bağlanan sasanilərin[195] bu sırada keçirdiyi dini-ictimai bir sarsıntı ölkələrini ixtilala sürüklədi. Bu, Məzdək üsyanı idi. Məzdək manixeizm inancındakı dualizm-"ikili" düşüncə (işıq-qaranlıq, yaxşılıq-pislik mübarizəsi) üzərinə sosial hüzursuzluq amillərini də əlavə edərək o tarixlərdə yorulan və iqtisadi darlıq içinə düşən toplumu qurtarmaq iddiası ilə fikirlərini yaymağa başlamışdı. Buna görə, insanların səadətini pozan iki ünsür vardı: biri sərvət, digəri qadın. Bunlardan hər ikisi də hamının ortaq malı olduğu təqdirdə yer üzündən şər qalxacaqdı. Bu tipik kommunist təbliğatı nəticəsində ərazi və sərvət sahibləri ilə ailə müəssəsəsinə qarşı provokə edilən xalq Məzdək və müridləri tərəfindən üsyana qaldırıldı. Din adamları və zadəganlar öldürüldü, qadınlar təcavüzə uğradı, evlər və imarətlər yağmalandı, təxrib edildi. Dövlətin möhkəmlənəcəyi xüsusunda Məzdəkə inanmaq qəflətinə düşən Şah Qavad (və ya Qubad, 488-496 və 498-531) da həbs edilmişdi; fəqət o qurtulmaq imkanı taparaq qonşu ağ-hunlara sığındı (496). İranda baş verənləri yaxından təqib edən ağ hun hökmdarı insanlıq yararına heç bir şey görmədiyi Məzdək hərəkatını yox etmək üçün Qubadı 30 minlik hun süvari birliyi başında İrana göndərdi. Bu surətlə şah qiyamı yatırtdı (498-499) və hadisələrin inkişafından fəlakətin dərəcəsini qavrayan xalqın da yardımı ilə Məzdək və tərəfdarları yaxalanaraq edam edildi. Təmizlik və ölkənin sükunətə qovuşdurulması üçün uzun bir zamana ehtiyac duyulduğundan sasani imperatorluğunda haqq, ədalət və mülkiyyət əsasında normal nizam daha ziyadə Qubadın oğlu

[194] Gy. Moravcsik, Byz. turc. II, s. 147; A. Kollautz, həmin əsər, 1, s. 127.

[195] M R. Grousset, L’Empire du Levant, s. 75; K. Hannestad, Les relations..., s. 434-444.

I Xosrov Ənuşirvan (531-579) dövründə qurulmuşdur ki, bu şahənşah tarixdə "Adil" ləqəbi ilə anılır[196].

Çin qaynaqlarına görə, İç Asiyada Xotən, Kuça, Aksu, Kaşğar və ətrafını hakimiyyətlərinə alan ağ hun-eftalitlər[197] bu arada Şimali Hindistanı da zəbt etmişdilər[198]. Bu hərəkat "Təgin" ünvanını daşıyan və Kabildə oturan Toramana adındakı başbuğ tərəfindən idarə edilmişdi[199]. VI əsrin ilk yarısında isə Toramananın oğlu Mihiraqula (Qollas, 515-545) imperiyanın cənub qanadının ən əzəmətli hökmdarı kimi diqqəti cəlb edirdi. Onun ordusunda daima 700 savaş filinin olduğu rəvayət edilir. Fəqət buddist rahiblər (Sonq Yün və ondan bir əsr sonra buraya gələn Hiuen-tsanq) bu hun kralından xoşlanmamışdılar. Çünki Mihiraqula buddizmi ölkəsi, xalqı üçün təhlükəli sayır və buddistləri nəzarət altında tuturdu[200]. Buna qarşılıq, İskəndəriyyədən Hindistana gedən tacir (sonra keşiş) Kosmas tərəfindən və 530-ci il tarixli Gwalior kitabəsi və sanskritcə yazılı "Kəşmir vəqayenaməsi"ndə Mihiraqula Hindistanın ən böyük hökmdarı olaraq təsvir edilməkdədir[201].

İranda Ənuşirvan böyük bir dövlət adamı olaraq yüksəldikcə ağ hun-eftalitlər sönükləşdi. 552-ci ildə Orta Asiyada Göytürk xaqanlığı qurulub İstəmi yabğu Mavəraünnəhr bölgəsində fəaliyyətə keçdiyi zaman iki böyük imperatorluq arasında sıxısan ağ hun-eftalit dövlətinin göytürklərin mücadiləyə girişdikləri juan-juanlarla olan siyasi və qohumluq rabitələri də fayda vermədi. Ənuşirvan və İstəminin müştərək hərəkətləri nəticəsində ağ hun iqtidarı yixıldı və ölkə göytürklərlə iranlılar arasmda paylaşıldı (557-ci il)[202].

Üç qol halında gəlişmiş olan hun siyasi hakimiyyəti Qafqazdakı (Dərbəndin şimalı-Xəzər dənizi arasında) hunların xəzər xaqanlığının idarəsinə girincəyə qədər sürən qısa hakimiyyətləri tarixə qarışdı, bununla bərabər

[196] Təfsilən bax: A. Chnstensen, L'İran sous les Sassanides, s. 311-435; R. Grousset, həmin əsər, s. 80; F. Altheim, Geschichte der Hunnen, III, s. 61-94.

[197] Ed. Chavannes, Documents..., s. 222-225, B. Ögel, İlk Töles Boyları, s. 827 və ardı; Liu, Kutscha..., s. 70,165.

[198] Bu xüsusdaki Gwalior kitabəsi üçün: Au. Stein, White Huns and Kindred Tribes in the History of the Indian North-west Frontier, s. 13 və ardı.

[199] Ed. Chavannes, həmin əsər, s. 225, qeyd 3; B. Szàsz, həmin əsər, s. 463 və ardı.

[200] Ed.Chavannes, həmin əsər, s. 224 və ardı; Au.Stein, həmin əsər, s. 11.

[201] Au. Stein, həmin yer; B. Szàsz, həmin əsər, s. 463 və ardı.

[202] Bax: K.Czeglédy, Nomád népek.., s.114. Təfsilən bax: Ed.Chavannes, Documents..., s. 225-229; F. Altheim, Geschichte der Hunnen, I, s. 32-56,11, s. 47-58, 259 və ardı, 265-290; K. Hannestad, Les relations, s. 445-452. Orta Şərq hunları ilə bağlı pullar üçün bax: R. Gobl, Documents zur Geschichle der iranischen Hunnen in Baktrien und İndien, I-IV, 1967. Qafqaz dağlarıda qalan hun qolu üçün son olaraq bax: P.B. Golden, Khazar Studies..., s. 90-93.

hunlara mənsub türk soyundan müxtəlif kütlələr böyük hun çağında zəngin kültürləri ilə Asiya, Avropa və Afrika qitələrində tabğaç, göytürk, türgiş, qarluq, uyğur, oğuz, bulğar, sabar, xəzər, kuman, peçeneq və bu kimi dürlü adlar altında yeni, güçlü dövlətlər, imperiyalar quraraq yaşamağa davam etmişlər. Türk milləti deyilən böyük ailənin uşaqları olan bu kütlələr eyni zamanda rus, macar, slavyan-bulğar, rumın, gürcü dövlətlərinin qurulmasında və inkişafında başlıca rol oynamış və daha sonrakı bütün islam-türk siyasi təşəkküllərinə hərbi, hüquqi və sosial yönlərdən ana qaynaq vəzifəsini görmüşlər.

## 2. TABĞAÇ DÖVLƏTİ

IV əsrin sonlarına doğru Şimali Çində (Şan-sinin şimalı) qüdrətli bir siyasi təşəkkül meydana gətirən, çinlilərin to-ba (və ya to-pa) dedikləri toplumu türklər "tabğaç" adlandırmışlar[203]. Orxon kitabələrində tez-tez rast gəlinən və göytürklər vasitəsi ilə Bizans qaynaqlarına da "Taugast" şəklində[204] keçən “tabğaç” kəlməsi "Çin" mənasında da işlənmişdir. Çünki göytürklərin ilk zamanlarında türklərin "böyük" deyə tanıdığı bu sülalə Şərqin qüdrətli xanədanı olaraq Çində hökm sürməkdə idi. Əslində türkcə "ulu, möhtərəm, sayğıdəyər" mənalarını ifadə edən tabğaç təbiri[205], bilindiyi kimi, sonra bəzi qaraxani xaqanları tərəfindən ünvan olaraq (tafğaç, tamğaç) işlənmişdir. Mahmud Kaşğarinin türklərdən bir bölük olduğunu qeyd etdiyi tabğaçlar[206] Çin salnamələrinə görə, Asiya hunlarının bir qismidir və sülalənin rəsmi tarixində (Wei-shu) Mo-tun əski to-pa (tabğaç) hökmdarı olaraq göstərilmişdir[207].

Tabğaçların örf, adət və gələnəklərindən çoxu: qurd əfsanəsi, mağara, dağ, meşə kultları[208], qoç əfsanəsi və s. (bax: aş. Kültür: Dastanlar) türklərlə ilgili olduğu kimi dillərinin də türkcə olduğunu ortaya qoyan dəlillər vardır: bitegçin (bitikçi, katib; xarici işlər naziri?), kapukçın (qapıcı; hacib?), atlaçın (atlı, süvari birliyi), tabağçın (yaya, piyada birliyi), korakçın (qoruyucu, mühafizə alayları), yamçın (poçt sürücüsü), hiençin (poçt mənzilləri ida-

203 Tabğaçın çincələşmiş şəkti=to-ba (və ya to-pa), bax: P. Pelliot, Toung Pao, 1912, s. 732; W. Eberhard, Çin Tarihi, s. 168; H. Franke, Oriens III, l, s. 136.

204 Gy. Moravcsik, Byz. turc. II, s. 255; Gv. Németh, A Honfoglaló.... s. 101; Ed. Chavannes, Documents..., s. 265,qeyd 5.

205 Kaşğarlı Mahmud, DLT, I, s. 453; ayrıca: türkcə "tab+gaç"- sahib "possesseur", bax: Bazin, Cahiers d’histoire mondiale I, 1, s. 135; yenə onun: TP, 39, s. 294; J. R. Hamilton, Toquz-oguz..., s. 54.

206 DLT, I, s.458.

207 P. A. Boodberg, The Language of the T’o-pa Wei, s. 179.

208 W. Eberhard, Çin’in Şimal Komşuları, s. 79 və ardı.

rəçisi; xançı?), aşçın (aşçı; mətbəxçi başı?), törü (qanun, törə), il (dövlət) və s.[209].

Tabğaç hökmdarının ağzından türkcə belə bir ibarə nəql edilmişdir: “Atığ bəlgütəg" (yəni "bir (başbuğa verilən) ad (onun gördüyü) işi göstərməli, bəlgələməli”)[210]. Weishu, Nan chi-shu, Liu-Sung-shu kimi Çin qaynaqlarına keçən bu kəlmə və təbirlər eyni zamanda tabğaçların dövlət idarəsi və hərbi quruluşları haqqında da bilgi verir. Bununla bərabər, bu türk dövlətində olduqca böyük ölçüdə monqolların da yer aldığı anlaşılır. Araşdırmalarda bir ara sien-pilər arasında görünən tabğaçlara tabe qəbilələrdən kimlikləri təsbit edilə bilənlərin yarısından çoxunun monqol mənşəli olduğu nəticəsinə varılmışdır[211]. Ancaq monqollar digər tunquzlar və çinli xalq ilə birlikdə, şübhəsiz, təbəə durumunda idilər.

Öncə Şimali Şan-sidə Tai paytaxt olmaq üzrə kiçik "Tai və ya I To-pa" dövlətini (315-376) quran  tabğaçlar daha ilk başbuğları olaraq bilinən Şa-mo-handan (ölümü: 377) etibarən digər kiçik hun dövlətləri və sien-pi kütlələri ilə mücadiləyə girişdilər və nəhayət Chin dövləti başındakı Tibet mənşəli Fu-Chien iqtidarının çökməsi (384) nəticəsində ətrafdaki məhəlli hökumətcikləri (16-dək) idarələri altına alaraq böyük dövlət halına gəldilər[212].

Tabğaç dövləti (386-556) çinlilərin Wei (Pei-Wei = Şimali Wei) adını verdikləri hökmdar ailəsindən Kuei zamanında (386-409) verimli torpaqların Şərqi Çindəki dağınıq siyen-pi qruplarından zəbt edilməsi ilə inkişaf etdi. Kiçik Tsin (394-cu ildə) və Liang (403-cü ildə) dövlətləri tabe edildi. Paytaxtı Pinq-çenq (Tai) şəhəri idi. Az sonra dövlətin nüfuzu bir yandan Pekin yaxınlarına, bir yandan Huang-ho çayı dirsəyinə qədər uzanmışdı. Şimal istiqamətində siyen-pilərin varisi olaraq IV əsr sonlarından etibarən qüdrətli bir siyasi təşəkkül durumuna girən monqol mənşəli juan-juanlar

[209] P. A. Boodberg, həmin əsər, s. 168-185. Ayrıca bax: P. Pelliot, M, I, 1925, s. 254 və ardı; yenə onun: TP. XXVII, s. 194 və ardı; L. Ligeti, KCsA, II, s. 326-329; X. Eberhard, Belleten, sayı 35, s. 332; G. Clauson, Türk, Mongol, Tungus, s. 116.

[210] 210 Bax: P. A. Boodberg, həmin əsər, s. 175; daha bax: L. Bazin, Recherches sur les parlers To-pa, s. 228 və ardı.

[211] W. Eberhard, Toba’lar Etnik Bakımdan Hangi Zümreye Girərlər?, s. 19-32; yenə onun: Çin Tarihi, s. 136 və ardı. "Qəbilələrin təqr. 60 %-i türk, 35 %-imonqol; iki tunquz və bir hind-avropalı qəbilə", bax: W. Eberhard, Conquerors and Rulers, s. 68 və ardı.

[212] W. Eberhard, Çin Tarihi, s. 137-159.

üzündən[213] ciddi bir genişlənmə meydana gəlmirdi. İki dövlət arasında bəzən çox şiddətlə cərəyan edən mübarizə 150 ilə qədər sürmüşdür. Hökmdar Sseudan (409-423) sonra Çinin paytaxtları Lo-yanqı, (Ho-nan'da) və Ç'anqanı (bugün Si-nqan-fu, Şan-si-də) ələ keçırərək hakimiyyətini Sarı-çay bölgələrinə yayan və bütün Şimali Çini tək idarə altında birləşdirən böyük imperator T'ai-wu dövründə (424-452) tabğaç dövləti ən parlaq çağını yaşadı. Öncə II Ts'in dövlətini özünə tabe edən, 427-ci ildə Hun Hsia dövlətinin paytaxtını alaraq bütün torpaqlarını ələ keçirən (431) və 425-ci ildən etibarən juan-juanları məğlub edərək bugünkü Daxili Monqolustanı istila edən (436) və 435-439-cu illərdə hakimiyyətini qərbə doğru genişləndirərək, Daxili Asiyadakı Wu-sun, Yue-pan ölkələrini və Kuça, Kaşğar, Karaşar, Turfan başda olmaq üzrə 30-a qədər şəhər-dövlətciyi öz idarəsinə bağlayan Pai-wu 439-cu ildə Kansudakı (Gu-tsanq=Kan-çou) hun dövlətini (Şimali Lianq) ortadan qaldırdı[214]. Beləliklə, ünlü İpək yolu güzərgahı təkrar türk hakimiyyətinə keçmiş oldu. 450-ci ildə cənubda Yanq-tse çayına da çatan Tai-wu[215] Çin əsgərinin "daydan və dəvədən fərqsiz" olduğunu söyləyir, özü "Börü"[216] ləqəbini daşıyırdı[217]. İmperatorluq mərkəzini türk həyat şərtlərinə olduqca uyğun gələn bozqır bölgəsində (Şimali Şan-si) tutan Taiwu o sıralarda Çində yayılmaqda olan buddizmin türklər arasında nüfuzunu önləməyə çalışır, idarəsi altındakı Çin torpaqlarında belə buddistlərin fəaliyyətlərinə nəzarət edirdi. Məbədlərdə ayinlər dışında dini təbliğatı yasaqlayan bir fərman vermiş (438) və 446-cı ildə əmrə riayət etməyənlərin şiddətlə təqib edilməsinə göstəriş vermişdi[218]. Tai-wunun türk bünyəsini və səciyyəsini buddizmin pozucu təsirindən qorumaq məqsədini güdən bu tutumunun məna və dəyəri çox sonra anlaşılmışdır. Tədbirlərin əhəmiyyətini fərq edə bilməyən xələfləri zamanında yasaq əmri yumşalan buddizm hətta himayə edilmişdi. İmperator Wen-çenq (Siun və ya Sün, 452-465) və I Honq (Hienwen, 465-471) zamanlarında Daxili Asiyada tabeliyə alınan şəhər-dövlət sa-

---

[213] P. Pelliot, TP, XXXI, 4, s. 235. Təfsilən bax: P Olbricht, ÜAJhb. XXVI, 1-2, s. 90-100; W. Samolin, East Turkistan..., s. 52.

[214] Liu, Kutscha..., s. 68 və ardı., 158 və ardı. Təfsilən, O. Franke, Geschichte des Chineischen Reiches, II, s. 182-205. A. Kollautz, həmin əsər, I, s. 113 və ardı.

[215] Bax: O. Franke, həmin əsər, II,s. 202; R.Grouset, L'Empire des Steppəs, s. 103-106.

[216] Böri=qurd, çincə şəkli fo-li, fu-li, bax: P. Pelliot, Histoire des campagnes de Cengis Khan, s. 189 və ardı.

[217] P. A. Boodberg, The Language..., s. 178.

[218] Təfsilən, J. R. Ware, Wei shou on Buddhism, s. 137-143; R. Grousset, həmin əsər, s. 106; W. Eberhard, DTCF Dergisi, IV, 3, s. 299 və ardı; A. Kollautz, həmin əsər I, s. 292.

yının 50-yə çıxarılması (456), juan-juanların ağır məğlubiyyətə uğradılması (458-459)[219], Cənubi Çin dövlətindən (Liu Sunq) bəzi bölgələrin alınması (466-469-cu illər arasında) kimi böyük hərbi uğurlara baxmayaraq getdikcə inkişaf edən buddizmin yayılması sonra büsbütün sürətlənərək tabğaç toplumunun çinliləşməsinə zəmin hazırladı. 480-ci ildən etibarən Kuça və ətrafını juan-juanlara qapdıran və 494-cü ildə paytaxtı dövlət məclisinin müxalifətinə rəğmən bozqır bölgəsindən cənubdaki əski Çin mərkəzi Lo-Yanqa nəql edən imperator II Honq (Hio-wen, 471-499) türk törəsinə qarşı ağırlıq qazanan bu soysuzlaşmanı (479-cu ildə yalnız paytaxtda 100 tapınaq və 2000-dən artıq rahib var idi) 495-ci ildə türk örfünü, gələnəklərini, geyimini, tabğaç dilini və hətta yazışmalarda türkcə təbirlərin işlədilməsini yasaqlamaqla tamamladı[220]. Buna qarşı dörddə bir əsr qədər davam edən reaksiyalar basdırıldı. Süan-wudan (499-515) sonra idarəni təhvil alan imperatoriçə Hu (515-528) buddizmə o qədər düşkün idi ki, xarici ölkələrdəki dindaşları ilə də maraqlanırdı. 520-ci ilə doğru Hindistanda ağ hun-eftalit hökmdarı Mihiraqulanı ziyarət edn çinli buddist rahib bu kraliçənin arzusu ilə səyahət edirdi. Beləliklə, türk atalarının hərbi vəsfini itirən tabğaç dövləti[221] yeni bölgənin və yerli Çin xalqının səbəb olduğu iqtisadi[222] və sosial[223] səbəblərdən də gücünü getdikcə itirirdi. Bütün Şimali Çinə hökm etmiş olan bu dövlət 534-ci ilə doğru şərq (Ho-nan'da) weiləri və şimal və ya qərb (Ç'ang-an'da) weiləri olaraq ikiyə ayrıldı və qısa zaman sonra bütün əraziləri çinli xanədanların əlinə keçdi (Şərq weiləri yerinə Tsi (Chi) sülaləsi: 550-577, qərb weiləri yerinə Chou sülaləsi: 557-581)[224].

---

[219] İzdihamlı bir juan-juan kütləsinin (bax: aş. Avar xaqanlığı) şimal-qərb istiqamətində çəkilməsinə səbəb olan bu zəfərin çox mühüm bir hadisə olduğu anlaşılmaqdadır. Çünki qaçan juan-juan kütləsinin basqısı qarşısında, 461-465-ci illərdə Sibirdəki yurdlarını tərk edib qərbə doğru çəkilməyə məcbur qalan sabar türklərinin tarix səhnəsinə çıxması və bunların önündən çəkilərək Şimali Qafqaz dağlarına varan oğur türk boylarının Bizans ilə təmas qurması bu hadisə nəticəsində mümkün olmuşdu. Bax: J.Hamilton, Toquz-Oguz et On-Uygur, s. 34; A. Kollautz, həmin əsər, I, s. 138 və ardı; ayrıca bax: aş. sabarlar,oğurlar.

[220] W. Eberhard, DTCF Dergisi, 1, 2, s. 19; O. Franke, həmin əsər, s. 213.

[221] R. Grousset, həmin əsər, s. 108; J. R. Ware, həmin əsər, s. 178 və ardı.

[222] Təfsilən bax: W. Eberhard, Tobaların Hayvancılığı, s. 485-494; yenə onun: Toba'larda Ziraat, s. 81-95.

[223] Çin geniş ailə sistemi qarşısında dəyişən kiçik tabğaç ailəsi, bax: W. Eberhard, Çin Tarihi, s. 163.

[224] Təfsilən O. Franke, həmin əsər, II, s. 228-250; W. Eberhard, Das Toba-Reich Nordchinas, 1949; bax: H. Franke, Oriens, III, 1, s. 136-139.

## 3. GÖYTÜRKLƏR

Asiya Böyük Hun imperiyasından sonra təmsil etdiyi türk kültürü etibarilə hər baxımdan II super türk imperatorluğu keyfiyyətində olan Göytürk xaqanlığı «türk» sözünü ilk dəfə rəsmi dövlət adı olaraq mənimsəməklə bütün bir millətə ad vermək şərəfini qazanmış, Şərqi Sibirdəki yakut türkləri ilə qərbdə oğur (bulğar) türklərinin bir qismi dışındakı türk əsilli bütün kütləl əri öz idarəsində birləşdirmişdir. Xaqanlığın yıxılmasından sonra bir yelpazə kimi açılaraq dörd tərəfə yayılan müxtəlif türk zümrələri getdikləri yerlərdə "türk" adını və Göytürk idari, siyasi və iqtısadi gələnəklərini yaşatmışlar. Yenə bütün bu türklərin tarixində Göytürk təşkilatının, ədəbiyyatının, törə və həyat düşüncəsinin izləri görülmüşdür. Göytürklərdən sonrakı çağlarda r türkcəsi (oğur ləhcəsi) istisna olmaqla, bütün türk ləhcə və ağızları Göytürk türkcəsinin damğasını daşıyır. Şərqdən qərbə: Orta Asiya, Türküstan, Mavəraünnəhr, Şimali Hindistan, İran, Anadolu, İraq, Suriya və Balkan türkləri göytürklər yolu ilə türkdür. Bizim bugün digər türk dövlət və zümrələrindən ayırd etmək üzrə göytürk (kök-türk) dediyimiz bu toplum və dövlətin[225] adı «türk» və ya "türük" idi. Ancaq kitabələrin bir yerində özünü göytürk[226] olaraq tanıtmışdır[227] ki, "göyə mənsub, ilahi türk" mənasına gələn bu təbir V. Thomsenə görə[228] xaqanlığın parlaq dövrünə işarət edir (hər halda Mu-kan kağan zamanı)[229]. Göytürk xaqanlığı çağında, daha doğrusu VI-IX əsrlərdə Orta Asiyada tarixi rol oynayan toplumların müxtəlif adlar altında qruplaşan töleslər olduğu anlaşılmaqdadır. Türkcə

[225] Bu türk bölümü üçün "kök-türk" deyimi ilk dəfə W. Bang tərəfindən işlədilmişdir. Bax: TP. VII, 1896, s. 325 və ardı.

[226] "Kök-türk", bax: I kitabə=Kül Təgin, şərq cəbhəsi, sətir. 3. Həmin ibarə, II kitabə= Bilgə kağan, şərq, sətir 4. Bax: H. N. Orkun, ETY, I, s. 31.

[227] "İdi-oksız Kök-türküt (=müstəqil Göytürk), Kitabələr, həmin yer. Ayrıca bax: aş. Kültür: Eldə istiqlal.

[228] Bax: Inscriptions de l'Orkhon..., s. 238 (qutsal göyün /səma/ rəngindən dolayı); yenə onun: Turcica, s. 18 və ardı. Ayrıca bax: R. Giraud, L'Empire des Turcs celestes, s. 15.

[229] Bax: Liu, Die chinesischen Nachrichten ntr Geschichte der Ost-türkən (T'u-küe), I, s. 127 və ardı; II, s. 654, 656, 658-659, 663.

töles kəlməsi ehtimal ki, "əsl, kök, təməl" mənalarına gəlməkdədir. Bax: L. Bazin, Les Calendriers..., s. 661, 667.

Töleslər (tölös, tolis, çincə t'ie-lo, t'ieh-le) Çin qaynaqlarında əski hun boylarından olduğu zikr edilən və bütün Orta Asiyaya yayılmış izdıhamlı türk kütlələrinin məcmusudur. Sui-shuda (Çin Sui xanədanının 581-618-cı illər salnaməsi) 50-yə qədər qəbiləsi sayılmaqda və belə sıralanmaqdadır: biri Baykal gölünün şimalında, beşi Tola çayının şimalında, beşi Tanrı dağlarının şimal ətəyində, doqquzu Altay dağlarının cənub-qərbində, dördü K'ang (Səmərqənd həvalisi) krallığının şimalında, onu Seyhun boyunda, dördü Xəzərin şərqində və qərbində, altısı Fu-linin (Bizans) şərqində[230]. Ancaq Baykal gölündən Qara dənizə qədər yayılan bu toplumların hamısını türk mənşəli saymaq doğru olmazdı. Ən qərbdə göstərilən bəzilərinin (məsələn, alanlar) iranlı olduqları bilinir. Wu-hunlar (=uqor) isə urallı bir qövm qrupudur[231]. Ayrıca, oğur boylarının da ti'eh-lelər olaraq zikr edildiyi anlaşılmaqdadır[232]. Töles boylarının daşıdıqları adlar hələ tamamən çözülməmiş olmaqla bərabər, hunlardan gəldikləri və ümumiyyətlə dil və örflərinin göytürklərinkinin eyni olduğu göstərilmişdir[233]. Bəzi Çin mənbələrinə görə, tabğaçlar dövründə (386-534) yüksək təkərli arabadan istifadə etdiklərindən dolayı kao-kü (chao-che = yüksək təkər) deyə adlandırılan bir qisim töles qəbilələri[234] digər türklər kimi özlərini qurd əcdaddan törəmiş sayırdılar[235]. Ayrıca, T'ang-shuda (Çının Tanq sülaləsi, 618-906-cı illər salnaməsi) on beş töles qəbiləsinin adı verilmişdir[236]. Göytürk xaqanlığı dövründə Orta və

[230] Bax: Ögel, Belleten, sayı 33, s. 82.

[231] Bax: K. Czeglédy, Nomád népek..., s. 103,107 və ardı.

[232] Liu, həmin əsər, s. 127, 354; W. Eberhard, Çin'in Şimal Komşuları, indeks, s. 278; Ed. Chavannes, Documents..., s. 94. Tie-loların türk oğur qrupuna mənsub ting-linglərlə eyni olduğu haqqındakı görüş (bax: K. Czeglédy, həmin əsər, s. 18, 22, 49,160), m.ö. əsrlər üçün doğru ola bilər. Daxili Asiyada vu-sunların qərbindəki kimlikləri yaxşı təsbit edilə bilməyən tinq-linqlər (bax: Eberhard, həmin əsər, s.70 və ardı, 73) də hər halda töleslərdən idilər.

[233] Çincədəki tie-lo şəklinin türkcə əsli təgrəg = yuvarlaq, təkərlək olabilər. Bax: J. Hamilton, Toquz-Oguz..., s. 26. Bəlkə daha doğrusu türkcə töles, teles, teleç=kök, özdür (teleç bulğar türkcəsindəki şəkil). Bax: L. Bazin, Les Calendriers... s. 661,667.

[234] Ed. Chavannes, həmin əsər, s. 87, n. 2; 220, qeyd 3; Fr. Hirth, Nachwortezur Inschrift des Tonjukuk, ATİM, s. 37-43; B. Ögel, Doğu Gök-Turkleri Hakkında Vesikalar və Notlar, s. 96 və ardı.

[235] Ed. Chavannes, həmin əsər, s. 87, qeyd 2.

[236] Burada sir-tarduş olaraq keçən və Bilgə kitabəsində (1 dəfə) "sir tokuz oğuz" və Tonyukuk kitabəsində "türk sir bodun" şəklində (5 dəfə) işlənən sir (və ya sır=sıra, şir?) deyimi (indiyə qədər verilən müxtəlif mənalar: yaxşı, əsalətli, qərb, sülalə, birləşik) arasında ən isa-

Şərqi Asiyada qruplaşan töleslərlə digər ilgili bölgələrdəki toplumlar bunlardır:

1. Tarduş (çincədə sie yen-t'o, hsieh yen-t'o. Hsie=sir / yen-t'o=Tarduşlar?)[237]. Töles qəbilələrindən bir qrup (hər halda tarduş, xaqan Tardunun ünvanı ilə anılanlar: qərb göytürkləri=on-oxlar) Altayların qərbində yaşayır və töleslərin ən zəngin və qüvvətliləri olaraq göstərilirlər[238].

2. Uyğurlar. Töleslərdən bir kütlə. Tola çayının şimal sahəsində məskun olmuşlar (aş. bax).

3. On-oxlar (ehtimal ki, tarduş deyə də adlandırılan töles qrupu), Altaylardan Seyhun (Sır-dərya) yaxınlarına qədər uzanan geniş bölgədə görünürlər. Çu çayı-Issık gölə nəzərən beşi şərqdə to-lu (sol qanad), beşi qərbdə nu-şi-pi (sağ qanad) adı ilə on qəbilədən ibarət olub, "qərb göytürkləri" adlanmışlar[239]. Türgişlər (aş. bax) to-lulardan idilər. Ayrıca, bunlardan bir qismi çu-yüe (çigil?) və çu-mi (çumul) adları ilə anılan türk qəbilələri ilə birlikdə 630-cu ildən sonra göytürk xaqanlığının fətrət dövründə Beş-balıq civarındakı quraq bozqırlara çəkilmişlər və şa-to (çincə çöl və ya türkcə sadak (?) və ya çigillər?) adını almışlar[240].

4. Qarluqlar: Altayların qərbində idilər (aş. bax).

5. Oğuzlar (630-cu ildən sonra bu adla ortaya çıxan töles boyları). Selenqa çayı - Ötükən bölgəsində məskun idilər (aş. bax).

6. Şərqi Avropada türk toplumları: avarlar (aş. bax), xəzərlər (aş. bax), oğurlar (aş. bax), peçeneqlər (aş. bax), ehtimal qıpçaq-kumanlar (aş. bax) və b.

---

bətlisi "birləşik" olmalıdır. Bu məna dövlət quruluşu ilə açıqlana bilər (bax: sir-yabğu). K. Czeglédyə görə (Ğogay-quzı..., s. 65 və ardı), hsieh yen-to adı "sir" və "yen-to" deyə anılan iki türk qrupunun meydana gətirdiyi birliyi göstərməkdədir. Tarduşlar ayrı bir türk qrupu olaraq varlığını davam etdirmiş, fəqət sirlər VIII əsrin ikinci rübündə göytürk kütlələri ilə qarışmışlar (buna qarşı bax: P.A.Boodberg, ThreeNotes..., s. 4-7). L. Bazinə görə, (Les Calendriers..., s. 266), şərqdəki töleslərə müqabil qərbdəki qrup: tarduş.

[237] Ed. Chavannes, Documents..., s. 95; Liu, həmin əsər, I. s. 354 və ardı.

[238] Ed. Chavannes, həmin əsər, s. 21, 27, və ardı., 34, 269-273; V. Thomsen, Turcica, s. 5-8; Liu,həmin əsər, I, s. 258. Qərbi Göytürk xaqanı tərəfindən 635-ci ildə ölkə iki idari bölgəyə ayrılmışdı. Ed. Chavannes, həmin əsər, s. 27,55.

[239] Bax: J. R. Hamilton, Les Ouighours a lepoque de Cinq dynasties..., s. 135; W. Eberhard, Conquerors, s. 89 və ardı; W. Eberhard, Çin Tarihi, s. 215-218, 231; yenə onun: Şato Türklerinin Kültür Tarihine Dair, s. 15-26; yenə onun: The Foundation of Sha-t'o Power in North-China, s. 1-13.

[240] Kitabələr, II, şərq, sətir 25.

7. Qırğızlar. Baykalın qərbində, Yenisey çayının qaynaqları bölgəsində idilər (aş. bax).

8. Basmıllar (çincədə pa-si-mi). İdi-kutunun, yəni hökmdarının türk olduğu bildirilən[241] bu qövmün mənşəcə yabançı olub, türklərlə qarışdığı irəli sürülmüşdür[242]. Daha ziyadə Daxili Asiyada Beş-balıq həvalısində görünməkdədirlər.

9. Ki-tan, tatabı, dokuz-tatar, otuz-tatar kimi monqol soyundan qəbilələr şərq bölgəsində Kərulən və Onon çayları həvalisində idilər. Ancaq xatırlatmaq gərəkir ki, bütün bu toplumlar zaman-zaman yer dəyişdirməkdə, arada bir çözülən boylardan yeni birliklər meydana gəlməkdə, xülasə, oynaq kütlələr təşkil etməkdə idilər. Yenə görülməkdədir ki, tarduş, uyğur, on-ox, oğuz, oğur, xəzər və s. kimi isimlər türk soyundan gələn kütlələrin dürlü təşkilatlanmalar dolayısıyla aldıqları adlardan ibarətdir. Türk də bilinən mənası ilə öncə müəyyən bir toplumun (Aşina ailəsi ətrafında toplananların) adı ikən sonralar yayğınlaşmışdır.

Çin qaynaqlarının açıqca göstərdikləri kimi, göytürklər Asiya hunlarından idilər[243]. Başbuğ ailəsi olan Aşina soyunun bir dişi qurddan törədiyinə dair o çağda çox yayğın olduğu anlaşılan rəvayətlər[244] göytürklərin erkən tarixini əfsanələrlə qarışdırmışdır. Ancaq qurddan törəmə gələnəyinin Asiya hunları arasında da mövcud olması[245] və qurd əcdadın türkləri dar, keçilməz yollardan səlamətə çatdırdığı (Bozqurd dastanının əsli) rəvayətinin hunlarda görünməsi[246] göytürklərin hunlara qohumluğunu ortaya qoymaqdadır. Aşina ailəsinin yalnız bir oğlan uşağı həyatda qalmaq üzrə qətliama uğramış olduğu rəvayəti[247] Tsü-kü (əslində Asiya hun dövlətində bir ünvan) adlı hun ailəsinə[248] mənsub Mənq-sün tərəfindən qurulan Şimali Lianq hun dövlətinin (yux. bax) 439-cu ildə tabğaçlar tərəfindən yıxılması hadisəsinə bağlamaq mümkündür. Sui-shuya (Çin salnaməsi, 581-618) görə, bu hun

---

[241] Bax: Eİ, Türks.

[242] Chou-shu, Sui-shu, T'anq-shuda, bax: Liu, həmin əsər, I, s. 5, 181; W. Eberhard, Çin'in Şimal Komşuları, s. 86, 90 və ardı.

[243]Bax: Liu, həmin əsər I, s. 5 və ardı, 40.

[244]W. Eberhard, Çin'in Şimal Komşuları, s. 91-104.

[245] P. A. Boodberg, The Language..., s. 182.

[246] Təfsilən bax: B. Ögel, Türk Mitolojisi, s. 18-28.

[247] W. Eberhard, Türk Kavimleri Hakkında ÇinceVesikalar, II, s. 158, III, s. 232.

[248] Liu, həmin əsər, I, s. 40; W. Eberhard, Çin'in Şimal Komşuları, s. 97, 197; yenə onun: Çin Tarihi, s. 153,172; B. Ögel, Doğu Gök-Türkleri Hakkında Vesikalar ve Notlar, s. 91-95; A. v. Gabain, Hunnisch-Türkische Beziehungen, s. 18.

dövlətində idarəni əlində tutan tsü-külər (chü-chü) məhv edildiyi zaman Ashih-na (Aşina) qolu 500 ailəlik bir kütlə halında Kan-su bölgəsindən köçərək juan-juanlara sığınmışdı[249]. Göytürklərin nüvəsini təşkil etdiyi bildirilən və Mənq-sünün oğlu An-çu və sonra nəvəsi Şunun öldürülməsi nəticəsində öncə Hsi-haida ikən[250] sonra Altaylara nüfuz edən bu kütlə chüchülər (tsü-kü) yolu ilə Asiya hunlarına bağlanmaqdadır[251] və hətta bu qısa köç hərəkətini idarə edən Aşina soyunun cənubi hun tanhuları yolu ilə Motunun mənsub olduğu ünlü t'u-ko (tu-ku) ailəsindən gəlməsi qüvvətlə ehtimal edilir. (Təfsilən bax: aş. Kültür: Dastanlar). Qurd əcdad inancı dolayısıyla göytürklərin xaqanlıq bəlgəsi qızıldan qurdbaşlı sancaq (tuğ) olmuşdur[252].

### a) I Göytürk xaqanlığı

Göytürklərin VI əsrin ilk yarısında Altay dağlarının şərq ətəklərində və mədən istehsal edilən yaxın bölgələrdə (Yarkənd, Kaşğar, Kuça və b.) ənənəvi sənətləri olan dəmirçiliklə uğraşdıqları və juan-juan (bax: aş. Avar xaqanlığı) dövlətinə silah emal etdikləri bilinir. Fəqət o zaman da dağınıq idilər. Chou-shuya (Çin salnaməsi, 557-581) görə, göytürk dövlətinin qurucusu olan Bumının (çincə Tu-mən) atası A-hien "şad" ünvanını daşıyır ("Bilgə şad") və Bumından öncə gələn Tu-wu adlı başbuğ isə Ta Ye-hu ("böyük yabğu") olaraq tanınırdı[253]. Deməк ki, türk kütləsinin juan-juanlarla bağlılığı daha ziyadə "federativ" mahiyyətdə idi. Bumın hələ 534-cü ildə şimal (qərbi) tabğaç (wei) hökuməti ilə siyasi münasibət qurmuş, 542-ci ildə axınçılarının başında Huang-ho çayı yaxınlarında görünmüş və 545-ci ildə tabğaç hökmdarının göndərdiyi elçini "İmperatorluqdan nəzdimizə heyət gəldi, dövlətimiz bundan qürur duyur" sözləri ilə qarşılamışdı[254]. Göytürk

---

[249] Göytürk mənşə əfsanəsində So və ya Sou ölkəsi, bax: Liu. həmin əsər. I, s. 5; B. Ögel, Türk Mitolojisi, s. 27. Türklərin xaqanı Şu ilə ilgili xatirə, bax: DLT, III, s. 415 və ardı.

[250] Hsi-hai=Qərb dənizi=Etsin- göl bataqlıqları: Turfan (Kao-chang) yaxınlarında. Bax: S.G. Kljaštorny-V. A. Livšič, The Sogdian İnscription of Bugut, s. 71, qeyd 2.

[251] Liu, həmin əsər, s. 40, qeyd 209; yenə onun: Kutscha..., s. 165 və ardı.

[252] Ed. Chavannes, Documents, s. 49, 220, qeyd 3; Liu, Diechinesischen.., I, s. 9, 59, 181; Üç Tuğlu Türk Bodun=II Göytürk xaqanlığı? bax: Kitabə, Şine-usu, şimal, sətir 8.

[253] Bax: Liu, həmin əsər, I, s. 6.

[254] Liu, həmin əsər, I, s. 6 və ardı.

xanlarından İşbara 585-ci ildəki nitqində göytürk dövlətinin "50 il öncə" qurulduğunu söyləmişdi[255] ki, bu da 535-ci il tarixinə uyğun gəlir.

Ancaq juan-juan dövlətinə qarşı bir töles üsyanını basdıran (546) Bumının juan-juan hökmdarı ilə eyni dəyərdə olduğunu göstərmək üçün onun qızı ilə evlənmək arzusunun qaba şəkildə rədd edilməsi nəticəsində qərbi tabğaç şahzadəsi ilə evlənərək vurduğu ağır zərbələrlə juan-juan dövlətini çökərtdikdən (552-ci ilin əvvəli) sonra rəsmən "İl-kağan"[256] ünvanını almış və beləliklə, əski böyük hun imperiyasının paytaxt bölgəsi Ötükən[257] mərkəz olmaq üzrə xaqanlığı qurmuşdur (552-ci il)[258].

Dövlətinin qərb qanadının idarəsini dövləti birlikdə qurduğu kiçik qardaşı İstəmiyə (İstəmi: çincə She-ti-mi) verən Bumın elə dövləti qurduğu il öldü. "Yabğu" ünvanım daşıyan, dolayısıyla şərq qanadının yüksək hakimiyyətini tanıyan İstəmi qərbdə fəthlərinə davam edərkən Ötükəndə iqtidara gələn Bumının oğlu Ko-lo (Qara?) və bunun erkən ölümünə görə xaqan olan Bumının digər oğlu Mu-kan (Bəy-xan? 553-572) zamanında dövlət həşəmətli çağına çatdı. Heybətli görünüşü, parlaq, təsirli gözləri, qüdrəti və sərtliyi Çin qaynaqlarında göstərilən Mu-kan kağan son bir zərbə ilə əhalisinin bir qisminin Çinə (müttəfiqləri olan Tsi torpaqlarına) sığındığı bilinən, bir qisminin də Baykalın şimalina doğru çəkildiyi anlaşılan juan-juan dövlətini tarixə gömdükdən sonra (555)[259] şərqdə ki-tanların və şimalda qırğızların ölkələrini göytürk hakimiyyətinə bağladı, Çində qərb tabğaçlarının yerinə keçən Chou xanədanı (557-581) ilə digər çinli Tsi (Chi) xanədanını (550-557) basqı altına aldı. İstəminin hərəkatına qarşı Çindən yardım istəyən ağ hun-eftalit dövlətinə və Mavəraünnəhr xalqına Çin hərbi dəstəyini önlədi. 564-cü ildə Şan-sidəki Tsi paytaxtı Tsin-yanqı mühasirə etdi və qızı şahzadə Aşinanı Chou imperatoru Wu-ti ilə evləndirdi (568). Qaynaqların bildirdi-

---

[255] Liu, həmin əsər, I, s. 52, II, s. 528.

[256] İl-kağan (=el xaqan) və ya İ-li khağan (bax: Liu, həmin əsər, I, s. 7, 41) = ilig~elig kağan (bax: A.v. Gabain, DTCF Dergisi, II, 5, s. 687) = ellig (illig) kağan (bax: A. Bombacı, Eltäbär, s. 47).

[257] Orxon çayının qərbində, 47-ciparalel -101-ci meridianda, bax: R. Giraud, L'Emp. d. Turcs célestes, s. 172, bax: aş. qeyd 335.

[258] Göytürklərin başlanğıcı və Bumın dövrü üçün təfsilən bax: B. Ögel, Doğu Gök-Türkleri.., s. 81-137.

[259] Məğlub olan son juan-juan hökmdarı A-na-huainin oğlu An-lo-çen də Wei paytaxtı Çanq-an önündə qüvvələri ilə birlikdə məhv edilmişdi. Bax: W. Samolin, East Turkistan..., s. 55. Təfsilən bax: A. Kollautz, həmin əsər, I, s. 135 və ardı.

yinə görə, geniş ölkələrə və 100 minlik bir orduya sahib olan göytürk xaqanını Çin imperatoru qohumluq qurma yolu ilə durdurmuş olurdu"[260] .

Mu-kanın əmrindəki qüvvə xaqanlığın şərq qanadının ordusu idi. İstəmi (552-576) komandanlığındakı digər ordu isə öz bölgəsində hərəkət halında idi. Qısa zamanda Issık göl və Tanrı dağlarına qədər Altayların qərbini öz hakimiyyətinə alan İstəmi geniş çapda hərbi və siyasi fəaliyyəti nəticəsində təmas qurduğu sasani imperatorluğu və Bizans kimi ortaçağın ən böyük iki dövlətini göytürk siyasəti izində yürütmək surətılə türk xaqanlığını bir dünya dövləti payəsinə yüksəltdi. Ağ hun-eftalitlər üzərindəki ilk basqı təcrübəsindən (ehtimal ki 556-cı ilin əvvəlində) sonra tranzit ipək ticarətini əlində tutan bu dövlətə qarşı sasani imperatorluğunu təbii müttəfiq olaraq görən İstəmi şahənşah Ənuşirvan Adil ilə müqavilə bağladı: bu vəsilə ilə Ənuşirvan ilə evlənən qızı İran sarayına imperatoriçə oldu[261]. Müttəfiqlər tərəfindən sıxışdırılan ağ hun-eftalit dövləti yıxıldı və torpaqları Ceyhun (Amu-dərya) sərhəd olmaq üzrə iki müttəfiq arasında paylaşıldı (557)[262]. Mavəraünnəhr, Fərqanənin bir qismi, Qərbi Türküstanın cənubu, Kaşğar, Xotən və s. göytürklərə intiqal etdi. Beləcə, Daxili Asiya karvan yolu üçüncü kərə türklərin əlinə keçdi.

Ancaq Ənuşirvan bu bölüşmədə zəfərdəki cüzi töhfəsinə nisbətlə "aslan payı"[263] almış olmasına rəğmən çox da məmnun deyildi; karvan yolunun Mavəraünnəhr güzərgahını da ələ keçirmək istəyirdi. Bu məqsədlə öz ölkəsindən Aralıq dənizi limanlarına və Bizansa daşınmaqda olan ipək nəqliyyatını dayandırdı. Beləliklə, həm ipək ticarətinin ünlü karvançıları olan, son təqsimdə göytürklərə bağlanan soğd[264] əhalisinin fəaliyyətini baltalayaraq hüzursuzluq çıxarmaq, həm də türkləri tranzit ipək vergisi kimi yüksək bir gəlirdən məhrum etmək düşüncəsini həyata keçirmək istədi. İstəminin göndərdiyi elçiləri hiylə ilə öldürtdü. Göytürk fütuhatının Talas-Çu sahəsindən və Seyhun çayının şərqindəki Khoa-lit ölkəsi (Bizans elçisi Zemarkhosda: Kolkh, Kholiat) üzərindən Aral-Xəzər şimalına doğru irəlilədiyi bu tarixlərdə[265] İran ilə uzlaşma ümidini kəsən İstəmi Bizansa döndü və İstanbula

[260] Liu, həmin əsər, I, s. 15, 20, 449, 466 və ardı; H. Ecsedy, Trade and War Relations between the Turks and China..., s. 133 və ardı.

[261] Ed. Chavannes, Documents..., s. 266, 242; el-Mesudi, Muruc, I, s. 265, 270.

[262] Bax: K. Czegtedy, Nomád népek...: s. 114.

[263] Ed. Chavannes, həmin əsər, s. 228.

[264] Mavəraünnəhr bölgəsi. Buradakı Chao-wu qrupları haqqında bax: W. Eberhard, Orta və Doğu Asya Halkları, s. 146 və ardı.

[265] Bax: K. Czegtedy, Nomád népek..., s. 112 və ardı.

soğdlu ipək taciri və diplomat Maniakh başqanlığında bir heyət göndərdi (567-ci ilin sonları). Bu, tarixdə Orta Asiyadan Şərqi Romaya gedən ilk rəsmi heyət idi. İpək məsələsi göytürklər qədər Bizansı da maraqlandırdığı üçün[266], hətta daha öncələri sasani vasitəçiliyindən qurtulmaq üzrə ipək nəqliyyatını Hind okeanı yoluna keçirmək məqsədi ilə Cənubi Ərəbistandakı Himyeri dövləti ilə təmaslar aramış olan Bizansda[267] imperator II Justinos türk elçilərini ilgi ilə qarşılamış, İstəminin göndərdiyi "iskitcə" (türkcə)[268] məktubunu oxutmuş və Maniakhın ağzından təşəbbüsün ciddiliyini anlamışdı. Bir ittifaq müqaviləsi bağlamaq üzrə ümumi vali Zemarkhos başqanlığında bir heyəti yola çıxardı (569-cu il avqustun əvvəli). Türk elçiləri ilə birlikdə Qara dəniz-Qafqaz dağları-Xəzər dənizi-Aral gölü arasından Talas yolu ilə Tanrı dağlarındakı Ağ dağda (Altın-dağ)[269] İstəminin[270] hüzuruna gələn Bizans elçisinin xatirələri[271] göytürk həyatını və qüdrətini göz-

[266] İpəyin Bizansda iqtisadi və siyasi əhəmiyyəti üçün bax: K. Hannestad, Les Relations de Byzance avec ta Transcaucasieet l'Asie centrate aux 5e et 6e siecles, s. 421-430.

[267] Bax: Ed. Chavannes, həmin əsər, s. 234.

[268] Bax: Ed. Chavannes, həmin əsər, s. 235; Gy. Moravcsik, Byz. turc., II, s. 237; Orxon hərfləriylə türkçə, bax: A. Kollautz, həmin əsər, I, s. 144, qeyd 13.

[269] Bizans qaynaqlarında (Menandros) "Ek-tağ" deyə keçir (A. Magyarok elöderöl., s. 45). Türklərdə altın xaqanlara məxsus bir əlamət olduğu üçün (bax: B. Ögel, Türk Mitolojisi, s. 211) ehtimal ki,xaqanın bulunduğu yer olaraq Ağ dağa Alundağ da deyirdilər. Yeri üçün bax: R. Giraud, l'Empire des Turcs..., s. 181 və ardı.

[270] Hadisələrə çağdaş Çin salnaməsi Sui-shuada "yabgu", bax: A. Kollautz, həmin əsər, I, s. 146; Bizans qaynaqlarında: Stemb(v)is, Silzibulos, Sizavulos, Sizavolos, və s. bax: Gy. Moravcsik, Byz. turc., II,. 234, 246. İslam qaynağı ət-Təbərinin əsərində: Sincibu. Bu şəkillər "sir/qərb?/yabğu" ünvanından təhrif edilmiş ola bilər, bax: Ed. Chavannes, həmin əsər, s. 288, qeyd. 6. Yəni Sil~Sir (Silis=Jaxartes=Sir-dərya, bax: S.G. Kljaštorniy, Türk Dili Araşdırmaları, IV, 1954, s. 70 və ardı.) + yabğu (cabğu) bax: H.W. Haussig, Byzantion, 23 /l 953/, s. 374. Və ya "sincebu" şəklinin erməni tarixçisi Sebeosdakı /VII əsr/ "Chenestan Chepetukh" - Çinistan çepetux (Çin yabğusu) təbirindən çıxmış olması mühtəməldir, bax: D. M. Dunlop, The Jewish Khazars, s. 31 və ardı. Sir (qərb?) sözü üçün bax: yux. və R. Giraud, həmin yer. Daha qüvvətli bir ehtimal ilə türkcə "sir" = birləşmiş (boyların birləşmiş olması, bax: Tonyukuk, kitabə, sətir 3, 11, 60-62) = confederation, (bax: ETY, IV, s. 98; O. N. Tuna, Orhon Yazıtlarında Açıklamalar, s. 64) mənasına gəlir: Sir-yabğu = birləşmiş boylar yabğusu? Və ya sir bir türk qrupunun adı olabilər, bax: K. Czeglédy, Čogay-quzı..., s. 66, bax: yux. qeyd 236. Türkcə (Silzibulos=silzi boyla?) "İstəmi" adının açıqlama təcrübələri üçün bax: P. A. Boodberg, Three Notes..., s. 7-11.

[271] Bizans tarixçiləri Menandros (VI əsrin sonu) və Th. Simokattesin (VII əsrin ilk yarısı) əsərlərindən nəqlən: Ed. Chavannes, həmin əsər, s. 233-238, 246-252; K. Dieterich, Byzantinische Quellen zur Laender und Völkerkunde, II, s. 17-22; L. Ligeti, Az ismeretlen

lər önünə sərməsi baxımından çox qiymətli bir sənəddir. İstəmi Bizans ilə işbirliyi edərək Ənuşirvanı ipək yolunu açmağa məcbur etmək qayəsini güdən siyasətində müvəffəq olmuş, 571-ci ildə sasani-Bizans toqquşması başlamış, hakimiyyətlərini Xarəzm üzərindən Qafqaz dağlarının şimalındakı Kuban çayına qədər yaymağa çalışan və ayrı-ayrı türk idarəçilərin əmrində olmaq üzrə ölkəni 8 bölgə halında əllərində toplayan göytürklər[272] o vaxt Azərbaycana da girmişdilər[273]. Fəqət qərbə doğru bu türk irəliləyişi duraqladı və Bizans ilə əsas ortaq müdaxilə ancaq Ənuşirvanın oğlu, göytürk şahzadəsindən doğulduğu üçün "Türkzadə" deyə anılan IV Hürmüzün (579-590) son illərində (588-də) baş verdi. Gecikmənin səbəbi göytürklərə savaşda iştirak üçün təzyiq edən Bizansın göndərdiyi elçilərdən biri olan Valentinosu 576-cı ildə Aral gölü həvalisindəki türk bölgəsində qarşılayan türkşadın[274] sözlərindən anlaşılır. Bu türk şahzadəsi Bizansı göytürklərin düşmənləri olan avarları[275] himayə etməklə və "qılınclanaraq deyil, atların ayaqları altında qarışqa kimi əzilərək öldürülməyi haqq edən" bu qövmə barınacaq yer verməklə suçlayırdı[276] ki, bu, doğru idi. Ayrıca Bizans Azərbaycan üzərindən irəliləyərək ehtimal ki, Cənubi Qafqazdakı sabar türkləri (bax: aş.) ilə bağlantı qurmaq istəyən göytürk qüvvələrinin sürətini kəsmək məqsədilə 576-cı ilə doğru oradakı sabar türk kütləsini dağıtmışdı[277].

İstəminin siyasətinin digər mühüm bir nəticəsi də bu olmuşdu: 19 il sürən (571-590) sasani-Bizans mücadiləsindən sonra da iki imperatorluğun arası düzəlməmiş, bir-birini təqib edən qarşılıqlı istilalarda, nəhayət, imperator Herakleiosun sasani paytaxtı Mədainə (Ktesiphon) qədər uzanan səfərləri (622-628) sasani imperatorluğunun son taqətini qırmışdı[278]. Quranda

Belsö Azsia, s. 54-69, türk. tərc. Bilinmiyen İç Asiya. s. 59-73; A Magyarok elödeiröl és a honfoglalásról s. 44-50.

[272] Menandrosdan bax: A Magyarok elödeiröl, s. 48. Ayrıca bax: H. W. Haussig, Byzantion, XIII, s. 374, qeyd 38. Ehtimal ki, Ed. Chavannesdə (Documents..., s. 134) sadalanan Buxara, Xarəzm, Daşkənt və s. kimi 8 şahzadəlik. Bu münasibətlə Menandrosda keçən “türklərin dörd idarə olaraq bir araya gəldikləri" ifadəsi türklərdəki "4 bulunq" düşüncəsi ilə ilgili ola bilər (bax: Hökmranlıq). Ehtimal ki, idari təqsimatdır, bax: Wang Huan, s . 131.

[273] K. Czeglédy, A koral Kazar törtinelem forrasainak kritikajahoz, s. 125.

[274] Gy. Moravcsik, Byz. turc., II, s 276: yeni "şad" ünvanını daşıyan türk şahzadəsi, bax: A. Bombaci, On Ancient Turkish Title Sad, s. 168. Təfsilən, Ed. Chavannes, Documents..., s. 239-242.

[275] Uar-Khunlar, bax: aş. Avar xaqanlığı.

[276] Menandrosdan, bax: A Magyarok elödeiröl.., s. 49.

[277] Bax: K. Czeglédy, həmin yer.

[278] Təfsilən bax: A. A. Vasiliev, Bizans İmparatorluğu Tarihi, s. 251 və ardı.

da işarət olunan bu durum[279] islamiyyətin qısa zaman içində İranda hakimiyyət qurmasını asanlaşdırmışdır. Göytürk imperatorluğunda İstəminin fəaliyyəti də daxil olmaqla bütün hərbi-siyasi təşəbbüslər Mukanın adına bağlanırdı, xaqan Mukan 572-ci ildə öldü. Dövləti müəzzəm bir genişliyə çatdıran bu böyük hökmdarın[280] xatirəsi Orxon kitabələrində öz əksini tapmışdır: "Dörd tərəfə ordu sövq edib qövmləri daim itaət altına almış, başlılara baş əydirmiş, dizlilərə diz çökdürmüş; irəlidə (şərqdə) Kadırğan dağlarına (Kinqan dağları), geridə (qərbdə) Təmir kapığa (=Dəmir qapı, Bəlx-Səmərqənd yolu üzərində 12-20 metr enində və 3 kilometr uzunluğunda) qədər türk millətini hakim qılmış; bu məmləkətlərdə kök-türk (qövmü) idioksız (bax: aş. Kültür: Eldə istiqlal) oturur olmuş; bilgə kağan imiş, alp kağan imiş, buyruq və bəyləri, qövmü (bodun) həp bilgə və cəsur imişlər..."[281].

Otükəndə keçirilən böyük cənazə törəninə xüsusi heyətlərlə qatılan qonşu dövlət və qövmlər[282] arasında Bizans imperatorluğunun da olduğu anlaşılmaqdadır[283]. Mu-kanın yerinə qardaşı T’a-po keçdi (572-581). Qüdrətli xaqanlığın yeni hökmdarı onu qutlamaq üzrə 100 min top ipək hədiyyə edən Chou imperatoru ilə, yenə təbrik üçün müxtəlif hədiyyələrlə birlikdə baş komandanını göndərmək surətilə xüsusi bir etina göstərən Ts’i (Ch’i) imperatoruna "Oğullarım" deyə xitab edirdi[284]. Bu, bütün Şimali Çinin türk himayəsinə alındığını göstərməkdə idi. Ölkəsinin genişlıyindən dolayı xaqanlığın doğrudan-doğruya öz idarəsindəki qanadını ikiyə ayıraraq, şərqinə qardaşı K’o-lo’nun oğlu Şe-t’unu (İşbara), qərbinə isə kiçik qardaşı Jo-tanı "kağan" (kiçik kağan) ünvanları ilə təyin edən T’a-po bir Tsi şahzadəsi ilə evlənmək düşüncəsinə qapıldı və ayrıca, türk toplumu üçün zərərli cəhətləri öncəki dövrlərdə uzaqgörən türk idarəçiləri tərəfindən ortaya qoyulmuş olan

[279]A. A. Vasiliev, həmin əsər, s 252; Kuran, Suret’ur-Rum, bax: H. B. Çantay, Kuran-ı Hakim..., II, s. 686.

[280] Çin mənbələrinə görə, xaqanlığın genişliyi şərqdən qərbə 10 min li, şimaldan cənuba isə 5-6 min li idi (bax: Liu, həmin əsər, I, s. 8) ki, bu da 10.5 milyon km civarındadır.

[281] Kitabələr, I, şərq, sətir 2-3.

[282] Çin, Tibet, Apar=Avar (Avropa avarları). Apurım (Porom), Qırğız, Bökliçölüg el (Qərbi Korya?, bax: R. Giraud, L’Empirə des Turcs, s. 186 və ardı, Bükli çöl=Koreya. bax: K. Czeglédy, Čogay-quzı..., s. 65 və ardı), Üç kurıkan, otuz-tatar, kitan, tatabı qövmləri; bax: Kitabələr, l, şərq, sətir 4, II, şərq, sətir 5.

[283] Bax: B.Ögel, Göytürk Yazıtlar ının Apurumları, s. 70,76,79 və ardı; müq.et: Byz. tərc. II, s. 80; G. Clauson, Asia Major,N.S.VIII, I, s. 122.

[284]Liu, həmin əsər, I. s. 43.

Budda dinini buddist missionerlərin[285] təlqinlərinə qanaraq məmləkətdə himayəyə qalxdı; bir buddist tapınağı tikdirdi və bir Budda heykəli qoydu[286]. Göytürk həşəməti zavala üz tutmuş kimi idi. T"a-po dış siyasətdə də yanlış adımlar atdı. Tsilər 577-ci ildə Chou xanədanı tərəfindən yıxıldığı zaman oradan qaçaraq özünə sığınan bir T"si şahzadəsini "Çin kağanı" elan etdi. Choularla arasının dəyməsinə səbəb olan bu durum qarşısında izdihamlı bir ordu ilə Pekin bölgəsinə irəliləyən T"a-po özünə yeni bir çinli şahzadə vəd edilərək dayandırıldı (579). Ancaq şahzadənin verilə bilməsi üçün Chou hökmdarı "Çin kağanı" T"si şahzadəsinin təslim edilməsini istəyirdi. Bir ov əsnasında bu şahzadənin choular tərəfindən qaçırılmasına göz yumulması millət nəzərində xaqanın etibarını büsbütün sarsıtdı"[287]. Göytürk birliyi və kültüründə mühüm çatların göründüyü bu illərdə digər bir hadisə isə İstəminin ölümü oldu (576-cı il).

Rəsmi ünvanı "yabğu" olması gərəkən[288], fəqət ehtimal ki, türk elində bir bodunun (sonrakı "on-ox" bodunu; buradakı "on böyük başbuğ" ona bağlanmışdı)[289] başında olduğu üçün kitabələrdə və bir Bizans qaynağında[290] "kağan" deyə zikr edilən bu böyük şəxsiyyətin ölümünü yuxarıda adı keçən türk-şadın sözlərindən öyrəniyik. Onu qəzəbləndirən xüsuslardan biri də ölən "ata"sının yas günlərində türklərin Bizans elçiləri tərəfindən rahatsız edilmələri idi. Yol qeydləri göytürk xaqanlığının qərb bölgələrindəki qövmlər baxımından mühüm olan elçi Valentınosa xitabən deyilən və Bizansı suçlayan bu nitq ayrıca türk fütuhatının həm şəklini, həm fəlsəfəsini açıqlamaq etibarilə də dəyər daşımaqdadır: "Mən əsirlərimiz olan uar hunilərin hansı yoldan Bizansa getdiklərini bilirəm. Dneprin, Məricin harada olduğunu, Dunayın haraya axdığını da bilirəm. Gün doğandan gün batana qədər ölkələr bizə diz çökmüşdür. Bizə qarşı gəlmək cəsarətini göstərən alanları,

[285] Hui-lin və Jnagoupta, bax: Liu, həmin əsər,, I. s. 36-39,43,461 və ardı.

[286] S. G. Kljaštorny - A. V. Livšič, The Sogdian Inscription of Bugut, s. 78; Liu, həmin əsər, I, s. 43.

[287] Liu, həmin əsər, I, s. 33; H. Ecsedy, həmin əsər, s. 135.

[288] Onun yabancı qaynaqlarda zikr edilən "yabğu" ünvanı haqda bax: yux. qeyd. 270; ayrıca, özünə bağlı qərb göytürk xalqı "yabğu qəbilələri, yabğu türkləri" adı ilə də anılırıdı. Bax: Ed. Chavannes. həmin əsər, s. 21,95,qeyd 3; Liu, həmin əsər, II, s. 722.

[289] Bax: Ed. Chavannes, Documents..., s. 38,219; W. Huan, s. 143-151.

[290] Th. Simokattesdə (VII əsrin ortaları) : Stembis khagan, bax: Byz. turc. II, s. 234; Ed. Chavannes, həmin əsər s. 38. Ehtimal ki, əsli yabğu kağandır.

on-oğurları (bax: aş. Oğurlar) görürsünüz. Romaya da gələcəyik"[291]. Göytürk hüdudlarının Qafqazın şimalına çatdığını ortaya qoyan bu sözlərlə Bizans da açıqca təhdid edilməkdə idi. Ancaq türk-şad zarafat etmədiyini göstərdi. Krımda Bizansa aid ünlü Kerç (Bosporos) qalası türk qüvvələri tərəfindən zəbt edildiyi zaman Şərqi Roma elçiləri hələ göytürk torpaqlarında idilər (576). Bu, Göytürk xaqanlığının Mancuriya hüdudlarından Qara dənizə qədər uzanaraq genişliyinin son nöqtəsinə çatdığı tarixdir[292] .

İstəmidən sonra yerinə keçən oğlu Tardu (576-603)[293] cəsarəti və savaşçılığı ilə atasına bənzəsə də, siyasi ehtirası üzündən Ta-po zamanında açılmış olan ayrılıq cizgisini büsbütün dərinləşdirdi. Çinlilər onun bu zəifliyindən faydalandılar: öncə xaqanlığın şərq qanadının ona verilməmiş olmasından küsən Ta-lo-pienin (Mu-kanın oğlu) Tardunun yanına getməsini təlqin etdilər. Halbuki Mu-kan belə bu oğlunu taxta namizəd göstərməmişdi, çünkü anası əsil (yəni türk soyundan) deyildi. Xaqan Ta-po da 581-ci ildə ölərkən öz oğlunun yerinə onun xaqan olmasını istədiyi halda dövlət məclisi (toy) bunu qəbul etməmiş[294] və sonunda K'o-lonun oğlu İşbara (çincədə Şa-po-lüe) xaqan olmuşdur "[295].

Çin göytürklər arasındakı bu anlaşmazlığı körükləməyə davam edirdi. Ta-lo-pien qərb yabğusu Tardunun yanında şərqdəki yeni xaqan ilə mücadiləyə girişdiyi zaman İşbara da o tarixdə choularm yerinə iqtidara gələn Sui xanədanından (581-618) öz ailəsinin intiqamını almaq istəyən arvadı, Chou şahzadəsi Tsien-kinin təlqinlərinə qapılaraq, Çinə qüvvə sövq edir; Sui imperatoru Wen-ti (Yanq Chien, 581-604) də əskidən bəri Çin şəhərlərində ticarətlə uğraşan və dostluq ilişkiləri çərçivəsində imtiyazlara sahib 10 minə yaxın türkü Çindən uzaqlaşdırırdı. Buna qarşı İşbaranın ordusu ilə Çinə girməsi Çin intriqasinın kəsifləşməsinə səbəb oldu. Wen-ti yabğu Tarduya altın qurd başlı bir sancaq göndərərək onu göytürk xaqanı olaraq tanıdığını bildirdi[296]. Ehtirası alovlanan Tardu Çinə qarşı ortaq hərəkət təklif edən İşba-

---

[291] Bax: yux. qeyd. 275; A. Magyarok elödeiröl..., s. 49. Daha bax: A. Donuk, "On Dilli" Bizans, s. 1-4.

[292] Bu xüsusa 726-cı ildə Asiyada səyahət edən çinli buddist rahib Huei-chaonun qeydlərində də toxunulmuşdur. Bax: B. Ögel, Belleten, sayı 33, s. 87.

[293] Çincədə Ta-tou. Bizans qaynağında Tardu, bax: Gy. Moravcsik, Byz. turc. II, s. 252. Əslində bir ünvan, bax: W. Eberhard, Birkaç Eski Türk Ünvanı Hakkında, s. 325.

[294] Liu, həmin əsər, I. s. 43 və ardı.

[295] Liu, həmin yer.

[296] Ed. Chavannes, həmin əsər, s. 49, qeyd 5, 220.

ranın istəyini öncə rədd etdi və İşbara göytürkləri qayət yaxşı tanıdığı anlaşılan diplomat-general Çanq-sun Şeng ilə mücadilə etmək və bu çinlinin türk komandanları arasına səpdiyi nifaq ilə uğraşmaq məcburiyyətində qalarkən Tardu xaqanlığın şərq qanadının yüksək hakimiyyətini tanımadığını elan etdi (582-ci il). Beləliklə, 350 ildən bəri ilk dəfə Çində siyasi birliyi quraraq sonrakı qüdrətli tanq sülaləsinə siyasi yöndən nərdivan vəzifəsini görmüş olan sui sülaləsi iqtidarının başladığı illərdə[297] göytürk xaqanlığı rəsmən ikiyə bölünmüş oldu.

### b) Şərqi göytürk xaqanlığı

Şərqdəki ağır şərtlər altında xaqan İşbara müvazinəti büsbütün itirdi. Ordu mənsubları arasında onunla mücadiləyə davam edən Ta-lo-pienə bağlı olduqlarını zənn etdiyi yüksək rütbəli komandanları vəzifədən uzaqlaşdırmağa, hətta cəzalandırmağa başladı. Nəticədə bu əsgərlərlə şahzadələrdən bəziləri Çindən yardım istəməyə məcbur oldular. Ətrafında qorxu və nifrət oyadan İşbara da öz gücündən çox şey itirdiyini və Tardu - Talo-pien ikilisinin təhdidi altına girdiyini təəssüf hissi ilə gördü və şəxsən Sui hökmdarına müraciət edərək hərbi dəstək və barış diləyində bulundu. Təklifi sevinclə qəbul edən Wen-tinin dərhal yolladığı heyətin başında diplomat Yü King-tsi ilə birlikdə yenə Çanq-sun Şeng vardı. Başkənddə xatunun və digər türk əyanlarının önündə bu iki çinli İşbaraya həqarət edəcək qədər irəli getdilər və "Çin imperatorunun oğlu" olduğunu qəbul edən xaqanı "Ç’en" (bəndə) elan etdikdən sonra məmləkətlərinə döndülər[298]. Şərq xaqanlığı Çin himayəsinə girmişdi. Vəziyyətdən yüz faiz öz nəfinə istifadə etmək istəyən Çin türkləri büsbütün yozlaşdırmaq məqsədi ilə xalqını çincə danışdırmağa, çinlilər kimi geyinməyə, Çin adətlərini qəbul etməyə təşviq və məcbur etməsi üçün İşbaraya ağır təzyiq göstərirdi. Xaqan imperatora göndərdiyi 585-ci il tarixli məktubunda bu tələbləri belə cavablandırmışdı: "Sizə bağlı qalacaq, xərac verəcək, qiymətli atlar hədiyyə edəcəyəm. Fəqət dilimizi dəyisdirə bilmərəm, dalğalanan saçlarımızı sizinkinə bənzədə bilmərəm, xalqıma çinli paltarı geydirə bilmərəm, Çin adətlərini qəbul edə bilmərəm. İmkan yoxdur, çünki bu məsələlərdə millətim fövqəladə həssasdır, sanki çarpan tək

[297] Təfsilən: O.Franke, həmin əsər, II, s.308-349. Qərb xaqanlığını Apanın (Ta-lo-pien) qurduğu və burada İstəmi soyunun 611-ci ildən etibarən başladığı, bax: W. Huan. s.143-151.

[298] Bax: Liu, həmin əsər, I, s. 45-52, 66 və ardı, 81, 101,449.

bir qəlb kimidir"[299] və əlavə edirdi: "Sui imperatoru dünyanın gerçək hakimidir. Göydə iki günəş olmadığı kimi, yerdə də iki hökmdar olmamalıdır"[300] və s.

Göytürk xaqanlığının parçalandığı, tabe kütlələrin üsyan etdiyi, türklərin Çinə ilticaya başladırı, türk hökmdar ailəsi mənsublarının bir-birinə düşdüyü bu qarışıqlıqda İşbara öldü (587-ci il). Yerinə keçən qardaşı Çu-lohou (=Ye-hu kağan)[301] və arxasından toy (dövlət məclisi) tərəfindən xaqan elan edilən Tulan (588-600) zamanlarında durum düzəlmədi. Məşhur Çanq-sun Şeng göytürk xaqanlığını əməlli-başlı çökərtmə yollarını göstərən raportlar hazırlıyaraq imperatoruna təqdim edir, elçi olaraq gəldiyi Ötükəndə dürlü intriqalarla türk xanədan üzvlərini qarşı-qarşıya gətirirdi. Ən böyük yardımcısı da öncə Ta-ponun, sonra İşbaranın və nəhayət, Tulanın öldürülməsindən sonra Çinin köməyi ilə taxta çıxarılan Yehunun oğlu K'i-min (= Tu-li, 600-609) xaqanın arvadı olan çinli şahzadə Ts'ien-kin idi[302]. K'i-min bu dəfə şərq xaqanlığını öz idarəsinə almağa çalışan Tarduya qarşı istifadə edilirdi. Bu K'i-min də imperator Yanq-tiyə 607-ci ildə göndərdiyi bir məktubda "Həşmətpənahın aciz bir bəndəsi" olduğunu, hətta vaxtilə İşbaranın belə rədd etdiyi "türk qövmünü çinlilər kimi etməyə - geyim, adət və dildə çinliləşdirməyə- hazır olduğunu" yaza bilirdi. Ancaq ölümündən sonra yerinə keçən oğlu Şi-pi (Shih-pi, 609-619) göytürk heysiyyətini bir az qurtara bildi. Bir çinli şahzadə ilə evlənməklə bərabər bundan Çinin göytürklərin daxili işlərinə qarışmasını önləyən bir şirma kimi istifadə elədi. 5-6 il içində şərq xaqanlığı torpaqlarındakı dağınıqlığı aradan qaldırdı; qərbdə Tibetə, şərqdə isə Araur çayına qədər hər yanı təkrar itaət altına aldı (615). Durumdan təlaşa düşən Sui imperatoru türk xanədan üzvləri arasında anlaşmazlıq çıxarmağa əsaslanan dəyişməz Çin planını yenidən tətbiq etməyə keçdi. Bu dəfə yol göstərən şəxs xüsusi intriqa raportları hazırlayan və Qərbi Asiya üçün yazdığı əsərlər başlıca qaynaqlardan sayılan Çin dövlət və "müstəmləkə" adamı P'ei-chü[303] idi. Xaqanın kiçik qardaşı Ç'i-ki şada xaqanlıq təklif edildi. Fəqət millətin pərişanlığını və Çin təhəkkümünün rəzalətlərini görən bu gənc həm təklifi,

[299] Liu, həmin əsər, I, s. 52 və ardı, II, 528 və ardı.

[300] Liu, I, s. 52 və ardı.

[301] Liu, l, s. 54 və ardı, II, qeyd 534.

[302] Liu, II, s. 545, n. 461.

[303] Liu, həmin əsər, I, s. 87; W. Eberhard, Çin Tarihi, s. 195; B. Ögel, Belleten, sayı 33, s. 76.

həm özünə vəd edilən çinli şahzadəni rədd etdi[304]. Çinlilər başqa bir yol sınadılar: göytürk nazirlərindən birini pusquya düşürərək öldürdükdən sonra onun xaqana müxalifətdə olduğunu, bu məqsədlə onlara müraciət etdiyini, fəqət "aradakı dostluqdan" dolayı onun ortadan qaldırılmasını uyğun gördüklərini bildirdilər. Qayə xaqan Şi-pi ilə göytürk böyüklərinin arasını vurmaqdı. Xaqan bu oyuna da gəlmədi. Göytürk nazirinin öldürülməsi hadisəsinin Çin-türk anlaşmasını pozduğunu irəli sürərək illik xəracı kəsdi, savaşa hazırlaşdı. Planı Çinin şimal əyalətlərində gəziyə çıxmış olan imperator Yang-tini basqınla yaxalamaq idi. Fəqət təşəbbüs xaqanın Ötükəndəki zövcəsi çinli şahzadə İ-ç'enq tərəfindən gizlicə Çinə bildirildiyi üçün sürətlə geri dönməyə çalışan imperator təqibçi göytürk süvariləri tərəfindən Şan-sidə Yen-men (bugün Tai-hien) mövqeyində mühasirəyə alındı. Üzüntüsündən ağladığı rəvayət edilən imperatorun imdadına yenə həmin şahzadə yetişdi: göytürk ölkəsində böyük bir üsyan çıxdığı şayiəsini yayaraq türk ordusunun geri çəkilməsini təmin etdi (615-ci il)[305].

Yanq-tinin etibarını düşürən son vəziyyət Çində qarışıqlıqlara səbəb oldu və ona qarşı müxalifət getdikcə artdı. Bu dəfə Çin əyanlarının göytürklərə sığınmaları baş verir və Şi-pi xaqan çinlilərin siyasətini özlərinə qarşı təkrarlayırdı. Çin sarayını yağmalayaraq aldığı qiymətli əşyanı göytürk xaqanına verən mültəci Lianq Shi-tu adlı birini Şi-pi "Çin kağanı" elan edərək (617-ci il) ona  qurd başlı bir sancaq da verdi[306]. Liu Wu-Chou adlı digər bir komandanı isə "Qərbi Çin kağanı" edərək, suilərə qarşı səfərə çıxardı. Şi-pinin siyasi fəaliyyətləri arasında tarixi baxımdan ən əhəmiyyətlisi Çin ümumi valilərindən Li Yüanı himayəsinə alıb dəstəkləməsidir ki, müqaviləyə uyğun olaraq türk ordularının yardımı ilə suiləri iqtidardan uzaqlaşdıraraq paytaxt Çanq-andakı imperatorluq sərvətini xaqana təqdim edən, ayrıca 30 min top ipək və illik vergi verməyi qəbul etmiş olan Li Yüan Çində 300 il qədər hökm sürən ünlü tanq sülaləsini (618-906) qurmuş və özü imperator olaraq Kao-tsu (618-626) ünvanını almışdır[307].

Şi-pidən sonra xaqan Çu-lo (619-621) qardaşının sərt siyasətini təqib edir və xaqanlığa qarşı tutumu qısa zamanda dəyişən Tanq imperatoruna qarşı Sui sülaləsini canlandırmağa qərarlı idi. Fəqət arvadı çinli şahzadə İ-

---

[304] Bax: Liu, həmin əsər, 1,87.

[305] Liu, həmin əsər. I, s. 71; O. Franke, həmin əsər, II, s. 337 və ardı.

[306] Liu, həmin əsər, I, s. 83, II, s. 446.

[307]Liu, həmin əsər, I, s. 129-133, 359 və ardı; O. Franke, həmin əsər, 11, s. 344 və ardı; W. Eberhard, Çin Tarihi,  s. 191-197,204.

ç'enq tərəfindən zəhərlənərək öldürüldü. Xaqan olan qardaşı Kie-ti (621-630) kifayətli bir adam deyildi. Xain şahzadə İ-ç'enq ilə evlənmiş, ağır diillə yazdığı məktublarla imperatoru təhrik etmişdi. Arvadının təsiri altında idi. Plansız, taktikasız, sadəcə cəsarətə dayanan hərbi təşəbbüslərində bir-iki dəfə məğlub oldu. Tutumu millətdə inamsızlıq yaratdı. Tarduşlar, bayırkular, uyğurlar qiyam elədilər (627). Tarduş başbuğu İ-nanın zərbələri yıxıcı olmuşdu. Vaxtilə türk himayəsinə sığınmış olan bir çox çinli Tanq imperatorundan əfv diləyərək məmləkətinə dönür, ki-tanlar və başqa qövmlər Çin ilə təmaslar arayır və hüdud bölgələrində Çinə tabe olurdular. İmperator Tai-tsunq (627-649, Li Yüanın oğlu) türklərə vuracağı zərbə üçün şəraitin yaranmasını gözləyirdi. Xaqan mühasirəyə aldığı bir şəhər önündə məğlub olaraq çəkilərkən yaxalandı, mühafizə altında Çin paytaxtına göndərildi (630). Tai-tsunqun özünü "Türklərin göy kağanı" elan etdiyi 630-cu il şərqi göytürk istiqlalının sonu kimi qəbul edilmişdir. Xaqanlığa bağlı qəbilələr və yabançı toplumlar dağılır, göytürk şahzadələri ətraflarına qüvvə toplaya biləcək kimsələr olmadıqlarından hər kəs başının çarəsinə baxır, bəzi qruplar Çinə sığınırdilar. Gərçi başda Aşina ailəsindən "kağan"lar vardı, fəqət bunlar artıq Çin sarayının əmrində, oraya sədaqət ziyarətləri edən, hədiyyələr verən, imperatorlardan dürlü ünvanlar alan birər kukla idilər. Göytürklərin acıqlı durumunu Çin sarayında imperator hüzurunda türklərə qarşı nə edə biləcəyi xüsusunda cərəyan edən münaqişələrdən anlamaq mümkündür[308]. Nəticədə türklərin şimal-qərbi Çində (Ordos) sədd boyunda "6 əyalət" bölgəsinə yerləşdirilməsi qərarlaşdırıldı. Bu surətlə bəlkə türklərin çinliləşəcəyi umulurdu. Fəqət 680-ci ilə qədər keçən 50 il boyunca türk milləti özünü unutmadı, dilini, örf və adətlərini qorudu, tarixinin şanlı xatirələrini ruhunda yaşatdı. Bu arada kiçik çapda qiyamlar olurdu. Məsələn, Aşina ailəsindən bir şahzadənin Altaylarda türk xaqanlığını ehya etməyə çalışması (646-649), yenə göytürk hökmdarları soyundan Tu-çinin on-oxların başında "kağan" elan edilərək (676-678) Çinə qarşı tıbetlilərlə ittifaq etməsi[309] kimi. Çinlilər tərəfindən şiddətlə yatırılan bu hərəkətlər arasında ən çox heyrət oyadan 639-cu ildə Kür-şadın ixtilal təşəbbüsüdür. Tanq imperatorunun saray mühafiz alayında xidmət edən göytürk şahzadəsi (588-ci ildə savaş meydanında ölən xaqan Ye-hunun kiçik oğlu) Kür-şad (çincə: Kie-şe) türk dövlətini ehya etmək üçün 39 arxadaşı ilə gizli cəmiyyət qur-

[308] Liu, həmin əsər, I, s. 158 və ardı., 199 və ardı.

[309] Bax: Ed. Chavannes, Documents... s. 74, qeyd 3,281.

muş, bəzi gecələr tək başına şəhərdə dolaşan imperator Tai-tsunqu yaxalamağa qərar vermişdi. Fəqət planın gerçəkləşəcəyi gecə ansızın qopan fırtına üzündən imperator saraydan çıxmadı. Qərarın gecikdirilməsini təhlükəli sayan Kür-şad və arxadaşları bu dəfə doğruca saraya yürüdülər, 40 türk sarayı ələ keçirib başkəndə hakim olmağı düşünürdü. Yüzlərcə mühafiz tələf edilsə də, dışaridan sövq edilən ordu ilə başa çıxmaq mümkün olmadı. Şəhər yaxınındakı Wei çayına doğru çəkilən Kür-şad və arxadaşları yaxalanaraq öldürüldülər[310].

## C. Qərbi göktürk xaqanlığı

582-ci ildə xaqanlığın şərq qanadı ilə əlaqəsini rəsmən kəsən Tardu hər iki tərəfi öz idarəsində birləşdirməyə çalışırdı. Şərq xaqanlığına təzyiq edən Çinin Tulan xaqana qarşı qardaşı Tu-lini (Ki-min) tutaraq iki qardaşı çarpışdırdığı üçün Tardu Çinə yürüdü. Şimali Çində irəlilərkən yuxarıda adı keçən general-diplomat Çanq-sun Şengin oyununa qurban oldu. Bu çinli türk ordusunun keçəcəyi yollardakı suları, quyuları, bulaqları gizlicə zəhərlətmişdi. Tardu belə bir şeyi ağlına gətirmədiyinə görə itki və ağır at tələfatı verdi[311], geri çəkilməyə məcbur oldu (600). Bu tarixə qədər Tardu kağan qərbdə böyük uğurlar qazanmış, Xotən bölgəsini xaqanlığa bağlamış, şahənşah IV Hörmüz "Türkzadə" (579-590) zamanında Bizans-sasani savaşlarında İranın işlərinə müdaxilə etmişdi. Bir türk başbuğu ("Xəzər yabğusu"?) Dərbəndi mühasirə edərkən digər göytürk ordusu Herat, Badgis həvalisinə girmişdi (588-9)[312]. Bu ordunu dayandıran ünlü sasani komandanı Bəhram Çubinin üsyan edərək Hörmüzü taxtdan endirib onun oğlu Xosrov Pərvizi çıxarması, fəqət bunun da qaçması üzərinə Bəhramın özünü şahənşah elan etməsi sasani imperatorluğunu qarışdırmış, Bizansın müdaxiləsi ilə məğlub edilən Bəhram sonunda xaqana sığınmışdı[313]. Beləcə Tardunun bir yandan qısa müddət üçün də olsa hər iki türk xaqanlığını öz idarəsində birləşdirməsi (598-ci ilə doğru), eyni zamanda İran üzərində nüfuzlu bir durum qazan-

---

[310] Liu, həmin əsər, s. 148,203.

[311] Liu, həmin əsər, I. s. 106 və ardı, 447; Ed. Chavannes, həmin əsər, s. 50 , qeyd 312.

[312] el-Mesudi, Muruc.... I, 132; ibn ül-Esir, el-Kamil..., I, s. 277. Bu münasibətlə ət-Təbəri, əs-Salibi kimi digər islam qaynaqlarında da "türklərin böyük xaqanı" olaraq keçən "Şaba (Saba, Saya) adının əslində göytürk xanədanının adı (Aşina ) ola bilər.

[313] Təfsilat üçün: Ed. Chavannes, həmin əsər, s. 242-250; K. Czeglédy, Nomàd nèpek..., s, 44.

ması, onun 598-ci ildə Bizans imperatoru Maurikiosa göndərdiyi məktubun başlığında ifadəsini tapmış görünməkdədir: "Dünyanın yeddi irqinin böyük başbuğu və yeddi iqliminin hökmdarı xaqandan Roma imperatoruna"[314]. Çin qaynaqlarına görə, Tardu da bu tarixdə Ötükən, Şimal-qərbi Monqolustan, Aral gölü həvalisi, Kaşğar, Mavəraünnəhr və Mərvə qədər Xorasan sahələri üzərində hakim idi, ulu xaqan olaraq "Bilgə kağan" ünvanını daşımaqda idi[315]. Fəqət Tardu göytürk birliyini gerçəkləşdirmək üçün Çinin dəstəyindəki şərq xaqanları Tu-lan və Ki-min ilə mücadilələri dolayısıyla çox şiddətli davranmış və buna, şübhəsiz Çinin əleyhdə təblığatı əlavə edilmişdi. Nəticədə başda töleslər olmaq üzrə bəzi türk boyları və yabançılar üsyan etdilər. Tardu bunlarla başa çıxamadı və mücadiləni sürdürdüyü Kuku-nor həvalisində monqol tü-yü-hunlar arasında yoxa çıxdı (603)[316]. Tardunun səhnədən çəkilməsindən sonra məmləkətdə üsyançıların sayı artdı, nizam pozuldu. Şərq xaqanlığında yeni bir qüdrət olaraq görünən Şi-pi kağana qarşı Tardunun nəvəsi Ho-sa-na (=Çu-lo kağan) suilərlə işbirliyinə qalxdığı və hətta ölkəsini buraxaraq Çin sarayında yaşamağı tərcih etdiyi üçün Şi-pi tərəfindən çinlilərdən təslim alınaraq öldürüldü (619)[317]. Dövlət məclisinin xaqan elan etdiyi, Tardu soyundan olan Şi-koei zamanında durum düzəlməyə başladı. Fəqət əsil hüzur Tardunun kiçik nəvəsi olan Tonqyabğu (yabğu kağan) dövründə (618-630) görüldü. Çin qaynağı T'anqshuya görə "ağıllı və cəsur" olan bu xaqan "mahir bir savaşçı və seçkin bir taktik" idi[318]. Orxon, Tola çayları ilə Aral gölü-Qafqaz dağları arasına yayılmış tölesləri özünə bağlamış, iranlıları məğlub etmiş, cənubda Qəndəhara qədər irəliləmişdi. Ordusu bir neçə yüz min "yaxşı yay işlədən" süvaridən ibarət idi. Mərkəzi Talas şəhərinin (bugün Övliya-ata) 75 km qədər cənub-şərqindəki ünlü Min-vul (Min-bulaq=min pınar) mövqeyində idi. T'an-shuya görə, "O zamana qədər qərbdə onun dərəcəsində qüvvətli xaqan görülməmişdi[319]. Çin ilə dostanə ilişkilər qurmuş olan Tonq yabğu çağında Hindistana getmək üzrə göy-

[314] Th. Simokatiesdən nəqlən. Ed. Chavannes, həmin əsər, s. 246 və ardı, 249; R. Grousset, L'Empire des Steppes, s. 134; J. Hamilton, Taquz-Oguz et On-Uygur, s. 36; Gy. Moravcsik, Byz. turc. I, s. 344. Tardunun məktubu haqqında təfsilat üçün bax: K. Czeglédy, Nomàd nèpek..., s. 101-117

[315] Ed.Chavannes, həmin əsər, s. 50 m, 249 və ardı; Liu, həmin əsər, I, s. 59, II, s. 551.

[316] Liu, həmin əsər, I, s. 108, II, B. 558; A. Kollautz, həmin əsər, I, s. 297.

[317] Ed. Chavannes, həmin əsər, s. 22,52 və ardı; Liu, həmin əsər, 1, s. 358.

[318] Ed. Chavannes, həmin əsər, s. 49, qeyd 52.

[319] Ed. Chavannes, həmin əsər, s. 263.

türk imperatorluğunu bir başdan bir başa keçərək yollar, şəhərlər, dini və kültürəl həyat haqqında çox ilgi çəkici, bilgi verən çinli buddist rahib Hiuen-tsang Tonq yabğunu da ziyarət etmişdir[320].

Göytürk imperatorluğunun parlaq bir dövr yaşadığı bu illərdə nu-şi-pilər və qarluqlar üsyan etdilər. Bunları öz mövqeyini təhlükədə zənn edən şərq xaqanı Kie-li təşviq etmiş olmalıdır. Tonq yabğunun xaqanlığın qərb qanadı to-lular eliki olan əmisi ilə mücadilədə ölməsi (630) ölkəni qarışdırdı. Nu-şi-pi boyları öncə özləri ayrı bir hökmdar seçməyi tərcih etsələr də sonra Tonq yabğunun oğlu Se-yabğu üzərində birləşildi. Bu dəfə töleslərin qiyamı dövlətin Çinə bağlanmasında birinci dərəcədə etkili oldu. 630-cu ildə sənəsi Göytürk tarixinin qaranlıq ilidir. Şərq xaqanlığı həmin il Çinə boyun əymişdi. Qərb xaqanlığı da eyni tarixdə eyni aqibətə uğradı. Bundan sonra da Aşina soyundan bir sürü "kağan", bəzən eyni zamanda bir neçə "kağan" qərbi göytürk qruplarının başında görünsə də, bunlar artıq Çinin birər məmuru durumunda idilər[321]. Bir aralıq, başda türgişlər və qarluqlar olmaq üzrə digər türk boylarının dəstəyində şiddətli mücadilələrə girişən xaqan //o-/w(653-659), nun böyük səylərinə rəğmən, Qərbi Göytürk ərazisinin Çin nəzarətinə girməsi 658-ci ildə tamamlandı[322]. Çin imperatorları oradakı türgiş xaqanlığı zamanında belə çoxu ismən olmaq üzrə, on-oxlara "kağan" təyin etməyə davam etdilər.

## Ç. II Göytürk xaqanlığı

[320] Hiuen-tsanqın bu səyahət notlarının və tələbələri tərəfindən yazılan həyat hekayəsinin tərcümələri: St. Julien, Məmories sur les contrees occiaentales par Hiouen-Tsang, Paris, 1857-1858, St. Julien, Histoire de la vie de Hiouen-Tsang, Paris, 1863; S. Beal, Si-yu-ki, Buddhist Recoras of the Western World, London, 1884; On Yuan Chwangs Travelin İndia 629-645, A.D. London, 1904; S. Beal, The Life of Hiouen-Tsang, London, 1911; T.W. Davids Ruys-S.W. Bushell tərəflərindən təkrar (New Dehli, 1961). Səyahət qeydləri ilk olaraq X əsrin ilk yarısında uyğur türkcəsinə çevrilmişdi. O tərcümədən almancaya: A.V. Gabain, Die uigurische Übersetzung der biographie Hüen-tsangs, SPAW, VII, 1935, s. 151-180 (bax: R. Arat, TM, V, s. 333-339), Briefe der uigurischen Hüen-tsang-Biographie, SPAW XXXIX, 1938, s. 371-414 (son olaraq təkrar nəşr, Leipzig, 1972). Türk. tərc. İslam Tetkikatları Enstitüsü Dergisi, IV, 1-2, s. 21-64. Səyahətnamədən özətlər: Ed. Chavannes, həmin əsər, s. 193-197; L. Ligeti, Bilinmiyen İç Asya, s. 69-86.

[321] Bu kağanlar sırası ilə: Ed. Chavannes, həmin əsər, s. 69-86.

[322] Ed. Chavannes, həmin əsər, s. 59-67.

630-680-ci illər arasındakı 50 illik zaman göytürklərin hürriyyətlərini itirdikləri bir matəm dövrəsi oldu. Hər nə qədər Orta Asiyada millət kimi türklər varlıqlarını, dil, inanc və gələnəklərini mühafizə etsələr də müstəqil bir dövlətdən məhrum olmaq, "Bəylik oğlan uşağının qul, xatunluq qız övladın cariyə" olması[323] göytürklər üçün heysiyyət qırıcı bir iztirab qaynağı təşkil edirdi. Millət belə deyirdi: "Ölkəli bir qövm idim, indi ölkəm hanı? Xaqanlı bir qövm idim, indi harda xaqanım?"[324]. Göytürkləri bu fəlakətə sürükləyən səbəblər, kitabələrdən anlaşılacağına görə, bu üç nöqtədə toplanmaqdadır:

1. Sonraki dövlət və idarə adamlarının yetərsizliyi:"...Kağan bilgə imiş, cəsur imiş, buyruqları bilgə imiş, cəsur imiş, bəyləri də, qövmü də yaxşı imiş, beləcə, ölkəni tutub törəni düzənləmişlər... Sonra qardaşlar, oğullar kağan olmuş, kiçik qardaş böyük qardaş kimi yaradılmadığı, oğul atası kimi yaradılmadığı üçün bilgisiz kağanlar taxta oturmuşlar, buyruqları da bilgisiz, pis imişlər... Türk bəyləri türk adını buraxmışlar, Çin bəylərinin adlarını almışlar, Çin xaqanına boyun əymişlər, əlli il işlərini, güclərini (ona) vermişlər..."[325].

2. Türk qövmünün mənfi münasibəti: "Türk bodunu... Sən ac olduğun zaman toxluğu düşünəməzsən, tox olduğun zaman aclıq nədir bilməzsən. Bu səbəblə xaqanın yaxşı sözlərinə qulaq vermədin, yurdundan ayrıldın, xarab, bitkin düşdün... Müstəqil xaqanlığa qarşı özün yanıldın... Şərqə getdin, qərbə getdin. Qutlu yurd Ötükəni tərk edərək getdiyin yerlərdə nə elədin? Su kimi qan axıtdın, sümüklərin dağlar kimi yığıldı... Dövlətinə qarşı xəta etdin, pis hala saldın"[326]. "Türk bodunu öz xaqanını buraxdı, hökm altına girdi. Hökm altına girdiyi üçün Tanrı ona ölüm verdi, türk bodunu öldü, məhv oldu[327].

3. Hiyləgər Çin siyasəti və yıxıcı təbliğat: "Çin qövmünün sözü şirin, ipəyi yumşaq imiş; şirin sözü, yumşaq ipəyi (ilə) uzaq qövmləri aldadıb yaxınlaşdırır imiş. Sonra da fəsad bilgisini orada yayırmış; yaxşı, bilgə kişini yürütməz imiş. Onun şirin sözünə, ipəyinə qapılan çox türk qövmü öldü..."[328]; "... Çin qövmü hiyləgər və qurnaz olduğu üçün, kiçik qardaşla

[323] Kitabələr, I, şərq, sətir 7, II, şərq, sətir 7.
[324] Kitabələr, I, şərq, sətir, 9, II, şərq, sətir 9.
[325] Kitabələr, I, şərq, sətir 3,5-6-7, II, şərq, 3-5,6-7.
[326] Kitabələr, I, cənub, sətir 8-10, şərqi, 23-24; II, şimal, sətir 6-8, şərqi, 19-20.
[327] Tonyukuk kitabəsi, sətir 3.
[328] Kitabələr, I, cənub, sətir 5-7; II, şimal, sətir 4-6.

böyük qardaşı bir-birinə düşürdüyü üçün, bəylərlə qövm arasına nifaq girməsi üzündən türk bodunu dövlətini və kağan etdiyi kağanını itirmiş..."[329]; "... Çin kağanı türk qövmü (ona) bunca işini-gücünü verdiyi halda türk qövmünü öldürüm, soyunu məhv edim deyir imiş, məhv etməyə yürürmüş..."[330].

Göytürk tarixinin bu 50 illik fətrət dövrünün sonunda kitabələr vasitəsilə çox yaxşı tanınan Aşina soyuna mənsub Qutlug (çincədə Ku-to-lu) istiqlal savaşına girişdi (680). Türk millətinin hür və müstəqil xaqanlıq çağına həsrət duyduğunu sezən Qutlug özündən öncəki mücadilələri də təqib edirdi: Çində Ordosdakı bəzi türk zümrələrinin eyni məqsədlə başa keçirdikləri şahzadə Ni-şu-fu davanı uduzmuş, kəsilən başı Çin paytaxtı Lo-yanqa götürülmüş (679-680), mücadiləyə davam edən, yenə Aşina soyundan olan Fu-nien izdihamlı Çin qüvvələri qarşısında yenilərək 53 arxadaşı ilə birlikdə Lo-yanq bazarında edam edilmişdi (avqust, 681)[331]. Bu sırada Şimali Çində vaxtilə türklərin yerləşdirildiyi bölgədə olan və türk kütlələrinin istiqlal arzusunu gerçəkləşdirmək əzmi ilə ortaya atılan Qutluğ gizlicə təşkilat quraraq, ətrafdaki göytürk əyanlarına və xalqa müraciət etdi. Sürətlə yayılan hərəkata qatılanların sayı qısa zamanda beş minə yüksəldi. Ona səs verənlər arasında II xaqanlıq dövründə göytürklərin ünlü dövlət adamı və komandanı Tonyukuk da var idi[332].

Qutluğ ilə Tonyukuk öncə 681-ci ildə Şimali Çindəki Yün-çu əyalətinə basqın edərək 30 min civarında at, qoyun, dəvə əldə etdilər[333]. Onlara yeni qüvvələr qatıldı. Çogay (Yin-şan dağları, Huang-ho çayının böyük dirsəyinin şimal yaxasındakı dağ silsiləsinin şimal ətəklərini yay, Qaraqumu qış iqamətgahı edərək[334] hazırlıqlarını tamamladılar. İlk hədəfləri Ötükən idi. Baykal gölünün cənub-qərbində, yüksək dağlar, Orxon və Tamir çayları ilə çevrili, müdafiəsi asan, fəqət ətrafa axınlar etməyə əlverişli mövqedə

---

[329] Kitabələr, I, şərq, sətir 6-8; II, şərq, sətir 7-9.

[330] Kitabələr, I, şərq, sətir 10; II, şərq, sətir 9.

[331] Bax: Liu, həmin əsər, I, s. 247, 249.

[332] Tonyukuk kitabəsi, sətir 5. Tonyukuk adı /Ton+yü-ku(k)/ haqqında bax: K. Czəglədy, Cogay quzı..., s. 65.

[333] Liu, həmin əsər, I, s. 306.

[334] Tonyukuk, sətir 7, bax: R. Giraud, L'Empire des Turcscèlestes, s. 171 və ardı. Xəritə 1; G. Causon,... Turkish, s. 412 b, Eski Uygur Sözlüğü, s. 66. Bu iki mövqenin yeri haqqında bax: K. Gzegledy, Čogay-quzı, Qaraqum, Kok-öng, s. 55-69. Karakum hunlar zamanında qurbanlı ilkbahar toyunun düzənləndiyi və Çin salnamələrində Lunq-çenq deyə keçən şəhər olmalıdır (bax: aş. Kültür: Dövlət Məclisi, Din).

(47-ci paralel-101-ci meridian), iqlimi mötədil, otlağı bol bir yer olan Ötükən yaylası[335] Asiya hunları və I Göytürk xaqanlığı zamanında dövlətin ağırlıq mərkəzi kimi türklərin qutlu torpağı sayılırdı. Dağınıq türk kütlələrini ancaq "türk dövlətçilik ruhunun yerləşmiş olduğu" Ötükən ətraftnda toplamaq və idarə etmək mümkün idi[336]. Qutlug hərəkatının inkişafından əndişələnən Selenqa çayı boylarındakı oğuzların, tədbir olmaq üzrə, kidanlarla və Çin ilə ittifaq təşəbbüsləri bir göytürk səfərini vacib qıldı. Tonyukukun tövsiyəsi ilə basqın şəklində "İnəklər gölü"[337] sahilində qazanılan savaş (682) oğuz təhlükəsini ortadan qaldırdı. Kiçik çapda olmasına rəğmən yüksək tarixi əhəmiyyət daşıyan bu muharibə göytürklərin Ötükənə hakim olmalarını təmin etdi. Qutlug xaqan elan edilərək "İltəriş" (İli/eli=dövləti dərib dərləyən, toplayan) ünvanını aldı və ikinci xaqanlığı təşkilatlandırdı: qardaşı Kapğanı "şad", digər qardaşı To-si-funu “yabğu” təyin etdi. İstiqlalın qazanılması və dövlətin qurulmasında birinci planda rol oynayan Tonyukuku ("ayğuçı"=toy başqanı, baş nazir)[338] qoydu, ordu və diplomatiya işlərini tənzim etməyi ona tapşırdı[339].

Yeni xaqanlığın öncə Çini hədəf olaraq seçməsi təbii idi. Bir zəfər axınları paradı mənzərəsini verən Çin səfərləri bir yandan bu əski və hilyəgər düşməni basqı altında tutmaq, digər yandan körpə Göytürk dövlətinin şiddətlə ehtiyac duyduğu yeyəcək, geyəcək, xüsusilə at kimi zəruri maddə və vasitələri əldə etmək məqsədini güdürdü. Axınlar daim Pekindən Kansuya qədər olan sahəyə, Çin səddinin tam cənubundan Huang-honun cənub

---

[335] "Ötükən-yış" (=Ötükən qoruğu) strateji və iqtisadi önəmi: Kitabələr, I, cənub, sətir, 3-4, 8; II, sətir 3, 6; coğrafi mövqeyi: B. Ögel, Türk Mitolojisi, s. 80 və ardı; 47-ci paralel, 98-ci meridian, J. Schubert, Zum Begriff..., s. 213-218.

[336] A. v. Gabain, Kök-Türklerin Tarihine Bir Bakış, s. 687.

[337] Tonyukuk, sətir 10-15. Bu kitabənin sətir 15-dəki "İngək kölkə Toğlada oğuz kəlti" ibarəsinin " oğuzlar yük heyvanları və inəkləri ilə (!) gəldilər" şəklində çevrilməsi hər halda qəribə və xətalıdır. Doğrusu "Toğladan İnəklər gölünə gəldilər" olmalıdır. Bax: R. Giraud, L’Inscription de BainTsokto, s. 84 və ardı. Adı keçən gölün yeri, yenə onun: L’Empire d. Turcs, s. 172 və xəritə 1.

[338] Tonyukuk, sətir 10,21 və s.; bax: R. Giraud, həmin əsər, s. 71.

[339] Kutluğun ilk Çin basqınında özünə iltihaq edib "Apa Tarkan” ünvanı verildiyi bildirilən A-şi-te Yüan-çen ilə Tonyukuk münasibəti haqqında münaqişələr üçün bax: Fr. Hirth, Nachworte zur Inschrift des Tonyukuk, s. 16 və ardı; Liu, həmin əsər, I, s. 430; son olaraq M. Mori, A-shih-te Yüan-chen ve Tonyuquq, s. 87-93; G. Clauson, Some Notes on the Inscription of Toñuquq, s. 132. Tonyukuk Çində doğulmuş bir türkdü. Bax: L. Bazin, Les Calendriers..., s. 207.

məcrasına yaxın yerlərə qədər yayılan və çinlilərin "çu" (prefecture) dedikləri qarnizon və əyalət mərkəzlərinə yönəldilmişdi; 682-ci ildə Pinq-çu 8 dəfə, 683-cü ildə Lan-çu, Tinq-çu, Kuei-çu, Yü-çu və Fenq-çu 10 dəfə, 684-cü ildə So-çu 6 dəfə, 685-ci ildə yenə So-çu və Hin-çu 2 dəfə, 686-cı ildə yenə So-çu, Tai-çu 11 dəfə, 687-ci ildə yenə So-çu, Çanq-pinq 9 dəfə axına məruz qalan yerlər idi. Bu səfərlər əsnasında Çin valiləri, komandanları məğlub edildi, orduları dağıdıldı. Hin-çuda (aprel 685) və So-çuda böyük miqyasda zəfərlər (oktyabr 687) qazanıldı[340].

Ayrıca, kitanlarla yeddi, oğuzlarla beş dəfə savaşdığı bildirilən İltəriş kağan[341] şimalda Kögmən (Tannu-ula) dağlarına, şərqdə Kerulən və Onon çaylarının yüksək vadilərinə, qərbdə Altaylara qədər uzanan sahədəki türk və yabançı qövmləri Göytürk idarəsinə almışdı[342]. Beləcə göytürk dövlətini yenidən qurub təşkilatlandıraraq türk törəsini təkrar qüvvəyə mindirən milli qəhrəman İltəriş qutlu Ötükən yaylasında dalğalandırdığı altın qurd başlı sancağın kölgəsində öldü (692)[343].

İltəriş öldüyü zaman biri 8 yaşında (Bilgə), digəri 7 yaşında (Kül Təgin) olmaq üzrə iki oğlu qalmışdı. Qardaşı 27 yaşındakı Kapğan (əslində türkcə ünvan = Fateh)[344] xaqan oldu (692-716). Çin qaynaqlarında adı Mo-ç'o[345] deyə keçən Kapğan türk tarixinin böyük fatehlərindən bıridir. Tonyukuk ayğuçılıq vəzifəsini yerinə yetirir, xaqanın qardaşı, qardaşı uşaqları və oğulları yavaş-yavaş Göytürk xaqanlığının seçkin simaları olaraq üzə çıxır-

[340] T'anq-shu və Kiu T'anq shudakı təfsilat üçün bax: Liu, həmin əsər. I, s. 158 və ardı, 212 və ardı, 438.

[341] Tonyukuk, sətir 49.

[342] "47 dəfə səfər etmiş, 20 kərə savaşmış, tanrı buyurduğu üçün düşmənləri itaətə almış, dizlilərə diz çökdümuiş, başlılara baş əydirmiş. Babam kağan bu qədər ölkə qazanmış..." Kitabə, I, şərq, sətir 15-16; II, şərq, sətir 13-14.

[343] Vaxtilə İltəriş adına dikildiyi iddia edilən, Orxonun cənubundəki Ongin kitabəsinin (W. Radloff, ATIM, III, s. 243- 256) 732-ci ildə dikildiyi irəli sürülərək (G. Clauson, The Ongin Inscription, s. 177-192) İitərişə aid olmadığı (daha bax: Ph. T. Fundamenta, II, 1964, s. 201 və ardı), fəqət İletmiş (yabğu) adına oğlu tərəfindən (732-734 arasında) dikilmiş olduğu bildirilməkdədir. Bax: T. Tekin, A Grammar of Orkhon Turkic, s. 11. Kitabənin nəşri, həmin əsər, s. 255 və ardı, 291 və ardı. L. Bazinə görə, kitabə Bilgə kağanın bir əqrəbasının xatirəsinə 720-ci ildə dikilmişdir (bax: Les Calendriers..., s. 187-198). Yenə L. Bazinə görə (həmin əsər, s. 187), İltərişin ölüm tarixi 691-ci ildir.

[344] Bax: R. Giraud, L'Inscription de Bain-Tsokto, s. 149; Gy. Moravcsik, Byz. Turc. II, s. 141; müq. et: G. Clauson, A Note on Qapgan, s. 73-77. Kapğanın "Böğü" (ağıl və fərasət sahibi) ləqəbini də daşıdığı anlaşılır (Tonyukuk, sətir 34, 50).

[345] Türkcə əsli Bəg-çor, bax: P. Pelliot, Toung Pao, XXIV, s. 287.

dılar. Kapğan kağanın böyük və uzaqgörən bir dövlət adamına yaraşan planları olduğu görünür ki, onların əsasları belə xülasə edilə bilər:

a. Çini basqı altında tutmaq. Bunda iki məqsədi vardır: türk dövlətinin hüzurunu qorumaq və xalqı kafi ölçüdə əkinçilik malları ilə təmin etmək.

b. Çində dağınıq halda yaşayan türkləri ana vətənə (Ötükən) çəkmək. Bunda da iki məqsədi vardı: türkləri yabançı hakimiyyətindən qurtarmaq və türk ölkəsində hərbi və iqtisadi inkişafı sürətləndirmək.

c. Asiya qitəsində nə qədər türk varsa hamısını Göytürk birliyinə bağlamaq.

Kapğanın bu siyasi və iqtisadi görüşləri onu saylı türk böyükləri arasında çox yüksəltməkdədir. Xüsusilə üçüncü nöqtə diqqət çəkici bir siyasi anlayış ifadə edir[346].

Gənc, haşin və ehtiraslı Kapğan səfərlər və zəfərlər dizisini 693-cü ildəki Çin basqını ilə açdı. Linq-çu əyalətini şiddətlə vurdu və həmin il içində eyni bölgəyə yeddi səfər daha tərtiblədi[347]. Sonra Ordosa axın etdi. Hərbi hərəkatını yenidən Linq-çuya doğru yönəltdiyi il (696-cı ildə Şenq-çuya bir, Lianq-çuya üç, Linq-çuya səkkiz yürüş)[348] ki-tanlarla Çının toqquşmasını öz lehinə dəyərləndirərək, Tanq imperatoriçəsi Wunu (690-705) dəstəklədi. Qorxunc ki-tanları Ho-pei bölgəsində ağır məğlubiyyətə uğratdıqdan (oktyabr 696) sonra imperatoriçədən bunları istədi: 100 min "hu" (hu=təqr. 12,5 kiloluq ölçü vahidi) toxumluq darı, 3 min ədəd əkinçilik aləti, 10 min (Tanqshuya görə 40 min) librə dəmir, Çin torpaqlarında yaşayan (çoxu Ordosda "6 əyalət" ərazisində) türklərin ana vətənə qayıtması[349]. Sonra Kapğan Yenisey bölgəsini işğal etməkdə olan qırğızlara yönəldi. Mövsüm qış (696-697), yol uzun və məşəqqətli idi, fəqət bu səfərə zərurət vardı: "Qüvvətli qırğız kağanı, Çin kağanı və on-ox kağanı anlaşıb Altun-yışda (Altun orman =Altay dağları) buluşalım, ordularımızı birləşdirəlim, şərqdə türk kağanına saldıralım, (yoxsa) kağan cəsur və ayğuçısı bilgə olduğundan o bizi məhv edər demişlər"[350]. Kapğanın və Tonyukukun idarə etdiyi göytürk ordusu "qar sökərək, ağac budaqlarından tutaraq, bəzən atları yedəyə alaraq"[351] yolsuz vadilərdən Kögmən dağlarını aşdı, Yenisey qaynaqlarında

[346] Bax: A. v. Gabain, Kök-Türklerin Tarihine Bir Bakış, s. 689.
[347] Liu, həmin əsər, I, s. 160-214, II, s. 850.
[348]Liu, həmin əsər, I, s. 270,438.
[349] Liu, həmin əsər, I, s. 161,215.
[350] Tonyukuk, sətir 20-21.
[351] Tonyukuk, sətir 25-26.

Anı çayı qıyısında qırğızlara basqın etdi, xanı tələf olan qırğız ölkəsi təslim alındı. Növbə üçlü ittifaqda yer aldığını gördüyümüz türgişlərə (on-oxlar) gəldi. Fəqət Çin Kapğanın istəklərini yerinə yetirmirdi. Xaqan öncə mövcud duruma uyğun olaraq, ordunu və idarəni yenidən təşkilatlandırdı: Qardaşı To-si-fuyu xaqanlığın sol qanadına "şad", İltərişin oğlu 14 yaşındakı Bilgəni tarduş toplumu üzərinə "şad" təyin etdi[352], öz oğlu Bögünü (kitabələrdə İnəl kağan, Çin qaynaqlarında Fu-kü və "İnie khagan") "kiçik kağan" qoydu[353]. Bu surətlə göytürk imperatorluğunda hərbi qüvvələr də iki ordu qrupu halında tərtiblənmişdi. Kapğan Çin ilə savaşa hazırlaşarkən İnəl kağan ilə Bilgə şad əmrindəki, fəqət gerçək sövq və idarəsi Tonyukukun əlində olan qərb ordular qrupuna da "qərbi düzəltmə", yəni on-oxları dövlətə bağlamaq vəzifəsi tapşırılmışdı[354]. Çin elçilərinə qarşı Kapğanın şiddətli və qərarlı tutumu indilik şərqdə bir silahlı toqquşmanı önlədi: "Mo-çonun qüdrətindən təlaşa qapılan Çindən[355] dərhal 3.000 əkinçilik aləti, 40 min "şi" (təqribən 3.000 ton)[356] toxumluq darı göndərildi və türklər ana vətən torpaqlarına qaytarıldı (698). Böyük kağanın planlarından ilk ikisi gerçəkləşmişdi. Ancaq Kapğanın qızını bir tanq şahzadəsi ilə evləndirmək arzusuna qarşı əslində cariyəlikdən gəlmə qadın olan imperatoriçə Wunun tanqlardan deyil də, öz ailəsindən bir şahzadəni damad olaraq ortaya sürməsindən qəzəblənən Kapğan yanındakı Çin elçilik heyətindən general Yen-çi-weıni "Çin kağanı" elan edərək, onunla birlikdə göytürk hərbi gücünün bütün qüdrəti ilə ansızın Çin torpaqlarında göründü (698): Kuei-çu, Tan-çu, Pinq-çu, Yü-çu, Tinq-çu Çao-çu əyalətlərini 30 dəfə vurdu. 100 minlik ordusu ilə bütün Çin qüvvələrini əzdi, at ilxıları başda olmaqla bol qənimət və əsir aldı. Tonyukukun və Bilgənin də qatıldığı bu geniş ölçülü hərəkat əsnasında "Yaşıl-ögüz" (Yaşıl çay=Yanq-çe="taluy-ögüz") sahillərinə və Şantunq ovasına çatdığı anlaşılan türk orduları tərəfindən 23 qəsəbə təxrib edilmişdi[357]. Oradan şimala yö-

---

[352] Kitabələr, I, şərq, sətir 17; L. Bazinə görə (Les Calendriers..., s. 221) 692-ci ildə.

[353] Ed. Chavannes, həmin əsər, s. 282, qeyd 5. Bu kağan To-si (Qərbi fəth edəcək adam) ünvanını daşıyırdı. Bax: Liu, həmin əsər, I, s. 164,218.

[354] Ed. Chavannes, həmin yer.

[355] Liu, həmin əsər, I, s. 161.

[356] Bax: Liu, həmin əsər, II, s. 601, n. 867.

[357] Kitabələr, I, şərq, sətir 17; II, şərq, sətir 15. Tonyukuk ,sətir 18-19. Bəlkə Bilgə şad əmrindəki birlik Yaşıl şaya (və ya "taluy" = dənizə?) çata bilməmişdi: Kitabə, l, cənub, sətir 3; II, şimal, sətir 2. Türklərin şərqdə Çin torpaqlarında irəlilədikləri son nöqtə -kitabələrdəki açıqlığa rəğmən-Pekinin qərb bölgəsində aranmışdır. Bax: R.Giraud, L'Empire d. Turcs, s. 28, 48 və ardı; G. Clauson,... Turkish, s. 502a.

nələn Kapğana Çin orduları komandanı Şa-ça Cunq-i (kitabələrdə Ça-ça Sengün) əmrindəki bir neçə yüz minlik qüvvəsinə rəğmən hücuma cəsarət edə bilməyərək, göytürk süvari tümənlərinin keçişini uzaqdan seyr edərkən, ümidini itirən Çin sarayından orduya göndərilən gizli bir əmrdə kağanı tapıb öldürənin şahzadə elan ediləcəyi bildirilirdi[358].

Həmin ilin sonlarına doğru ölən xatunun yuğ törəni ilə məşgul olan kağanın əmri ilə İnəl ilə Bilgə tərəfindən sövq edilən qərb orduları qrupu da Tonyukukun yüksək komandanlığı altında Altayları (Altun-yış) aşıb Yarış ovasına (Cunqariya) irəliləmiş və Bolçuda[359] on-ox qüvvələri üzərində qəti zəfər qazanmışdı (698)[360]. Türk bodundan olduğu halda "yanlış hərəkət edən"[361] türgiş xaqanı U-çe-lenin (Wu-shih-le) yaxalanması və yabğusu ilə şadının tələf olmaları ilə nəticələnən Bolçu savaşı on-oxların bütün to-lu və nu-şi-pi qəbilələrini, yəni Balxaş, İli, Issık göl, Çu və Talaş bölgələrindəki türkləri göytürk birliyinə bağlamışdı[362] (699). Xaqanlığın sınırları qərbdə Kəngü Tarbana[363] və Fərqanəyə çatdı. Çin qaynağı belə deyir: "Mo-ço zəfərlərindən qürur duymaqda, imperatorluğumuzu həqir görür. Yüksək qayələri var. Hər tərəfə ordular sövq edir. Ərazisinin genişliyi 10 min "li"dən (= təqr. 4500 km) çoxdur. Bütün barbarlar (=Çin dışındakılər) onun əmri altında..."[364]. Beləliklə, vaxtilə Tardunun türk birliyini gerçəkləşdirdiyi tarixdən tam 100 il sonra Kapğan kaganın şərq-qərb xaqanlıqlarının torpaqlarını tək idarədə toplaması yolu ilə "dəhşət verici türk birliyi ehya edilmişdi"[365]. Bu tarixlərdə, anlaşıldığına görə, göytürk xaqanlığına bağlı türk kütləlari 30 "boy" təşkil etməkdə idilər (bax: aş. Sosial struktur: boy, bodun). Kapğanın planındakı üçüncü nöqtənin tamamlanması üçün Mavəraünnəhrin də zəbt

---

358 Liu, həmin əsər, I, s. 215-218 və ardı, 319.

359 Urunğu gölünün cənub-qərb qıyısında; bugün Tokoi qəsəbəsi, bax: R. Giraud, həmin əsər, s. 179.

360 Bax: Tonyukuk, sətir 29-42; Ed. Chavannes, həmin əsər. s. 282; R. Giraud, həmin əsər, s. 36,178; yenə onun: ...Bain-Tsokto, s. 62.

361 Kitabələr, I, şərq, sətir 18-19; II, şərq, 16.

362 Ed. Chavannes, həmin yer.

363 Kitabələr, I, şərq, 21; II, şərq, 18. Kəngü (Kang-kü) ölkəsi: Çıy çayı-cənubi Qazaxıstan bozqırı-Mavəraünnəhr; Tarban (Tarband) şəhəri Seyhunun orta məcrasında Arış çayının bu çaya töküldüyü yerdəki (Şaş bölgəsinin paytaxtı) Otrar=Fərab şəhəri, bax: K. Czeglédy, Nomád népek.., s. 31,40-52,143; S. G. Klyaştorny, Orhon Abidələrində Kengü’nun Kavmi-Yer Adş, s. 92-96.

364 Tanq-shu’dan, Liu, həmin əsər, I, s. 218.

365 R. Grousset, L’Empire des Steppes, s. 157.

edilməsi lazımdı: coğrafi mövqeyi, iqlimi, verimli torpaqları və zənginliyi bütün qaynaqlarda öyülən Mavəraünnəhrdə o zaman göytürk ordularına qarşı çıxacaq bir qüvvə yoxdu. Türk soylu bəzi ailələrin idarə etdiyi şəhər krallıqları 675-ci ildən bəri nisbətən kiçik qüvvələrlə kiçik miqyaslı təşəbbüslərə girişən müsəlman-ərəb komandanlarına (Abdullah b. Ziyad, Səid b. Osman, Musa, Mühəlləb və s.) uğurla qarşı çıxmaqda idilər[366].

Yenə Tonyukukun yüksək komandanlığı altında olmaq üzrə İnəl kağan və Bilgə tərəfindən sövq və idarə edilən göytürk qərb orduları qrupu Altay-Bolçu-Yarış ovası-Çu və Talaş hövzələri-Qaradağın şimalı üzərindən Yinçü-ögüz (İnci çayı=Seyhun=Sir-dərya) qıyılarına çatdı, çayı keçərək Mavəraünnəhrin Qızılqum çölünə girdi və cənuba istiqamət götürdü. Ordunun bir qismini yan tərəfdən hər hansı hücuma qarşı İnəl idarəsində burada qoyan Tonyukuk cənuba doğru irəlilədi və U-çe-lenin oğlu olan türgiş baş buğu So-ko[367] idarəsində olduğu anlaşılan soğd xalqı təslim oldu. "Tinsi-oğlı" deyilən müqəddəs Ek-tağı[368] aşaraq irəliləyən göytürk ordusu cənubda Təmir kapığa (Dəmir qapı) çatdı[369] (701). Zəngin qənimət əldə edildi: "Sarı altın, bəyaz gümüş, əyri dəvə, qız-qadın..."[370]. Təmir kapı, bilindiyi kimi, miladdan öncəki əsrlərdən bəri İran-Turan (türk) ölkələrinin arasında təbii sərhəd kimi qəbul edilməkdə idi.

Mavəraünnəhr səfəri münasibətilə Orxon kitabələrində ilk dəfə müsəlman ərəblər (=təzik) zikr edilmişdir[371]. (İranlıların ərəblərə verdikləri tazi adından /tayy adlı ərəb qəbiləsindən/ gələn təzik sözü türklər tərəfindən sonralar iranlılar üçün işlədilmişdir: tacik). Bu ad o zaman Kəş şəhrində qərargah qurmuş olan Xorasan valisi Mühəlləbin qüvvələri ilə ilgili olmalıdır.

---

[366]Təfsilat üçün bax: əl-Bəlazuri, ət-Təbəri, Nərşahi və s. islam tarixçilərindən nəqlən, bax: H. A. R. Gibb, Orta Asya'da Arab Fütuhatı, s. 14-25; R. H. Frye-A. Sayılı, Selçuklu'lardan Evvel Orta-Şarkta Türklər, s. 102-115.

[367] Souo-ko, bax: Ed. Chavannes, həmin əsər, s. 67, 271.

[368] Bax: M. Ergin, Orhun Abideleri s. 43. Və ya Tinsi-oğlının (Tien-tse/=Çin imperatoru /+oğlu) yatdığı alaca Ektağ, bax: R. Giraud, L'Empire des Turcs..., s. 45; yenə onun: L'Inscription de Bain-Tsokto, s. 63,108,111.

[369] Səfərdə təqib edilən yol üçün bax: R. Gıraud, L'Empire d. Turcs..., xəritə 4.

[370] Tonyukuk, sətir 45-48. Qarşılığı "qadın" olaraq verilən kəlmə kitabədə "kotuz"dur (kutuz, kuduz). Ayrıca bax: Şine-usu, kitabə, şərq, sətir 3.Bu əslində türkcədə "dul qadın" deməkdir (bax: DLT, I, s. 365). Belə çıxır ki türklər savaşlarda yalnız dul və sərbəst qadınları əsər alır, evli qadınlara toxunmurdular (bax: R. Giraud, L'Inscription de Bain-Tsokto, s. 112).

[371]Tonyukuk, sətir 45. "Təzik" adı hadisələrlə ilgili olaraq, Küli-çor kitabəsində də keçir (şərq, sətir 4). Bu kitabənin tarixi 719-722-ci illər arasındadır (bax: T. Tekin, A Grammar of Orkhon Turkic, s. 12), deməli, təzik öncə burada görünmüşdür.

Anlaşıldığına görə, İnəl komandanlığı altındakı qüvvə bir ərəb hücumuna qarşı orada buraxılmış, fəqət Mühəlləb ordusu hər hansı bir hərəkətdə bulunmamışdır. Şərqdə türk ordusu fəaliyyət halında idi. 701-ci iln başlarında tanqutların sahəsi Lunq-yuya (Kan-sunun şimal-şərqi) bir axın tərtibləyən Kapğanın buradan Cənubi Ordosda soğd icmalarının (Chao-wu) olduğu "Altı əyalət" (=Liu Hu Çu. Kül Təgin və Bilgə kitabələrində: altı çub soğdak) üzərinə yürüşdə (702 fevral) Bilgə ilə Kül Təgin də iştirak etmişdi. Soğdların dağılmasından sonra türklərə qarşı çıxan çinli komandan Onqtutuk[372] idarəsindəki 50 minlik ordu da məğlub edildi və çinli general hələ 16 yaşlarında olan Kül Təgin tərəfindən silahı ilə birlikdə yaxalanaraq xaqana təslim edildi (payız 702)[373]. Kapğan Çinə axınlarına davam etdi. 702-ci ildə Yen-çu, Hia-u, Şi-ling, Hin-çu, Pinq-çu bölgələrinə 20 yürüş etdi. 704-cü ildə Kül Təgin ilə Bilgənin də qatıldığı böyük Minq-şa (Minq-sha-hien. Kan-suda bugün Çung-wei-hien) müharəbəsində Çaça Səngünün (çincə əsli Şa-ça Çung-i) komandası altındakı 80 minlik Çin ordusu məğlubiyyətə uğradıldı[374] və bundan dərhal sonra Lunq-çu, Yuan-çu, Hin-çuya qarşı on bir axın tərtibləndi. Tanq imperatoru Çunq-tsunq yenə xüsusi bir əmr verərək, Kapğanı əsir alan və ya öldürənə "şahzadə" ünvanı verəcəyini və 2 min top ipəklə təltif edəcəyini elan edirdi. Ayrıca bütün vəzifəlilərə göytürkləri məğlub etmək üçün üçün planlar hazırlamalarını əmr etdi. Bunun üzərinə sarayın yüksək məmurlarından Lu Funun imperatora verdiyi raportda çarə olaraq:

1. "Barbarları" bir-birinə qarşı təhrik etmək,
2. "Barbarları" iki cəbhədə birdən savaşa məcbur etmək tövsiyə edilir və m.ö. 36-cı ildə Çi-çinin belə yenildiyi xatırladılırdı[375].

Bu arada 649-dan bəri Çin ilə siyasi münasibətlər qurmuş olan basmıllar təkrar itaətə alındı (704)[376]. 709-cu ildə çiklər (Yuxarı Kəm-İrtış arasında. Qırğızların qonşusu) və Issık gölün qərbində azlar[377] Bilgə tərəfindən

[372] Çincə əsil adı Wei Yüan-çunq, bax: Liu, həmin əsər, I, s. 164,218.

[373] Bax: Kitabələr, I, şərq, sətir 31-32; II, şərq, sətir 24-25; R. Giraud, həmin əsər, s. 81 və ardı; 188; S.G. Kljastorny, Sur les Colonies Sogdiennes de la Haute Asie, s. 95-97.

[374] Kitabələr, I, şərq, sətir 32-34; II, şərq, sətir 26; Liu, həmin əsər, I. s. 164, 219,11. s. 604 (Sengün-Chang-chün /general/ çincə). Bu yürüş bir ilə qədər sürmüş ola bilər, L. Bazinə görə (Les Calendriers..., s. 224 və ardı), 705-706 arası.

[375] Bax: Liu, həmin əsər, I, s. 165 və ardı, II, s. 608.

[376] Kitabələr, II, şərq, sətir 25.

[377] Əslən iranlı as=yaslar; bax: K. Czeglédy, Nomàd nèpek..., s. 36,136.

xaqanlığa bağlandı[378]. Göytürk ordularının uzaqlarda məşgul olmasını fürsət biləræk qiyam etməyə qalxışan qırğızlar da Bilgə-Kül Təgin idarəsində "mizraq boyu qar sökərək Kögmən dağlarını aşan" göytürk orduları tərəfindən Songa ormanında ikinci dəfə məğlub edildi[379] (710). Həmin il içində Tola çayı civarındakı bayırkular, Türgi-yarğın gölü savaşında məğlubiyyətə uğradıldı[380]. 711-ci ildə yenə itaətdən çıxmış olan türgişlərə dərs verildi; "atəş və fırtına" kimi saldıran türgiş qüvvələri məğlub edilərək, türgiş yabğusu, şadı və tabe kağan So-ko öldürüldü, "Qara türgiş" itaatə alındı[381]. Bars bəy türgiş "kağan"ı təyin edilərək Bilgənin bacısıı ilə evləndirildi[382] və Maværaünnəhrə bir yürüş təşkil edildi. Kitabələrə görə, bunun səbəbi "soğdak (Səmərqənd bölgəsi) qövmünü itaət altına almaq" idi[383]. Bu səfərin icra edildiyi illər (711-714) Mavəraünnəhrdə məşhur Qüteybə b. Müslim idarəsindəki ərəb ordularının qəti uğurlar qazandığı dövrə təsadüf edir. Qüteybə Buxaranı aldıqdan sonra soğdların paytaxtı Səmərqənd üzərinə yürümüş, 300 mühasirə mexanizmi ilə mühasirə etdiyi şəhəri türk əsilli kral Gürəki sərbəst buraxmaq şərtı ilə təslim almışdı (93/711-712). İslam qaynaqlarında bu münasibətlə Mavəraünnəhr xalqının türk xaqanından yardım istədiyi, beləcə ərəblərlə mücadilə edən müttəfiq Mavəraünnəhr qüvvələrinin başında olan xaqanın oğlunun bir gecə basqınında məğlub edildiyi bildirilir[384]. Bu qeyd göytürklərlə ilgili sayılmış və məğlub olanın Kül Təgin olduğu iddia edilmiş[385] və ya məğlub olan "Göytürk şahzadəsinin mütləq Kül Təgin olması gərəkmədiyi bəyan edilmiş[386], son olaraq da Kapğan kağanın məğlub olduğu irəli sürülmüşdür[387]. Gerçəkdə nə Kapğanın, nə Bilgənin, nə də Kül Təginin o zaman Mavəraünnəhrə gəlmələri mümkün idi, zira onlar o tarixlərdə xaqanın sərt rəftarından dolayı üsyan edən türgişlərlə və qarluqlarla

[378] Kitabələr, II, şərq, sətir 26.
[379] Kitabələr, I, şərq, sətir 35-36; İL şərq, sətir 26-27; R Giraud, həmin əsər, s. 175; L. Bazin, Les Calendriers..., s. 226.
[380] Kitabələr, I, şərq, sətir 34; Liu, həmin əsər, I, s. 169.
[381] Bolçu savaşı? Kitabələr, I, şərqi, sətir 37-38; II, şərqi, sətir 28.
[382] Kitabələr, I, şərq, sətir 18-20; II, şərq, sətir 16-17
[383] Kitabələr, I, şərq, sətir 39.
[384] Bax: ət-Təbəridən nəqlən İbnül-Əsər, əl-Kamil..., IV, s. 126.
[385] J. Marquart,Die Chronologie der alttürkischen Inschriften, s. 8.
[386] W. Barthold, Die alttürkischen Inschriften und die arabischen Quellen, ATİM, II, s. 10 və ardı; müq.et: yenə onun: Turkestan down to the Mongol Invasion, s. 187.
[387] S. G. Klyaştorniy, Orhun Yazıtlarına Göre Orta Asya Milletlerinin Araplara Karşı Mucadelelerine Dair, s. 772.

məşgul idilər (711-714). Tonyukuk da 750-ci ildən bəri fəal vəzifədən uzaqlaşmışdı[388]. Əsasən yuxarıdakı iddialar doğrulanmışdır. Həmin dövrdə Mavəraünnəhrdəki islam hərəkatı baxımından ana qaynaq olan ibn ül-Əsam il-Kufinin kitabında bu haqda yazılmamış[389], Orxon kıtabələrində bir savaşdan deyil, sadəcə bir "tənzim" məsələsindən bəhs edilmiş, bu xüsusdaki Çin qaynaqlarının müqayisəsindən göytürk ordularının başqa yerlərdə olduğu təsbit edilmişdir. Bu duruma görə, 712-ci ildə soğd qüvvələri başında ərəblərə yenilən komandanın bir türgiş xanı (daha doğrusu, bir türgiş başbuğu) ola biləcəyi nəticəsinə varılmışdır[390].

Kapğan kağanın getdikcə şiddətini artıran rəhmsiz, sərt rəftarı hüzursuzluğu artırır, gördüyümüz kimi, xüsusilə türk boylarının üsyan etməyinə səbəb olurdu. Üsyan edib Kəngərəsə (Seyhun qıyıları. Kangahlar və ya kəng-külülər məmləkəti? Bax: aş. peçeneqlər) doğru gedən bəzi türgiş kütləleri (qara türgişlər), 711-ci ildə "atların zəif, azuqənin yox" olduğu çətin şərtlərə rəğmən Kül Təgin tərəfindən yatırılsa da[391], həmin il başlayıb üç ildən artıq sürən və Çinin təhriki nəticəsində qarluqların qatılması ilə[392] möhkəm alovlanan üsyanlar xeyli problem yatardı. İmperator Çunq-tsunqun Kan-su əyaiətlərindəki ordularını göytürklərə qarşı səfərbər hala gətirdiyi bu sıxıntılı günlərdə "Türküstandakı yurdlarından qalxaraq Ötükənə qədər soxulmağa müvəffəq olduqları anlaşılan qarluqlar və müttəfiqləri ancaq Kapğan, Bilgə və Kül Təginin ortaq hərəkatı ilə Tamır Iduk-başdakı[393] şiddətli savaşda (713) məğlub edilərək dağıdıldılar[394]. Bəzi qarluqlar və başqaları Çinə sığındılar və San-yuan bölgəsinə yerləşdirildilər.[395] Tamır İduq-baş müharibəsi tam vaxtında qazanılmış, göytürkləri iki cəbhədə döyüşməyə məcbur etməyi hədəf alan Çin qüvvələrinin qarluqlar lehinə müdaxiləsinin qarşısı alınmışdı. İndi isə Çin hazırlığını boşa çıxarmaq lazım idi: Çinin yığınaq mərkəzi Beş-balıq üzərinə səfər düzənləndi (714).

---

388 Bax: Liu, həmin əsər, I, s. 171.

389 Bax: H. A. R. Gibb, həmin əsər, s. 13 və ardı, 39 və ardı.

390 Bax: A. N. Kurat, Kuteybə b. Müslimin Xarezm ve Samarkandı Zaptı, s. 385-425; daha bax: İA mad. Kutayba.

391 Kitabələr, I, şərq, sətir 38-40; L. Bazin, Les Calendriers..., s. 228.

392 Liu, həmin əsər, I, s. 221 və ardı.

393 Tamır çayının qaynağı. Bax: R.Giraud. L'Empire d. Turcs..., s. 192.

394 Kitabələr, I, şımal, sətir 1-2, şərq, sətir 29.

395 Liu, həmin əsər, I, s. 170, 220; Ed. Chavannes, Notes additionelles sur les Tou-kiue (Turcs) occidentaux (Documents-in əlavəsində), s. 29 və ardı.

Çin qaynaqlarının göstərdiyinə görə[396], İnəl ilə Tong-o Tegin və xaqanın yeznəsinin komandanlığına verilən ordu Beş-balığı mühasirəyə aldı. Kitabələrə görə[397] Bilgənin də qaltıldığı bu hərəkatda şəhər ələ keçirilməsə də qarışıqlıqdan faydalanaraq Soei-sendəki (Toxmaq şəhəri. Issık gölün şimal-qərbi) türk qəbilələri üzərində bir uğur qazanmaqla kifayətlənən çinlilərin göytürklərə qarşı böyük miqyaslı hücumu ortadan qaldırılmış oldu.

Ancaq xaqanlıq qazan kimi qaynamaqda idi. Kitabələrdəki[398] : "Əmim kağanın idarəsi qarışıqlıq içinə düşdüyü, xalqda ikitirəlik ortaya çıxdığı zaman..."[399] kimi ifadələr vəziyyəti açıqlamağa kifayətdir. Azlar, sonra isə izgitlər şiddətlə əzildilər (715-ci il)[400]. Fəqət xaqanlığın əsas kütləsini meydana gətirdiyi üçün dövləti təməllərindən sarsaraq, nəhayət, ixtilala səbəb olan oğuzların üsyanları göytürk ictimai bünyəsində dərin yaralar açdı və ən böyük nəticəsi qərbin (on-ox ölkəsi və Mavəraünnəhrin) xaqanlıqdan qopması oldu. 714-cü ilin payızında başladığı anlaşılan oğuz üsyanlarının-oğuzların dövlətə olan nisbətləri dolayısıyla heyrətlə qarşılandığı kitabələrdən sezilməkdədir: "Doqquz oğuz bodunu öz bodunum idi, göy və yer qarışdığı üçün düşmən oldu"[401]. 715-ci ilin baharında Kapğanın çıxmağa məcbur olduğu doqquzoğuz səfərində məğlub edilən və heyvanları öldürülən oğuzlardan bir qismi Çinə sığındı[402]. 716-cı ildə oğuz boylarından bayırkular şiddətlə əzildi. Fəqət bu, ömrü boyu durub dincəlməyən sərt təbiətli Kapğan kağanın seriya halındakı zəfərlərinin sonuncusu oldu. Özündən əmin halda Ötükənə dönərkən yolda bayırkuların pusqusuna düşdü və oldürüldü (22 iyul 716)[403]. Asilərin Çin ilə təmas halında olduqları bu əsnada onların nəzdində bir Çin elçinin bulunmasından anlaşılır. Hətta rəvayətə görə [404], Kapğanın kəsilən başı bu elçi tərəfindən Çinə götürülmüşdür.

Kapğanın yerinə keçən oğlu İnəl (Bögü) xaqanlığın bu böhranlı dövründə dövlətin cilovlarını əlində tutacaq qüdrətdə deyildi. Qarışıqlığı önləyə

[396] Liu, həmin əsər, I, s. 169, 220, 275.

[397] Kitabə II, şərq, sətir 28.

[398] Kitabə I, şimal, sətir 3.

[399] Bax: R. Giraud, həmin əsər, s. 52.

[400] Kitabə, I, şimal, sətir 3-4. A. Bombaci, … Eltäbär, s. 27. L. Bazin, həmin əsər, s.230 və ardı. Eskil~Askil (yux. bax) və bulğar olaraq təqdim olunan İskil (bax: aş.) qövmləri arasında bir əlaqə varmı?

[401] Kitabələr, I, şimal, sətir 4; II, sətir 30.

[402] Liu, həmin əsər, I, s. 170, 222.

[403] Liu, həmin əsər, I, s. 171, 223; L. Bazin, həmin əsər, s. 234.

[404] Liu, həmin yer. və 256; O. Franke, həmin əsər, s. 11, 441.

bilməmiş, yurda hüzur getirə bilməmişdi. Halbuki türk xalqı bu xidmətləri xaqandan gözləyirdi. Oğuzlar büsbütün alovlandıqları üçün dövləti qurtarmaq işi İltərişin oğulları, sol bilgə əliyi olan Bilgə ilə Kül Təginin çiyinlərinə yüklənmişdi. 716-cı ildə Kül Təgin beş oğuz səfərinə çıxmış (Toğu balıq, Kuşlağul, Urğu / və ya Antırğu?/, Çuş-başı, Ezgenti-kadız savaşları. Bunlardan ikincisində edizlərlə, dördüncüdə tonqralarla savaşdı) və səfərlərin dördünə Bilgə də qatılmışdı[405]. O il böyük ölçüdə heyvan tələfatına səbəb olan qıtlıqda belə Bilgə səfər halında idi. Ötükən üzərinə yürüyən üç-oğuzlar Kül Təgin tərəfindən geri oturduldu [406]. Doqquz-tatarlarla ittifaq edərək hücuma keçən oğuzlar Ağuda cərəyan edən iki savaşda məğlub edildilər və oğuz kütlələri Çin sınırına doğru çəkildilər[407]. Uzanıb gedən bu savaşlar dolayısıyla kitabələrdə göytürk ordusunun taqətdən düşüb cəsarətini itirdiyini göstərən ibarələr vardır. Olub bitənlər yeni xaqanın bacarıqsızlığı ilə izah edilir və xalqda belə bir qənaət oyanırdı ki, tanrı ondan xaqanlıq yetkisini geri almışdır[408]. Ölkənin fəlakətdən qurtulması üçün xaqanın dəyişməsi lazımdır. Çin qaynaqlarındakı izahata görə, hər halda Bögünün dirənməsi nəticəsində dəyişdirmə güc işlədilərək gerçəkləşdirildi. İnəl kağan, qardaşı, qohumları, bəyləri və tərəfdarları öldürüldü[409]. Çevriliş planı iki qardaş (Bilgə və Kül Təgin) hazırlanmış, fəqət Kül Təgin tərəfindən icra edilmişdi.

Bilgə xaqan oldu (716-734. Tənqri təg tənqridə bolmış Türk Bilgə). “Sol Bilgə eliki” təyin olunan Kül Təgin göytürk ordularına nəzarəti öz üzərinə aldı[410]. 705-ci ildən bəri yarğu (ali məhkəmə) üzvü (bax: aş. Kültür: Ədliyyə) və Bilgənin qaynatası olduğu üçün çevriliş əsnasında toxunulmayan Tonyukuk da təkrar əski vəzifəsinə (“ayğucı”= Dövlət Məclisi başqanı) təyin edilldi. Fəqət ümumi bir yorğunluq, bezginlik vardı: "Tanrı türk qövmü yaşasın deyə məni taxta oturtdu... İçdə aşsız, dışda geyəcəksiz bir

[405] Kitabələr, I, şimal, sətir 4-9; II, şərq, sətir 30-33.
[406] Kitabələr, I, şimal, sətir 8-9.
[407] Kitabə II, şərq, sətir 32-34.
[408] Kitabə II, şərq, sətir 35. Yeni oxunuşu:"... dirayətsiz yeni kağan xətalar işlədi. Yuxarıda göy, aşağıda qutsal yer-sular ona səadət [qut] vermədi..." Bax: R. Giraud, həmin əsər,, s. 52.
[409] Liu, həmin əsər, I, s. 171, 223; Kapğan ailəsindən Çinə sığınan göytürk şahzadəsi və 723-cü il tarixli çincə məzar kitabəsi üçün bax: P. Pelliot, La Fiile de Mo’tch’o Qaghan et ses rapports avec Kül Tegin, s. 301- 306. Daha təfsilatlı olaraq: A. Bombaci, The Husbands of Princess Hsien-li Bilgä, s. 103-121.
[410] Liu,həmin əsər, I, s. 171, 223.

qövmə kağan oldum. Babamızın, əmimizin qazandığı millətin adı-sanı unudulmasın deyə qardaşımla sözləşdik. Türk milləti üçün gecə uyumadım, gündüz oturmadım. Kül Təgin ilə və şadlarla öləsiyə çalışdıq..."[411]. Mücadilə şiddətlə davam edirdi. 717-ci ildə uyğur İl-təbəri ilə (Karğan savaşı), 718-ci ildə təkrar üsyana təşəbbüs edən qarluqlar ilə savaşdı və uğur qazandı[412].

Bilgə kağan Çin ilə yaxşı keçinmək arzusunda idi. Bunun lüzumuna Çinin qüvvətli, göytürklərin isə yorğun və barışa möhtac olduğu xüsusunda Tonyukukun təlqinləri nəticəsində inanmışdı. Fəqət sığıntı göktürk şahzadəsi ilə ətrafındakıları 718-ci ildə Bilgəyə qarşı savaşa təşviq edən[413] və eyni zamanda ki-tan və tatabıların hərbi dəstəyini alan Çin Beş-balıqdakı basmıllar ilə də anlaşmışdı. Həssas vəziyyət böyük dövlət adamı və strateq Tonyukuk tərəfindən qurtarıldı. Onun planı, sövq və idarəsi altında öncə basmıllar məğlub edildi və Beş-balıq mühasirəyə alındı, sonra yalnız qalan Çin şiddətli bir zərbə ilə basqı altına alındı: Şan-tan (Kan-suda) savaşında Çin ordusu məğlub edildikdən (sentyabr 720) [414] və Beş-balıq zəbt olunduqdan sonra on yürüş sonunda Kan-çu, Yüan-çu, Liang-çu bölgələri ələ keçirildi[415]. Kitanlar və tatabılar səf dışı edildi (722-723)[416]. Qarluq il-təbəri məmləkəti tərk etdi və orada Bilgə xalq tərəfindən sevinclə qarşılandı[417]. Xaqanlıq əski zindəlik və etibarını qazanmışdı. Bütün şərq və Tarbaqataya qədər qərb xaqanlığın idarəsində idi. Hətta Bilgə 717-ci ildə çıxan qarışıqlıqda Ötükən ilə əlaqəsini kəsib müstəqil bir dövlət halına gəlmiş olan türgiş bölgəsini dəə özünə tabe yer saymaqda idi[418]. Bu uğurlar üç göytürk böyüyünün: Tonyukuk, Bilgə və Kül Təginin əzm və qeyrəti ilə əldə edilmişdi. Çin də olub bitənlərin fərqində idi. 725-ci ildə imperator Hüan-tsunqun sədr

---

411 Kitabələr, I, şərq, sətir 25-27; II, şərq, sətir 20-22.

412 Kitabələr, II, şərq, sətir 38-40, cənub, sətir 1-9. Bu savaşda ölən tarduş şadı Küli-çor adına İkhe Khuşotuda dikilən kitabə üçün bax: H.N. Orkun, ETY, 1, s. 135-140; son nəşr, T. Tekin, həmin əsər, s. 12, 257 və ardı; A. Bombaci,... Turkic Title Eltäbär, s. 16; G. Clauson - E. Tryjarski, The Inscription at İkhe Khushotu, RO, XXXIV, 1971, s. 7-33. L. Bazinə görə, Les Calendries..., s. 199-203), yuxarıdakı ünvan "Kül-iç-çor" deyə oxunmalı və kitabə 723-725-ci illər arası olaraq tarixlənməlidir.

413 Bax: A. Bombacı, The Husbands..., s. 113.

414 Kitabələr, II, cənub, I.

415 Liu, həmin əsər, I, s. 173 və ardı, 224 və ardı, II, s. 616.

416 Kitabə, II, cənub, sətir 2-3.

417 Kitabə, II, şərq, sətir 41.

418 Liu, həmin əsər, I, s. 420; Ed. Chavannes, həmin əsər, s. 45 və ardı, 82.

olduğu bir toplantıda belə deyilirdi: "...Göytürklərin nə zaman nə edəcəkləri bilinməz. Kağan Bilgə iyidir, millətini sevir, türklər də ondan məmnundur... Kül Təgin hərb sənətinin ustadıdır, ona qarşı qoyacaq bir qüvvə çətin tapılar... Tonyukuk isə nüfuzlu və bilgədir, niyyətləri, qurnazlığı çoxdur. Bax, indi bu üç "barbar" eyni anlayışda və birlikdədir.."[419] . 721-ci ildə göytürklərin sülh təşəbbüsünə böyük bir ordunun təşkilinə girişməklə cavab verən Çin imperatoru Hüan-tsunq artıq o təklifi müsbət qarşıladığını bildirə bilərdi. İmperator tərəfindən Ötükənə göndərilən elçini Bilgə xaqan xatunun, Kül Təginin, Tonyukukun və digərlərinin hazır olduğu məclisdə qəbul etdi (725) [420].

Böyük türk dövlət adamı Tonyukuk ilə bağlı son bilgi 725-ci ildəki bu xəbərdir. O hər halda bu tarixdən az sonra ölmüş olmalıdır. Göytürk istiqlal savaşı hazırlıqlarından etibarən İltəriş, Kapğan, Bilgə zamanlarında dövlətə 46 il xidmət edən, savaşlarda məğlubiyyətə heç uğramayan, "Boyla[421] Bağa İnançu Yarğan[422] Apa Tarkan" ünvanlarını daşıyan, bilgə və strateq Tonyukuk xaqanlığın ordusunu, ədliyyəsini tənzimdə başda gəlirdi. Çin qaynaqlarında belə bu məziyyətləri göstərilməkdə və "ayğucı" olaraq dövlətdəki böyük rolunu o çağın dini, kültürəl cərəyanlarını necə yaxından təqib edib türk milləti baxımından dəyərləndirdiyini göstərən dəlillər verilməkdədir: Bilgə kağan Çində olduğu kimi türk ölkəsində də, şübhəsiz, müdafiə məqsədi ilə şəhərləri divarlarla çevirmək, hasarlar tikdirmək istəyirdi. Tonyukuk etiraz etdi: "Bunlar olmamalı. Biz ömrünü sulu və otlu bozqırlarda keçirən bir millətik. Bu həyat bizi daima bir hərb təlimi içində tutmaqdadır. Göytürklərin sayı çinlilərin yüzdə biri belə deyildir. Uğurlarımız yaşayış tərzimizdən irəli gəlir. Qüvvətli zamanlarımızda ordular sövq edir, axınlar edirik. Zəif olanda, bozqırlara çəkilir, mücadilə edirik. Əgər qala və divarlar içinə qapansaq, tanq orduları bizi mühasirəyə alar, ölkəmizi asanlıqla istila edər..." Bilgənin digər bir düşüncəsi də məmləkətdə buddist və taoist[423] tapı-

[419] Bax: Liu, həmin əsər, I, s. 175,227.

[420] Liu, həmin yer.

[421] Türkcə ünvan. Göytürklərdə, bulğarlarda, peçeneqlərdə. Bax: Gy. Moravcsik, Byz. turc. II, s. 30, 91, 102.

[422] Yəni yarğucı=yarğıc (bax: aş. Kültür: Ədliyyə). Buradakı son dörd ünvan Kitabə I-in sonunda (qərb, 1) zikr edilsə də, Kül Təginlə ilgili olmamalıdır (bax: R. Giraud, L’Empire d. Turcs..., s. 75, 77), fəqət Tonyukukun görəvlərinə uyğundur.

[423] Taoizm üçün bax: W. Eberhard, Eski Çin Felsefesinin Esasları, s. 265-275; M. N. Özerdim, Belleten, sayı 101, s. 93-103.

naqlar inşa etdirərək bu din və fəlsəfəni türklər arasında yaymamaqdı. Tonyukuk belə dedi: "Hər ikisi də insandakı hökm etmə və iqtidar duyğusunu zəiflədir. Qüvvə  və savaşçılıq yolu bu deyildir. Türk millətini yaşatmaq istəyiriksə, nə bu təlimlərə, nə də tapınaqlarına ölkəmizdə yer verməməliyik[424]. Qaynağın (Tang-shu) əlavə etdiyinə görə, bu tövsiyələrdəki dərin məna göytürk paytaxtında yaxşı anlaşılmışdır. Bugün qərbli araşdırmaçılar tərəfindən Tonyukuka "Göytürk Bismark"ı deyilməkdədir[425] .

Tonyukuk öldükdən sonra onun xatirəsinə Orxonda Bayın-çokto adlı yerdə bir kitabə dikilmişdir (hər halda 726-727-ci illərdə). Yalnız türklərdən qalma bir milli tarix qaynağı olaraq deyil, eyni zamanda türk dili və ədəbiyyatının uzun və asanlıqla oxuna bilən ilk abidəsi kimi də kültür tarixində mühüm yer tutan bu kitabə[426] mətninin şəxsən Tonyukuk tərəfindən qələmə alınmış olması ehtimalı ayğuçı bilgə Tonyukuka türk ədəbiyyatının adı və şəxsiyyəti bilinən ilk siması olmaq şərəfini qazandırmaqdadır[427] .

731-ci ildə də şahzadə Kül Təgin öldü (27 fevral 731)[428]. 47 yaşında idi. 7 yaşından bəri ömrünü türk millətinin yüksəlməsinə həsr edən, cəsarəti, savaşçılığı həm türk, həm Çin sənədlərində öyülən Kül Təginin böyük qəhrəmanlıqlarından biri göytürk paytaxtının 716-cı ildə üç-oğuzlar tərəfindən basıldığı zaman görülmüşdü. Bilgə kağan belə deyir: "Anam xatun, böyük analarım, bacılarım, gəlinlərim, şahzadələrim cariyə olacaqdı, ölənlər yolda qalacaqdı. Kül Təgin qərargahı vermədi... O olmasa idi hamınız öləcəkdiniz..."[429] . Ölümü xaqanlıqda böyük üzüntü yaradan qəhrəman haqqında kitabələrdə bu səmimi ifadələr yer almışdır (Bilgənin ağzından): "..Kiçik qardaşım Kül Təgin öldü, görür gözüm görməz oldu, bilir bilgim bilməz oldu... Zamanın təqdiri Tanrınındır. İnsan oğlu ölmək üçün yaradılmışdır.

---

[424] Liu, həmin əsər, 1, s. 172 və ardı, 224, 462; O. Franke, həmin əsər, 11, s. 441 və ardı.

[425] Bax: L. Ligeti, Bilinmiyen İç Asya, s. 206; türk milliyyətçisi olaraq Tonyukukun şəxsiyyəti üçün bax: L. Bazin, Les Calendriers..., s. 207 və ardı.

[426] Son nəşrlər, R. Giraud, L'İnscription de Bain-Tsokto, 1916; T. Tekin, A Grammar of Orkhon Turkic, s. 249-253; Biblioqrafiya və bəzi təshih təcrübələri üçün bax: G. Clauson, Some Notes on the İnscription of Tonuquq, s. 125-132.

[427] R. Giraud, L'Empire d. Turcs..., s. 59, 154; L. Bazin, Ph. T. Fundamenta, II, s. 209. Göytürkcənin daha əski yadigarlarından olan və kağan T'a-po (572-581) adına gerçəkləşdirilən buddizm din kitabının türkcə tərcüməsi (bax: aş. Kültür, Yazı) ilə, Kapğan zamanına aid olması gərəkən bir türkcə-çincə sözlük (bax: Liu, həmin əsər,, I, s. 465 və ardı) itmişdir.

[428] Əski türk təqviminə görə, qoyun ilinin 17-ci günü, bax: Kitabələr, I, şimal-şərq, sətir 1; R. Giraud, həmin əsər, s. 55,119; L. Bazin, həmin əsər, s. 182, 212, 244: Liu, həmin əsər, II, s. 620 (xəbər Çinə bir-iki gün gec çatmış ola bilər). Kül Təginin necə öldüyü bəlli deyildir.

[429] Kitabə I, şimal, sətir 9-10; II, şərq, sətir 32-33 (bütün göytürk qadınları nəzərdə tutulur).

Yaslandım, gözdən yas, könüldən fəryad gələrək yanıb yaxıldım... Millətimin gözü, qaşı (ağlamaqdan) fəna olacaq deyə saqındım[430]. Çində də eyni üzüntü duyulmuş, imperator xüsusi elçi ilə Ötükənə başsağlığı məktubu göndərmiş, Kül Təginin xatirəsinə dikiləcək abidədə çincə bir mətnin də olmasını arzu etmişdi [431]. Bilgə kağanm istəyi ilə hazırlanan Kül Təgin kitabəsinin türkcə mətnini xaqanın və Kül Təginin "atı"sı (atabəyi) Yollığ Təgin yazmış[432] və 20 gündə daşa qazdırmışdı. Göytürk tarixi, kültürü və türk dil və ədəbiyyatı yönlərindən əmsalsiz bir dəyər daşıyan bu kitabə ilə birlikdə Kül Təginin mavzoleyi və içindəki naxış və təsvirlər tamamlanmış və böyük cənazə mərasimi 731-ci ilin 1 noyabr günü (qoyun ilinin 9-cu ayının 27-si) keçirilmişdir[433]. Mərasimə göytürk xalqı və əyanlarından başqa Çin, ki-tan, tatabı, Tibet, İran-soğd[434], Buxara[435], türgiş, qırğız və başqa dövlət və qövmləri xüsusi heyətlərlə qatılmıslar[436] .

430 Kitabə I, şimal, sətir 10-11.

431 Liu, həmin əsər, I, s. 79, 228 və ardı; çincə bu hissə üçün bax: H. N. Orkun, ETY, I, s. 82 və ardı.

432 “Kağanın atısı Yollığ Təgin" (Kitabələr, II, cənub-qərb) ibarəsindəki "atı" kəlməsinə "yeyən" mənası verilməkdədir. (Məsələn, R. Giraud, L’Empire d. Turcs..., s. 76, 120; H. N. Orkun, ETY, I, s. 32; T. Tekin, A Grammar of Orkhon Turkic, s. 305; G. Clauson,... Turkish, s. 40 b. və başqaları). Bu duruma görə, Yollığ Təgin ya xaqan Bilgənin qardaşının (yəni Kül Təginin) oğlu (ki, bu, mümkün deyildir, zira Yollığ onun da "atısı"dır; "Küt Təgin atısı”, Kitabələr, I, cənub-şərq və İltərişin iki oğlu var idi) və ya Bilgənin bacısının oğlu olmalıdır. Bu təqdirdə isə yalnız qardaşın oğlu mənasına gələn "atı" (bax: G. Clauson, həmin yer) deyil, doğrudan-doğruya "yeyən" (=bacının oğlu, bax: G. Clauson, həmin əsər, s. 912 b) deyiminin işlədilməsi lazım idi, çünkü bu kəlmə o çağlar türkcəsində mövcud idi (Kitabələr, Şine-usu, qərb, sətir 8; Suci, sətir 8; qardaşın oğluna "atı" /doğru şəkli ilə äti/, bacınıın oğluna isə "yeyən" deyildiyi haqqında ayrıca bax: J. Cuisenier, Parante et Organisation Sociale Dans le Domaine Turc, s. 926). Bu iki təbirin fərqli mənalar daşıdığı ailə fərdləri sadalanan zaman hər ikisinin yan-yana işlədilməsindən də bəllidir ("yeyənimi, ätimi, bax: Kitabələr, Suci, həmin yer). Yollığ Təgin, şübhəsiz ki, xanədana mənsubdu, fəqət Bilgəyə və Kül Təginə nisbətlə hər halda qardaş uşağı deyildi. Kitabədəki "atı" kəlməsi sonraki "atabəy" (şahzadələrə oxuma-yazma, idman, silah bilgisi, atıcılıq sahələrində müəllim) terimini ifadə etmiş olmalıdır (bax: N.N. Kozmin, "Atısı" Lakablı Yollug Tegin..., s. 368).

433 Kitabə I, şimal-şərq, sətir 1; R. Giraud, həmin yer; L. Bazin, Les Calendriers..., s. 224; fəqət kitabənin daşa qazılıb bitməsi tarixi 21 avqust 732-ci ildir (bax: həmin əsər, s. 176 və ardı, 190, 212, 244).

434 =Bərçək ər=parsık ər=soğdda zərdüşti iranlılar, bax: J. Marquart, Die Chronologie der alttürkischen İnschriften, s. 32 və ardı; R. Giraud, L’Emp. d. Turcs..., s. 184, 189; və ya Yed-

İki böyük yardımçısını itirən Bilgənin 734-cü ilin yayında ki-tan və tatabılara qarşı Tönqkəs dağında qazandığı zəfər[437]dışında bir fəaliyyəti görünmür. 727-ci ildə Bilgə xaqan hökumət üzvü (nazir) Mei-lu çonu[438] Çinə göndərmiş və imperator tərəfindən etina ilə ağırlanan elçinin təmasları nəticəsində So-fanq (Linq-çuda) şəhərinin göytürklərlə çinlilər arasında sərbəst ticarət zonası  olması üçün anlaşmaya varılmışdı[439]. 734-cü ildə Çinə göndərilən türk elçisi xaqanın xeyli vaxtdır üzərində durduğu bir çinli şahzadə ilə evlənmə arzusunu qəbul edən imperatora təşəkkür məktubunu aparırdı[440]. Fəqət bu izdivac baş tutmadı, çünkü Bilgə yuxarıda adı çəkilən Buyruk-çor tərəfindən zəhərləndi[441]. Ölənədək başda bu nazir olmaq üzrə işbirlikçilərini bərtərəf edən Bilgə 25 noyabr 734-cü ildə öldü[442], 50 yaşında idi. 19 il şad və 19 il kağan olmuş, Çin qaynaqlarında da göstərildiyi kimi, "türk millətini çox sevmək" ilə təmayüz etmiş idi. Türk millətinin əbədiliyinə olan inancını "Ey türk milləti, üstdə göy yıxılmaz, altta yer dəlinməzsə, sənin dövlətini, törəni kim poza bilər?"[443] deyə ifadə edən, şərqdə Şantunq ovasına, cənubda doqquz-ərsinə[444], qərbdə Dəmir qapıya, şimalda yırbayırku sahəsinə qədər səfərlər ettiyini[445] xatırladan Bilgə oğlu tərəfindən dikdirilən kitabədə bunları söyləyir: "... Üstdə Tanrı, aşağıda yer buyurduğu üçün millətimi, gözünün görmədiyi, qulağının duymadığı irəli gün doğusuna, geri gün qərbinə, bəri gün ortasına, yuxarı gecə ortasına qədər götürdüm. Altının sarısını, gümüşün bəyazını, ipəyin xalisini, atın ayğırını, xəzin

di-su bölgəsinə yayılmış və türk xaqanlığına bağlı soğdlular: S. G. Klyachtorniy, A Propos des Mots Sogd Bärçäkar Buqaraq Ulys-da / İnscription de Kul Teghin, s. 245-251.

[435] Məlum şəhər, və ya Yeddi-suda buxaralıların oturduğu yer. Bax: S. G. Klyachtorniy, həmin yer.

[436] Kitabə I, şimal, sətir 11-13. Kitabənin son nəşri, T. Tekin, həmin əsər, s. 231-238.

[437] Kitabə II, cənub, sətir 7-9; L. Bazin, həmin əsər, s. 237.

[438] Mei-lu ç’o=Buyruk-çor. Bax: L. Ligeti, Bilinmiyen İç-Asya, s. 207; Liu, həmin əsər, I, s. 417, II, 622.

[439] Liu, həmin əsər, I, s. 178, 227.

[440] Liu, həmin əsər, II, s. 660.

[441] Liu, həmin əsər, I, s. 229, II, s. 600, qeyd 1270.

[442] İt ilinin 10-cu ayının 26-sı. Kitabələr, II, cənub, sətir 10; R. Giraud, həmin əsər, s. 55, 120; Liu, həmin əsər, II, s. 620; L. Bazin, Les Calendriers..., s. 183, 244.

[443] Kitabələr I, şərq, sətir 22, II, şərq, sətir 18-19. L. Bazinin hesabına görə (Les Calendriers..., s. 215, 237) Bilgə 18 il 4 ay xaqanlıq etmiş və 51 yaşında ölmüşdür.

[444] Karaşar bölgəsi, bax: R. Giraud, L’Emp. d. Turcs...., s. 188.

[445] Kitabələr I, cənub, sətir 3-4; II, şimal, sətir 2-3.

siyahını, sincabın göyünü millətimə, türklərimə qazandırdım[446]. Bilgə kağanın ölümü Kül Təginin üzüntüsü içində bulunan türk xalqını büsbütün yasa boğdu. Çin imperatoru da ölkəsində matəm elan edərək, təziyələrini bildirdi. Bilgə üçün bir mavzoley inşasına və bir kitabə dikilməsi hazırlığına başlandı. Mətni yenə Yollığ Təgin qələmə almış və bir ay dörd gündə daşa işlətmişdi. Çin imperatorunun arzusu ilə buraya da çincə bir kitabə əlavə edildi (735)[447] . Bilgə üçün cənazə törəni 22 iyun 735-ci ildə (donuz ilinin 5-ci ayının 27-si) keçirildi[448].

Bilgənin ölümü ilə göytürk xaqanlığında tənəzzül əlamətləri özünü göstərdi. Atasının yerinə taxta Tənqri Xan İ-yan (və ya Yi-Yan) keçdi. 740-cı ildə göytürk taxtında yenə "Tənqri Xan" deyə anılan bir kağan vardı və bu, Bilgənin oğlu idi[449]. Xaqan uşaq deyəcək yaşda olduğu üçün idarə anası (Tonyukukun qızı) Po-funun əlində idi. Xatun dövlətə hakim ola bilmədi, xanədan üzvləri bir-birinə düşdü və hüzursuzluq bütün yurda yayıldı. Durumdan faydalanan basmıllar, qarluqlar və uyğurlar birləşdilər və vəziyyətə hakim olar-olmaz, Aşina ailəsindən olan basmıl başbuğunu[450] kağan elan etdilər (742) və göytürk xaqanı Ozmışı (Wu-su-mi-şi), sonra onun kiçik qardaşı, son göytürk xaqanı Po-meni öldürdülər. Bu arada müttəfiqlərin arası dəydi. Basmıl başbuğu (kağan) ortadan qaldırıldı və uyğur il-təbəri (yabğu il-təbər=kieh-li tu-fa) kağan elan edildi: Qutlug Bilgə Kül[451] (745). Ötükəndə uyğur türk dövləti başlayırdı. Bununla bərabər, göytürk çağının bəzi ailələri, hətta Tonyukuk soyundan gələnlər uyğur dövlətində və sonra monqollar dövründə belə öz əhəmiyyətlərini mühafizə etmiş görünürlər[452] .

[446] Kitabə II, şimal, sətir 11-12.

[447] Bax: ETY, s. 27-30.

[448] Kitabə II, cənub, sətir 10; L. Bazin, həmin əsər, s. 183, 244. Liu, həmin əsər, I, s. 179, 229. Kitabənin son nəşri, T. Tekin, həmin əsər, s. 243-248,

[449] Bilgədən sonrakı xaqanlar məsələsi bir az qarışıqdır. Qaynaqların müqayisəsi üçün bax: Liu, həmin əsər, I, s. 22, 179; II, s. 621-629; W. Samotin, East Turkistan..., s. 72, qeyd 2.

[450] Ed. Chavannes, Documents..., s. 85, qeyd 4.

[451]Ed. Chavannes, həmin əsər, s. 94; Liu, həmin əsər, I, s. 230 və ardı, 337 və ardı

[452] Bax: B. Ögəl, Sino-Turcica, Cengiz Han ve Çin'deki Hanedanın Türk Müşavirleri s. 29-66. Ayrıca bax: aş. qeyd 541.

## 4. UYĞURLAR

Orxon kitabələrində ilk dəfə 717-ci ildəki üsyanlar münasibətilə zikr edilən uyğurlar Çin qaynaqlarında adlarının dürlü şəkilləri ilə anılmışlar: hoei-ho, vei-ho, hui-ho, huei-hu, wei-wu və s. Uyğur[453] adının mənası 974-cü ildə tamamlanan çincə Kiu Wu Tat adlı əsərdə "şahin sürəti ilə dolaşan və hücum edən" deyə açıqlanmaqdadır[454]. Digər tərəfdən, kəlmənin etimolojik olaraq "uy (təqib etmək)+ğur" tərzində (sal-ğur kimi) meydana gəldiyi irəli sürülsə də[455], o tarixlərdə türkcədə "təqib etmək" mənasındaki fel kökünün "ud+" olduğu göstərilərək, uyğur adının "oy (oymaq, təzyiq göstərmək)+ğur" şəklində açıqlana biləcəyi və ya daha qüvvətli bir ehtimal ilə bu adın türkcə "uy (əqrəba, müttəfiq)+ğur" ola biləcəyi və dolayısıyla "on-uyğur" deyiminin də "10 müttəfiq" mənasında olması gərəkdiyi bildirilməkdədir[456]. Çin qaynaqlarında Asiya hunlarına qohum olduqları bildirilən uyğurların[457] bir mənşə əfsanəsinə görə ataları hun hökmdarının qızı ilə bir qurddan törəmişdir[458]. Tabğaçlar dövründə (386-534) kao-kü (kaoche) adı ilə görünmüşlər. V əsrin ikinci yarısında bir bəylik quran uyğur toplumu[459] o tarixlərdə bütün Yuxarı-Orta Asiyaya yayıldığı anlaşılan töleslərin bir qismini meydana gətirmişdir ki, I Göytürk xaqanlığı çağında bu durumu mühafizə edir və o zaman Selenqa çayı ətrafında otururdular. VII əsrin ilk rübündə 6 qəbilədən ibarət sir yen to  birliyinə qatılmışlar[460], sonra pu-ku tonq-

[453] Hui-ho 788-ci ildə hui-hu olaraq dəyişdirilmişdir, bax: C. Mackerras, The Uighur Empire..., s. 95, qeyd 96.

[454] J.R. Hamilton, Les Ouighours a l’epoque  des Cinq Dynasties d’apres les Documents chinois, s. 61; DLT-dəki izah tərzi, I, s. 111 və ardı.

[455] Gy. Németh, HMK, s. 38 və ardı.

[456] Bax: J. Hamilton, Toqıız-Oguz et On-Uygur, s. 40 və ardı.

[457] Ed. Chavannes, həmin əsər, s. 87; W. Eberhard, Çin’in Şimal Komşuları, s. 72 və ardı.

[458] W. Eberhard, həmin əsər, s. 73. Ayrıca göydən gələn işıqdan törəmə əfsanəsi üçün bax: B. Ögel, Uygurların Menşe Efsanesi, s. 17-24; yenə onun: Türk Mitolojisi, s. 73-86 (Bu əfsanə VIII əsr ortalarından sonra təşəkkül etmişdir).

[459] İlk tarixləri haqqında bax: B. Ögel, İlk Töles Boyları, s. 811-826.

[460] Liu, həmin əsər 11, qeyd 1793; K. Czeglédy, Čogay-quzı., s. 65 və ardı; yux. s. 90.

ra, bayırku, ediz və po-si adlarındakı 5 qəbilə uyğurlar ilə ittifaq edərək hamısı uyğur adını almışlar[461]. Bəyləri "ərkin" ünvanını daşıyırdı.

Bu dövrdə 50 min savaşçı çıxardıqları bildirilir. I Göytürk xaqanlığının çöküntüyə doğru getdiyi illərdə belə görünən uyğur bəyliyi ərkin T'ekien tərəfindən idarə edildi. O, öldükdən sonra yerinə oğlu P'u-sa keçdi. Tarduş başbuğu (İ-nan?) ilə işbirliyi edərək kağan Kei-linin oğlunun komandanlığı altındakı Şərqi Göytürk ordusunu məğlub edən (630-a doğru) P'u-sa zamanında uyğurlar qüvvətlənmiş, xüsusilə P'u-sanın anası Vu-lohunun ciddiliyi və törə hökmlərini tətbiq etməkdəki titizliyi sayəsində bəylik tamamən nizama girmişdi. O zaman "ərkin" yerinə "il-təbər" (el-təbər, çincədə chi-li-fa ~ ki-li-fa ~ sse-li-fa ~ hsie-li-fa ~ hie-li-fa) ünvanı[462] işlədilməyə başlandı. Mərkəzi Tola çayı həvalisində olan il-təbər Tu-mi-tu tarduşların ərazisini alaraq və doqquz-oğuz boylarını özünə bağlayaraq (on-uyğur) ölkəsini genişləndirdi, sonra cənuba Huanq-hoya qədər varan bir axın düzənlədi və nəticədə "uluğ il-təbər" olaraq Çin imperatoru tərəfindən tanındı (646-cı il); sonra ölkəsini göytürk tərzində təşkilatlandırdı[463].

Çin tərəfindən basqı altına alınmaq istənən və 648-ci ildə Çinin təhriki ilə öldürülən Tu-mitunun oğlu Po-yun on-oxlar kağanı Ho-lu qarşısında üstünlük qazanaraq Daşkənt yaxınlarına qədər irəlilədi (656-cı il )[464]. Ondan sonra yerinə keçən bacısı zamanında getdikcə zəifləyən uyğur bəyliyi, nəhayət, İltəriş kağan tərəfindən göytürklərə bağlandı. Anlaşılır ki, Kapğan və İnəl zamanındakı üsyanlarda dağılan oğuz birliyini toplayaraq yenə bir iltəbərlik durumuna girən uyğur boyu 740-cı illərdə xaqanlığın yabğuluğu halına gəlmişdi.

### a.U y ğ u r x a q a n l ı ğ ı

745-ci ildə göytürk iqtidarını yıxaraq Ötükəndə dövlət quran uyğurlar aşağıdakı 9 uruğdan meydana gələn bir birlik idi: yağlaqar/yağlaqır - xaqan uruğu (ehtimal ki, yağıla+qır=düşmən ilə savaşmaq); hu-tu-ko/uturqar (ehtimal ki, ut (qazanmaq+r+qar); hu (kiu-lo-vu (po)= kürəmür; kürəmür

[461] Liu, həmin əsər, I, s. 350 və ardı, 359, II, qeyd 1793; Ed. Chavannes, həmin əsər s. 89.
[462] J. Hamilton, Les Ouighours..., s. 97, qeyd. 2; A. Bombacı, On the Ancient Turkic Title Eltäbär. s, 1 və ardı, 6, 18, 30 və ardı, 44.
[463] Ed. Chavannes, həmin əsər, s. 90 və Notes additionelles.., s. 17.
[464] Ed. Chavannes, Documents..., s. 93.

(ehtimal ki, kürə (qorunmaq+bir); mo-ko-si-ki (bağasığır?); a-vu-çö (əbirçəg və ya abırçak?); hu-vu-su; yo-vu-ku (yağmur-qar); hi-ye-vu (ayavirə/ ayabirə=ayamur, aymur (yağmur, küramür kimi), müq. et: oğuz əymür boyu= şərəfli, etibarlı)[465]. Bu uruğlardan ibarət uyğur qəbiləsinin (boyunun) idarəsi altındakı doqquz-oğuz birliyinin (bodununun) qəbilələri isə bunlardı: pu-ku (buku, türkcə ünvan), hun (qun), pa-ye-ku (bayırku), tunq-lo (tonqra), ssəkie (sıqar), ki~pi, a-pu-sse (po-si = si?), ku-lun-vu-ku, a-tie (ediz)[466] . Göründüyü kimi, on-uyğur adlanan birlik[467] 9 oğuz boyuna 9 uruğdan ibarət uyğur boyunun əlavəsi ilə meydana gəlmişdi. Orxonda uyğur ordusunu (paytaxtını) ziyarət edən müsəlman Təmim də[468] hökmdardan başqa hər birinin 13 min savaşçısı olan 17 başbuğdan (bəy?) bəhs etmişdir[469]. Demək ki, bunun 9-u oğuz boyu başbuğu, 8-i də (hökmdarın uruğu xaric) uyğur uruğu başbuğu idi[470]. Uyğur boyu idarəsindəki 9 qəbiləyə basmıl və qarluq boylarının qatılması ilə birlik sayısı 11 oldu[471]. Bir Çin qaynağına (kiu tanqshu) görə də uyğur xaqanlığı 11 vali tərəfindən idarə edilməkdə idi[472] .

Orxon qıyısında paytaxtı Ordu-balıq şəhərini (sonrakı Qara-balğasun yaxınlığında) quran ilk uyğur xaqanı Qutluğ Bilgə Kül 747-ci ildə öldü. Yerinə oğlu Moyen-çor (Bayan-çor?) kağan oldu (Tanrıda bolmış İl-Etmiş Bilgə kağan". 747-759). Orxon-Selenqa çayları arasında Şine-usu gölü yaxınlığında yerləşən və uyğur xaqanlığının ilk dövrü üçün mühüm olan kitabədən[473] anlaşıldığına görə, xaqan Moyen-çor doqquz-oğuzları toplamış, şimalda qırğızlarla, qərbdə qarluqlar və onlara yardım edən türgişlər və basmıllarla, səkkiz-oğuz, doqquz-tatar və çiklərlə savaşmış, bunların hamısını özünə bağlamış, hakimiyyətini Yenisey qaynaqları, Çu-Talas həvalisi, İç Asiya və Kərulənə qədər yaymış, oğullarını yabğu, şad təyin etmişdi. Fəqət xaqan əsil Çin üzərində təsirli oldu. Qarluqlar tərəfindən dəstəklənən islam qüvvələri ilə çinlilər arasında cərəyan edən böyük Talas müharibəsində

---

[465] Təfsilən bax: J. Hamılton, Toquz-Oguz.., s. 41-44; Liu, ayru əsr., II, s. 593.

[466] Bax: Liu, həmin əsər, s. 592; J. Hamilton, həmin əsər, s. 27, 54, qeyd 19, 20.

[467] Bax: Şine-usu kitabəsi, şimal, sətir 3.

[468] 830-cu ilə doğru, bax: C Mackcrras, The Uighur Empire..., s. 154.

[469] V. Minorsky, Tamim ibn Bahr’s journey to the Uyghurs, s. 281, 284.

[470] Təfsilən bax: E.G. Pulleyblank, Some Remarks on the Toguzoghuz Problem, s. 38 və ardı; K. Czeglédy. On the numerical composition..., s. 278 və ardı.

[471] Ed. Chavannes, Documents... s. 94, 350.

[472] Bax: E.G. Pulleyblank, həmin yer.

[473] ETY, I, s. 163-185; B. Ögel, Şine-usu Yazıtının Tarihi Önemi, s. 361-379. Habelə bax: aş. Oğuzlar.

(751) çinlilər ağır məğlubiyyətə uğramış, Tarım hövzəsinin uyğurlara keçməsini təmin edən və Çinin Orta Asiyadan çəkilməsinə səbəb olan bu savaşla bağlı Çində böyük hadisələr olmuşdu ki, bunların ən mühümü türk qadından doğulan An-lu-şan adlı bir komandanın 200 minlik bir qüvvə ilə Çin paytaxtları Lo-yanq (756) və Çanq-anı (757) zəbt edərək özünü imperator elan etməsi idi[474]. Moyen-çor uyğurları yardıma çağıran tanq imperatoru Su-tsunqu dəstəklədi, Lo-yanqı və digər paytaxtı geri aldı (757). Çin ildə 20 min top ipək verməyi təəhhüd etdi. Xaqan imperatorun qızı ilə evləndi.

759-cu ildə yerinə keçən oğlu Bögü (=ağıl və fərasət sahibi; adın çincə şəkli: İ-ti-chien = İdi-ken?) kağan (759-779. Tanrıda qut bulmuş İl-Tutmuş Alp Külüg Bilgə kağan) da diqqətini xaosun davam etdiyi Çinə çevirmişdi. Əsil niyyəti Su-tsunqun ölümündən (762) sonra tanq sülaləsinin artıq sözünün keçmədiyi Çinə hakim olmaqdı. Uyğur ordusu Çində görünən kimi xaqanla qohumluq qurmuş töləs mənşəli Çin komandanı Pu-ku (=Buku, türk ünvanı) Huai-en tərəfindən üsyançılar zərərsiz hala gətirildi və uyğurların hərəkatı önləndi. Fəqət türk nüfuzu Çində çox artmışdı. Paytaxtda və şəhərlərdə çoxlu uyğur sərbəstcə ticarət edir, istədikləri qədər ipək qumaş alıb istədikləri qiymətə satırdılar. Tibetlilərin hücumuna uğrayan Çini qorumaq üzrə Pu-ku Huai-enin dəvəti ilə Bögü hökumət mərkəzini ələ keçirərək Çini tibetlilərdən qurtardı. Onun Lo-yanq səfəri (762) türk kültür tarixi baxımından da böyük nəticələr doğurdu. Xaqan Ötükənə dönərkən uyğurların həyat və düşüncələrinin dəyişməsi baxımından çox təsiri sayılan manixeizmi türklər arasında yaymaq üçün özü ilə birlikdə dörd rahib də gətirmişdi[475]. Beləliklə, heyvan mənşəli qidaları yeməyi yasaqlayan, savaşçılıq duyğusunu zəiflədən, xristianlıq-məzdəizm-buddizm qarışığı bir din olan manixeizm xaqan tərəfindən qəbul edilərək türk ölkəsində rəsmi bir mahiyyət aldı[476] .

[474] W. Eberhard, Çin Tarihi, s. 210, 214.

[475] Bax: Qara-balğasun kitabəsi. Türkcə, çincə, soğdca olaraq üç dildə yazılan bu kitabənin yalnız (başlanğıcdan IX əsrin ilk rübünə qədər uyğur tarixi və xaqanları üçün mühüm sənəd təşkil edən) çincə qismi sağlam qala bilmişdir. Bax: O. Hansen, Zuır sogdischen İnschrift auf dem dreisprachigen Denkmal von Karabalgasun, JSFOU, 44 /1930/; G. Schlegel, Die chinesische İnschrift auf dem uigurischen Denkmal in Kara Balgasun, MSFou, 9,1896; ETY, I, s, 85, II, s. 37-48.

[476] L. Ligeti, Bilinmiyen İç-Asya, s. 250-260; A. v. Gabain, DTCF Dergisi, VIII, 3, s. 375-377; S. Çağatay, Türk Lehçeleri Örnekleri, s. 13 və ardı, Ş. Tekin, Mani Dininin Uygurlar Tarafından Devlet Dini Olarak Kabulü, s. 1-11; habelə: R. Şeşen, Eski Araplara Göre Türkler, s. 34.

Qırğızlar üzərində də bir zəfər qazanan Bögü kağan bir Çin səfərini önləmək istəyən nazir Tun Bağa Tarkan tərəfindən ortadan qaldırıldı[477] və bu zat xaqan oldu (779-789. Alp Qutluğ Bilgə kağan). Cəsarəti və yaxşı idarəsi alqışlanan, "dünya nizamı üçün qanunlar hazırladığı" bildirilən[478] bu xaqan qırğızları təkrar məğlub etdi və bir çinli şahzadə ilə evlənməsi nəticəsində uyğur tüccarlarının Çində qarşılaşdıqları bəzi anlaşmazlıqları həll ediildi. Yerinə oğlu "Ay Tanrıda qut bulmış Külüg Bilgə kağan" (789-790) və sonra onun oğlu Qutluğ Bilgə (790-795) xaqan oldular. Əskidən bəri Çinə qarşı ilgi duyan tibetlilər o sırada Beş-balıq həvalisindəki şa-to türkləri ilə anlaşaraq, basqınlara başlamışdılar[479]. Çini qorumağı iqtisadi və kültürəl səbəblərlə gələnək halına gətirmiş olan uyğurlar qüvvə göndərərək təcavüzləri önləmək istəsələr də, uğur qazana bilmədilər.

Etibarı sarsılan xaqan öldürüldü. Ötükəndə qarışıqlıq çıxdı. Fəqət 795-ci ildə xaqan olan, ediz boyundan, sevilən komandan və idarə adamı Qutluğ (795-805. Ay Tanrıda ülüg bulmış Alp Qutlug Bilgə kağan) ilə sonraki "Ay Tanrıda qut bulmış Külüg Bilgə" (805-808) zamanlarında bir hüzur dövrü açıldı. İqtisadi fəaliyyət inkişaf etdi. İç Asiyamn mühüm ticarət şəhərlərinə nüfuz edildi. Xarici siyasət yönündən zamanı olduqca sakit keçən xaqan "Ay Tanrıda qut bulmuş Alp Bilgə"dən (808-821) sonra "Ay Tanrıda ülüg bulmış Küçlüg Bilgə" (821-833) (ehtimal ki, o, Qara-balğasun kitabəsini dikdirən xaqandır) hökmdarlığı uğurlu keçmişdir. O, Türküstan üzərinə atılmaq istəyən tibetliləri dayandırmış, xaqanlığa bağlı qarluqların başına yeni bir yabğu təyin etmiş və ta soğd bölgəsinə qədər ticari münasibətlərini gəlişdirmişdir.

Fəqət sonra məmləkətdə hüzursuzluq baş verdi. Xaqan öldürüldü, bacısı oğlu "Ay Tanrıda qut bulmış Alp Külüg Bilgə kağan" (833-839) da nazirinin təhrik etdiyi bir üsyanda tələf oldu. Getdikcə tündləşən manixeizm təsirləri dolayısıyla uyğurlardakı boşalma əvəzində[480] Yenisey bölgəsində yeni bir qüdrət halına gələn və 20 ildən bəri Orxon bölgəsini basqı altında tutan qırğızlar 840-cı ildə qələbəlik qüvvələrlə uyğur torpaqlarına girdilər, paytaxt Ordu-balığı zəbt edərək son xaqan Ho-sanı (839-840) öldürdülər, əhalini qılıncdan keçirdilər. Ötükəndə dövlətləri yıxılan uyğurlar kütlələr

[477] Bax: C. Mackerras, həmin əsər, s. 59 və ardı, J.R. Hamilton, Les Ouighours... s. 139.
[478] Qara-balğasun kitabəsi, ETY. II, s. 42 və ardı.
[479] Bax: H. Ecsedy, Uigurs and Tibetans in Pei-Ting, 790-791 A.D. s. 83-104.
[480] Bax: V. Minorsky, Hudud ul-Alem, s. 287.

halında yurtlarını tərk edərək qarluq ölkəsinə, Çin sınırlarına və daha kəsif olmaq üzrə zəngin ticarət mərkəzlərinin olduğu İç Asiyaya köçdülər[481].

Xaqan ailəsinə mənsub iki qardaş tərəfindən idarə edilən bu köçdən sonra uyğur tarixinin ikinci səfhəsi başlandı. Köç zamanı başlarında özləri tərəfindən xaqan seçilən Vu-hi Təginin (841-846) olduğu uyğurlara bir müddət bəzən qırğızlar, bəzən çinlilər tərəfindən divan tutulduqdan sonra onların bir qismi (Kan-suda) Çin təbəəliyinə girərkən, digərləri Panq Təginin idarəsində qərbə, yəni qarluqların və digər türk boylarının yurdlarına[482] doğru yollandılar və hər iki tərəfdə də dövlətlər qurdular[483]. Fəqət bunlar artıq bozqır türk dövlətindən fərqli idilər; hakimiyyəti genişləndirmə düşüncəsində olmamış, böyük siyasi toqquşmalara girməmiş, başda Çin höku olmaq üzrə qonşuları ilə dostluq və ticarət ilişkilərini sürdürməyi tərcih etmişlər.

### b.K a n – ç o u   u y ğ u r   d ö v l ə t i

Bir qisim soydaşlarının aşağı-yuxarı 150 ildən bəri sakit durduğu Kansu bölgəsinə gələrək, buranın mərkəzi Kan-çouda (əski Gu-tsanq) yerləşən uyğurlar (847) Çin ilə daha ziyadə ticari fəaliyyətlər üzərində qurulmuş yaxşı münasibətlərini imperatorların qızları ilə uyğur şahzadələrinin evləndirilmələri kimi əqrəbalıq bağları ilə də sağlamlaşdırmışlar[484]. Ancaq tanq süləsinə qarşı üsyanların artdığı X əsrin əvvəllərində Kan-su uyğurları bağlı olduqları və mərkəzi Tun-huang[485] olan Çin hərbi bölgəsi ilə əlaqələrini kəsdilər: burada 905-ci ildə muxtar bir dövlət quran bir asi general "Qərb hanlarının Altın-dağ krallığı" adını verdiyi bu dövlətə uyğurları tabe etmək istəmiş, fəqət Kan-çou uyğurları tərəfindən göndərilən Təgin adlı komandanın idarəsindəki ordu Tun-huanqı mühasirəyə alaraq xalqı "kralı təhvil

[481] ETY, II, s. 33-36, 40-47; J.R. Hamilton, həmin əsər, s. 7-11, 127 və ardı; IX əsrin ilk rübündə uyğurların dini durumları, qonşuları və digər açıqlamalar üçün bax: V. Minorsky, Tamim ibn Bahr’s jour-ney.... s. 279-306.

[482] B. Ögel, İlk Töles Boyları, s. 826; W. Liangtao, s. 110-118.

[483] Uyğur xaqanlığının yıxılması və uyğurların dağılmaları haqqında bax: Tsai Wen-shen, Li Te-yü’nün Mektuplarına Göre Uygurlar, 1967.

[484] Bax: J. R. Hamilton, həmin əsər, s. 127 və ardı.

[485] Kan-suda Çin səddi yaxınlığında ünlü Min-Buda mağaralarının olduğu yer. Bax: L. Ligeti, Bilinmiyen İç Asya, s. 261-277.

verməyə məcbur etmişdi (911). Bu hadisə nəticəsində uyğurların qərb qolu da istiqlal qazanmışdır. 906-cı ildə yıxılan tanq xanədanının yerinə keçən çoxu şa-to (türk) əsilli "5 sülalə" zamanında (906-960) müəxxər (sonrakı) Leanq (907-923) ilə uyğurlar çox da maraqlanmamışlar.

911-ci ildə Tibet elçisi ilə birlikdə Çinə gedən uyğur münasibətilə "Böyük uyğur dövlətinin rəisindən” söz açılması[486] Tun-huang zəfərindən sonra uyğurların siyasi qüdrətinin artdığını göstərməkdədir. "5 sülalə"nin ikincisi olan müəxxər tan ailəsinin (923-936) qurucusu şa-to hökmdarı o zaman başlarında Jen-mei ("cəsur və doğru") kağanın olduğu uyğurlar tərəfindən səmimiyyətlə qarşılandı. Jen-meidən sonra 924-cü ildə Təgin (924-926), sonra A-tu-yu (="Adruğ, seçkin") və Jen-yu xaqan oldular. Müxtəlif tarixlərdə Apa, Kün Bars adlı elçilər Çinə göndərildilər. Çində III sülaləni (müəxxər tsin və ya chin) quran şa-to hökmdarı (937-946) zamanında, Jen-mei (I-nin qardaşı) Çinə Altun adındakı elçisini göndərdi. Müəxxər Han (947-951) və müəxxər Chou (951-960) ailələri zamanında isə həm Kan-çou uyğur dövlətindən, həm də qərb uyğurlarından Çinə heyətlər getmişdir. Bu ziyarətlərin ticarət əlaqələrini inkişaf etdirmək üçün gerçəkləşdirildiyi təxmin edilir[487].

Kan-çou-Tun-huang uyğurları, görüldüyü kimi, böyük bir hərbi qüdrət göstərə bilməmişlər, buna görə də haqlarında çox bilgi mövcud deyildir[488]. X əsrin başından etibarən Mancurya və Koreya qəbilələrini toplayaraq şimalda bir basqı ünsürü halında ortaya çıxan və xüsusilə "5 sülalə" dövründə Çinin bəzi qisimlərini ələ keçirən ki-tanlar, nəhayət, bir xanədan (liao sülaləsi. 907-1211) quraraq Şimali Çində hökmran olduqları zaman uyğur dövləti də onların (940-cı ildən sonra) və daha sonra 1028-ci ildə tanqutların nüfuzu altına girdi, 1226-cı ildə də Çingiz xan monqollarının hakimiyyəti altına düşdü. Kan-çou uyğurları hələ o zamanlardan bəri "sarı uyğurlar" kimi tanınan türk toplumudur ki, indi də Qərbi Çində yaşamaqdadır[489].

[486] R. Hamilton, həmin əsər, s. 129.

[487] Təfsilat üçün bax: J. R. Hamilton, həmin əsər, s. 128-138, 143 və ardı, 147,152; W. Eberhard, Çin Tarihi, s. 229-232.

[488] Son, geniş bir araşdırma: E. Pinks, Die Uiguren von Kan-chou in der frühen Sung-Zeit (960-2028), Wiesbaden 1968, bax: Ö. İzgi, TED, sayı 6 1975, s. 106.

[489] C. G. E. Mannerheim, A Visit to the Sarö or Shera Yögürs, JSFou, XXVII, 1912; P. M. Herrmann, Uygurlar ve Yeni Bulunan Soydaşları, s. 97-123; L. Ligeti, Bilinmiyen..., s. 273-276; K. Thomson, Die Sprache der Gelben Uiguren und das Salarisch, s. 564 və ardı.

## c. Şərqi Türküstan (Turfan) uyğur dövləti

İç Asiyaya doğru köçən uyğurların başında Vu-hi Təginin qardaşı, Ngo-nie Təgin vardı. O, 13 uyğur qəbilə birliyinin son kağanı (846-848) qəbul edilir. Qərbə gələn bu uyğur qolu Tanrı dağları, Beş-balıq, Turfan tərəflərinə yerləşərək, 840-cı ildə Ordu-balıqda istilaçılar əli ilə öldürülən uyğur xaqanının bacısı oğlu Mənqlini "kağan" (Uluğ Tanrıda qut bulmış Alp Külüg Bilgə) seçdi (856). Tibetlilərin hücumuna qarşı, nüfuzu altında tutmaq istədiyi bu bölgədə özünə bir dost arayan Çin bu uyğur dövlətini dərhal tanıdı. 873-cü ilə doğru ehtimal ki, kağan Buku Cin idi. Tanqlar formal da olsa özlərinə tabe və siyasətlərinə uyğun bir hava içində olan bu uyğur dövlətinin məşru Çin idarəsinə üsyan edən Turfan, Beş-balıq hərbi valilərini ortadan qaldıraraq Hamiyə qədər hakimiyyət qurmalarına müdaxilə etmirdilər. Bu surətlə siyasi nüfuzu getdikcə artan və İç Asiyanm ticarət yolları üzərində olması ilə iqtisadi yöndən gəlişən uyğur dövləti eyni zamanda manixeizmin bölgədə yayılmasına vasitə olurdu. Tanqların yıxılışı sırasında Tun-huang hərbi bölgəsini işğal edən çinli komandan yuxarıda bəhs etdiyimiz muxtar dövlətini qurarkən "Ağ paltar geyən Göy oğlu" ləqəbini almışdı (manixeistlər ağ geyinirdilər). Fəqət, bilindiyi kimi, Kan-çou uyğurları bu muxtar dövlətə son vermişlər (911), bu tarixdən etibarən Şərqi Türküstan Uyğur Dövləti də müstəqil olmuşdur[490] . Bundan sonra cənubda Tibet, Qərbi Türküstanda qarluq bölgəsi ilə sınırlı və başlıca şəhərləri Turfan, Kaşğar, Beş-balıq, Kuça, Hami olan ölkələrini müdafiə ilə kifayətlənərək sənət, ədəbiyyat və ticarət sahəsinda yüksələn bu uyğur dövləti ilə ilgili siyasi hadisələr haqqında çox bilgi yoxdur. Ancaq 947-ci ildə paytaxtın Koço (Şərqi Türküstanda Turfanın yaxınında Qara-khoço=Kao-çanq) şəhəri, yay iqamətgahının isə Beş-balıq (Pei-tinq) olduğu və "Kün Ay Tanrıda qut bulmış Uluğ qut ornanmış, alpın, ərdəmin el tutmuş Alp Arslan Qutluğ Kül Bilgə-Tanrı xan"ın dövləti idarə etdiyi bilinir[491]. 948-ci ildə hakimiyyətdə "Kün Ay Tanrı təg küsönçig körtlə yaruq-Tanrı Bögü Tənqrikən"in bulunduğu Khoçodakı bir kitabədən anlaşılmaqdadır. Bu uyğur hökmdarları "Iduk-qut" ünvanı ilə də anılır[492], paytaxta da "Iduk-qut (İdikut) şəhəri" deyilirdi[493].

---

[490] J. R. Hamilton, həmin əsər, s. 128 və ardı.

[491] J R Hamilton, həmin əsər, s. 142; F. W. K. Müller, Zwei Pfahlinschriften aus den Turfan, s. 22 və ardı.

[492] Bax: R. R. Arat, Der Herrschertitel "İduq-qut" s. 150-157. Bu ünvanın uyğurlarda xaqanlıq çağından bəri işlndiyi haqda bax: A. Bombaci, Qutlug Bolsun, s. 15.

Uyğurlar haqqında ən maraqlı məlumatlara Çindəki şimal sunq imperatoru tərəfindən 981-ci ildə Qara-khoçoya elçi olaraq göndərilən Wanq Yen-tö-nün səyahət qeydlərində[494] təsadüf edilməkdədir. Bunlar kültür tarixi baxımından böyük dəyər daşıyır. Şərqi Türküstan uyğur dövlətində digər uyğur qolunda olduğu kimi, buddizm çox yayılmış, hətta manixeizmdən üstün bir mahiyyət almış[495], bunun yanında nəsturi xristianlıq, başlanğıcda çox az olmaq üzrə islamiyyət öz təsirlərini göstərmişdir. Müsəlman-türk qaraxanilər Mahmud Kaşğarinin əsərində (1074) "kafir" deyə bəhs edilən uyğurlarla mücadilə edir və uyğur məmləkətində islamiyyəti yaymağa çalışırdılar[496]. Sonra islamiyyət Çinə uyğurlar vasitəsilə girdiyi üçün orada ilk müsəlman çinlilərə huei-ho (uyğur) deyilmişdir.

Şərqi Türküstan uyğur dövləti 1209-cu ildə Çingiz xana bağlandığı zaman başında o tarixə qədər qara-xıtaylara tabe olan İduk-qut Barçuk Art-Təgin ver idi[497]. İslam qaynaqlarında (Qudamə / ölümü: 948/, əl-Məsudi, Gərdizi, Təmim b. Bəhr, Mərvəzi, əl-İdrisi /ölümü: 1166/) daima "doqquz-oğuz" (toquz-ğuz) deyə bəhs edilən uyğurların[498] hakimiyyəti felən sona çatmaqla bərabər, monqollar tabeliyində qalaraq uyğur hökmdar ailəsi Çində minq dövrünün başlarına, yəni son uyğur İdi-qutu Ho-şanq, minq sülaləsi qurucusuna təslim oluncaya qədər (1368) davam etmişdir. Ayrıca, qara-xıtay dövlətində olduğu kimi, məşhur dövlət adamı Tata-Tonqa və oğulları ilə digər bir çox uyğur Çingiz monqolları dövlətində də yüksək idari vəzifələr almış[499], başda heyvandarlıq, meyvəçilik, dil, yazı olmaq üzrə uyğur mədəni təsirləri Asiyanın şərqində və qərbində (xüsusilə qarluqlar, qaraxanilər yolu ilə) əsrlərcə hiss edilmişdir.

---

493 İdi-qut şəhri (=Hoço) üçün bax: Hudud ul-Alem s. 279; P. Pelliot, Kaotch'ang, Qočo> Houo-tcheou et Qara-Khoja, s. 570-603.

494 Bax: Ö. İzgi, The İtinerary of Wang Yen-te to Kao-ch'ang, 981-984, Hanward University 1972. Doktorluq diss., ayrıca L. Ligeti, Bilinmiyen İç-Asya s. 247 və ardı.

495 R. Grousset, L'Empire d. Steppes, s. 176 və ardı.

496 Təfsilat üçün bax: T. Banguoğlu, Uygurlar ve Uygurca Üzerine, s. 87-113.

497 B. Ögel, Sino-Turcica, s. 10.

498 Bax: V. Minorsky, Hudud ul-Alem, s. 263-277.

499 Təfsilən bax: B. Ögel, həmin əsər, s. 1-28, 153-157; K. A. Witlfogel, History of Chinese Society Liao, Philadelphia 1949, bax: TED, sayı 7-8 (1977), s. 10-16. Monqol dövründə uyğurlar üçün, B. Ögel həmin əsər, s. 67-217.

## 5. QIRĞIZLAR

Adlarının mənşəyi və mənası haqqında müxtəlif görüşlər irəli sürülmüş olan qırğızlar[500] Çin qaynaqlarında ki-ku, kie-ku, kie-ka-sse və s. adları ilə zikr edilməkdə və xanlardan (m.ö. 206-m.s. 220) bəri mövcudiyyətləri bildirilməkdədir[501]. Asiya hunları zamanında Baykalın qərbində İrtiş çayı həvalisində, bir türk qövmü olan tinq-lingiər[502] ilə bir arada oturmuşlar. Fəqət qırğızlar qaynaqlarda türk əsilli göstərilməməkdə[503] və buna görə təxminən V-VI əsrlərdə türkləşmiş qövmlərdən sayılmaqdadır[504]. VI əsr sonlarında Çin qaynaqlarında hia-kia-sseu deyə zikr edilən qırğızların göytürk xaqanı Mu-kan zamanında 560-cı ilə doğru, xaqanlığa bağlandıqdan sonra 630-680-ci illər arasındakı fətrət dövründə müstqil bir hüviyyət qazandıqdan, tanqlarla siyasi münasibət qurmalarından və bir "kağan"a sahib olmalarından anlaşılır[505]. II Göytürk xaqanlığı dövründə təkrar göytürk idarəsinə alınan qırğızlar Moyen-çor kağan tərəfindən uyğur xaqanlığına bağlanmış (758), fəqət 840-cı ildə şiddətli bir hücumla uyğur dövlətini yıxaraq Ötükəndə öz dövlətlərini qurmuşlar[506]. Ancaq orada çox qala bilmədilər. 920-ci ildə bütün Monqolustanı ələ keçirən ki-tanlar (Çində liao sülaləsi) qırğızları Ötükən bölgəsindən çıxarıb, əski yurdlarına sürdülər. Bu, ki-tanlar və onların davamı olan qara-xitayların Yenisey həvalisinə qədər soxula bilmədikləri anlaşılır. Çingiz xan öncə Monqolustanı idarəsi altında birləşdirmək istədiyi üçün merkit və naymanlarla olan savaşları sırasında qırğızları da ita-

---

[500] Bax: L. Ligeti, Kırgız Kavim İsminin Menşei, s. 235-249. Türkcə 40-dan, Bax: L. Bazin, Les Calendriers..., s. 103.

[501] W. Eberhard, Çin'in Şimal Komşuları, s. 67.

[502] Gy. Németh, HMK s. 115 və ardı; Tarixləri təfsilən, B. Ögel, İlk Töles Boyları, s. 795-811.

[503] "Qırğızlar qurddan törəyən kimsələrdən deyildir" bax: W. Eberhard, həmin əsər, s. 67, 92.

[504] W. Barthold, Orta Asya Türk Tarihi Hakkında Dersler, s. 29 və ardı; V. Minorsky, Hudûd ul-Alem, s. 282; W. Eberhard, TM. VII-VIII, 1942, s. 169; TM. X, s. 406; L. Ligeti, Mots de civüisations..., s. 150

[505] Kitabələr, 1, şərq, sətir 35; II, şərq, sətir 27.

[506] A-je ünvanlı və etmimal ki, anası türgiş olan bir başbuğ tərəfindən qurulan qırğız dövlətinin tarixi və kültürləri üçün bax: Tsai Wen-shen, həmin əsər, s. 36-42 və başqa yerlər; B, Ögel, Türk Kültürü Tarihi, s. 207-222.

ətə almışdır (1207). Bu surətlə qırğızlar Çingiz xan monqollarına itaət edən "ilk türk qövmü" olmaqdadır[507].

1217-ci ildə monqollarla qarşı dirənmək istədikləri üçün ertəsi qış ordusunu Yenisey buzu üzərindən keçirən Çingizin oğlu Çoçi tərəfindən əzilən qırğızların artıq xaqanları olmamış, Toluy ulusuna (Çingiz xanın oğlu Toluyun hissəsinə düşən ərazi və xalq) daxil edilən ölkələrində sadəcə birər rəis tərəfindən idarə edilən iki qisim halında yaşamağa davam etmişlər[508]. Qırğız qövmü uyğur xaqanlığını yıxaraq işğal etdiyi Ötükəndə tutuna bilmədi, buranın monqol ki-tanlara keçməsinə səbəb oldu. Onun  Orxon kültürünü də tam dərk edə bilmədiyi anlaşılır. Qırğızların əski türk xaqanları yurdunu bir daha geri gəlməmək üzrə monqollara qapdırmaq surətilə türk tarixində oynadığı mənfi rol diqqətdən qaçmamışdır[509]. Bu vəziyyətin həmin dövrdə türk çevrəsində də dəyərləndirildiyi, qarluqların Ötükəndə qırğız hakimiyyətini rədd etmələrindən bəllidir (aş. bax).

---

[507] W. Barthold,... Dersler, s. 140.

[508] Bax: İA, mad. Kırgızistan.

[509] Bax: O.Pritsak, İA, mad.Karahanlılar,s. 252 b; L. Bazin, Le Turcologie, Bilan Provisoire, s. 107.

## 6. TÜRGİŞLƏR

Adlarının "türk+ş" şəklində yaranmış olduğu bildirilən türgişlər[510] on-oxların to-lu qolunun bir qismini təşkil edirdilər[511]. Çin qaynaqlarında göytürk xaqanlığının qərbdəki qələbəlik boylarından biri olaraq ilk dəfə 651-ci il hadisələri dolayısı ilə zikr edilen türgişlər (t'u-k'i-şi) İli çayı dolaylarında yaşayırdılar. VII əsrin sonlarına doğru türgiş rəisi olaraq görünen Bağa Tarkan ünvanlı U-çe-le tabeliyində olduğu kukla qərbi göytürk kağanının pis davranışlarından faydalanaraq çorları və erkinləri ətrafına topladı, qısa zamanda hər birinin 7 min savaşçısı olan 20 başbuğlu bir ordu qurmağa müvəffəq oldu. Çu vadisinin şimal-qərb ucunda yerləşən mərkəzini şimal-şərqə nəql etdi. Turfan və Kuça əyalətlərinə qədər hakimiyyətini genişləndirdi, bu olaylar qarşısında ölkəsini buraxıb Çin paytaxtına gedən kukla kağanın ayrılmasından sonra dərhal bütün on-ox sahəsini öz idarəsinə aldı[512]. Fəqət iqtidarının bu sağlam dövründə kağan Kapğan idarəsində özünün ən həşmətli çağını yaşayan şərqi göytürklərin irəliləyişini durdurmaq məqsədi ilə qırğızlar və Çin ilə əməkdaşlıq etməsi yaxşı nəticə vermədi. Göytürk əleyhdarı üçlü ittifaqın üzvü olduğu üçün üzərinə yürüyən Tonyukuk tərəfindən məğlub edildi (698-ci il Bolçu savaşı), on-ox sahəsi U-çe-lenin nəzarətində olaraq göytürk xaqanlığına birləşdirildi. Onun yerinə keçərək 706-cı ildən bəri tabe kağan olan So-ko (U-çe-lenin oğlu) Çin ilə münasibət qurduğu üçün bu dəfə Kül Təgin və Bilgə tərəfindən 711-ci ildə yenə Bolçu yaxınlığında məğlub edildi və həlak oldu[513].

So-ko ilə qardaşı Çe-nu arasında ölkədə hakimiyyət uğrunda mübarizə və Çe-nunun Kapğan kağana sığınmasına dair Çin qaynaqlarındakı xəbər ilə kitabələrdə "qara türgiş" xalqının itaətə alındığını göstərən qeyd[514] So-ko zamanında türgişlərə qarşı aparılan uğurlu səfərin gərəkcəsini göstərməkdədir. Ölkə-

[510] F.W.K.Müller, Uigurica, II, s. 95; Gy. Németh, HMK, s. 58; ayrıca, A. Caferoğlu, Eski Uygur Sözlüğü, s. 258.

[511] Ed. Chavannes, Documents..., s. 34, 60, 269 və ardı.

[512] Ed. Chavannes, həmin esr., s. 43, 77 və ardı.

[513] Kitabələr, I, şərq, sətir 18, II, şərq, sətir, 16-17; Ed. Chavannes, həmin əsər, s. 80 və ardı, 283, Liu, həmin əsər, I, s. l69, 221.

[514] Bax: I, şərq, sətir 37-38; II, şərq, sətir 28.

nin Bars Bəg idarəsinə verildiyi bu tarixdə türgişlərin bir hissəsinin Kəngərəsə (Seyhun çayının sahilləri) doğru çəkildiyi anlaşılır (bax: yux. II Göytürk xaqanlığı). Göytürk mücadilələri zamanı türgişlər Su-lu adlı bir qara-türgiş çorunu "kağan" seçdilər (717) ki, Çin xəbərlərinə görə, göytürk uruğlarından mühüm bir hissə də Bilgədən ayrılaraq bu yeni türgiş xaqanının xidmətinə girmişdir[515]. Su-lu paytaxtı Talasın şimal-qərbində, Balasağun (=Quz-uluş)[516] şəhəri olmaq üzrə, uzun sürən hakimiyyəti zamanmda Mavəraünnəhrdən şərqə ərəb irəliləməsini durdurmaq surətilə Orta Asiya xalqının "ərəb təbəəsi" olmasını əngəlləyən və üzərində türklərin tarixi haqq sahibi olduğu Mavəraünnəhri yenə türk əlinə almağa çalışan bir hökmdar olaraq görünür.

Hələ 714-cü ildə Quteybənin ümumi qərargahını Mərvdən Şaşa (Daşkənd bölgəsi) nəql edərək oradan şimala və digər tərəfdən Kaşğara doğru İç Asiya anayolu istiqamətində axınlara girişməsi əməvi xilafətinin hədəflərini göstərirdi. Quteybənin ölümü (715 sonbaharı) ilə bu hərəkatda diqqəti çəkən duraqlamanı islam xəlifələri xoş qarşılamırdılar, hədəfə qərarlılıq içində yönələcək komandan tapmaq məqsədi ilə Xorasan valilərini tez-tez dəyişdirmələri bununla bağlı idi. Ancaq valilərin uğursuzluğa düçar olmalarının başlıca səbəbi istiqlal istəmələri təbii olan yerli şahzadələrin ərəblərlə işbirliyinə könülsüz yanaşmasından ziyadə başında kağan Su-lunun olduğu türgiş toplumunun şiddətli müqaviməti və hətta islamın dini əqidələrini deyil, fəqət ərəb hökmranlığını Mavəraünnəhrdən söküb atmaq əzmi idi. Bu dövrdə ərəb ordularına qarşı çıxanların hamısı islam qaynaqlarında türk olaraq göstərilir. Böyük mücadilədə, təbii olaraq, bölgənin və Seyhun arxası türk ölkələrinin məşhur İç Asiya karvan yolu üzərində yerləşməsi dolayısıyla iqtisadi əhəmiyyəti də böyük rol oynayırdı. Xəlifə Ömər b. Əbdüləziz (717-720) tərəfindən təyin edilən vali əl-Cərrah b. Abdullahın Seyhun arxasında girişdiyi irəliləmə təşəbbüsü bu komandan tərəfindən durduruldu, ərəb qüvvələri mühasirə edildi, əməvilər türk müqavimətinin qarşısında sarsıldılar[517] və aradakı türk əngəlini qaldırmaq üçün Çin ilə təmaslar qurmağa çalışdılar. Bu məqsədlə həm Mavəraünnəhr hökmdarlarından, həm də doğrudan-doğruya ərəblərdən Çinə heyətlər göndərilsə də, heç bir nəticə əldə edilməmişdir.

Türgiş dövlətinin ana siyasəti anlaşıldıqdan sonra bundan cəsarətə gələn Buxara hakimi Tuğşad, Kumez hakimi Marayana və Çağanyan hökmdarının

[515] Liu, həmin əsər, I, s. 171, 233.
[516] Quz-ulus üçün bax: DLT, I, s.,62.
[517] H.A.R. Gibb, Orta Asya'da Arap Fütuhatı, s. 46; W. Barthold, Turkestan..., s. 188.

ərəblərə qarşı yardım üçün Çinə müraciətləri[518] sadəcə bir nəzakət müamiləsi ilə sovuşdurulmuşdu. Çünki ərəb ordularının Seyhun arxasına keçməsi ilə eyni zamanda (719) Çinin qərbə doğru genişlənmə siyasəti göytürk xaqanlığı tərəfindən boşa çıxarılmış, bu dəfə isə türgiş divarına çarpma təhlükəsi ilə qarşılaşmışdı. Çinin indilik "durumu bir təhər idarə" etməyə çalışması dolayısıyla özünü sərbəst hiss edən türgişlər qərbdə fəaliyyətə keçmişdilər. Buna görə Mavəraünnəhrdə ortaya çıxan ərəb əleyhdarı hərəkətlər türgiş təzyiqinə əməlli-başlı kömək edirdi. Seyhunu aşaraq Mavəraünnəhrə girən türk ordusu komandanı Kül-çor[519] Səmərqənd yaxınlığında ilk böyük uğuru qazandı: başında Səid Əbdüləzizin durduğu ərəb qüvvələrini məğlub etdi və komandanını bir müddət çəmbər içində tutdu (721). Bu vali dəyişdirildi. Yerinə gələn əl-Haraşi (721 sonbaharı) şiddət əl atdı, yerlərini tərk edən xalqı Xocənd bölgəsində təslim olmağa zorlayaraq hamısını öldürtdüyü üçün canlarını qurtara bilənlər kütlələr halında türgişlərə sığınırdı. Mavəraünnəhr tam bir xaos içinə düşmüşdü. Xəlifə Hişam (724-743) valini işdən çıxararaq, yerinə Müslim bin Səidi təyin etdi (724). Ərəb hərbi qüvvələri arasında da anlaşmazlıq baş vermiş və yəmənli qüvvələr cəzalandırılmışdı.

Fərqanəyə yürümək üzrə Müslim idarəsində Seyhunu keçən ərəb ordusuna qarşı xaqan Su-lu şəxsən özü çıxdı. Ordusuna təcili geri çəkilmək əmri verən Müslim susuz yollardan məcburi yürüş ilə 11 gün çəkildi və daşıya bilmədiyi üçün bütün sursatını yandırmağa məcbur qaldıqdan sonra da "suya çatmadan" Seyhun yaxınında türgişlərlə işbirliyi halında olan yerli qüvvələr tərəfindən durduruldu. Arxadan da xaqan sürətlə gəlməkdə olduğu üçün, nəhayət, min bir müşkilat ilə önlərindəki maneəni aşa bilən ərəb qüvvələri ancaq ağır tələfat və itkilər bahasına Səmərqəndə doğru çəkilə bildilər[520]. 724-cü ildə Seyhun arxasındakı bütün ərəb qüvvələrinin geri oturdulması ilə nəticələnən və hər tərəfdə ərəb nüfuzunun qırılmasına səbəb olan bu səfərdəki məğlubiyyət ərəbləri uzun müddət müdafiədə qalmağa məcbur etmiş və yalnız Mavəraünnəhrdə deyil, Toxaristanda və digər cənub bölgələrində idarəçilər və xalq türgişlərə xilaskar gözü ilə baxmağa başlamışdı[521]. Türk qüvvələrinin bütün ölkəyə yayıldıqları və ərəb hərbi hissələrinin mərkəzi Səmərqənd önündə belə göründükləri bu sırada Xorasan valisi təkrar dəyişdirildi. Yeni vali Əsəd b. Abdullah əl-Qəsri 726-cı ildə Xuttalda

[518] 719-cu ildə, bax: Chavannes, Documents..., s. 203 və ardı; H.A.R. Gibb, həmin əsər, s. 51.

[519] İslam qaynaqlarında = Kür-sul, bax: ibn ül-Esîr, el-Kamil…, IV, s. 178, P. Pelliot, Histoire des Campagnes de Gengis Khan, s. 108.

[520] İbn ül-Esîr, həmin əsər, s. 194 və ardı.

[521] H.A.R. Gibb, həmin əsər, s. 56; ayrıca, Toxaristan "yabğu"sunun məktubu, Ed. Chavannes, Documents..., s. 206, 293 və ardı.

Su-lu kağan qarşısında uğursuzluğa düçar olduğu üçün bütün Mavəraünnəhrdə ərəb iqtidarının təhlükəyə düşdüyü bir zamanda işdən azad edildi. Ölkədə əməvilərə qarşı şiə və abbasi təbliğatı da sürətlənirdi. Xaqan Su-lu vəziyyətdən faydalandı, yerli müxaliflərlə ahəngli bir şəkildə çalışaraq, Buxaranı zəbt etdi (728). Ərəb idarəsi Səmərqənd, Dabusiya şəhərləri ilə iki kiçik qalada sıxışıb qalmışdı. Yerli xalqa bir çox azadlıqlar verməsinə rəğmən ümid etdiyi diqqəti görməyən yeni vali Əşras bin Abdullah əl-Sulami Bəykənd yaxınlığında xaqan tərəfindən sıxışdırılaraq ikinci bir "susuzluq hadisəsinə" (yövm ülətş) düçar edildi, nəhayət, Səmərqəndə doğru çəkilərkən yetişən xaqan və Kül-çor idarəsindəki türgiş qüvvələri tərəfindən Kəmərcə qalasında 58 gün mühasirədə saxlandı[522] (729). Artıq ta Xarəzmdə belə ərəblərə qarşı qımıldanmalar müşahidə edilirdi. Su-lunun məqsədi Səmərqənddəki ərəb mərkəzi ordugahını ələ keçirib istilaçıları Mavəraünnəhrdən tamamən atmaqdı. Bu səbəblə Səmərqəndi mühasirəyə almağa hazırlaşdığı zaman çarpışmaya cəsarət edə bilməyən qərargah komandanı Səvrə bin Hürr yeni təyin edilən vali Cüneyd bin Əbdürrəhman il-Murrini Mərvdən imdada çağırdı. Fəqət keçiş yolu türgişlər tərəfindən kəsilmişdi. Məcbur qalaraq dağ yollarına düşən Cüneyd dar keçidlərin birində xaqan tərəfindən sıxışdırıldı ("keçid savaşı =vaqət üş-şib"), yorğun olan, həm də susuz qalan ordusu tez-tez basqına uğrayırdı. Nəhayət, 12 min nəfərlik qüvvəsindən 10 minini itirdikdən sonra Səmərqəndə çata bildi[523]. Durumdan xəbərdar edilən xəlifə Hişamın əmri ilə Küfə və Bəsrədən 20 min nəfərlik bir köməkçi qüvvə Səmərqəndə gələrkən, qış da yaxınlaşmaqda olduğundan daha çox qalmaq istəməyən xaqan Buxaranı da boşaldaraq oradan çəkildi (732). 734-cü ilin əvvəlində Cüneydin ölməsi ilə zatən ərəb nüfuzu və qüdrəti sarsılmış olan Xorasan vilayətində "qara bayraq qaldıran" abbasi tərəfdarı Xaris bin Süreycin Bəlxi, sonra valilik mərkəzi Mərv şəhərini zəbt etməsi Mavəraünnəhrdə vəziyyəti büsbütün qarışdırdı. Yeni valilərlə üç il (734-737) uğraşmaq məcburiyyətində qalan Xaris axırda türgişlərə sığındı. Xaqan Su-lu Mavəraünnəhrə qarşı son səfərində xeyli müttəfiq tapmışdı: Xaris tərəfdarlarından başqa soğd hökmdarı (yəni Gurək və ya oğlu), Usruşana hakimi, Şaş (Daşkənd bölgəsi) hökmdarı, Xuttal hökmdarı. İslam tarixçisi ət-Təbəridə zikr edilən bu siyahı "Mavəraünnəhrdəki ərəb nüfuzunun türklərə keçmiş olduğunu" açıqca göstərərir[524]. Xaqan Bəlxə doğru irəlilədi. Cuzcana girdi. Öncə Toxaristanı ərəblərə qarşı

[522] Bax: İbn ül-Esîr, həmin əsər, s. 204 və ardı.

[523] Təfsilən bax: İbn ül-Esîr, həmin əsər, s. 208-213.

[524] H. A. R. Gibb, həmin əsər, s. 70.

üsyana qaldıraraq məhəlli bir dəstək qazanmağı faydalı görürdü. Fəqət vali Əsəd bin Abdullah il-Qəsri xaqanın ordusunu arxadan vurmağa müvəffəq oldu (738-ci il. San və ya Xaristan savaşı)[525]. Əslində Su-lu ərəblərlə birləşən Cüzcan hökmdarının xəyanətinə uğramışdı[526].

Məmləkətinə dönən və şərqdə də çinlilərə qarşı bəzi uğurlar qazanmış olan (717, 726) Su-lu kağan hər halda ömrünü xərclədiyi bu mübarizəyə davam edəcəkdi, fəqət o zamanlara qədər böyük xidmətlərini gördüyü Kül-çor (Bağa Tarkan) tərəfindən öldürüldü (738)[527]. Çinin türk başbuğlarını bir-birinə düşürmə planına dayanan təhrikçi siyasəti bir daha hədəfinə çatmış və əsasən So-ko ilə Çe-nu arasındaki anlaşmazlıqdan bəri (710-cu illərdə) qara və sarı olmaq üzrə ikili təşkilat halında yaşayan türgiş boylarını bir-birinə qatı düşmən etmişdi. Sarı türgişlər üstünlük qazandılar[528]. Başbuğları Bağa Tarkan (Kül-çor) rəqibi qara türgiş başbuğu Tu-mo-çeni yenərək və kağan seçilməsini istədiyi Sulunun oğlunu ortadan qaldıraraq özünü kağan elan etdi. Bu arada Çinin on-oxlar kağanı təyin etdiyi, Aşina ailəsindən Hini məğlub edib öldürməsi (739) [529] Çini bu dəfə qara-türgişləri dəstəkləməyə sövq etdi. 742-ci ildə türgiş kağanı İl-etmiş Qutluğ Bilgə bir qara-türgiş başbuğu idi. 753-cü ildə xaqan olan və uyğur xaqanı Moyen-çorun himayəsinə girən Tanrıda Bolmış da bir qara-türgiş idi. İki tərəf arasında uzun sürən mücadiləyə qarluqlar da qarışmış, beləliklə, ehtimal ki, peçeneqlərə (aş. bax:) mənşə təşkil edən və özəlliklə mühüm bir tarixi hadisə olaraq qələbəlik oğuz kütlələrinin (aş. bax) Sır-dəryaya doğru qərbə intiqalını asanlaşdırmış olan türgiş iqtidarı büsbütün zəifləmişdi. Nəhayət, 20 il ərzində getdikcə qüvvətlənən qarluqlar To-lu və Nu-şi-pilərə qalib gəlib ağırlıq mərkəzi Çu vadisi olmaqla öz hakimiyyətlərini qurdular (766-cı il)[530].

[525] Bax: V. Minorsky, Addenda to the Hudûd'al-Alam, s. 265.

[526] Mavəraünnəhrdəki bu türk-ərəb mücadiləsi üçün təfsilən bax: H. A. R. Gibb, həmin əsər, s. 41-71; ayrıca, W. Barthold, Turkestan..., s. 187-191; R. N. Frye - A. Sayılı, Selçuklulardan evvel... s.104-110.

[527] Bax: Ed. Chavannes, həmin əsər, s. 284, qeyd 2, s. 285, qeyd 1.

[528] Ed. Chavannes, həmin əsər, s. 46 və ardı, 83, 285.

[529] Bax: Chavannes, həmin əsər, s.79. Beləcə, Aşina soyunun qərbi göytürklər qolu sona çatdı.

[530] Ed. Chavannes, həmin əsər, s. 85; V. Minorsky, Hudûd al-Âlam, s. 301 və ardı.

## 7. QARLUQLAR

Çin sənədlərində ko-lo-lu (~ kalaluk) şəklində zikr edilən adları türkcə karlık (qar yığını) mənasını daşıyan[531] qarluqların türk soyundan bir göytürk boyu olduğu Çin qaynağında (Tang-shu) bildirilmiş, yaşadıqları sahə isə Altay dağlarının qərbindəki Qara İrtiş və Tarbağatay həvalisi kimi göstərilmişdir[532]. Qarluqlar burada üç qəbilədən ibarət birlik halında yaşayrdılar[533]. Hələ İstəmi zamanında türk hakimiyyətinin Xəzərin şimalı və Mavəraünnəhrə doğru genişlənməsində şübhəsiz böyük rolları olan qarluqların hər iki göytürk xaqanlığı dövründəki durumu yuxarıda açıqlanmışdı. 630-680-ci illər arasında digər türk boyları kimi bunların da öz başlarına buyruq olaraq zaman-zaman Çinə qarşı çıxdıqları görülməkdədir. 640-cı illərdə Turfanın şimalına qıyılan qarluqlar çinlilər tərəfindən məğlub edilərək (650, 654) P'ei-ting əyalətinə (Tanrı dağlarının şimal sahəsi) bağlandılar. Fəqət hər qəbilə öz rəisinin nəzarəti altında idi. Bu xəbəri verən Çin qaynaqlarının 665ci ilə doğru təkrar toparlanan qarluqların Çin nüfuzundakı nə qərbi, nə şərqi göytürk qanadına tabe olmadan yaşadıqlarını qeyd etməsi diqqətə dəyər[534]. Əvvəlcə "Kül-erkin" ünvanını daşıyan üç-qarluq bəyi bu tarixlərdə yabğu ünvanını almış və qüvvətli bir orduya sahib olmuşdur[535]. Daha sonra Kapğan kağan tərəfindən II Göytürk xaqanlığına bağlandığını gördüyümüz

[531] Bax: Gy. Németh, HMK s. 50; Oğuz Kağan Destanı, neşr. W. Bang R.R. Arat, s. 25. Və ya qaraluq (qaral-qarıl=qarılmaq, qarışmış olmaqdan): "qarışmış" xalq, bax: G. Doerfer, həmin əsər, III, s. 385; buna qarşı bax: Gy. Németh, Der Volksname Karluq und seine semantische Gruppe, s. 14 və ardı.

[532] Ed. Chavannes, həmin əsər, s. 33, qeyd 4.

[533] Kitabələrdə "üç-qarluq": Şine-usu, cənub, sətir 1; bu üç qəbilə bunlardı: mou-lo (mou-la), çe-se (p'o-fu), ta-şe-li, bax: Ed. Chavannes, həmin əsər, s. 85, qeyd 4, müq. et: Liu, həmin əsər, II, qeyd 800. Bu adları açıqlama təcrübəsi: bax: H. Ecsedy, Acta Ohentalia; XVII, s. 83, qeyd 13: mu-lo=bulaq?, ç'e-se (və ya çi-szu)=çiğil (bəlkə iç-il), ta-şe-li =taşlıq? (bəlkə diş-li).

[534] Bax: Ed. Chavannes, həmin əsər, s. 33, 62, 63, 67, qeyd 2.

[535] Ed. Chavannes, həmin əsər, s. 85.

qarluqlar Çinin təşviq və təhriki ilə göytürklərə qarşı üsyan edərək şiddətli mücadilələrdə bulunmuşlar. Bilgə kağanın ölümündən sonra təkrar fəaliyətə keçərək, uyğur və basmıllarla birlikdə göytürk xaqanlığının yıxılmasına bais oldular. Basmıllar hakim duruma gəldikləri zaman (742), "sağ (qərb) yabğu" məqamını alan qarluq başbuğu uyğur xaqanlığının qurucusu Qutluğ Bilgə Kül zamanında "sol (şərq) yabğu" oldu. Fəqət bu, qarluqların hamısını təmsil etmirdi. Beş-balıq həvalisində oturan qarluqların özlərinin seçdikləri Tun-Bilgə adında ayrı bir yabğuları vardı[536]. Ancaq Ötükəndə yeni qurulan uyğur xaqanlığı bütün qarluqlar tərəfindən üst məqam olaraq tanınır və yabğular xaqana bağlı bulunurdular.

Qərbdə əməvi-ərəb irəliləməsini durdurmuş olan türgiş xaqanlığının tənəzzülə doğru getdiyi bu tarixlərdə Orta Asiya türk ölkələrinin qorunması kimi bir tarixi vəzifə bu dəfə qarluqlara düşmüşdü. Zira Mavəraünnəhr yenə ərəblərin nüfuzu altına girmiş, hətta Seyhun arxasında bəzi ərəb hərəkatları görülmüşdü. Ancaq bu, əski dövr əməvi istilaçılığından fərqli idi. Getdikcə gücünü artıran abbasi təbliğatı əməvilərin "imtiyazlı ərəb milləti adına fəth" düsturu yerinə bütün müsləmanlar arasında fərqlərin qaldırılması və bərabərlik fikrini yayırdı. Beləliklə, ərəb basqısının azalması çinliləri Orta Asiyada bir iqtidar boşluğu hüsulə gəldiyi düşüncəsinə götürmüş, dolayısıyla çinlilər əski Orta Asiya siyasətlərini canlandıraraq, qarluqların daxil olduğu bölgələrə yenidən əl qoymaq istəmişdilər. Bu surətlə nəticədə məşhur Talaş (Taraz; bugün Övliya-ata bölgəsi) müharibəsi baş verdi (751 iyun). Müsəlmanlarla çinlilər arasında cərəyan edən bu müharibəyə[537] qədər qarluqlar t'anqların tərəfini tuturdular. Fəqət onların getdikcə açığa çıxan siyasəti qarşısında ərəblərlə əməkdaşlıq edərək, çinlilərin ağır yenilgiyə uğramasına nail oldular. Tarım hövzəsindən etibarən qərb bölgəsi qarluqlara, şərq bölgəsi uyğurlara aid olmaq üzrə Orta Asiyanın yenə türk hakimiyyətində qalmasını təmin edən bu savaşda uğradığı məğlubiyyət üzündən Çin ağır iç böhranlara sürüklənmiş (bax: yux. Uyğurlar) və artıq qərb ilə maraqlanmamışdır.

Qarluqlar qısa bir müddət uyğurlarla Orta Asiyada iqtidar yarışına girişsələr də (747), uyğur kağanı Moyen-çor qarşısında duruş gətirə bilməyərək Tarım bölgəsindən daha qərbə çəkildilər və 7-8 il içində (756) Cunqariyaya və 766-cı ildə

---

[536] Ed. Chavannes, həmin əsər, s. 84, n. 4; ayn. müell, Notes Additioneties..., s. 87.

[537] Bax: W. Barthold, Turkestan.,., s. 195 və ardı, O. Franke, həmin əsər, II, s. 444; D.M. Dunlop, A New Source of Information on the Battle of Talas or Atlakh, s. 326-330; H. D. Yıldız. Talaş Savaşı Hakkında Bazı Düşünceler, s. 71-82.

çökən türgiş iqtidarının yerinə Balasağun, Talas həvalisinə yerləşərək əski qərbi göytürk xaqanlığı sahəsində hakimiyyət qurdular (Arslan İl-tirgüg zamanı)[538]. Paytaxtları Balasağun idi. Ötükənin üstünlüyünü tanımaqda davam edir, eyni zamanda siyasi bir isim olaraq 'türkmən" adını da daşıyırdılar[539]. Öz soylarını göytürk xaqan ailəsi Aşina sülaləsinə bağlayan qarluq yabğuları[540] hakimiyyətin "qutlu Ötükən" ölkəsi ilə sıx əlaqəsi inancını mühafizə edirdilər. Fəqət uyğur xaqanlığı orada yıxılınca (840), oradakı yeni qırğız hökumətini diqqətə almayan qarluq yabğusu türk xaqanlarının "qanuni xələfi" sifəti ilə özünü "Bozqırların qanuni (yəni törə gərəyi) hökmdarı" elan edərək[541] "Qara xan" ünvanını aldı (Bilgə Kül Kadir kağan) və mərkəz olaraq da Balasağunu (Qara-ordu= Quz-uluş=Quz-ordu) seçdi[542]. İslamiyyəti rəsmən qəbul edən (Satuq Buğra, 904-911) ilk türk kütləsi olmaq və müsəlman samanilərlə siyasi mübarizələrə girişməklə bərabər[543] həm türk, həm islam tarixində çox mühüm yer tutan gələcəkdəki böyük qaraxani dövlətini qurmaq kimi tarixi rol oynayan, sonra da bir pəndnamədə Sultan Mahmud Qəznəvinin atası Səbük Təginin o çağda qarluq ölkəsi olan Barsxandan (Barsğan) nəşət etdiyi bildirildiyinə görə[544] türk-islam dünyasına qəznəvi sultanları kimi digər bir böyük sülalə vermiş olan qarluqlar o zaman islam çevrəsinin ən yaxın qonşuları olduqlarından ərəbcə-farsca əsərlərdə onlardan çox bəhs edilmişdir (qarlux, xarlux, halluh). "Hüdud ül-aləm"də (X əsrin son rübü) verilən bilgiyə görə, qarluq ölkəsi şərqdə Tanrı dağları, şimalda oğuzlar, cənubda yağmaların bir qismi və qərbdə Mavəraünnəhrlə sınırlanmış çox abad bir məmləkət, "türk ölkələrinin ən gözəli" idi.

538 Bax: A. v. Gabain, DTCF Dergisi, VIII, 3, s. 373 və ardı, ayrıca bax: Ed. Chavannes, Documents..., s. 85, qeyd 4, 297; V. Minorsky, həmin əsər, s. 287.

539 Təfsilat üçün bax: İ. Kafesoğlu, Türkmen Adı, Mânası ve Mâhiyeti, s. 121-133; yenə onun: A Propos du nom Türkmen, s. 146-150. Tamamlayıcı bilgi üçün bax: F. Sümer, Oğuzlar (Türkmenler), s. 13, 28 və ardı.

540 Bu düşüncənin islam qaynaqlarındakı nişanəsi: el-Mes'ûdî, Muruc..., I, s. 132; F. Grenard, Satuk Boğra Han..., Ülkü, sayı 79, s. 51; ayrıca, Gerdizî, Zeyn'ül-Ahbâr, nşr. G.Kuun, KSz, II, 1901,s. 2 və ardı; Mücmel üt-tevârih v'el-kısas, s. 105.

541 Çin qeydlərinə görə, Talas (Övliya-ata) ilə şərqdə Üç-Turfan arasındakı qarluqlar qonşuları olan yağmalar və çigillərlə birlikdə X əsr ortalarına qədər (ehtimal ki, islamı qəbul edərək Çin ilə təmaslarını kəsincəyə qədər) göytürklər deyə anılmışlar (bax: J.R. Hamilton, Les Ouighours..., s. 94, qeyd 4).

542 O. Pritsak, İA. mad. Karahanlılar. Qaraxani dövlətinin qurucusu, qarluq bölgəsinə köç eden uyğur şahzadəsi Pan Təgin idi, bax: W. Liangtao, s. 109-118.

543 893-cü ildə Talasın samanilər əlinə keçməsi, bax: F. Sümer, Oğuzlar, s. 27.

544 Bax: C. E. Bosworth, A Turco Mongol Practice Amongst the Early Ghaznavids, s. 239; E. Merçil, Sebük Tegin'in Pendnâmesi, s. 222-227.

Əsərdə burada mövcud olan 15 şəhər və qəsəbənin adı sayılır və türk qəbilələri zikr edilir[545].

Qaraxani dövlətinin yağma, çigil, toxsılarla birlikdə əsas kütləsini meydana gətirdiyi anlaşılan qarluqlar bu xanədan üzvləri arasında mübarizələr gedən zaman dövlətə qarşı cəbhə alaraq qarışıqlıq çıxqarmağa başladılar ki, bu da qara-xitay hakimiyyətinin Orta Asiyada söz sahibi olmasına təsir göstərdi[546]. Qara-xıtay hökmdarı Yeh-lu Ta-şih (Kür-xan) 1137-ci ildə Səmərqəndin qaraxani xanı Mahmudu məğlub ettiyi zaman bu xan öz dayısı olan Böyük Səlcuqlu sultanı Səncərə şikayət etmiş və uğradığı yenilgi ilə qarluqların ilgisini dilə gətirmişdir. Sultan Səncər də qarluqları əzmək üçün çıxdığı səfərdə qarşısında Kür-xanı görmüşdü. Səncərin bu savaşda yenilməsi (1141 Katavan savaşı) mühüm bir hadisə kimi "bütpərəst" qara-xitayların ta Xorasan sınırlarına qədər soxulmaları ilə nəticələnmişdi[547]. Xarəzmşahlar (İl Arslan zamanı: 1156-1172) ilə qara-xitaylar arasında da bir çox anlaşmazlıqlara səbəb olan qarluqların bu arada başbuğları yabğu-xan öldürüldü (1157), digər bir qarluq başbuğu Əyyar bəy qara-xitaylar tərəfindən əsir edildi (1172). Qarluqlara qarşı xarəzmşah Əlaüddin Təkiş də (1172-1200) bozqırlar bölgəsinə əl ataraq qanqlı və qıpçaq kimi digər türk boyları ilə gücünü artırmaq ehtiyacını duymuşdu. Bununla bərabər, az sayda olsa da, xarəzmşahlar ordusunda xidmət edən qarluqların qara-xani tabeliyində olmaq üzrə Türküstanda bir bəyliyə sahib olduqları anlaşılır. Monqol istilası başlayan zaman (1215) mərkəzi Qayalıq (İli çayının şərqi) olaraq davam edən bu bəyliyin başında II Arslan xan vardı[548]. O, uyğur İdi-qutu Barçuk ilə birlikdə Asiya türk ölkələrini başdan-başa tapdayan monqolların hökmü altına girdi. Çingiz xana itaət edən ilk müsəlman hökmdar olub 1221-də ölən bu qarluq xanının oğluna Özkənd şəhəri verilmişdi. Çingiz xan zamanı monqol dövləti idarəsində vəzifə alan qarluqlar var[549]. Hazırda Bədəxşan bölgəsi (Əfqanıstan-Tacikistan hüdudu) özbəkləri arasında qarluq adlı bir qəbilə yaşayır[550].

---

545 Hudûd'ul-Âlam, s. 286-297; ayrıca bax: İA, mad. Karluklar, B. Ögel, İslâmiyetten Önceki Türk Kültür Tarihi, s. 317-332.

546 Bax: İbn'ül Esir, IX, s. 15, Atâ Melik Cuveynî, Târih-i Cihân-guşâ, II, s. 87.

547 Təfsilat üçün bax: İ. Kafesoğlu, Harezmşahlar Devleti Tarihi, s. 52 və ardı; M. Altay Köymen, Böyük Selçuklu İmparatorluğu Tarihi, II, s. 326-329.

548 Cuveynî, həmin əsər, I, s. 32. O tarixdə Kulca'nın şimal-qərbində Almalık şəhərindəki Bozar xanın da bir qarluq olduğu sanılır, bax: W. Barthold, ...Dersler, s. 118, 142.

549 Təfsilat üçün bax: Cuveynî, həmin əsər, I, s. 56 və ardı; İ. Kafesoğlu, həmin əsər, s. 228, 247 və ardı; B. Ogel, Sino-Turcica, s. 219-244.

550 W. Barthold. .., Dersler, s. 90.

## 8. OĞUZLAR

Oğuz adının mənası üzərində dürlü açıqlama təcrübələri var[551]. Gy. Némethə görə, oğuz kəlməsi türkcədə eyni zamanda "qəbilə" (bir siyasi quruluşa bağlı qəbilə) mənasına gələn "ok" sözünə əski türkcədəki cəm şəkilçisi -z[552] əlavəsilə yaranmışdır (ok+uz) və "qəbilələr" deməkdir[553]. Gy. Némethin bu izah tərzi bəzi etirazlara rəğmən[554] doğrudur, sadəcə linqvistik baxımdan deyil, eyni zamanda türk tarixinin sosial və siyasi inkişafı kontekstində ələ alındığı təqdirdə xüsusilə tutarlıdır. Oğuz kəlməsinin çincəyə "qəbilələr" deyə tərcümə edilməsi də bu görüşü dəstəkləyir[555]. Anlaşılır ki, "oğuz" adı əslində etnik bir ad deyil, doğrudan-doğruya "türk qəbilələri" mənasını ifadə edən bir kəlmədir (oğuz təbirinin r-li söylənişi olan "oğur" şəklinin ayrı ad olaraq miladdan öncəki Çin qaynağında keçməsi /bax: aş. Oğurlar/ əski çağlarda çinlilərin türk toplumunu yaxından tanımadıqlarından irəli gəlmiş olmalıdır.

VI əsrdən etibarən göytürk xaqanlığında toplanmış türk qəbilələrindən bir qismi 630-cu ildə başlayan fətrət dövründə digər bir çox türk boyları kimi öz aralarında birlik quraraq Tola-Selenqa çayları bölgəsində doqquz-oğuz xaqanlığını meydana gətirmişdilər. 682 -ci ildə İltəriş tərəfindən məğlub edilən oğuzlar (İnək-

---

[551] F.Erdmann: oğuz=buğa, 1862; A.Vámbéry: oğuz=Oxus (çay), 1885; J. Marquart: uz= adam, oq+uz=oxlu, oxçu, 1914; P. Pelliot: oğuz oğuş=klan, ailə, qəbilə, 1914, uğuz~ağuz ~ ağız = ilk süd, 1930, oğuz, eyni mənada 1950; P. A. Boodberg: uğur~ oğuz = buynuz, 1939; D. Sinor: oğuz~ögüz=öküz, 1949; O. Pritsak: oq<oqu+z=qəbilə, 1952; L. Bazin: oğuz ~ oğuş = cavan buğa, cöngə, 1953; J.R. Hamilton: oğuz~oğuş=klan, qəbilə, 1962. Təfsilən bax: P. Pelliot, TP. XXVII, s. 256 və ardı; D. Sinor, Oğuz Kağan Destanı Üzerinde Mülâhazalar, s. 4 və ardı; J. Hamilton, Tokuz-Oguz et On-Uygur, s. 24.

[552] Bax: A. Caferoğlu, Türk Dili Tarihi, I, s. 134.

[553] Gy. Németh, HMK, s.41, 44. Pay, hissə, bütünün bir parçası (bu, ox atılmaqla təyin edilirdi) mənalarını da ifadə edən ok sözü (DLT, I, s. 37, 48) türk siyasi quruluşlarında bir təşkilata bağlılığı göstərir. Bax: Ed. Chavannes, həmin əsər, s. 27 və ardı, 56. Əlavə bax: indeks: yay, ox.

[554] Bax: P. Pelliot, TP. 1930, s. 257; W. Bang-R. R. Arat, Oğuz Kağan Destanı, s. 6, qeyd 1.

[555] Məsələn, on-ok=on qəbilə; dokuz-oğuz=doqquz qəbilə, bax: Liu, həmin əsər, I, s. 152, II, s. 591 və ardı; P. Pelliot, TP, 1914, s.157; V. Thomsen, Turcica, s. 5 və ardı; J. Hamilton, həmin əsər, s. 51, qeyd 4.

lər gölü savaşı) bu durumda idi və müharibədə ölən oğuz dövləti başçısı Baz kağanın balbalı sonra İltəriş kağanın məzarına dikilmişdi[556].

Göytürk xaqanlığı dövrində oğuzların davranışlarını və üsyanlarını yuxarıda görmüşdük. Kitabələrdəki müvafiq ifadələr oğuzlarla göytürklər arasında bir fərq qoyulmadığını, hətta xaqanlığın təməlini oğuzların təşkil etdiyini söyləmək üçün kifayət edir[557]. Bu səbəblə oğuzlarla göytürklərin eyni olduğu zatən qəbul edilmişdi[558]. Ancaq V. Thomsen Tonyukuk kitabəsi haqqındakı son məqaləsində oğuzları "Türklərin yüksək hakimiyətində bir qəbilə birliyi" olaraq göstərmiş[559] və bu tarixi gerçək sonra xətalı olaraq etnik (soy, qövm) baxımından dəyərləndirilməyə girişilmiş, məsələ yeni araşdırmalarla daha da dərinləşdirilmişdir[560]. Beləliklə, oğuzları türk, yoxsa başqa bir etnik təşəkkül saymaq kimi çox mühüm bir anlaşmazlıq nöqtəsi ortaya çıxmışdır. Burada öncə üzərində durulması gərəkən xüsus oğuzlara müqabil türk adını daşıyan bir etnik toplumun var olub olmadığıdır. Buna dərhal mənfi cavab vermək mümkündür. Çünki "güc-qüvvə" mənası ilə “türk" adının türk soylu kütlələr tərəfindən qurulan göytürk dövlətini ifadə etmək üzrə işlədilmiş bir siyasi ad olduğu açıqlanmışdı (bax: yux. Türk adı). O halda həm oğuzlar, həm göytürklər eyni qövmi zümrəyə mənsubdurlar. İkinci məsələ, göytürk dövlətinin sahibi hansı "türk" qolundan idi? Bilindiyi üzrə, bu dövlət adı "Aşina" olan əski bir türk hökmdar ailəsi tərəfindən ətrafındakı türk soylu kütlələrin yardımı ilə qurulmuşdu. Bu kütlələr isə ancaq qəbilələr birliyi (=oğuz) halına gəlmiş türklər ola bilərdi. W. Bartholdun göytürk xaqanlarının doqquz-oğuzlardan nəşət etdiyi barədə görüşü[561] qədim Aşina ailəsinin bu oğuz bölüyü ilə əlaqəsini isbat etməyi gərəkdirsə də VI-VII əsr türk (göytürk) kütləsinin doğrudan-doğruya oğuzların bu qrupundan təşəkkül etdiyi Çin qaynaqları tərəfindən açıqlanmaqdadır. Tanq dövrü sənədlərində (T'anq-shu və Kiu T'anq-shu salnamələri və ayrıca 5 bioqrafiya) doqquz qəbilə (kitabələrdəki "dokuz-oğuzlar) bəzən türklərin (göytürklərin) doqquz qəbiləsi və ya "doqquz qəbilənin türkləri (göytürkləri)", bəzən də töleslərin doqquz qəbiləsi deyə qeyd edilmiş və bioqrafiyalarda bunlardan 5-nin adı bildirilmişdir. Pa-ye-ku (bayırku), fu-ku (buku, buğu), tunq-lo (tonqra), sse-kie (sıqar), hun. Demək ki,

---

[556] Kitabələr, I, şərq, sətir. 16; II, şərq, sətir 14.

[557] Kitabə, I, şimal, sətir 4.

[558] V. Thomsen, İnscriptions de l'Orkhon…, s. 105; W. Barthold, ... Dersler, s. 6; yenə onun: Eİ. mad. Toquz-oghuz.

[559] V. Thomsen, Moğolistan'da Türkçe Kitabeler, s. 87.

[560] Məsələn, bax: F. Laszlo, Dokuz Oğuzlar ve Göktürkler, s. 37-43; F. Sümer, Oğuzlar..., s. 7.

[561] W. Barthold,... Dersler, s. 6.

oğuz qəbilələri göytürkləri meydana gətirən toplumdan başqası deyildi[562]. Çin qaynaqlarında çinlilərə artıq çox yaxşı tanış olan göytürk xaqanlığı dövründə oğuzların öz adlarıyla (yəni doğrudan-doğruya "oğuz" olaraq) zikr edilməyib sadəcə doqquz qəbilə (kiu sinq) deyə oğuz kəlməsinin tərcüməsinin verilməsi bizzat tu-küe-dən (türk) ibarət toplumun ayrı bir isim altında göstərilməsinə ehtiyac duyulmadığını sübut edir. Kitabələrdə I Göytürk xaqanlığı çağında "oğuz" adının keçməməsi də eyni səbəbdən irəli gəlmiş olmalıdır. Ancaq fətrət dövründə bəzi qəbilələr öz aralarında təşkilatlanaraq bir "dövlət" qurmuşdular ki, II Göytürk xaqanlığı zamanında hökmdar ailəsinə qarşı qiyam qaldıran və hökumətin digər imkanları ilə yatırılmasına çalışılan bu "təşkilatlanmış" birlik=oğuzdur. "Türk bodun" təbiri də, şübhəsiz, ümumi olaraq xaqana bağlı kütlələrin (oğuzlardan bir qismi ilə içində uyğurların da yer aldığı töles boyları və tarduşlar[563]) hamısını ifadə etməkdə idi. Kitabələrdə xaqanın "oğuz bodunu türk budunundan idi" deməsi[564] ilə bu oğuzların üsyan halında olmaları arasında bir ziddiyyət görmək çətindir, zira məsələ "xalqın" vaxtilə dəstəkləyib ucaltdığı xanədanla (bax: aş. Kültür: Xalq) mübarizəsindən ibarətdir (türk tarixində bunun başqa misalları da vardır: qarluqların qaraxanilərə qarşı dirənmələri və özü də oğuz olan Sultan Səncərin asi oğuzlarla çarpışması və s.)[565].

Xüsusilə islam qaynaqlarında uyğurlardan da doqquz-oğuz olaraq bəhs edilməsindən[566] doğan qarışıqlıq uyğur uruğları ilə doqquz-oğuz qəbilələrinin təsbitindən sonra (bax: yux. Uyğur xaqanlığı) aradan qaldırılmış olmalıdır.

Uygur xaqanlığının başlanğıcında hələ təgin olan Moyen-çor oğuzlara başçı seçilmişdi. O, doqquz-oğuzları topladı, fəqət səkkiz-oğuz birliyini meydana gətirən digər boylarla savaşmaq məcburiyyətində qaldı[567]. Xaqan olduqdan sonra da Moyen-çor otuz-tatarlarla ittifaq edən bu oğuzları Burğuda və Selenqa qıyısında ara-arda məğlub etdi. Oğuzlar Selenqanı keçərək çəkildilər[568].

[562] Bax: Liu, həmin əsər, II, s. 592, qeyd 831; ayrıca bax: yux. Uyğur xaqanlığı.

[563] Liu, həmin əsər, II, qeyd 1793, ayrıca bax: aş. Kültür: Boy.

[564] Kitabə, I, şimal, sətir 4.

[565] Bax: İA. mad. Selçuklular, I,3, II, 1.

[566] Təfsilən bax: V. Minorsky, Hudûd'ul-Alem, s. 263-277; yenə onun: Tamim ibn Bahr's Journey, s. 286 və ardı.

[567] Kitabə, Şine-usu, şərq, sətir 1, 3; şimal, sətir 5.

[568] Şine-usu, şərq, sətir 1-12. Digər "oğuzlardan: altı-oğuz: (Barlık 1. kitabəsi, ETY, III, s. 61), üç-oğuz (Kitabə, II, şərq, sətir, 32).

Bundan sonra anayurd bölgəsindəki oğuz toplumu haqqında çox bilgi yoxdur. Hər halda qərbə tərəf geniş ölçüdə bir köç hərəkatı baş vermişdir. İbn ül-Əsir xəlifə əl-Mehdi zamanında (775-785) oğuzların Mavəraünnəhr həvalisinə gəldiklərini bildirməkdə və ət-Təbəridə zikr edilən 820-821-ci ildə Usruşanaya (Seyhun-Səmərqənd arası) gerçəkləşdirilmiş bir doqquz-oğuz axınının bunlarla bağlı olduğu təxmin edilməkdədir[569]. Buna əsaslanaraq "oğuz birliyi" mənsublarının çox qələbəlik kütlələr halında öncə Talas həvalisinə köç etmiş olmaları və Seyhun oğuzlarının XI əsrdə danışdıqları türkcənin kəlmə və söyləyiş etibarilə şərq türklərininkindən fərqli olduğu diqqətə alınaraq, bu köçün IX əsrdən öncə baş vermiş olması irəli sürülməkdədir[570]. Oğuzlar Sir-Dərya (Seyhun) boyunda IX əsrin ikinci rübündən bəri oturmaqda idilər[571].

X əsrin ilk yarısında oğuzlar Seyhun bozqırları ilə o civardaki Qaraçuq (Fərab) və Sayram (İsficab) şəhərləri həvalisində görünürdülər. İslam coğrafiyaçılarına (əl-Bəlxi, İstəxri, ibn Hövkəl) və "Hudud ül-aləm"ə görə, oğuzların sahəsi qərbdə Xəzər dənizinə (bu dənizin şərqindəki yarımada bu səbəblə türkcə Manqışlaq adını almışdır), cənubda Gürgənc şəhəri ilə bunun şimal-qərbindəki Cit qəsəbəsinə və Aral gölünün cənubundakı Baratəkin qəsəbəsinə, Mavəraünnəhrdə Buxaranın şimalına, Qaraçuq dağlarının ətəyindəki Sabran şəhərinə qədər yayılmışdı və Qaraçuq dağlarından Xəzərə uzanan yarımsəhraya "Oğuz bozqırı" (məfəzat ül-ğuziyyə) deyilməkdə idi[572]. Buralarda Yeni-kənd, Qaraçuq, Cənd, Suğnak, Qarnak, Süt-kənd, Barçınlığ-kənd və başqa adda oğuz şəhərləri vardı[573].

Oğuzlar X əsrin ilk yarısında qış igamətgahı Yeni-kənd olan bir dövlət qurmuşdular[574]. Başda yabğu vardı, Kül-ərkin ünvanlı bir başbuğ ona naiblik edir, ordunu sü-başı idarə edirdi. Yabğu dövlətinin qonşuları peçeneqlər və xəzərlərlə münasəbətinin çox da dostanə olmadığını göstərən dəlillər vardır. İbn Fədlan (X əsrin ilk rübü) və əl-Məsudiyə görə, aralarında savaş əskik deyildi. Xarəzmin yerli xanədanı afriğflər oğuz basqısı altında idilər. Oğuzların şərqdəki qonşuları qarluqlar ilə də mücadilə halında olduqları aralarındakı savaş-

[569] W. Barthold, Arabish. Quellen, s. 27 və ardı; F. Sümer, Oğuzlar..., s. 23.

[570] F. Sümer, həmin əsər, s. 23-25, 35 və ardı.

[571] İbn Xordadbehdən nəqlən: F. Sümer, həmin əsər, s. 35.

[572] F. Sümer, həmin əsər, s. 33.

[573] Bu şəhərlər və qalıntıları üçün təfsilən, bax: B. Ögel, Türk Kültür Tarihi, s. 33-341; V.M. Jirmunskiy, Sir-Derya Boyunda Oğuz'lara Dair İzler, s. 471-483; T. Banguoğlu, Oğuzlar ve Oğuzeli, s. 4-9; F. Sümer, həmin əsər, s. 39-41.

[574] Bax: O. Pritsak, Der Untergang des Rciches des Oguzischen Yabgu, s. 397-410.

lardan birində oğuz yabğusunun ölməsindən anlaşılır[575]. Digər tərəfdən M. Kaşğari oğuzlarla çigillər arasında köklü bir düşmənçilikdən bəhs edir[576]. Şimalda kiməklər ilə bəzən dostca, bəzən düşməncə münasibətlər davam edib gedirdi[577]. Bu oğuzlar ümumi "türk" adı yanında yenə siyasi bir isimləndirmə olaraq "türkmən" adını da daşıyırdılar ki, islam ölkələrinə gəldikdən sonra islam qaynaqlarında bu adla da anılmışdılar[578].

Oğuz yabğu dövlətinin tarixi haqqında başqa açıq bilgi yoxdur. Son oğuz yabğusu olaraq Əli xan adında birini zikr edən və səlcuqluların "can düşməni" olaraq, Toğrul və Çağrı bəyləri xeyli uğraşdırdığını bildiyimiz məşhur Cənd "hakimi" Şah-məliki də Əli xanın oğlu göstərən Rəşidəddinin (XIV əsrin ilk rübü) bu xəbəri gerçəkdən ziyadə "dastani" vəsfdə görünməkdədir[579].

Yabğu dövləti zamanında oğuzlar üçox və bozox deyə əski ikili təşkilat halında idilər. Qolları meydana gətirən qəbilələr haqqında biri Mahmud Kaşğarinin DLT-sində, digəri Rəşidəddinin "Came üt-təvarix"ində olmaq üzrə iki siyahı var. DLT-də[580] ayrı-ayrı damğaları ilə birlikdə 22 qəbilə göstərilmiş, Rəşidəddin isə həm qəbilə sayını 24-ə çıxarmış, həm bozox-üçox təsnifatı aparmış, damğalara əlavə olaraq hər qəbilənin onqonunu göstərmişdir:

Bozoxlar: qayı, bayat, alka-evli (alka-bölük), qara-evli (qara-bölük), yazır, döyər, dodurğa, yaparlı (DLT-də yoxdur), əfşar, qızıq (DLT-də yoxdur), bəydili, qarkın (DLT-də yoxdur, bunun yerinə çaruqlu).

Üçoxlar: bayındır, bəçənə, çavuldur, çəpni, salur, eymür, alayuntlu, yürəgir, iğdir, büğdüz, yıva (ıva), qınıq[581].

---

575 F. Sümer, həmin əsər, s. 56 və ardı.

576 DLT, I, s. 494.

577 V. Minorsky, Hudûd..., s. 100; F. Sümer, həmin əsər, s. 52-59.

578 Türkmən adının oğuzların islamiyyəti qəbul etmələri, yəni din dəyişdirmələri ilə ciddi bir əlaqəsi görünmür. Təfsilən bax: İ. Kafesoğlu, Türkmen Adı, Manası..., s. 121-133; C.Brockelman, Histoire des Peuples et des Etats İslamiques, s.150. Tamamlayıcı bilgi üçün bax: F.Sümer, həmin əsər, s. 49 və ardı; cənubi Rusiyadakı uzlara (tork) da torkmen (türkmn) deyildiyinə dair bəzi dəlillər mövcuddur, bax: O. Pritsak, həmin əsər, s. 398, qeyd 2.

579 Bax: F. Sümer, Oğuzlar'a Ait Destanî Mâhiyette Eserler, s. 381 və ardı.

580 DLT, I, s. 55-58.

581 Bax: siyahılar, oğuz qəbilələrinin köçləri, tarixləri, gələnəkləri və s. haqqında təfsilən, F. Sümer, Oğuzlar..., s. 214-362; ayrıca ÎA. mad. Oğuzlar; oğuz boylarının adları üzərində açıqlamalar: B. Ögel, Türk Mitolojisi, s. 327-354. Bozoxdakı boz kəlməsi "kök" mənasında olmalıdır (bax: aş. s. 319, qeyd 690).

1000-ci illərə doğru oğuz yabğu dövləti yıxıldı. Bunun kimaklərin bir qolu kimi IX əsrdə bir qüvvə olaraq ortaya çıxan qıpçaqların (kumanlar) basqısı və səlcuqlu ailəsinin onlara bağlı kütlələrlə birlikdə ayrılmaları nəticəsində baş verdiyi qəbul edilir[582]. Kaşğarinin xəritəsinə (DLT, IV-ə əlavə) görə, XI əsr ortalarında qıpçaqlar "oğuz bozqırı"nı və Seyhunun aşağı yatağını işğal etmişdilər.

Yabğu dövlətinin çöküşü nəticəsində oğuzlardan qələbəlik bir qismi Qara dənizin şimalından qərbə köçmüş (bax: aş. Uzlar), digər bir qismi Cənd bölgəsinə, oradan da Xorasana, sonra isə Anadoluya yönəlmişdir (səlcuqlular). Yerlərində qalan oğuzların XI əsr ortalarında Qaraçuq dağları bölgəsində, Manqışlaqda və Seyhun qıyısındakı qəsəbələrdə oturduqları, monqol istilası zamanı Cənddə və Qaraqumda türkmənlərin olduğu görünməkdədir[583].

Bugün Orta Asiyadakı Türkmənistan xalqı bu oğuzların uşaqlarıdır. Anadoluda da bir çox kənd yuxarıda zikr edilən oğuz boylarının adlarını daşıyır.

Göytürk çağının türk millətinə yön verici, mərkəzi bir səciyyə daşıdığını başda söyləmişdik. Asiya hunlarından daha geniş ölçüdə və təbir caizsə daha şüurlu bir şəkildə Asiya türklüyünü öz idarəsi altında birləşdirən bu xaqanlıq Orta Asiyanın qərb hüdudlarında türk xalqının say üstünlüyünü itirdiyi yerlərdə siyasi baxımdan zəif düşdüyü zamanlarda belə türk nüfuzunun yayılmasında böyük rol oynamışdır. Qaynaqlardan anlaşılır ki, VIII əsr ortalarında Mavəraünnəhr, Daşkənd, Fərqanə, Xuttal, Şuman və Toxaristanda görünən krallıqlar ya türklər tərəfindən qurulmuş və ya türk siyasi və kültürəl təsiri altında gəlişmiş təşəkküllərdi: Xuttal kiralı "ərkin" ünvanını daşıyır, Çinə tarkan ünvanlı elçilər göndərirdi (733, 740, 750). Buxara kralı tuğ-şad 720-ci ildə qardaşı Arslan xanı Çinə elçi göndərmişdi. Şuman kralının elçiləri də (743) tarxan və şad ünvanlarını daşıyırdılar. Daşkənd kralının adı Təgin, Fərqanədən göndərilən elçinin adı (749) Arslan Tarkan idi. Toxaristan kralının ünvanı isə yabğu idi və onun Çinə göndərdiyi (738) elçisi İnancu Tarkan idi. 729-ci ildə Qutluğ Toxaristan yabğusu idi və bu yabğu ailəsi Aşina sülaləsinə bağlanırdı[584]. Bir görüşə görə, abbasi xəlifəsi əl-Mötəsim zamanında (833-842) ünlü türk komandanı Aşnas Toxaristan yabğularına mənsub idi[585].

[582] Bax: O. Pritsak, həmin əsər, s. 405 və ardı; F. Sümer, həmin əsər, s. 57 və ardı.

[583] F. Sümer, həmin əsər., s. 57 və ardı, 200.

[584] Təfsilən bax: Ed. Chavannes, Notes Additionnelles..., s. 20, 39, 47, 49, 53, 57, 69 və ardı, 75, 82, 86, 94 və ardı; E. Esin, "Türk'ul-Acem", s. 311 və ardı.

[585] Ed. Chavannes, Documents..., s. 20, qeyd 2.

Uygur, türgiş, qarluq xaqanlıqları göytürk xaqanlığının davamı idilər. Qərbdə Aşina oğulları tərəfindən idarə edilən Xəzər xaqanlığı da elə idi və uz, peçeneq, kuman-qıpçaq boyları göytürk xaqanlığından ayrılmış zümrələrdi (aş. bax). Yuxarı İrtış bölgəsindəki kiməklər[586], Aral gölünün şimalında bir qıpçaq qrupu olan kanqlılar[587], Kaşğarın şimal-şərqi, Özkənd, Talas və Çu bölgələrində qarluqlardan bir qəbilə olması ehtimal edilən yağmalar[588], Issık gölün cənub-qərbində, sonralar Talas civarında, Barsğan ötəsində, Kaşğar həvalisində və Mavəraünnəhrdə oturan çigillər[589], yenə qarluqlara bağlı bir qəbilə olaraq, Issık göl-Çu çayı arasındakı tuxsılar[590], Toxaristan, Qəznə, Bəlx, Sicistan-Şimali Hindistanda ağ-hunların nəvələri olduğu bildirilən qalaclar[591], Kaşğar-Balasağun-Talas-Fərqanə arasında arğu, yabaku, çomul, ığraq, çaruq, əzgiş, kənçək və s.[592] toplumları əslində şərqi türk qolları olub göytürklərlə əlaqəli idilər.

Ayrıca qarluq, yağma, çigil qarışığı olan, Aşina ailəsindən gələn hökmdar sülaləsi ilə qaraxani xaqanlıqları, vaxtilə həmin toplumda yer alan müxtəlif türk qrupları yolu ilə qəznəvilər dövləti, xarəzmşahlar[593], Hindistan türk dövlətləri və oğuz boyları yolu ilə Böyük Səlcuqlu imperatorluğu, Səlcuqlu dövlətləri, atabəyliklər, türkmən bəylikləri, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Qazı Bürhanəddin, ramazanoğullan, dulqədirlilər, bərçəmoğulları və yaruqlular, İranda əfşar, qacar xanədanları və başqaları[594], Anadolu bəy-

---

586 Haqlarında ümumi bilgi üçün bax: V. Minorsky, Hudûd..., s. 304-310; İA. mad. Kimek.

587 Bax: İ Kafesoğlu, Harezmşahlar Devleti Tarihi 1956, indeks; P. Pelliot - L. Hambis, Histoire da Campagnes de Gengis Khan, I, s. 112-117. Moğol Devrinde Kanglılar, B. Ogel, Sino-Turcica, s. 245-274.

588 V. Minorsky, həmin əsər., s. 277-279, F. Sümer, həmin əsər., s. 30. "Yağma" türkcə ünvan, bax: Gy. Németh, HMF, s. 48.

589 V. Minorsky, həmin əsər, s. 297-300.

590 V. Minorsky, həmin əsər, s. 300-304; Tuhs = Duhslar əslən iranlı? Bax: K. Czeglédy, Nomâd népek... s. 36,139.

591 İA mad. Halaçlar; R. N. Frye - A. Sayılı. Selçuklulardan Evvel..., s. 128 və ardı.

592 Bax: DLT, indeks; ayrıca IX-XI əsrlərdə müxtəlif adlar altında görünən türk toplumları üçün: Mervezî, Tabâyi'ul-hayavan (XII əsrin ilk rübündən), bax: V. Minorsky, Mervezî, On China, the Turks and İndia, s. 29-39, 92-123; F. Sümer, Oğuzlar..., s. 26-31; həmin əsrlərdə Asiya türk ölkələri haqda bilgi verən islam səyyah və coğrafiyaçıları Əbu Düləf (A.v.Rohr-Sauer, Das Ebu Dulaf Bericht über seine Reise nach Turkestan, China und Indien, Bonn, 1939). Tamîm, ibn Hurdâdbih, Qudama üçün bax: V. Minorsky, Hudûd..., s. 262 və ardı, 268 indeks.

593 Sülalənin banisi ehtimal ki, qalaç idi. Bax: İ. Kafesoğlu, Harezmşahlar Devleti Tarihi, s. 42.

594 Bax: İA. mad. Oğuzlar, s. 384 və ardı.

likləri, Osmanlı imperatorluğu və Türkiyə Cümhuriyəti hamısı göytürk xaqanlığının qövmi, sosial, idari, əsgəri və kültürəl varisləri olmuşlar (aş. bax:). Bu durum müxtəlif türk kütlələri arasında, özəlliklə XI əsrdən etibarən 200 il sürən köçləri ilə bütün Orta Şərqi tutaraq yuxarıdakı siyasi təşəkkülləri və Anadoluda əbədi bir türk vətəni quran oğuz zümrəsinin türk, islam və dünya tarixindəki seçkin mövqeyini ortaya qoyur.

## 9. SABAR DÖVLƏTİ

V-VI əsrlərdə Qərbi Sibirlə Qafqaz dağlarının şimal bölgəsində mühüm tarixi rol oynadığı müxtəlif əcnəbi qaynaqlardakı dağınıq bilgilərin yardımı ilə təsbit edilə bilən türk toplumu Bizans tarixlərində sabar, sabeir, saber, erməni, süryani, islam qaynaqlarında müvafiq olaraq savir, sabr, s(a)bir, səbir və s. şəklində adlandırılmışdır[595]. Sabarların slavyan və ya monqol, yaxud fin-ugor mənşəli olduqlarına dair iddialar köhnəlmiş[596] və bugün onların türk olduğu həm daşıdıqları ad, həm də tarixi və kültürəl durumlarıyla anlaşılmışdır. Dürlü dillərdəki səs dəyişmələri nəticəsində fərqli şəkillərə düşən adlarının əsasını təşkil edən və ancaq türkcə ilə açıqlana bilən sabar kəlməsi "sab+ar" dan (=sap-ar=sapmaq, felinə+ar şəkilçisinin əlavəsi ilə. Başqa örnəklər: kazar, bulğar, kabar və s.) meydana gəlmiş olub "sapan, yol dəyişdirən, başıboş qalan, sərbəst" mənasındadır və türklərdə ad vermə üsuluna uyğundur. Ayrıca, sabarlara aid şəxs adları da türkcədir: Balak, İlig-ər, Boarık=Buğ-arık və s.[597].

Sabarların erkən tarixləri yaxşı bilinmir. Adlarından göründüyü kimi, hansısa bir ana kütlədən qopmaları mümkün olsa da, onların əsl yurdları kimi görünən Tanrı dağlarının qərbi-İli çayı sahəsində ikən[598] Asiya Böyük Hun imperatorluğuna bağlı toplumlardan biri olmaları lazımdır[599].

Sabarlara aid ilk dəqiq xəbər 461-465-ci illərdə Qərbi Sibir qövmləri arasındakı böyük qımıldanma və geniş çaplı köç hadisələri[600] münasibətilə

---

595 J. Marquart, Die Osteuropaeische und Ostasiatische Streifzüge, s. 36 və ardı, 58, 356; Gy. Németh, HMK, s. 185-188; Gy. Moravcsik, Byz. turc., II, s. 223 və ardı.

596 Bax: Gy. Németh, həmin əsər, s. 187.

597 Bax: Gy. Moravcsik. Byz.turc. II, s. 85,103,126.

598 K. Czeglédy, Nomâd népek.., s. 19.

599 Bu xüsusda müxtəlif görüşlər üçün bax: Ş. Baştav, Sabir Türkleri, s. 59 və ardı; L. Ligeti, Az Urali Magyar Özhaza, s. 66 və ardı; L. Rásonyi, Tarihte Türklük, s. 77 və ardı. Son zamanlar sabarlarla monqol hsien-pilər arasında bağlantı qurulmağa çalışılmışdır (bax: O. Pritsak, From the Säbirs to the Hungarians, s. 28 və ardı). Zahiri kəlmə bənzərliyinə dayanan bu görüşün doğruluğuna inanmaq üçün linqvistik, kültürəl və sosyal alanlarda da dəlillər gətirilməlidir.

600 Bax: A Magyarok elödeiröl..., s. 24; yux.Tabğaç dövləti, ayrıca K. Czeglédy, həmin əsər, s. 19, 95 və ardı.

Bizans tarixçisi Priskos (V əsr) tərəfindən verilmişdir. Daha sonra Prokopios (VI əsr) və K. Porphyrogennetosun (X əsr) əsərlərində də təkrarlanan bu xəbərə[601] görə, şərqdən gələn avar basqısı qarşısında[602] sabarlar yerlərini tərk edib qərbə yönəlmiş, Altay-Ural dağları arası düzənliklərdə (bugünkü Qazaxıstan bozqırlarının cənub sahəsi) yaşayan oğur-türk boylarını yurdlarından ataraq, Tobol və İşim çayları çevrəsində yerləşmişlər. Keçən əsrin sonlarına doğru Qərbi Sibirdə voqullar, ostyaklar və İrtış tatarları arasında araşdırmalar aparan S. Patkanovun təsbitlərinə görə, sabarlar bu bölgədə yerli xalqlardan çox üstün olan kültürləri ilə əsrlərcə sürən dərin təsirlər göstərmişlər: Tobolsk dolaylarında, Ob, Tura və İrtış boylarında Sabar, Saber (Tapar), Soper, Savri, Sabrei, Sıbır (Sıvır) kimi yer və qala adları yayğındır. Ay-sabar, Kün-sabar kimi şəxs adlarına da rast gəlinir. Tobolsk əhalisi buranın ən əski sakinlərini sıbır, sıvır deyə anmaqdadır. Ayrıca, bu ətrafdakı xalqların nağıllarında və qəhrəmanlıq hekayələrində sabarlar geniş yer tutur. Sabarları öz böyükləri olaraq qəbul edən ostyaklarla birlikdə voqulların da sonralar tabe olduqlara ruslara "saper" adını vermələri xalq nəzərində əski sabarların üstün durumlarını ortaya qoyur[603]. Həmin sahədə qurulduğu bilinən Sibir xanlığının (XVI əsr) paytaxtı da Sibir adını daşıyırdı. Bu kəlmə zamanla çox geniş bir coğrafiyanı ifadə etmişdir (Sibir). Rusların öncə Sibir (İsker) şəhərini ələ keçirərək bölgəyə verdikləri bu ad rus hərəkatı şərqə irəlilədikcə daha geniş sahələri əhatə etmiş[604], beləliklə, sabar türklərinin xatirəsi günümüzə qədər yaşamağa davam etmişdir. Hələ 503-ci ildə Şərqi Avropaya doğru hakimiyyətlərini genişləndirərək bəzi bulğar qruplarını öz tabeliyinə alan sabarlardan qələbəlik bir kütlənin 515-ci ilin payızında[605] İtil (Volqa)-Don çayları arasında və Qafqaz dağlarının şimalındakı Kuban çayı boyunda yerləşməsi və doğrudan-doğruya Bizans və sasani imperiyaları ilə təmas qurması sabarların Şərqi Avropa tarixində ön səfə çıxmalarına səbəb oldu. İran-Bizans savaşlarının davam etdiyi o illərdən etibarən hökmdar Balak (Bələk?) idarəsində böyük çapda əsgəri fəaliyət göstərən sabarların sasanilərlə anlaşaraq, Bizansa qarşı savaşdıqları (516), Ərməniyyə bölgəsinə axınlar etdikləri, sonra Anadoluya gi-

[601] Bax: Byz. turc, I, s. 39 və ardı; II, s. 223 və ardı.

[602] 458-459-ci illərdə tabğaç ordularına məğlub olan juan-juanlardan bir kütlə (var-hunlar) şimal-qərbə doğru çəkilmişdi. Sabarları yerlərindən oynadanlar bunlar olmalıdır, bax: J. Hamilton, Toquz-Oğuz..., s. 34.

[603] Təfsilən bax: S. Patkanoff, Über das Volk der Sabiren, s. 258-277; Ş. Baştav, həmin yer.

[604] L. Rásonyi, həmin əsər, s. 77.

[605] Byz. turc. I, s. 173.

rərək Kayseri, Ankara, Konya dolaylarına qədər irəlilədikləri bilinməkdədir[606]. Bu münasibətlə sabarların böyük savaş gücü və özəlliklə yüksək hərbi texnikası Bizansda heyrət oyatmışdır: "Sabarlar insan hafizəsinin xatırlaya bildiyi zamandan bəri nə iranlılardan, nə romalılardan heç kimsənin düşünə bilmədiyi mexanizmlərə sahib idilər. Belə ki, hər iki imperatorluqda mexanik əskik olmamış və hər dövrdə mühasirə mexanizmləri düzəldilmişdir. Fəqət indiyə qədər bu "barbar"-larınkına bənzər bir ixtira nə ortaya qoyulmuş, nə də onlar kimi işlədə bilmişlər. Bu, şübhəsiz, insan dühasının bir əsəridir"[607].

Balakdan (ölümü: 520-ci illər) sonra onun yerinə keçdiyi anlaşılan dul xatunu Bo(ğ)arık[608] savaşçılığı, idarəçiliyi və gözəlliyi ilə məşhur bir türk kraliçəsi idi və "100 min" nəfərlik sabar ordusuna komandanlıq edirdi. Bizans imperatoru I Justinianos (527-565) müxtəlif gümüş vazalar və digər zəngin hədiyyələr qarşılığında Boğarık ilə anlaşdı (528). Bizans illərdən bəri sürüb gedən sasanilərlə savaşda sabarları özünə dost və müttəfiq etməyi daha uyğun siyasi davranış saymış olmalı idi. 531-ci ilə qədər Bizans ilə işbirliyi halında görünən sabarlar haqqında sonrakı illərə aid açıq bir xəbərə rast gəlinməsə də, onların şahənşah Ənuşirvan (Adil) zamanında sasanilərin Qafqazdakı sürəkli və uğurlu savaşlarında (xüsusilə 545-ci ildə) xeyli tələfat verdikləri təxmin edilir ki, nəticədə bir hərbi güc olmaqdan çıxmış, üstəlik, 557-ci ilə doğru avarlardan da ağır bir zərbə yemişlər. Sabar sahəsi az sonra Qara dənizə çatan göytürk idarəsinə girmişdir. 576-cı ildə Cənubi Qafqazdakı hakimiyyətləri Bizans tərəfindən yıxıldıqdan sonra bir qismi Kür çayının cənubuna yerləşdirilən sabarların[609] adlarına VII əsr ortalarına qədər dağınıq şəkildə rastlanır və bu tarixlərdə həmin bölgədə böyük bir dövlət olaraq ortaya çıxan xəzərlərin əsas kütləsini təşkil etdikləri, xəzər qəbilələri olaraq görünən bələncər və səməndərin əslində iki böyük sabar kütləsi olduğu anlaşılmaqdadır[610].

[606] Ş. Baştav, həmin əsər, s. 60 və ardı; K. Czeglédy, Pseudo-Zacharias on the Nomads, s. 147.

[607] Prokopios (VI əsr) CB, II, s. 509 və ardından: Ş. Baştav, həmin əsər, s. 64; L. Rásonyi, həmin əsər, s. 63, 77.

[608] Byz. turc. II, s. 103; A. Kollautz, həmin əsər, 1, s. 155; əsli türkcə Bug-arıg: Bo~boğ~bug» rəis, lider, komandan; arık~arığ= təmiz, əsil, bax: Gy. Németh, HMK s. 190 və ardı.

[609] K. Czeglédy, A koral Kazar törtenelem forrasainak kritikajâhoz, s. 125.

[610] Təfsilən: Ş. Baştav, həmin əsər. s. 67-99; K. Czeglédy, Pseudo-Zacharias..., s. 148, qeyd 46; yenə onun: Nomâd népek..., s. 97; T. Halasi Kun, A Magyarsâg kaukâzusi törtnete, s. 78.

## 10. AVAR XAQANLIĞI

Orta Avropada Frank krallığı ilə Bizans imperatorluğu arasında əski hun, sabar qalıqları və oğurlar (bulğar) kimi türk kütlələrinin dəstəyi ilə qüdrətli bir dövlət quraraq, müxtəlif german və özəlliklə qələbəlik slavyan qəbilələrini öz hakimiyyəti altına alaraq 250 ilə qədər (558-805) Avropa siyasətinə yön verən avarların kimliyi məsələsi tarixçi və dilçiləri xeyli uğraşdıran başlıca mövzulardan biri olmuşdur. Uzmanların hələ də yekdil olmadıqları nəticə ortaya çıxmasa da, Avropa avar (Bizans qaynaqlarında abares, abaroi, latıncada awari, awares, slavyan dillərində abari, obri və s...) xaqanlığını quranların türk olması araşdırmalar irəlilədikcə daha da qətilik qazanmaqdadır. Vaxtilə Monqolustandakı juan-juan dövlətinin (IV əsrin əvvəlləri-552/555) göytürklər tərəfindən yıxıldıqdan sonra təxminən 20 min nəfərlik bir kütlənin qərbə doğru köçdüyünə dair Bizans tarixçisi Th. Simokattesin (VII əsrin ikinci rübü) verdiyi bir xəbər[611] 558-ci ildə Bizansın şərq hüdudlarından elçi göndərərək onlara yardım edilməsini və yerləşəcək ərazi verilməsini rica edən kütlə ilə Orta Asiyadan qərbə yönəldikləri, daha sonra da Avropa içlərilərinə irəlilədikləri söylənən bu qrup arasında bir bağlantı qurulmasına səbəb olan və juan-juanların ümumiyətlə və xətalı olaraq "avar" və əsasən də "Asiya avarları" deyə anılması (J. Marquart, 1914, Gy. Németh, 1930, O. Franke, 1936, W. Eberhard, 1947 və b.) bu bağlantı fikrini qüvvətləndirmiş, digər tərəfdən juan-juanlar monqol sayıldıqları üçün[612] Avropa avarlarının da həmin soya mənsub olması təbii sayılmağa başlanmışdır ki, keçən əsrin sonlarında Monqolustanda Avropa avarlarını (war-khun=var-hun, aş. bax) xatırladan var-quni (bar-quni) adlı bir qəbilənin yaşadığının təsbit edilməsi, üstəlik, Macarıstanda avar çağına aid məzarlardan çıxarılan insan skeletlərinin əksərən monqoloid olduğunun bəyan edilməsi[613], avar xaqanının adının

[611] Ed. Chavannes, Documents..., s. 230; C.A. Macartney, On the Greek Sources for the Hisiory of the Turcs..., s. 267, 275, H.W. Haussig, Die Quellen über die... Herkunft..., s. 35.

[612] Bax: P. Pelliot, 1915; 1920, R. Grousset, L'Emp. d. Steppes, s. 103 və ardı 124, 226; W. Samolin, East Turkistan,.., s. 52; "mənşələri qaranlıq və ya monqol-türk qarışığı" üçün bax: W. Eberhard, Çin'in Şimal Komşuları, s. 101; yenə onun: Çin Tarihi, s. 165.

[613] Bax: Barguni, bax: Gy. Németh, HMK, s. 103, qeyd 1; Monqoloid görüşü, bax: L. Rásonyi, həmin əsər, s. 78 və ardı, 85.

(Bayan) monqolca bir kəlmə olduğu iddiası[614] bu qənaəti möhkəmləndirmiş kimidir. Fəqət gerçəkdə ta De Guig-nesdən bəri (1756) mənşə məsələsi ilə ilgili yuxarıda adları keçən və keçməyən uzmanlardan heç biri Monqolustan juan-juanları ilə Avropa avarlarının soy və kültür birliyinə sahib olduqlarına dair qəti bir şey söyləyə bilməmiş, sadəcə təxminlər və yozumlarla kifayətlənmişdir. Bunun başlıca səbəbi də hadisələrə həm zaman, həm məkan baxımından ən yaxın olan Bizans qaynaqlarındakı bir-birləri ilə ziddiyyətli görünən dürlü açıqlamalara əlverişli xəbərlərdir[615].

Burada durumu qısaca aydınlada bilmək üçün üç nöqtənin vurğulanması faydalı olacaqdır:

a) Bizans tarixçisi Priskos (V əsrin ortaları) hələ Orta Asiyada juan-juan hakimiyyətinin çökməsindən 100 il öncə (461-465 hadisələri, bax: Sabarlar, Oğurlar), Qərbi Sibir bölgəsində "avar" qövmündən bəhs edir. Digər bir qaynaq (Zaxarias Rhetor, 550-ci illər) da yenə Monqolustan hadisələrindən öncə qərbdə bir "abar" toplumunu zikr edir. Bunlara əlavə olaraq, əski yunan coğrafiyaçısı Strabonun (I əsr) əsərində "abar-noi"lərdən bəhs edildiyi, hətta çox daha əski tarixlərdə yunan əfsanələri ilə qarışıq olaraq "Abaris" adının keçdiyi bildirilir[616].

b) Bu qeydlərə görə, bəhs edilən avarların (abar) m. s. 555-ci ildə tamamən yıxılan Monqolustan juan-juanları ilə bir ilgisi olmayacağı aşkardır.

c) Əsasən, diqqətə dəyər ki, Bizans tarixçisi Th. Simokattes (VII əsrin ikinci rübü) avarları "həqiqi avar" və "saxta avar" deyə iki yerə ayırmışdır. Bu qeydlə bağlı aparılan tədqiqatlardan çıxan nəticələrə görə, "saxta avar" deyilən kütlə, əslində, Qərbi Türküstan-Şimali Qafqaz arası və Don-İtil (Volqa) çayları dolaylarındakı oğur boylarına qonşu olaraq yaşayan və Bizans qaynaqlarında (Menandros, VI əsrin sonları) "avar" adı ilə anılan warkhonlardır (yəni var və hun: Simokattesdə)[617] ki, göytürklər, hunlar kimi y-li türk ləhcəsi danışan bu iki türk qrupu öncə 350-ci ildən sonra bağlı olduqları juan-juan idarəsini tərk

---

[614] P. Pelliot, L'origine deT'ou-kiue,TP,1915,bax:R.Grousset, həmin əsər, s. 228.

[615] Bu xəbərlərin hamısı bu məqalədə sıra ilə nəql edilmişdir: C. A. Macartney, On the Greek Sources..., 1944, s. 226 və ardı. Ed. Chavannes, J. Marquart, P. Pelliot, R. Grousset, Gy. Németh, H. W. Haussig və A. Kollautz və b... zikr edilən əsərlərində Bizans xəbərlərini izaha və dəyərləndirməyə çalışmışlar.

[616] Priskosun xəbəri, bax: C.A. Macartney, həmin yer, bax: Zaxarias və Strabon üçün bax: H. W. Haussig, həmin əsər, 23 və ardı, miladdan öncəki əsrlərdə "avar" izi üçün Gy. Moravcsik, Abaris, Priester von Apollon, KCsA, I, Erg. Bd. 2, 1936, s. 227 və ardı.

[617] 576-cı ildə qərbi göytürk sərhəddində türk şahzadəsi ilə danışan Bizans elçisi Valentinosun qeydlərini öz əsərində nəql edən Menandros türk şahzadəsinin "varkhon"lar sözündən avarları qəsd etdiyini ayrıca açıqlayır (bax: A Magyarok elödeiröl, s. 49, ayrıca yux. qeyd 615).

edib qərbə yönələrək, Türküstan-Əfqanistan-Şimali Hindistanda ağ hun (eftalit) dövlətinin qurulmasında iştirak edən (bax: Orta Şərq hunları), sonra isə juan-juanların 458-459-cu ildə tabğaçlara məğlub olmaları nəticəsində yenə Monqolustandakı yabançı hakimiyyətindən qoparaq, Xəzər-Aral sahəsinə gələn war (var) və hun adlı türk qəbilələr birliyi idi[618] və gördükləri işə uyğun olaraq, qərbdə topluca apar (abar, avar) deyə anılmışlar[619].

Deməli, Avropa avar xaqanlığının qurucularını və hakim zümrəsini Asiyanın daxili bölgələrindən gələn və Cənubi Rusiya düzənliklərində qarşılaşdıqları oğur boyları ilə birlikdə aralarında göytürklərin siyasi genişlənməsi dolayısıyla basqı altında qalaraq qərbə çəkilən bəzi monqol və alanlar kimi iranlı yabançı ünsürlərin də olduğu qələbəlik türk kütlələri təşkil edirdi. Bundan dolayı avar xaqanlığında hakim təbəqənin kimlər olması haqqında belə görüşlər irəli sürülmüşdür: ağ hunlarla yaxın əlaqələri vardır /J.Marquart, 1914, R. Grousset, 1941, K. Czeglédy, 1954, 1969/; fin-uqorlarla qarışmış türklərdir /Gy.Györffy, 1941, D.Csallâny, 1958/; əski yunan qeydlərində və eftalit pullarında "türk" deyə anılan altaylı bir toplum ola bilər /H. W. Haussig, 1956/; daha çox oğur-türk qruplarından meydana gəlmişlər /C.A.Macartney, 1944, M.İ.Artamonov, 1962/; türk-monqol qarışığıdırlar /A.Kollautz, 1970/.

Əsasən avar xaqanlığında mövcud olduğu anlaşılan bəzi türk idari məqamlar yenə türkcə deyimlərlə anıldığı kimi (tudun, yuğruş, tarkan, boyar, ban və s. ünvanları), adları tarixə keçmiş avar dövlət adamları, şübhəsiz, türk mənşəli idilər; ünlü xaqan Bayanın adı da türkcə bir kəlmədir[620].

Avar çağı məzarlarındakı skeletlərdə monqoloid tipin əksəriyyət təşkil etməsi haqqında bəyan da inandırıcı olmaqdan uzaq görünməkdədir. Zira avar

[618] Yux. qeyd 615. Özəlliklə bax: K.Czeglédy, Nomâd népek vândorlâsa..., s. 21, s. 98 və ardı, 113 və ardı, 135 və ardı; G. Clauson, Turk, Mongol.., s. 122, (Czeglédy, "var" qrupunu yabançı saymağa meylli olsa da adın türkcə olması buna imkan vermir).

[619] Türkcə apar (aba+r) qarşı qoyan, dirənən mənasını verir (bax: Gy. Németh, HMK., s. 105), Sabar, xəzər adları kimi Orxon kitabələrində qövm adı olaraq keçən Apar (Kitabə, I, şərq, 4, II, şərq, 5) sözü o tarixlərdə (572-ci ildə) juan-juanlar artıq mövcud olmadığı üçün qərbdəki avarları göstərməkdədir.

[620] Ünvanlar üçün bax: aş.: Təşkilat. Tanınmış şəxslarin adları: Kandık (558-də elçi), Solak (580-də elçi), Bo-kalabur (582-də din adamı), Kök (585-də elçi), Kan-savcı (800-lərdən sonra, şahzadə), bax: Gy. Moravcsik, Byz. turc. II, s. 92, 135, 153, 206, 240. Bayan kəlməsi türkcə bay (zəngin) kökünden törənmiş bir şəxs adı olub, yalnız monqollar tərəfindən deyil, bulğar türkləri arasında da çox yayğın şəkildə işlədilirdi (bax: Gy. Németh, həmin əsər, s. 103 və ardı, L. Rásonyi, Les noms de personnes, s. 234 və ardı). Ayrıca ikinci uyğur xaqanı Bayan (?) Çor.

imperatorluğunun nüfuz sahəsinə girən bölgələrdə (Macarıstan, Albaniya, Xorvatistan, Çexoslovakiya, Avstriya, Cənubi Almaniya) 1970-ci illərə qədər avar çağı ilə ilgili aparılan arxeoloji qazıntılarda çıxarılan insan skeletlərində german, slavyan, iranlı, fin-uqor kimi dürlü tiplər arasında türk tipinin də (brakisefal) diqqəti çəkəcək ölçüdə olduğu, hətta bəzi yerlərdə əsl türk soyunu təmsil edən Andronovo tipinə 10-15 faiz kimi olduqca yüksək bir nisbətdə rastlandığı təsbit edilmişdir[621].

558-ci ildə sabar hakimiyyətini yıxıb Qafqaza doğru irəliləyərək, iranlı alanları və oğur boylarını tabeliyinə aldıqdan sonra Bizansa elçi göndərən avarlar illik vergi və özlərinin yerləşə biləcəkləri ərazi istədilər. O zaman bir yandan Balkanlarda, Dalmaçiyada geniş çapda fütuhat ilə, bir yandan da Trakiyanı qəfil istilaya girişən oğurlara qarşı mübarizə aparan imperator Justinianos[622] vergini rədd etməməklə bərabər ölkəsinə bir avar axınını durdurmaq məqsədilə aşağı Dunay hövzəsində başda antlar olmaq üzrə qələbəlik slavyan kütlələrindən bir sədd qurmağa çalışdı. Ancaq 562-ci ildə bu əngəli asanlıqla parçalayan avarlar aşağı Dunayı işğal edərək Bizans ilə həmsərhəd oldular və Avropanın içərilərinə qədər axınlara başladılar. İmperator Justinianosun (565-578) vergini ödəmədə tərəddüd göstərməsi dolayısıyla 565-ci ildən etibarən xaqan Bayanın idarəsində Bizansı basqı altına alaraq orta Karpatlara girdilər. Dunayın qərbindəki german qövmlərindən lonqobardlarla anlaşaraq Şərqi Macarıstandaki gepidləri öz hakimiyyətlərinə aldılar və 568-ci ildə lonqobardlar Şimali İtaliyaya köçdükləri üçün bugünkü Macarıstanı tamamilə işğal etdilər. Beləliklə, avarlar Orta Avropada böyük bir dövlət qurmuş olurdular. Bundan sonra qərbdə Frank kralı Siegeberti məğlub edərkən, 582-ci ildə cənubda Singidunum (Belqrad) və Sirmium (Eszek) kimi mühim Bizans sərhəd şəhər-qalalarını ələ keçirmişdilər. Yuxarıdakı fəthləri həyata keçirən böyük təşkilatçı Bayan xaqanın 592-ci ildə İstanbula yürümək məqsədi ilə Çorluya qədər gələrək Bizans paytaxtında qorxu yaratdığı tarixdə "Don çayından Qaliyaya, şimali slavyan bölgələrindən İtaliyaya qədər hər tərəf avar hərbi fəaliyyət sahəsi halına gəlmişdi"[623].

Əsil nüvəsini türk ünsürü təşkil etməklə birlikdə müxtəlif slavyan və german qəbilələrindən toplanan qələbəlik yardımçı hissələrin dəstəklədiyi ordusu ilə bilxassə başlıca bazar şəhərlərini və ticarət yollarını daim əldə və əmniyyət içində tutmağa çalaşan avar xaqanlığının Avropada 200 il qədər sürən ha-

[621] Təfsilən bax: A. Kollautz, Geschichte und Kultur..., I, s. 195-235, özəlliklə s. 179; F. Altheim, Geschichte der Hunnen, V, s. 280 və ardı.

[622] A. Vasiliev, Bizans İmparatorluğu Tarihi, I, s. 176 və ardı.

[623] L. Rásonyi, həmin əsər. s. 79 və ardı; Gy. Moravcsik, Byz. turc. I, s. 256, 344.

kimiyyəti dövründə mühüm hərbi təşəbbüsləri İstanbulu mühasirə etmələridir. Sasanilərlə anlaşaraq gerçəkləşdirilən və imperator Herakleiosu (610-641) paytaxtı tərk edib Karfagenə getməyi düşündürəcək qədər basqılı olan ilk mühasirədən (617 və ya 619) sonra ikinci hərəkat yenə sasani imperatorluğu ilə ortaq həyata keçirilmişdi (626). İran-Bizans savaşlarının şiddətləndiyi və şahənşah II Xosrovun (590-628) bütün əl-Cəzirə, Fələstin və Suriyanı ələ keçirdiyi bu illərdə şərqi Qara dəniz sahillərində bulunan imperator Herakleios Xəzər türklərindən hərbi yardım istəmək üzrə Tiflisə gedərkən, Şəhrvərazın komandanlığı altındakı İran ordusu bütün Anadolunu keçərək Boğaziçinə çatdığı zaman bulğar qüvvələri ilə dəstəklənən avar ordusu da Balkanları və Trakiyanı aşaraq İstanbul divarları önünə gəlmişdi. Gerçək mühasirə avar ordusu tərəfindən aparılmaqda idi (626, iuyl-avqust). Patrik Sergios ilə patricius Bonos tərəfindən müdafiə edilən paytaxtda böyük panika yaradan bu hərəkat tarixi xatirələr buraxmışdır. Bizansda qurtuluşu anmaq üzrə "bayram" elan edilən gün (böyük pərhizin 5-ci həftəsindəki şənbə günü) kilsələrdə ayinlər şəklində əsrlərcə davam etmiş və "Akathistos" nəğməsinin[624] bu avar mühasirəsi ilə ilgili olduğu anlaşılmışdır[625]. Mühasirə[626] donanma yoxluğu üzündən uğursuzluğa düçar olmuş və avar ordusunun nəticə ala bilmədən müşkül şərtlər altında geri çəkilməsi xaqanlığın nüfuz və etibarını itirərək zəifləməsinə səbəb olmuşdur. Yardımçı qüvvələr dağılmış, özəlliklə xaqanın 630-cu ildə ölməsindən sonra tabe kütlələr Bizansın da təşviq və dəstəyi ilə baş qaldırmış, uzun mübarizələr nəticəsində Balkanlar bulğarlara keçmək üzrə əldən çıxmış, Dunay-Sava bölgəsi xorvat-sloven kimi slavyan qəbilələrinə, Bohemiya isə çexlərin əcdadlarına tərk edilmişdir[627]. Bu şəkildə düşmən dövlətlərin çəmbəri içinə alınan və iqtisadi imkanlarını itirən avar xaqanlığı VIII əsrdə getdikcə qüvvədən düşdü və 791-ci ildən etibarən 15 il fasiləsiz davam edən və amansız bir din müharibəsi aparan Frank imperatorluğunun (Karolus Magnus=Böyük Şarl zamanı: 768-814) hücumları (Orta Macarıstandakı möhkəmləndirilmiş avar paytaxtı 796-cı ildə Pepin tərəfindən zəbt edilmişdi) sonunda tamamən ortadan qalxdı (805). Parçalanan avar qrupları Şərqi Macarıstan və Balkanlara dağıldı, qısa zamanda xristianlaşaraq yerli qələbəlik içində əridi.

---

[624] Bax: F. Altheim, Geschichte der Hunnen, V, s. 378-389.

[625] Bax: Byz. turc. I, s. 41.

[626] Təfsilat üçün bax: R. Grousset, L'Empire du Levant, s. 85 və ardı; İ. Kafesoğlu, "XII. Asra Kadar İstanbul'un Türkler Tarafından Muhasaraları," s. 6-10.

[627] Təfsilən bax: Y. Blaşkoviç, Çekoslovakya Torpaqlarında Eski Türklərin İzləri, s. 341-344.

Bununla bərabər, avar təsiri Avropada davamlı olmuşdur. Xorvatların ən böyük hərbi-idari ünvanlarından olan "ban" (göytürkcə bağa, avar dilində bağan. Ayrıca, bulğarlarda və macarlarda da var)[628], boyar (türkcə boyladan. Bax: aş. Dunay Bulğar dövləti) və yuğruş[629] kimi, Yunanıstanda Navarino (=Pylos, əsli Avarino) və Albaniyada Antivari (=Bar, əskidən Civitas Avarorum) şəhərlərinin adları da avarların xatirələrindən izlərdir[630]. Ayrıca, Macarıstanda ortaya çıxarılan avar çağı arxeoloji əsərləri (tökmə alətlər və üzərlərində heyvan təsvirləri və qrifonlar olan at qoşqu taqımları) Orta Asiyada gəlişən türk sənətinin (heyvani üslub) Avropadakı örnəkləri qəbul edilir[631] və bu üslubun izləri merovinqlər dövründə Fransada da görünür. Albaniyadakı Prostovats altun xəzinəsi avarlara aiddir, arxeoloji araşdırmalar avar türk sənətinin german və slavyan sənətləri üzərindəki təsirini ortaya qoymuşdur[632]. Orta Macarıstanın Nagy Szent Miklos adlı yerində 1799-cu ildə tapılan, hansı türk qövmünə aid olduğu hələ də mübahisəli olan, üzərləri türkcə yazılı 23 parça altun qabdan ibarət ünlü xəzinənin[633] avar çağından qaldığı da irəli sürülmüşdür[634] .

Avar xaqanlığının özəlliklə slavyan qövmləri üzərində böyük təsiri olduğu anlaşılır. IV əsrə qədər qotların, daha sonra hun imperatorluğuna bağlı olaraq türklərin hakimiyyətinə girən slavyan toplumların tarixi o zamandan etibarən türk tarixinin bir parçası halına gəlmişdir. Qələbəlik slavyan kütlələrinin müxtəlif Şərqi Avropa bölgələrinə və Balkanlara dağılması hadisəsi daha çox avarlar dövründə baş vermişdir. Bu böyük çaplı köçlər[635] "Avar xaqanlığı tərəfindən ehtiyac duyulan torpaq məhsullarını əldə etmək üçün slavyanların əkinçiliklə məşğul olmaları, eyni zamanda sərhədləri qorumaları məqsədi ilə"[636] avar idarəsi tərəfindən gerçəkləşdirilmişdir. Bu surətlə

---

[628] Gy. Moravcsik, Byz. turc. II, s. 178; L. Rásonyi, Tarihte Türklük, s. 83.

[629] Gy. Németh, HMK, s. 169. Ayrıca, L. Rásonyi, həmin əsər., s. 84.

[630] L. Rásonyi, həmin əsər, s. 83 və ardı.

[631] T. Horvâth, Az üllöi es kiskörösi Avar temetö, s. 112 və ardı; N. Fettich, Die Metallkunst der landnehmenden Ungarn, AH, XXI, s. 271 və ardı.

[632] N. Fettich, həmin yer.

[633] Bax: H.N. Orkun, ETY, II, s. 187-207.

[634] A. Alföldi, Etudes sur le tresör de Nagyszentmiklos. Cahiers archeologiques, V. 1950-1951, s. 123-149 və VI, VII saylar. Avar sənəti və mənşəyi üçün bax: B.Ögel, Türk Kültür Tarihi, s, 113-125; avar arxeologiyası: Fr. Altheim, Geschichte der Hunnen, V, s. 278-292. Daha təfsilatlı ola- raq: A. Kollautz, Geschichte und Kultur..., II, 1970.

[635] Təfsilən bax: İ. Boba, Nomads, Northmen, and Slavs, s. 43 və ardı.

[636] J. Marquart, ...Streifzüge, s. 127.

müxtəlif slavyan qəbilələri bugünkü Çexoslavakiyaya, Elba çayı boyuna, Dalmaçiya qıyılarına, Balkanlara sövq edilmişlər[637]. 750-ci illərdə Afina çevrəsində "avar" deyilən slavyanlardan bəhs edilməkdə, həmin dövrlərdə xorvatları Adriatik sahilinə götürən başbuğların adları sadalanmaqdadır[638]: Külük, Lobel (Alp-el?), Kösenci (Koşuncu), Buğa, Tuqay[639]. Panno-nia (Qərbi Macarıstan) və Morva slavyanlarının başında slavyanlaşmış avar bəylərinin olduğu irəli sürülməkdə, digər tərəfdən german qəbilələrinin çex məmləkətindəki yurdlarından ayrılmalarının savaş qabiliyyətləri çox zəif olan slavyanlar üzündən deyil, avar başbuğlarının basqısı nəticəsində baş verdiyi və bu hadisənin Şərqi Almaniyada meydana çıxan avar sənəti ilə ilgili əsərlərdə də doğrulandığı bildirilməkdədir [640]. Beləliklə, 584-cü ildə yepiskop Suriyalı Johannesin ifadəsi ilə "Əskidən ormanlardan dışarı çıxmağa cəsarət edə bilməyən, avarlar sayəsində savaşa alışan və altun, gümüş, at sürüsü sahibi olan slavyanların"[641] sistemli köçürülmələri yolu ilə müasir Orta və Şərqi Avropanın etnik xəritəsinin avar xaqanlığı tərəfindən çəkildiyi anlaşılmaqdadır. Bugün Qafqazlarda yaşayan avar zümrəsinin də onların nəvələri olduğu qəbul edilir[642].

[637] K. Jireček, Geschichte der Serben, I, Gotha 1911, s. 83-107, Davidson-Horvâth, The Avar İnvasion of Corinth, Hesperia, Zürich, VI, 1937. s. 27-40; F. V. Şişič, Geschichte der Kroaten, I. Zagreb, 1917, bax: L. Rásonyi, həmin əsər., s. 83 və ardı.

[638] Bax: Byz. turc. II, s. 94, 144, 151, 267.

[639] Bax: J. Mikkola, Avarica, 1927; s. 157 və ardı; K. Porphyrogennetos, De Administrando İmperio, II, Commentary, s. 117.

[640] D. Csallany, Archaeologische Denkmaeler der Avarenzeit in Mitteleuropa, Bp. 1956, bax: L. Rásonyi, həmin əsər, s. 82 və ardı.

[641] L. Rásonyi, həmin əsər., s. 80.

[642] Bax: K. Czeglédy, Kaukâzusi Hûnok, Kaukâzusi Avarok, s. 121-140, Avarlar hakkında ümumi biblioqrafiya üçün bax: Byz. turc. I, 1958, s. 71-75; A. Kollautz, Quellenbuch zur Geschichte der Awaren, Prag, 1944; B.Ögel, həmin əsər, s.113 və ardı; L. Rásonyi, həmin əsər, s.305-308. Son olaraq, W. H. Fritze, Zur Bedeutung der Awaren für die slawische Ausdehnungsbewegung, Zeitschrift für Ostforschung, qeyd 3,1979, s.498-543.

## 11. XƏZƏR XAQANLIĞI

VII-X əsrlərdə qüvvətli təşkilatı, canlı ticari fəaliyyəti, dini tolerantlığı və iq-tisadi rifahı ilə Qafqaz dağlarının və Qara dənizin şimal düzənliklərində İtil-dən (Volqa) Özüyə (Dnepr), Çolmana (Kama) və Kiyevə uzanan sahədə si-yasi sabitliyi təmin edən Xəzər xaqanlığı Şərqi Avropa tarixində böyük rol oy-namış ən mühüm türk dövlətidir. Xaqanlığa adını verən xəzərlərin[643] yuxarıda gördüyümüz tarixi proses dolayısıyla sabar türklərinin davamı olduqları islam müəllifi əl-Məsudinin (X əsr) bir qeydi ilə də təsdiqlənmişdir. Ona görə[644], iranlıların "xəzər" dedikləri toplum türklər tərəfindən "sabar" (sebir) deyə anı-lır. Sabar adı yerinə xəzər təbirinin eyni mənaya gəlməsi[645] də bunu təsdiq edir[646]. Xəzərləri meydana gətirən əhalinin yalnız əski sabar türklərindən ibarət olmadığı, əslən sabar olan səməndər və bələncər adlı iki xəzər boyundan[647] başqa, xaqanlıq torpaqlarında yaşayan zümrələr arasında dürlü türk qruplarının yer aldığı da şübhəsizdir. Xəzər ölkəsində z-li (şərq) türkcə (hun, göytürk, uyğur ləhcəsi) yanında r-li (qərb) türkcə (oğur-bulğar ləhcəsi) də danışılır, ayrıca, fin-uqor (macarca) və digər məhəlli dillər işlədilirdi. Bu, bölgədə cərə-yan edən tarixi hadisələrin təbii nəticəsi idi: xəzər dövlətinin ana torpaqlarını təşkil edən İtil-Qafqaz-Don arası şərqdən qərbə doğru böyük köç hərəkətlə-rinin yolu olduğu üçün hunlardan, oğurlardan, fin-uqorlardan, avarlardan bu-rada qalan kütlələr həyatlarını davam etdirirdilər.

558-ci ildən sonrakı illərdə sasanilərlə savaşa girişmiş Qafqaz hakimi bir qövm olduğu bildirilən[648] xəzərlər (daha doğrusu, sabarlar) "xazar" adı ilə 586-

---

643 Ərəb: əl-Xəzər, ibrani: Xazar, Kozar, latın: Chazari, Gazari, yunan: Khazaroi, rus: Kozar, Kozarin, macar: Kazar, Kozar, ermeni: Hazirk, gürcü: Hazari.

644 el-Mesudi, et-Tenbîh, s. 83.

645 Hazar~kazar=kaz+ar (Anadolu türkcəsində: gəz+ər)=sərbəst dolaşan, gəzən, bax: Gy. Németh, HMK, s. 203 və ardı. Müq. et:. P.B. Golden, Khazar Studies..., s. 123-133.

646 Başqa görüşlər və xəzər-uyğur münasibətləri üçün bax: D. M. Dunlop, The History of the Jewish Khazar, s. 9-40.

647 D. M. Dunlop, həmin əsər, s. 6, 13.

648 T. Nöldeke, Geschichte der Perser und Araber, s. 166, bax: Gy. Németh, həmin əsər, s. 203.

cı ildə Bizansda yaxşıca tanınır, fəqət eyni zamanda "türk" deyə anılırdılar[649]. Çin qaynaqlarında isə "türk-xəzər" (t'u-küe ho-sa-k'o-sa) adı ilə zikr edilmişlər[650]. Bu son iki qeyd xəzər ölkəsinin 576-cı ildə hakimiyyəti Qara dənizə yayılan göytürk imperatorluğu sahəsi içinə alındığını göstərməkdə və topluluq adlarının işlədilməsində türk gələnəyinə uyğun düşməkdədir. Beləliklə, xəzərlər göytürk xaqanlığının qərbdəki ən uc qanadını meydana gətirmişlər. Erməni tarixçisi rahib Sebeosa (VII əsr)[651] və islam qaynaqlarına görə, göytürk xanədanı Aşina ailəsindən bir başbuğun idarəsində bu durum VII əsrin ikinci rübünə qədər davam etmiş və xəzərlər qərbi göytürk xaqanının iradəsi ilə sasanilərə qarşı Bizansa kömək etmişlər. Xəzərlərin Dərbəndi keçərək Gürcüstana girib Tiflisi mühasirəyə aldıqları və Azərbaycana axınlar təşkil etdikləri 626-cı ilə doğru özü şərqi Qara dəniz sahillərində olduğu zaman paytaxtı sasani-avar qüvvələri tərəfindən mühasirəyə alınmış olan Bizans imperatoru Herakleios Tiflis önlərinə gələrək, xəzər hökmdar-başbuğu (ehtimal ki, qərbi göytürk xaqanı Tonq yabğunun kiçik qardaşı) "yabğu"[652] ilə vardığı anlaşma nəticəsində aldığı 40 min atlının dəstəyi sayəsində İranın daxilinə yürüməyə müvəffəq olmuşdu[653]. Bu münasibətlə Anadolu iranlıların istilasından qurtarılmış, sasanilər artıq böyük dövlət olmaqdan çıxmış və xəzər komandanı Çorpan tarxan hərəkatı uğurla idarə etmiş, "yabğu" da Tiflisi zəbt edərək (629) bəzi erməni kütlələrini himayəsinə almışdı[654].

Xəzər tarixinin gerçək xaqanlıq dövrü 630-cu ildə etibarən başlamaqdadır. Bu tarixdə Orta Asiyada göytürk xaqanlığının Çin hakimiyyətini tanıyaraq bir fətrət dövrünə girməsi nəticəsində öz torpaqlarında müstəqil şəkildə idarələr qurmağa girişən bir çox türk toplumlarında görüldüyü kimi, xəzərlər də müstəqil xaqanlıq olaraq dövlətlərini inkişaf etdirdilər. Uğur qazanmaq üçün gərəkli siyasi və iqtisadi şərtlər mövcud idi.

Xəzər dövləti İran qarşısında Bizansın ən yaxşı müttəfiqi idi. Türk-Bizans işbirliyi sayəsində zəifləyən sasani imperatorluğu 634-637-ci illərdə islam qüvvələri tərəfindən çökərdilib İran torpaqları ərəblərin əlinə keçərək, islam

[649] J. Marquart, ...Streifzüge, s. 46, 58, Byz. turc. II, s. 270, 281.
[650] Ed. Chavannes, həmin əsər, s. 145, 170; Liu, həmin əsər, II, s. 569.
[651] Bax: J. Marquart, həmin əsər, s. 46, 498.
[652] Theophanesdə ziebet, erməni qaynaqlarında jebğu, bax: Byz. turc, II, s. 120. Bu yabğunun kimliyi haqqında dürlü görüşlər üçün bax: A. Bombaci, Qui etait Jebu Xak'an, s. 7-24.
[653] Təfsilat üçün bax: R. Grousset, L'Empire du Levant, s. 84-91.
[654] Ed. Chavannes, həmin əsər, s. 252-255; A. A. Vasiliev, həmin əsər, s. 251 və ardı.

irəli hərəkatı bir yandan Ərməniyyə yolu ilə Qafqazlara doğru, bir yandan da Suriya üzərindən Anadolunun içərilərinə doğru gəlişməyə başlayınca, bu ittifaq təbii bir hal aldı. VII əsrin ikinci yarısından etibarən getdikcə qüvvətlənərək VIII əsr boyu davam edən siyasi mənfəətlər ortaqlığı iki tərəfin hökmdar ailələri arasında evlənmələrə varacaq ölçüdə dəyər və əhəmmiyyət qazandı. İmperator II Justinianos (685-695 və 705-711) və V Konstantinos (741-775) xəzər şahzadələri ilə evləndilər[655]. Konstantinosun şahzadə Çiçəkdən doğulan oğlu, tarixdə "Xəzər Leon" ləqəbi ilə tanınan imparator IV Leon (775-780) xəzər xaqanının nəvəsi idi. Bu surətlə imperatorlar eyni zamanda öz daxili siyasi-əsgəri problemlərinin həllində xəzər yardımından faydalanırdı. Xəzər Leonun arvadı İrenin daha sonra "Avqusta" və ya bir imperator naibi olaraq deyil, fəqət tək başına və tam səlahiyyətli "Basileus" qəbul və elan edilməsi kimi Bizans və Roma tarixində ilk dəfə görülən hadisə[656] hər halda xəzər-türk təsiri ilə izah edilə bilər.

665-ci ildən sonra Qara dənizin şimalındakı Böyük Bulğariya dövlətinin qüvvətli xəzər genişlənməsi qarşısında dayana bilməyərək parçalanması nəticəsində Dneprə qədər uzanan düzənlüklər xəzərlərə keçmiş və xaqanlıq Qafqazların cənubunda da islam fütuhatına qarşı yolları qapamışdı. Ərəblərlə xəzərlərin mübarizələri şiddətli və davamlı oldu. İlk böyük hücum xəlifə Osman zamanında h. 31 (m. 651-652)-ci ildə Salman bin Rəbiənin komandanlığı zamanı oldu. Dərbəndi aşaraq xəzər paytaxtı Bələncərə[657] qədər soxulan ərəb qüvvələri geri oturduldu və xəzərlər cənuba doğru Ermənistana girdilər. Bundan sonra yarım əsrdən çox davam edən sərhəd çarpışmalarını islam ordularının böyük çapda hərəkatı təqib etdi. Bu səfərlərin başında əməvilərin ünlü komandanlarından Məsləmə bin Əbdül-məlik (xəlifə I Vəlidin qardaşı, 705-715) dururdu. Dərbənd həvalisinə qədər gələ bilən (707-710, 711) Məsləmə 714-cü ildə Dərbəndi zəbt etsə də, İstanbula yürümək üzrə Qafqazdan ayrılmasından sonra ərəblər xəzər hücumu qarşısında geri çəkildilər. 722-ci ildə Ərməniyyə valisi əl-Cərrah ül-Hikəmi xəzər ölkəsində böyük uğur qazandı. 730-cu ilə qədərki qarşılıqlı axınlar nəticəsində ərəblər təkrar Azərbaycana gerilədilər. Fəqət ən mühüm uğurlarını Ərməniyyə və Azərbaycan valisi Mərvan bin Mühəmmədin

---

[655] Byz. turc. II, s. 123, 254, 264; C. Head, on the Date of Justinian II's Restoration, s. 106 və ardı.

[656] A. A. Vasiliev, həmin əsər, s. 298.

[657] M. İ. Artamonova görə, bugünkü Dağıstanda Andreyevo yaxınlığındakı Endere xərabələri. Bu rus araşdırıcının "Xəzərlərin tarixi", 1962, adlı rusça əsərinin faydalı bir şəkildə tanıdılması: A. N. Kurat, Tarih Araştırmaları Dergisi, III, s. 197-236.

(sonra xəlifə) 737-ci ildəki hərəkatı ilə əldə etdilər. Bu münasibətlə xaqanın islamiyyəti qəbul etməyə məcbur qaldığı söylənir, ancaq rəvayətə görə, az sonra o yenə əski dininə dönmüşdür. İslam xəlifəliyində abbasilərin iqtidara gəlməsi ilə mücadilə vüsətini itirdi. Mühüm olmaq üzrə VIII əsrin ikinci yarısında, 760-cı ildən sonra xəzərlərin Tiflisi təkrar ələ keçirib Ərməniyyə bölgəsinə girmələri zikr edilməyə dəyər[658]. Bu savaşlar dolayısıyla göstərildiyinə görə, xəlifə əl-Mənsur tərəfindən h.141-ci ildə (m.758) Daryalda qurulmuş olan Ərməniyyə vilayət mərkəzində vali Yezid bin Üseyd xaqanla uzlaşmaq üçün xəlifənin arzusu ilə bir xəzər şahzadəsi ilə evlənmək istəmiş, tarxanların müşayiətində ağır cehizi ilə Bərdəyə (vilayət mərkəzi) gətirilən qızın doğum zamanı uşaqla birlikdə ölməsi xaqanı bunun gerçəkdə bir xəyanət nəticəsində olduğu düşüncəsinə sövq edərək hərb səbəbi sayılmış və As-Tarxan komandanlığındakı xəzər ordusu xilafət torpaqlarına yürümüşdür[659].

İslam xilafətinin ən qüvvətli dövrlərində ərəb ordularına qarşı göstərilən bu çətin müqavimət xəzər dövlətinin qüdrətini bir daha ortaya qoyur. Həqiqətən, VIII-IX əsrlərdə xaqanlıq islam müəlliflərinin ifadələrindən də anlaşıldığı üzrə, Çin və Bizans ilə bərabər əyarda olmaq üzrə Şərqi Avropanın ən böyük siyasi təşəkkülü durumunda idi. Sərhədləri özəlliklə qərb və şimal yönündə genişlənmiş, Şimali Qafqazda "sərir" ölkəsi[660], avarlar, alanlar, on-oğurlar və Qafqazın dağlı qövmləri, Krımda qotlar, İtil bulğarları, Volqa civarında fin-uqor burtaslar[661] və başqa müxtəlif fin qolları, Desna çayı ilə orta Dnepr çevrəsindəki slavyan kütlələrindən radimiçlər, vyatiçlər, severyanlar, polyanlar və b., Kuban həvalisindəki macarlar, Kiyev və dolayları xaqanlığın idarəsinə girmişdi.

Beləliklə, IX əsrin sonlarına aid bir qaynaqda (Eldad ha-Dani) xaqanı "25 kral"ın başında olduğu söylənən[662] xəzərlərə bu siyasi gücü təmin edən başlıca imkanlardan biri xaqanlığın coğrafi mövqe etibarilə ortaçağların

---

[658] Təfsilən bax: K. Czeglédy, Khazar Raids in Transcaucasia in 762-764 A.D., s. 75-88.

[659] Ərəb-xəzər mücadilələri üçün təfsilən bax: M. Kmosko, Araber und Chazaren, KCsA, 1924-1925,1, s. 280-292, 356-368, Türk. tərc. Araplar ve Hazarlar, s. 132-155; D.M. Dunlop, həmin əsər, s. 47-87, 179 və ardı.

[660] Bax: V. Minorsky, Hudûd al-Âlam, s. 447.

[661] V. Minorsky, həmin əsər, s. 462 və ardı; Minorsky, Mervezî, s. 109; P. B. Golden, Khazar Studies..., s. 88 və ardı.

[662] Bax: D.M. Dunlop, həmin əsər, s. 109.

bəlkə ən canlı ticari fəaliyyət bölgəsinin mərkəzində yer almış olması idi[663]. Xəzər ölkəsinə Skandinaviyadan, Volqa və Kama boylarından bilxassə xəz (samur, kakım, sansar, zerduva, tülkü və s.) və digər ticari mallar (balmumu, tutğal), Çindən və Türküstandan ipək və qumaşlar, Bizansdan dürlü sənət və süs əşyası gəlir, İtil və başqa xəzər şəhərlərində bazarlanır, bu çeşidli və zəngin əmtəə Orta Asiya-Şərqi Avropa-Yaxın Şərq ölkələri arasında bir yandan digər yana axırdı[664]. Xəzər xaqanlığı dövlətə yüksək gəlir gətirmə baxımından bu böyük ticari fəaliyyəti təşkilatlandırıb əmniyyət və kontrol altına almaq surətilə ən yaxşı şəkildə dəyərləndirən bir siyasi birlik olaraq türk dövlətləri arasında seçkinləşmişdir.

Qaynaqlarda açıqlandığına görə, xəzər xaqanlığı rifah içində idi. İbn Fədlan (m. 922) xəzərlərin bal, mum, un, qədifə və xəz ticarəti ilə məşğul olduqlarını, Gərdizi (m. 1048) arıçılıq və balmumu ticarəti ilə uğraşdıqlarını söyləməkdə, İstəxri (m. 930-933) xəzər dövlət xəzinəsinin qaynaqları olaraq, ölkəyə giriş nöqtələrində, quru, dəniz və çay yollarının müəyyən yerlərində əldə edilən gömrük rüsumları və tacirlərdən alınan 1/10 vergiləri zikr etməkdə, əl-Məsudi (m. 944) xəzərlərin dənizdə və çaylarda gəmilər işlətdiklərini bildirməkdədir[665]. Həmin qaynaqlara görə xəzər ölkəsində əkin üçün verimli torpaqlar və çoxlu meyvə bağları vardı və bunlar "həyatı asanlaşdırırdı". Mövcud imkanlar dolayısyla xəzərlər şəhərlər də qurmuşdular. Bunların ən mühümü paytaxt İtil şəhəri idi. Digər böyük şəhərlər Bələncər[666], ətrafında 4 minə qədər bağı ilə Səməndər (Dağıstan bölgəsində dəniz kənarında) [667], Kubanın Qara dənizə töküldüyü yerdə Tmutorokan (Taman Tarxan adından)[668], Volqa qıyısında Sarigsin (ərəb qaynaqlarında əl-Beyza), bugünkü türkcə ilə "Ağ şəhər” deyə biləcəyimiz Sarığşın, paxtaxt İtilin

---

[663] O əsrlərdə Şərqi Avropanın iki ana ticarət yolu vardı. Biri xaqanlığın paytaxtı İtil şəhəri (Volqanın Xəzərə töküldüyü yerdə) -Volqa çayı üzərindən şimala; bir yandan Çolman (Kama) nəhri ilə Ural sahəsinə, digər yandan yuxarı Volqa-kiçik çaylar-Ladoqa gölü marşrutu ilə Skandinavyaya çatırdı. İkincisi, Bizans ilə Fin körfəzi arasında ən mühüm qismi Dnepr çayı olmaq üzrə cənubdan şimala doğru 50-60 km qurudan, sonra yenə çaylar vasitəsilə İlmen gölü-Baltik dənizi-İsveç yolu idi. Ayrıca, Xarəzmdən Aşağı Volqaya, oradan da Qara dənizə uzanan işlək bir karvan yolu vardı (Təfsilən bax: İ. Boba, Nomads, Northmen and Slavs, s. 27-30).

[664] Təfsilən bax: Baron A. Meyendorff, Trade and Communication in Eastern Europe A. D. 800-1200, s. 104-123.

[665] Gy. Németh, HMK, s. 205; İ. Boba, həmin yer; D.M. Dunlop, həmin əsər., s. 205 və ardı; L. Rasonyı, həmin əsər, s. 125; İbn Fadlan, s. 75.

[666] İbn Xordadbehə (886) və əl-Məsudiyə görə ilk paytaxt, bax: K. Czeglédy, Korai Kazar.... s. 122.

[667] Bax: Hudûd.., s. 452.

[668] L. Rásonyi, Tarihte Türklük, s. 116.

bəzən "xəzəran" deyilən şərq qismi idi[669]. Paytaxtda xaqanın oturduğu qərb səmtinə "Xan balıq" (xan şəhəri) adı verilmişdi[670]. Başda kağan (xaqan) və ya yilig (elig) ilə bəyin (bən, pəh) olduğu, şadlar, tarxanlar, tudunlar idarəsində əski göytürk təşkilatını davam etdirən xəzər dövləti qüvvəli ordusu ilə hakim olduğu geniş sahədə asayiş və hərəkət güvənliyini təmin edərək VII-IX əsrlər boyunca Şərqi Avropada tam mənasıyla br "Xəzər barışı" (Pax Khazarica") çağı gerçəkləşdirmişdi[671]. Hətta bu məqsədlə hər hansı bir xarici hücumu vaxtında önləmək üçün Bizansdan gətirilən ustaların yardımı ilə 835-ci ildə ünlü Şarkel qalası tikdirilmişdi[672]. Rus xronikalarında Bela Vedza (Ağ qala) olaraq zikr edilən bu qala[673] ağ daşdan və kərpicdən inşa edildiyi üçün qərb türkcəsi ilə Şarkel (ak-ev=ağ qala) deyə adlandırılmışdı[674].

"Xəzər barışı" nəqliyyatı sürətləndirmiş, mal mübadiləsini artırmış, dolayısı ilə xaqanlıq şərqli, qərbli millətlərdən kütlələr halında ticarət və sənət ərbabının qaynaşdığı bir ölkə halına gəlmişdi. Bu səbəblə danışılan müxtəlif dillər yanında dürlü yazılar (göytürk, ərəb, ibrani, kiril) işlədilirdi. Əhali də müxtəlif dinlərdə idi. Xəzərlər əslində əski türk-bozqır dini olan, tanrının birliyi inancına dayanan göy tanrı (tənqri-xan) etiqadında idilər[675]. Fəqət millətlərarası sıx münasibətlər nəticəsində ölkədə islam, xristian və musəvi dinləri yayılmış olub, hər camaat tam bir vicdan hürriyyəti içində öz dininin ibadət və ayinlərini icra etməkdə idi. Qaynaqlara (İstəxri, m. 932, əl-Məsudi, m. 944, ibn Hövkəl, m. 977) görə, xəzər şəhərlərində camilər, kilsələr, sinaqoqlar yan-yana dururdu[676]. İslamın (IX əsrin ortalarında) xarəzmlilər vasitəsilə yayıldığı, ortodoks xristianlığın Bizansdan gəldiyi (VIII əsrin son

---

[669] Ruslar tərəfindən 1960-1963-cü illər arasında burada aparılan arxeoloji araşdırmalar üçün bax: S. Szysz man, Decouverte de la Khazarie, s. 818-824.

[670] V. Minorsky, Hudûd.., s. 452; Gy. Németh, həmin əsər, s. 208,212.

[671] Bax: A. Zajaczkowski, Khazarian Culture and its İnheritors, s. 300, türk. terc. Hazar Kültürü və Varisləri, s. 477-483; İ. Boba, həmin əsər, s. 39 və ardı. Son olaraq bax: P. B. Golden, Khazar Studies..., s. 107-111.

[672] De Adm. İmp., II, s. 154 və ardı, A Magyarok elödeiröl.., s. 84 və ardı, V. Minorsky, Hudûd.., s. 453.

[673] Don çayının orta qismində bugünkü Tsimlyanka (Trimiyanskaya?) adlı yerdə 1951-ci il qazıntılarında xərabələri ortaya çıxmışdır, bax: Tarih Araştırmaları Dergisi, III, s. 224 və ardı.

[674] A. N. Kurat, IV-XVIII. Yüzyıllarda Karadeniz Kuzeyindeki Türk Kavimleri ve Devletləri, s. 33 və ardı.

[675] Bax: A. Zajaczkowski, həmin əsər, s. 302. Əlavə bax: aş. Kültür: Din.

[676] Gy. Németh, həmin əsər, s. 206; D. M. Dunlop, həmin əsər, s. 89 və ardı.

rübündə) və xəzər xaqanının istəyi ilə məşhur slavyan həvvarisi Kirilin (Kirillos) paytaxt İtili ziyarətindən (861-862) sonra artdığı anlaşılsa da[677], musəviliyin, üstəlik, yalnız xaqan, ailəsi və idarəçi zümrənin dini kimi nə zaman və nə şəkildə qəbul edildiyi tam dəqiqliklə bilinmir. Xəzərlərin musəviliyə dönməsi ümumiyyətlə Bulan adlı xaqana bağlanmaqda və müxtəlif tarixlər verilməkdədir.

Son araşdırmalarda[678] Bulanın VIII əsrdə Xersonda (Cənubi Krımda) din dəyişdirdiyi irəli sürülmüşdür. Bəzi islam müəlliflərinə (əl-Məsudi) görə xəzərlər abbasi xəlifəsi Harun ər-Rəşid zamanında (786-809) musəviliyin bir məzhəbinə girmişdilər[679]. "Qaray" deyilən bu məzhəb[680] Musanın təlimlərini ehtiva etdiyi sanılan Talmuda çox etibar etməyən və bəlkə bəzi islami ünsürlərlə qarışıq bir etiqad olub[681], xəzərlərin də qısa zaman içində talmudçuluğa xeyli yaxınlaşdıqları söylənir[682]. 960-cı illərə doğru Əndəlis əməvi dövlətində musəvi nazir Hasday bin Şaprutun[683] Kordovadan xəzər xaqanı Yasəfə göndərdiyi məktub ilə xaqanın ibranicə yazdığı rəvayət edilən cavab da məsələyə tam bir aydınlıq gətirməmişdir. XVI əsrdə Misirdə ələ keçirilərək İstanbulda yayınlanan (1577) bu yazışmanın ("Correspondence Khazare") elmi yayınlara və açıqlamalara mövzu olan mətni (ən yaxşısı P.P. Kokovtsov, 1932, Leninqrad) haqqındakı tənqidlər[684] sənədin gerçəkliyi xüsusunda ciddi şübhələr oyatsa da, içində verilən bilginin bir çox baxımlardan doğruluğu ortaya qoyula bilməkdədir[685].

Nəticə olaraq, qaray dini mənsublarının (qaraimlər) xəzər ölkəsində getdikcə qələbəlikləşdiyi və hətta zamanımızda Krımda, Polşada və Türkiyədə (İstanbulda) yaşayan qaraimlərdən heç olmazsa ana dilləri və dini lisanı türkcə

---

[677] Bax: Gy. Németh, HMK, s. 206; D.M. Dunlop, həmin əsər, s. 194 və ardı.

[678] S. Szyszman, Oû la conversion du rot Khazar bulan a-t-elle eu lieu ? s. 523-538.

[679] J. Marquart, ...Streifzüge, s. 13. Əlavə bax: TM. VII-VIII, 1, s. 353; Y. Kutluay, İslâm ve Yahudi Mezhepləri, 1965, s. 189-200.

[680] Bax: S. Szyszman, Revue de l'Histoire des Religions, CLXVIII, 1, s. 62-74.

[681] A. Zajaczkowski, Karaims in Poland, s. 24-29, bax: Tarih Dergisi, sayı 17-18, s. 291, E. L. Dietrich, Qaraer (Qaraiten) s. 374-378.

[682] L. Rásonyi, həmin əsər, s. 115.

[683] Bax: A. Mieli, La science Arabe, s. 176,181.

[684] Bax: H. Gregoire, Glozel Khazare, s. 225-266; A. Zajaczkowski, Hazar Meselesine Dair Araştırmalar, 1947, polyakca; S. Szyszman, Dicouverte de la Khazarie..., s. 822 və ardı.

[685] Bax: V. Minorsky, Hudûd..., s. 470 və ardı; D.M. Dunlop, həmin əsər, s. 125-170.

olan camaatların musəvi xəzər türklərinin və bəlkə qismən qaraim kumanların torunları olduqları anlaşılır[686].

"Xəzər barışı"nın verdiyi sükunət və hüzurla gəlişən ticari fəaliyyət tarixin mühüm hadisələrindən biri olmaq üzrə rus-slavyan dövlətinin təşəkkülünə yardım etmişdir. Skandinaviya-Bizans ticarət yolu üzərində, ormanlarında qiymətli xəzi olan heyvanları və orman-bozqır hüdudu boyunca çoxlu arıları olan bölgələrdə oturan, daha çox ovçuluq və bal istehsalı ilə uğraşan slavyan-fin qarışığı qəbilələr, eyni ticari məqsədlərlə buraya gələn skandinaviyalı gözüaçıq dənizçi varyaqlardan (normanlardan) rus (ross, rhos<rodh=gəmiçi, əski İsveç dilində) deyə adlandırılan macəraçı bir qrupun idarəsinə girmişlər və xəzər örnəyinə uyğun bir siyasi quruluş qazanmağa başlamışdılar (IX əsrin ilk yarısı). İlmen gölü çevrəsində yerlilərdən aldıqları xəz, bal, balmumu kimi mallar sayəsində Bizans ilə alış-verişə girişən varyaq-ruslar o civarda bəzi qəsəbələr də qurmağa çalışırdılar. IX əsrin ikinci rübündə İlmenin şimalındakı Novqorod şəhərinin Rürik adlı bir varyaq-rusun knyazlıq mərkəzi olduğu və bu "knyaz"ın (kəlmə əslən germancadır) oralardakı bəzi slavyan qəbilələri tərəfindən "hökmdar olması üçün" necə dəvət edildiyi rusların "ilk xronika"sında (Nestor tarixi, XII əsrin ilk rübü) əfsanə vəsfində nəql edilir[687]. Rürik xəzərlərə bağlı orta Dnepr sahəsindəki xəzər mərkəzi (qalası) Sambataya gələrək (862-ci ildə) tabelik statusu altında ticari-siyasi fəaliyyətlərə girişmiş və Rürikdən sonra xələfi Oleq həmin yerdə o dövrdə gəlişən Kiyev şəhərini öz hakimiyyəti altına almağa müvəffəq olmuşdur (882). Bu münasibətlə adı ancaq türkcə ilə açıqlana bilən Kiyevin Sambata kimi türklər tərəfindən qurulduğu irəli sürülmüşdür[688]. Bu dövrdə rus knyazlıqlarında türk təsirləri açıqdır. Hələ 839-cu ildə qurulan ilk "rhos" (rus) birliyində başqanın titulu "chacanus" (xakanus=xaqan) idi (frank xronikası Annales Bertini-ani)[689] . 988-ci ildə xristianlığı qəbul edən şahzadə Vladimir və sonra knyaz Yaroslav (1036-1050) hələ rəsmən "kağan" ünvanını daşımağa davam edirdilər. İbn Rusta (920-ci ilərdə) Gərdizi və mitropolit Hilarion (XI əsr) hey rus "xaqan-

[686] A. Zajaczkowski, Karaims in Poland..., s. 30 və ardı; yenə onun: Khazarian Culture..., s. 302 və ardı; yenə onun: Lehistan Arazisinde Türk Unsurları, s. 417-424; S. Szyszman, İstanbul Karayları, s. 97-102.

[687] Bax: İ. Boba, həmin əsər, s. 47 və ardı, 102 və ardı; A.N. Kurat, Rusya Tarihi, s. 19-22.

[688] J. Brutzkus, The Khazar Origin of ancient Kiev, The Slavonik and East-Europas Review, XXII, s. 108-124, türk. tərc. Eski Kiev'in Türk-Hazar menşei, s. 343-350; eyni görüşde olan Rus tarixçiləri G. Vernadsky və Lashenko üçün bax: D.M. Dunlop. həmin əsər, s. 142, qeyd 79.

[689] Bax: V. Minorsky, Hudûd..., s. 433.

larından” bəhs edirlər[690]. X əsrdə Kiyev şəhərinin bir qismi "Kozari" deyə anılmaqta idi. Kiyevə türkcə "Mankermen" (=böyük hasar) də deyilmiş və Moskvadakı Kreml (=hasar, qala) sarayı adının türkcə olduğu bildirilmişdir[691]. İlk rus qanunnaməsi "Russkaya pravda" (XI əsrin ikinci yarısında "drujina" (idarəçilər) ilə təbəə münasibətlərinin açıqlanmasında sanki bir xəzər-türk toplumunu sezmək mümkün görünmüşdür[692].

Xəzər xaqanlığı macar (magyar) dövlətinin də gerçək qurucusudur. Əslində, urallı (fin-ugor) bir qövm kimi voqul və ostyaklarla yaxın qohum olan macarlar[693] Ural dağlarının ormanlıq yamaclarındakı əski yurdlarından bozqırlar cizgisinə enərək, buradakı oğur türkləri ilə uzun müddət birlikdə yaşamışlar[694]. 463-cü ildə sabarların qərbə köç hərəkətləri dolayısıyla macarların (bir qismi bugünkü başqırdlar[695] sahəsindəki yurdlarında /Magna Hungaria= Əsl və ya Böyük Macarıstan/[696] qalarkən) qələbəlik bir qismi oğurlarla birlikdə Şimali Qafqaza, Kuban çayı dolaylarına gəlmişdir. Orada on-oğurların idarəsində qaldıqları üçün on-oğur (=ongur, unqri, onqri, unqor, unqaros, hunqarus, honqrois, venger və s.) adı ilə də tanınmış olan macarların əski tarixinə aid Beların (Bulğar) gəlinləri ilə alan şahzadəsinin iki qızının Hunor (Hun-əri) və Moger (Magy-əri) tərəfindən qaçırılıb zövcəliyə qəbul edildikləri hekayəsi ilə Hunor və Moger qardaşların bir geyikin göstərdiyi yolla Azov dənizinin qərbinə keçdiklərinə dair Qərb qaynaqlarında nəql edilən gələnək[697] macarların Qara dənizin şimalında bulğarlarla və hər halda

[690] V. Minorsky, həmin əsər, s. 434; D.M. Dunlop, həmin əsər, s. 56-68, 237 və ardı; İ. Boba, həmin əsər, s. 23 və ardı; A.N. Kurat, IV-XVIII Yüzyıllarda..., s. 40.

[691] O Pritsak, Eine altaische Bezeichnung für Kiew, s. 1-13. Əlavə bax: aş. Dunay Bulğar Dövləti.

[692] Bax: L. Rásonyi, həmin əsər, s. 117.

[693] Adın əsli mansi (söylənişi magy). Türklərlə təmasdan sonra türkcə+ər (ar) şəkilçisi ilə; mansi+ər >magyar, islam qaynaqlarında: macghari, bax: Gy. Németh, həmin əsər, s. 247 və ardı. Buna qarşı magyar=mişer (əslən Oka çayı dolaylarında oturmuş bir qövm) görüşü üçün bax: İ. Boba, həmin əsər, s. 92-98.

[694] Ananyino və Pionobor kültürləri, bax: İ. Zichy, Magyar Östörténet, s. 41.

[695] Ad fin-uqor mənşəlidir. Adın əsli ehtimal ki, Paskerdir, bax: Gy. Györffy, Tanulmânyok a Magyar âllam eredetiröl, s. 48 və ardı, 66 və ardı.

[696] Təfsilən bax: Gy. Németh, HMK s. 299-309; De Administrando İmperiodan [bax: yux. Peçeneqlər] A Magyarok elödeiröl, s. 80, 81; D. Sinor, Un Voyageur du treizeime siecle. Le Dominkain Julien de Hongrie, s. 589-602.

[697] "Sehirli geyik" əfsanəsi Gy. Moravcsik, Byz. turc. I, s. 39; B. Ögel, Türk Mitolojisi s. 578-581.

bulğarların vasitəsilə hunlarla yaxın əlaqələrinin və alanlarla qonşuluqlarının xatirələridir[698].

Sabarların Qafqazı işğalları zamanı "sabar(d)" deyə, daha sonra (göytürk hakimiyyəti Krıma qədər uzanınca və sonra xəzər hakimiyyəti dolayısıyla) "türk" deyə anılan macarlar[699] türklərlə 400 ilə yaxın birlikdə yaşamanın nəticəsi olaraq, bozqır kültürünün dərin təsiri altında türk kültür ünsürlərini mənimsəmişlər, ona görə təşkilatlanmışlar, heyvan bəsləməyi, əkinçiliyi, bağçılığı, qanun anlayışını və yazını öyrənmişlər. İndi də macar dilində yaşamağa davam edən türkcə sözlər (qərb, yəni r-li bulğar türkcəsindən) bunu açıqca göstərir: ökör=öküz, tiinó=dana, bika=buğa, borju=buzov, tyuk=toyuq, kos=qoç, kecske=keçi, tarlo=tarla, tecnö=təknə, karo=qazık, eke=kotan, arok=arıq, buza=buğda, arpa=arpa, borso=burçak, alma=elma, szölö (sidleqdən)=üzüm, sereg=çəri(g) (ordu), béke=barış, erö>=ərk (qüvvə), törveny=törə (qanun), tunu=tanıq (şahid), bélyeg=(pul) bəlgə, erdem=ərdəm (fəzilət), egy=qutsal, bün=günah, bölcs=bilgə, kék=gök (mavi), sarğa=sarı, zsam=say, betü=biti(g) (hərf), irni=yazmaq və s...[700]. Macarlar Don çayı dolaylarında (Dentü-Mogyeria) ikən xəzər xaqanlığı tərəfindən təyin edilmiş və hətta bir xəzər şahzadəsi ilə evləndirilmiş və ehtimal "kündü"[701] ünvanını daşıyan başbuğları Lebedinin[702] idarəsi altında olduqları zaman şərqdən gələn peçeneq təzyiqi nəticəsində öz yerlərindən ayrılaraq Dnepr-Dnestr-Prut bölgəsinə (=Etel-küzü~Etelköz=çaylararası) keçmişlər[703]. Burada kündü ilə "ügə"[704]

---

[698] Gy. Németh, həmin əsər, s. 173; yenə onun: Hunlar ve Macarlar, s. 260 və ardı; B. Szasz, A Hunok törtenete..., s. 453 və ardı.

[699] Gy. Németh, HMK. s. 176 və ardı, 195-290; Byz. turc., II, s. 223 və ardı, 270.

[700] Bunlar və türk mənşəli digər kəlmələr üçün bax: Z. Gombocz, Die bulgarisch-türkische Lehnwörter in der ungarisehen Sprache, MSFou, XXX, 1912; L. Rásonyi, Török adatok..., s. 2-41; L Knieza, Nyelyeszet es östörtienet, s. 187 və ardı, F. Eckhart, Macaristan Tarihi, s. 4 və ardı, 8, 12 və davamı; A. Rona-Tas, A Magyar-Bolgar-Török erintkezes jellege, s. 267-225.

[701] Xəzərlərdə xaqan və bəydən sonra gələn üçüncü ünvan,bax: Gy. Györffy, həmin əsər, s. 83 və ardı; türkcə əsli kün-lü (kün=xalq, xalqı olan, xalqlı)? bax: O. Turan, İlig Unvanı Hakkında, s. 198.

[702] Və ya "Levedi” = "Alp edi"=(tapferer Herr), bax: O. Pritsak, Yowár und Käwar, s. 384 və ya Alp-e1? Macarların yurdu "Levedia" (ehtimal Kuban çayı həvalisi, bax: O. Pritsak, həmin əsər, s. 383, qeyd 1) bu addan gəlir. Ayrıca, Byz. turc, II, s. 70, 157.

[703] Bu iki əski macar torpağı üçün bax: De Adm. İmp., II, s. 146 və ardı.

[704] Və ya "ögə". Türkcə ünvan bax: Sucı və Açura kitabələri, H. N. Orkun, ETY, I, s. 156, III, s. 133; K. H. Menges, Altaic Elements in the Proto-Bulgaren Inscriptions ,s. 91 və ardı; Gy. Györffy, həmin əsər, s. 83və ardı. Dövlət məclisi başqanının ünvanı (bax: aş. Təşkilat); ayrıca bax: H. Ecsedy, Act. Orient, XXI, s. 169.

tərəfindən idarə edildikləri zaman hər birinin başında xəzər xaqanlığının təyin etdiyi birər "ür"[705] olan 7 qəbilədən ibarət birlik təşkil etdikləri anlaşılan macarların türklərlə büsbütün qarışdıqlarını qəbilə adları göstərməkdədir: Tarjan (tarkan), Yenö ( türkcə ünvan "inaq"dan), Kürt[706] Qyarmat (yorulmaz), Ker (böyük, iri), Keszi (kəsik, parça). Digər iki qəbilə fin-uqor: Nyek və Magyar[707]. Bunlardan Orta Asiyada türk əsilli bir boy olaraq görünən kürt qəbiləsindən[708] heç olmazsa bir bölümün göytürklər çağında gələrək macarlara qatıldığı sanılır. 880-ci illərdə qərbə doğru yönələn peçeneqlərə öz ölkəsindən yol vermək zorunda qaldığı anlaşılan xəzər xaqanı tərəfindən hər halda peçeneq təhlükəsinə qarşı macar birliyini sağlam tutmaq məqsədilə ügə soyundan Almış oğlu Arpada (türkcə, Arpacıq) tam səlahiyyət verildi və o, türk (xəzər) üsulunda törəyə uyğun olaraq qalxan üzərində qaldırılmaq surətilə və hər halda Qyula (=Yula, Cula, türkcə ünvan)[709] olaraq macar qəbilələr birliyinin başbuğu elan edildi[710]. Xəzər toplumundan ayrılan üç uruğdan ibarət kabarların[711] da qatılması ilə[712] macar qəbilələrinin sayı 8-ə yüksəldi, dolayısıyla macarlar arasında türk ünsürü daha da artdı və bu səbəbdən fin-uqorca ilə birlikdə türkcə də yayğın bir hala gəldi ki, bu iki dillilik bir əsr qədər sürmüş kimidir. 889-cu ilə doğru macarlara yönələn ikinci böyük peçeneq hücumu üzündən Etelküzünü tərk etməyə məcbur olan macarlar vaxtilə avarlarla birlikdə bir qisim soydaşlarının getdiyi və özlərinin həyat şərtlərinə uyğun sayıb bəyəndikləri Dunay-Tisa bölgəsini Arpadın (ölümü: 907) sövq və idarəsində işğal edərək bugünkü vətənlərini (Macarıstan, Hunqariya) qurdular (896). Türk soyundan gələn[713] və 1301-ci ilə qədər davam edən Arpad sülaləsi mənsubları 1000-ci ildə xristianlığı (Roma katolik) qəbul edincəyə qədər ək-

[705] Əsli türk ünvanı "buyruk", bax: Gy. Györffy, həmin əsər, s. 103 və ardı.

[706] Kürt türkcə: qar yığını, çığ, sürüşkən qar topası, bax: Gy. Németh, Der Volksname Karluk und seine semantische Gruppe, s. 13 və ardı.

[707] Təfsilən bax: Gy. Németh, HMK s. 233-275.

[708] Bax: Elegeş kitabəsi, sətir 8; H. N. Orkun, həmin əsər, III, s. 181.

[709] Bax: Gy. Németh, HMK, s. 45; Kemçik-çirğak kitabəsi, sətir 3 (ETY, III, s. 79); V. Minorsky, Hudûd..., s. 320, 323.

[710] De Adm. İmp.-dən A Magyarok elödeiröl.., s. 81; D.M. Dunlop, həmin əsər, s. 196 və ardı.

[711] Kabar=baş qaldıran, üsyan edən", bax: Gy. Németh, HMK, s. 49; Gy. Moravcsik, Byz. turc., II, s. 144; Kabarlar üçün təfsilən bax: O. Pritsak, Yowár und Käwar, s. 378-393; P. B. Golden, Hazarr Dili,s.153; son olaraq, yenə onun: Khazar Studies, qeyd 133-142.

[712] De Adm. İmp., II, s. 149; A Magyar elödeiröl..., s. 81.

[713] On-oğurlardan? Bax: O. Pritsak, Yowár und Käwar, s. 834, 839.

sərən türkcə adlar daşımışlar: Tarkaç, Yutaş, Taş, Tarma və Geza [714]; iki şahzadə: Saroltu, Qaroldu (Ağ gəlincik, Qara gəlincik) və xristianlığı dövlət dini edən və Stephanos (İstvan) adını alan kral Vayk (=Bay+k)[715]. O tarixlərdə Bizans qaynaqlarında macarlara daima türk deyilmiş, Macarıstana isə Türkiyə (Tourkhia) adı verilmişdir[716]. Ayrıca macarlardan bir zümrə olub bugün Erdeldə (Transilvaniya) oturan türk əsilli szekelylər (sekel)[717] XVI əsrin ortalarına qədər əski Orxon əlifbasının cüzi dəyişikliklə davamı olan və macar "oyma yazısı" (rovasiras) deyilən yazını işlətmişlər[718] ki, bu yazıdan İstanbulda bir xatirə də tapılmışdır (Elçi xanı kitabəsi. XVI əsr)[719].

Xəzər xaqanlığı X əsrın ortalarından etibarən gücünü itirməyə başladı. Bu, əslində daha öncəki tarixlərdə göstərilən sosial narazılıqların nəticəsi idi. Başlanğıcda türklərdən ibarət olan ordu xəzər ünsürünün daha çox ticari işlərə meyl etməsi dolayısıyla muzdlu əsgər sayının getdikcə artması üzündən yavaş-yavaş milliliyini itirərək yabançılaşırdı. Hələ VIII əsrin ortalarında muzdluların mühüm bir qismini Xarəzm və civarından gələn müsəlmanlar (khalis~kh-alis= kalizlər)[720] təşkil edirdi. Məsələn, yuxarıda 762-764-cü illər hadisələri dolayısıyla zikr etdiyimiz As-Tarxan daha ziyadə öz vətəndaşlarına komandanlıq edən xarəzmli bir əsgər idi. Məmləkətdə dil və din birliyinin olmaması xəzər toplumunun dağılmasını asanlaşdıran amillərdən olmuş, ordunun qüvvədən düşməsi nəticəsində ticari əmniyyətin sarsılması iqtisadi müvazinəti pozmuş, peçeneqlərin ölkəyə yayılmaları, bəlkə böyük qarışıqlıq illəri olaraq bilinən 854-cü ildə kabarların, daha sonra macarların və ehtimal ki, kalizlərlə

---

[714] Geza=türkcə yiğ~yeğ (=iyi, üstün) kökündən (HMK, s. 292) və ya yabğudan. Gy. Györffy, həmin əsər, s. 81.

[715] Bax: Gy. Nerneth, həmin əsər, s. 278-298. Və ya Bayık? = doğru, inanılan (oğuzca), bax: DLT, III, s.166.

[716] Byz. turc., II, s. 269 və ardı.

[717] Hansı türk toplumuna mənsub olduqları mübahisə mövzusudur. Bax: Gy. Németh, A Szekelyek eredete, s. 129 və ardı; B.Szâsz, həmin əsər, s. 408, 455; B. Ögel, Sekellerin Ataları Hakkında, s. 469-483; L. Rásonyi, Tarihte Türklük, s. 126.

[718] Gy. Németh, Macar Oyma Yazısı, 1948.

[719] Bu və digər bütün sekel yazıları üçün bax: H.N. Orkun, ETY, III, s. 249-319; macarlar haqqında geniş bilgi üçün bax: A Magyarsâg östörtenete, Bp. 1943.

[720] Bax: Byz. turc., II, s. 290; Gy. Györffy, həmin əsər, s. 51; Gy. Szekely, Les contacts entre Hongrois et Musulmans aux IXe-XIIe siecles, s. 58 və ardı; əslində, K. Czeglédyə görə (bax: Nomâd nepek s. 19 və davamı, 110 və davamı). Seyhunun şərqində oturan və VIII əsrdə müsəlman olmuş iranlı-türk qarışığı "khoalit" qövmü. Xəzər ordusunda vəzifə alan digər bir müsəlman qövm haq. bax: T. Lewicki, Un peuple iranien peu connu; Les *Arsiya on *Orsiya, s. 31 və ardı.

bulğar iskillərin[721], yurddan ayrılmaları xaqanlığı büsbütün zəiflətmişdi. Slavyanlar vəziyyətdən faydalandılar. Ticarət pərdəsi altında ətrafda saldırqan hərəkətlərə girişdilər. Xəzər sahillərindəki qəsəbələri yağmalıyır, təxrib edir, əhalini öldürürdülər (ələlxüsus 910, 913, 943-cü illərdə). Vaxtilə xaqanlıq gəmilərinin hüzur içində dolaşdığı dəniz və çay yollarında əmniyyət qalmadı. Xəzər hökumət məqamlarının qanunsuzluqlara mane olmağa çalışmaları slavyanları büsbütün azdırdı. Nəhayət, Kiyev Rus şahzadəsi Svyatoslav türk tərzində qurduğu qələbəlik quru və çay qüvvələri ilə hər cəhətdən borclu olduğu əfəndilərini məğlub, paytaxtı zəbt və digər şəhərləri təxrib etdi (965). Yaxınlığında XII əsrdə Saksın şəhərinin qurulduğu əski paytaxt İtil şəhəri əl-Biruni zamanında (1048) belə xaraba halında idi.[722]. Xəzərlər dağıldılar. Tmutorokana, Krıma doğru çəkilənlər toplum həyatını davam etdirməyə çalışdılar[723]. Digər tərəfdən, xəzərlər yabançı ölkələrdə də bəzi xatirələr buraxmışlar: İshaq bin Kündücük abbasi xəlifəsi əl-Mütəmid dövrünün (870-891) tanınmış komandanlarından idi. Təgin bin Abdullah il-Xəzəri üç dəfə Misir valisi olmuşdu (X əsrin ilk rübü). Hətta yəcuc-məcuc səddini aramaq üzrə xəlifə əl-Vasiq (842- 847) tərəfindən Qafqaza göndərilən və türkcə də bildiyi söylənən Səllam üt-Tərcümanın[724] əslən bir xəzər musəvisi olduğu rəvayət edilmişdir[725]. Qafqazda yaşayan qaraçayların xəzərlərlə qohumluğu irəli sürülməkdədir[726]. Bugün xəzərlərin xatirələrindən biri Xəzər dənizinin adıdır.

[721] Bax: Gy. Györffy, həmin əsər, s. 76.

[722] Təfsilən bax: D.M. Dunlop, həmin əsər, s. 238-250.

[723] Burada (Khazaria) adı bilinən son hökmdar Tzulas (Tzula, Tzul) olub 1016-cı ildə Bizansa bağlanmışdı, bax: G.G. Litavrin, A propos de Tmutorokon, s. 231; D. M. Dunlop, həmin əsər, s. 251.

[724] Bax: İ. Zichy, Le Vayage de Sallâme, l’Interprete â la mouralle de Gog et de Magog, s. 191-199; C. E. Wibon, De Vall of Alexander, s. 576-612; müq. et. V. Minorsky, Hudûd..,, s. 225.

[725] D. M. Dunlop, həmin əsər, s. 191.

[726] D. M. Dunlop, həmin əsər, s. 220, qeyd 1; ayrıca bax: A. Vâmbery, A Török faj, s. 670-673; xəzər nazirliyindəki xalq qrupları ilə idari terminlər, ünvanlar, şəxs və yer adları (xəzər, qara-xəzər, barsıl, işkil, alan və s..., kağan, katun, ilig, yabğu, şad, bəg, alp, kündəcik, tarxan, tudun və s..., Bulan, Çiçək və s... Bələncər, Səməndər, Sarığşın, Şarkel və s...) haqqında qaynaqlar və açıqlamalar üçün son olaraq bax: P. B. Golden, Khazar Studies..., s. 112-263.

## 12. PEÇENEQLƏR, UZLAR VƏ KUMANLAR (QIPÇAQLAR)

Orta Asiyadan qərbə türk köçlərinin son böyük dalğasını (IX-XI əsrlər) meydana gətirən türk boylarından ilki olan peçeneqlər göytürk xaqanlığına daxil kütlələrdən biri idi. Ehtimal ki, on-oxların (türgişlərin) bir qismini təşkil etmək üzrə[727] İssık göl-Balxaş dolaylarında yaşamışlar, Qərbi Göytürk xaqanlığının süqutundan (VII əsrin ortaları) sonra isə bəlkə qarluq dövlətinin qüvvətlənməsi nəticəsində Seyhun çayına doğru gəlişən oğuz hərəkəti[728] qarşısında Qərbi Sibirə çəkilməyə məcbur qalmışlar (VIII əsrin ikinci yarısı). Mahmud Kaşğaridə peçeneqlərin bir oğuz boyu olaraq təqdim edilməsi[729] bu oğuz-peçeneq itişməsini və qonşuluğunu göstərir. Bizans imperatoru K. Porphyrogennetosa görə[730] arxadan gələn oğuz təzyiqi ilə qərbə çəkilən peçeneqlərdən bir bölüyü oğuzların yanında qalmışdır ("oğuz peçeneq")[731]. Kaşğaridəki oğuz boyları siyahısında yer alan "peçeneq" bunlar olmalıdır.

Müxtəlif qaynaqlarda "patzinak" (Bizans), pecenati, pacinacae, pezengi, "bissenus" (latın), "peçeneq" (rus), "badzinaq" (erməni), "beşenyö" (macar) adları ilə zikr edilən peçeneqlər Cim və Yayık (Emba və Ural) çayları həvalisində olduqları IX əsrin ilk yarısında hər halda basqınlarla Xəzərin

[727] Bax: A. N. Kurat, Peçenek Tarihi, s. 30 və ardı; F. Sümer, Oğuzlar..., s. 13.
[728] Minorsky, Mervezî, s. 95.
[729] DLT, I, s. 57; ayrıca bax: F. Sümer, Oğuzlar..., s. 312 və ardı.
[730] Bax: A. N. Kurat, Peçenek Tarihi, s. 258.
[731] DLT, I, s. 488.

şərqindəki ticarət yollarının əmniyyətini təhlükəyə düşürmələri səbəbilə doğan xəzər-oğuz ittifaqının təzyiqinə tab gətirə bilməyərək izdihamlı kütlələr halında Volqanı keçib yurdlarından çıxardıqları macarların yerinə Don-Kuban həvalisinə gəlmişdilər (860-880-cı illərdə). Bu, böyük köçün ilk hərəkəti oldu. Macarları önlərindən sürən peçeneqlərin (türk peçeneq)[732] gerisində oğuzlar, onların da gerisində kumanlar (qıpçaq) Qara dənizin şimalından qərbə yönəlirdilər. Sibirə doğru daha geridə isə kiməklər vardı. Peçeneqlər 889-893-cü ildə Etel-küzüdəki macarları Karpatlar-Tisaya uzaqlaşdırmaq surətilə Don çayından Dneprin qərbinə qədər uzanan bozqırlara yayıldılar. İmperator K. Porphyrogennetos tərəfindən yazılan “De Administrando İmperio”da (948-952-ci illərdə) qeyd edildiyinə görə, peçeneqlər 8 boy halında idilər: ertim (ərdəm, başbuğ; bayça, sonra yavdı), çor (başbuğ: kügəl, sonra küərçi), yula (başbuğ: korkut+an, sonra kabukşın), külbəy (başbuğ: ipa, sonra suru), karabay (başbuğ: kaydu+m), tolmaç (başbuğ; kortan, sonra boru), kapan (başbuğ; yazı), çoban (başbuğ; bata+n, sonra bula)[733]. Aralarından üçü (ertim, çor və yula) türkcə "cəsur" mənasındakı "kanqar" adı ilə zikr edilən bu boylar[734] X əsr ortalarında Qara dənizə tökülən çayların sahillərində olmaq üzrə belə sıralanmışdılar: çoban (Don), tolmaç (Donun dənizə töküldüyü bölgə), külbəy (Donets), çor (Dneprin şərqi), karabay (Dnepr-Buq arası), ertim (Dnestr), yula (Prut), kapan (aşağı Dunay). İlk üçü uzlar,

---

732 = yəni xəzərli peçeneq? Bax: V. Minorsky, Hudud..., s. 312-315, 443 və ardı; yenə onun, Mervezî, s. 95; F. Sümer, həmin əsər, s. 312.

733 Bax: Byz. turc. İt, s. 84, 94,107,124, 147,156,248, 279; De Adm. İmp.-dəki peçeneqlər bölümünün nəşri və türk. tərc. A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri, s. 324 və ardı, 443-445.

734 Hadisələrin müasiri olan Bizans imperatoru K. Porphyrogennetosun öz əsərində, şübhəsiz, peçeneq qaynağına əsaslanaraq mənasını "cəsur, əsil" deyə qeyd etdiyi türkcə "kanqar" adı (Gy. Moravcsik, Byz. turc. II, s. 145; Gy. Németh, HMK, s. 49; Gy. Györffy, Monuments du lexique..., s. 75; DLT, I, s. 183. Kəlmənin törəyişi: kan+qa+r? Bax: K. H. Menges, Some Päčänäg Names..., s. 270 və ardı) toplum adı olaraq türklərdə advermə üsuluna uyğundur; kəlmə şəxs adı olaraq da yayğındır (məs. bax: F. Sümər, Oğuzlar..., s. 13 və qeyd 25). Buna rəğmən kanqar sözünün Orxun kitabələrində keçən "Kəngərəs" yer adı (bax: V, Minorsky, Hudûd..., s. 308, 324; ayrıca yux. bax: II Göytürk xaqanlığı) aracılığı ilə türkcə olmadığı sanılan əski Kanq-kü isminə bağlanması gərəkdiyi irəli sürülmüşdür, bax: S. G. Klyaştornıy, Orhon Abidelerinde Kengü’nün Kavm Yer Adı, s. 99-104. Bunun kimi, digər bəzi rus alımlərinin (kültür ünsürlərini diqqətə almadan, sadəcə oxunuşları belə şübhəli bir taqım əski adları dışdan bənzətmə yolu ilə) oğuzları da türklükdən ayrı və məhəlli bir qövm saymaq və bir oğuz boyu olan döyərləri iranlı "toxar"lardan göstərmək təşəbbüsləri (bax: E. Esin, İTED, VI, 3-4, 1976, s. 83) diqqət çəkicidir.

xəzərlər, alanlar və Krım bölgəsi ilə təmas halında, yula Türkiyə (Macarıstan) ilə, kapan isə Dunay bulğarları ilə həmsərhəd idi[735]. Boy adlarından bir qismi əski türk ünvanları (yula, çor, kapan-kapğan, kül, bəy) olub, başbuğ isimləri isə daha ziyadə rəng ifadə edir: küərçi = göy, mavi; kabukşın = ağaç qabığı rəngi = solğun, sarımtıl; suru = kül rəngi; boru = boz; yazı = əsmər (bozqır rəngi); bula = alaca; yavdı = parlaq. Qaynağımızda[736] hər boyun öz adı ilə bitişik şəkildə qeyd edildiyi bu rənglərin, hər boyun ayrı rənglərdə (yəni boy adının yanında söylənən rəngdə) atlara sahib olduğunu göstərməsi mümkün olduğu kimi[737] boyların ayrı-ayrı bayraq rənglərini ifadə etməsi daha doğru görünməkdədir [738]. XIII əsrdə boy sayı 13-ə yüksələn peçeneqlərdə şəxs adları arasında bunlar vardır: Aba, Balçar, Bator, Bıçkılı, Yekə, İl-bəg, Kürə, Qaraca, Təmir, Təbər, Sol. Ayrıca, bu kəlmələr peçeneqlərə aid qala adlarıdır: Salma, Sağa, Kerbalıq. Peçeneq qalalarından digər dördünün adı hələ çözülə bilməmişdir. Bu kəlmələrdən peçeneq dilinin daha ziyadə qıpçaq türkcəsi tipində olduğu nəticəsinə varılmışdır[739].

Peçeneqlər tarixləri boyu hər biri öz başbuğunun idarəsində olaraq yalnız boy təşkilatı çərçivəsində qalmışlar, bir dövlət (il) bütövlüyü sisteminə girməmişlər, fəqət, savaş və müdafiə zamanlarında bir arada və ortaq hərəkət etməy bacarmışlar (kumanlar və uzlar da belədir).

Peçeneqlərin ən geniş hüdud qonşusu Kiyev Rus knyazlığı idi. 915-ci ildə knyaz İqor zamanında bu əraziyə ilk  peçeneq axını düzənləndi[740] və peçeneqlərin ruslarla yan-yana yaşadıqları 1036-cı ilinə qədər, 121 il ərzində 11-i böyük çapda olmaq üzrə axınlar təkrarlandı. Rus xronikalarına görə peçeneqlər rus qəsəbələrini yağmalayır, xalqı əsir alıb götürürdülər. Salnamələr buna bənzər şikayətlərlə dolu olmaqla bərabər düşmənçilık daha çox rusların təcavüzlərindən və ya peçeneqlərin düşmənlərini qorumağa qalxışmalarından irəli gəlirdi. Bəzən də peçeneqlər rus torpaqlarına bir-birləri üə döyüşən knyazlar tərəfindən çağrılırdılar. İqor 944-cü ildəki Krım səfərində də peçeneqlərə müraciət etmişdi. Peçeneq-rus mücadilələri İtil və Dunay bulğarlarına qarşı səfər açan, 965-ci ildə Xəzər xaqanlığını yıxan, rusların

[735] Bax: Gy. Györffy. Sur la question de l’etiablissement des Pétchéngues en Europe, s. 283-292.
[736] De. Adm. İmp.
[737] Gy. Németh, Das Volk mit den scheckigen Pferden, s. 345-352.
[738] Gy. Györffy. Monuments du lexipue Pétchéngue, s. 73-76; L Rásonyi, həmin əsər, s. 131.
[739] Bax: Gy. Györffy, həmin əsər, s. 76-81; Gy. Németh,  Peçenek ve Kumanların Dili, s. 97.
[740] İ. Boba, həmin əsər, s. 26.

Böyük İskəndərə bənzətdikləri, fəqət peçeneq örnəyinə görə yetişdiyi üçün "bir peçeneq başbuğu vəsfində olan" knyaz Svyatoslav zamanında (946-972) qızışdı. Peçeneqlər 968-ci ildə Kiyevi mühasirəyə aldılar və nəhayət, Bizansla savaşdan qayıdan Syatoslavı aşağı Dneprdəki qayalıqlarda sıxışdıraraq məğlub və həlak etdilər. Knyaz Vladimir zamanında da (972-1015) rusların peçeneq ərazisinə nüfuz edərək istehkamlar qurmağa çalışmaları üzündən mücadilə şiddətləndi. Peçeneqlər bu təşəbbüslərə qarşılıq verdilər (992, 996, 1015-ci illərdə). O zaman ruslarla mücadilə edən Polşa kralı I Boleslav (992-1025) ilə də münasibət quran peçeneqlər[741] bu surətlə, xəzərlər və sonrakı kumanlar kimi, rusların Qara dənizə enmələrinə mane oldular[742] . Bu da dolayısıyla Bizans mənafeyinə uyğun düşürdü. İmperator K. Porphyrogennetos əsərində "Peçeneqlərlə mütləq yaxşı keçinmək gərəkdiyini" qeyd etmişdi[743].

Peçeneq-Bizans dostluğu ruslara və Dunay bulğarlarına qarşı hərbi köməyə ehtiyac duyan imperator Konstantinos Porphyrogennetosun cənubi Krımda Xersondakı komandanı vasitəsilə peçeneqlərlə təmas qurmaq istəməsi nəticəsində 915-ci ildə başlamışdı. İstanbuldan peçeneq başbuğlarına tez-tez elçilər, hədiyyələr göndərilirdi. İki tərəf arasında ticari fəaliyyət də canlı idi. Bizansdan gələn qumaş, ədviyyat, boya və peçeneq qadınlarının çox düşkün olduqları süs əşyası və mücəvhərata qarşılıq balmumu, tutğal, qiymətli dəri və s. satılırdı.

Fəqət peçeneqlər şərqdə çox da rahat deyildilər. Onları Volqa arxasındakı yurdlarından çıxaran uzlar (oğuzlar) qərbə doğru irəliləyir və gəldikləri Oka-Sura çevrəsində peçeneqlərin şərq cəbhəsinə basqılarını artırırdılar. Nəticədə peçeneqlərdən bir qisim 942-970-ci illər arasında Macarıstana gedib yerləşərkən əsil kütlə yavaş-yavaş qərbə axmağa başlamışdı. XI əsrin ilk rübündə peçeneqlərin Turla (Dnestr) boyuna və bugünkü Bessarabiyaya endikləri müşahidə olunur ki, Qara dəniz düzənliklərindəki peçeneq hakimiyyətini xeyli zəiflədən bu durumdan yenə ruslar istifadə etdilər. Knyaz Yaroslav normanlar, slovenlər və novqorodlular hesabına qüvvətlənən ordusu ilə Kiyev civarındakı savaşda peçeneqlərə ağır zərbə endirdi (1036). Peçeneqlər sanki gözdən silindi, aradakı siyasi münasibət kəsildi. Digər tərəfdən, imperator II Basileosun ("Bulğarokton") bulğar işini həll etdiyi 1018-ci ildən bəri

[741] Bax: E. Tryjarski, A Note on the Relations between the Pechenegs and Poland, s. 461-468.

[742] Təfsilən bax: A. N. Kurat, Peçenek Tarihi, s. 81-102.

[743] De Adm. İmp.-dən A Magyarok elödeiröl.., s.78 və ardı. Ayrıca A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri, s. 61.

Bizansın artıq dış yardım istəyi qalmadığı üçün imperatorluqla peçeneqlər arasında dövlət səviyyəsindəki təmaslar da sona çatmış olurdu. Bu durum peçeneq axınlarını Balkanlar üzərinə çəkdi (1026, 1035, 1036). Bulğarıstan, Makedoniya, Trakiya dağıdıldı. Fəqət bizanslı tarixçi Kedrenosa (XI əsr) görə "Dnepr çayından Pannoniyaya (Qərbi Macarıstan) qədər Dunayın şimal sahəsini işğal etmiş olan" peçeneqlərin 11 boyunu bir ara öz idarəsində toplamağı bacardığı anlaşılan başbuğ Tutak ilə hakimiyyət davasına qalxan digər başbuğ Kegen arasındakı mücadilə (1048) və ikincinin Bizansa sığınmasının səbəb olduğu Trakiya axını fəlakətlə nəticələndi. Kegen xristianlığı qəbul etmiş, Turak da savaşda əsir düşərək xristian olmuşdu. Bundan sonra bir yandan peçeneq-Bizans mücadiləsi davam etməklə bərabər, digər tərəfdən peçeneq kütlələrinin Bizans sınırları içinə (Bulğarıstana) keşikçi olaraq yerləşdirildiyi, bir çox peçeneqin Bizans ordusunda xidmətə alındığı və xüsusilə 1048-ci ildən sonra sayları artan bu muzdlu əsgərlərin səlcuqlulara qarşı Anadoluya göndərildiyi bilinməkdədir. Ancaq bunlardan imperator Konstantinos Monomaxosun əmri ilə Üsküdar yaxasına keçirilən 15.000 peçeneq atlısı Bizans qaynaqlarına (Kedrenos, Zonaras) görə, belə bir vəzifəni qəbul etməyərək (Boğaz içindəki gəmilər qəsdən qaldırıldığı üçün) başbuğ Katalının idarəsində atları üstündə Boğazı üzərək Rumeli sahilinə çıxmış və Dunaya dönmüşlər (1050)[744], daha sonra da 1071-ci il Malazgirt müharibəsində Bizans ordusundakı bir qisim peçeneq qüvvələri soydaşları tərəfinə keçmişdilər[745].

Peçeneqləri yuxarıdakı daxili mücadiləyə sürükləyən səbəb arxalarından gələn, fəqət özləri də kumanların (qıpçaqların) qabağından çəkilərək bir qismi 1048-ci ildə Dunayı keçmək məcburiyətində qalan uzlara müqavimət göstərə bilməmələri idi. Rus salnamələrində doğrudan-doğruya "Tork (=türk. Digər şəkilləri: torki, toruki və s.; nadirən torkmen = türkmən. Rusçada "ü" səsi yoxdur), Bizans qaynaqlarında isə qısaca "uz" deyə anılan bu qövm oğuzlardan bir qol olub, yuxarıda söyləndiyi kimi, peçeneqləri Volqa arxasındakı yurdlarından ataraq oranı işğal etmiş (860-870-ci illər) və sonra da qərbə keçmişdilər. 985-ci ildə knyaz Vladimirin İtil bulğarlarına qarşı səfərə (ehtimal ki, Kiyev knyazlığı-oğuz yabğu dövləti ittifaqı nəticəsi) bəzi "tork" ünsürlərinin qatıldığı rus xronikalarında qeyd edilsə də, ruslarla gerçək təmas qurmaq üzrə onların kütlə halında Kiyev knyazlığı hüdudlarına

[744] Bax: A. N. Kurat, Peçenek Tarihi, s. 136 və ardı; Gy. Moravcsik, Byz. turc., II, s. 140.
[745] Təfsilən bax: A. N. Kurat, həmin əsər, s. 152-160.

köçləri hər halda 1036-cı ildə peçeneqlərin məğlub olaraq Rusiyada səhnədən çəkilmələrindən sonra olmalıdır. Çünkü rus xronikasında torklarla ilgili bu vəsfdə ilk qeydin 1054-cü ilə aid olduğu bildirilməkdədir[746]. 1048-ci il hərəkatı əsl uz kütləsinin Dnepr bölgəsinə, Kiyev Rusiyasının cənubuna qədər yayıldığını göstərməkdədir. Fəqət rus knyazları toplanaraq öz bölgələrindən uzları uzaqlaşdırmayı bacardılar. 1060-cı ildəki ani hücum qarşısında yenilərək qərbə çəkilən qələbəlik uzlar (Bizans tarixçisi Attaleiatesə görə 600 min adam) 1065-ci ildə Bizans və bulğar müqavimətini qıraraq Dunayı keçdilər və  peçeneqlərin arxasından Trakiya və Makedoniyanı yağmaladılar, Səlanikə, hətta Peloponezosa qədər irəlilədilər. Bu gözlənilməz hadisə Qərbi dünyasını maraq və qorxuya düşürdü[747]. Ancaq bu sürətli istila bir işğal mahiyyətini ala bilmədi. Şiddətli soyuq üzündən uzlar arasında çıxan epidemiyalara onlardan öç almaq istəyən peçeneqlərin hücumları əlavə edildi. Uzlar qırıldı. Geri qalan uzlar Macarıstana axın təşəbbüsündə (1068) uğur əldə edə bilmədi. Artıq bir qüvvə  olmaqdan çıxan uz qalıntıları Bizans ordusuna alındılar, qısmən müxtəlif bölgələrə dağıdıldılar; Cənubi Rusiyaya dönənlər də Kiyev ətrafına yerləşdirildilər[748]. Uz basqısı üzündən Balkanlara intiqal edərək, 1050-1051-ci illərdə Bizansa qarşı şiddətli və uğurlu savaşlar verən peçeneqlərin[749] özlərini topladıqları görünməkdədir. Onların Bizans ilə şiddətli toqquşmaları imperator I Aleksios Kommenos zamanında da (1081-1091-ci illərdə) davam etmiş və hər halda bu savaşlar bəzi araşdırıcıların diqqətini çəkdiyi kimi, Anadolunun səlcuqlular tərəfindən fəthini asanlaşdırmışdır[750].  Peçeneq başbuğu Çəlgünün yanında macar kralı St. Laszlö və qüvvələri olduğu halda Lüləburqaza qədər irəlilədikdən sonra savaşda yaralanaraq ölməsi (1086) nəticəsində  peçeneqlər Tatuşun başbuğluğunda və  kumanların dəstəklədiyi orduları ilə Dersterdə (Silistirə) 1087-ci ildə imperator Aleksiosun  komandanlığı altındakı Bizans ordusunu tar-mar etdilər[751]. 1088-1090-cı illərdə davam edən savaşlarda yenə imperator idarəsindəki Bizans qüvvələrini məğlub edərək, Filibə və civarından sonra Ədirnəyə və Kəşana qədər Trakiyaya hakim oldular, 1090-cı illərin sonlarında

[746] O. Pritsak, Der Untergang des Reiches des Oguzischen Yabgu, s. 397, qeyd 2; A. N. Kurat, Karadeniz Kuzeyi Türk  Kavimleri ve Devletleri, s. 65.

[747] A. N. Kurat,  Peçenek Tarihi, s. 152.

[748] Təfsilən bax: B. Kossanyi, 11-12. Asırlarda Uz'lar ve Koman'ların Tarihine Dair, s. 120-126.

[749] Urfalı Mateos, s. 91 və ardı.

[750] Bax: A. N. Kurat,  Peçenek Tarihi, s. 165: qeyd 3.

[751] A. Comnena, Atexiad, s. 168,173-179; ayrıca bax: A. N. Kurat, həmin əsər, s. 171 və ardı.

Çəkməcəyə yaxınlaşdılar. Bizans imperatorluğu tarixinin ən böhranlı anlarından birini daha yaşıyırdı. Çünki peçeneqlər Anadoludakı soydaşları ilə işbirliyinə girişmişdilər: 10 ilə yaxın bir zamandan bəri qüvvətli donanması ilə adalardan bəzilərini zəbt edərək Ege dənizinə hakim olan oğuzların çavuldur boyundan İzmir bəyi Çakan[752] İstanbulu zəbt etmək üzrə peçeneq başbuğları ilə təmas qurmağa müvəffəq olmuşdu. Ədirnədə peçeneqlər, Egedə Çakanın donanması, Mərmərə sahillərində səlcuqlular tərəfindən üç ağızlı türk qısqacı arasına alınmış olan Bizansın 1091-ci ilin baharındakı durumu Fatehin İstanbulu fəthindən öncəki günləri xatırladırdı. Durumun ağırlığı dolayısıyla imperator Avropa xristian dünyasına müraciətə başlamış idi ki, bu rica xaçlıların bir an əvvəl hərəkətə keçmələrini təmin etmişdir[753]. Aleksios Qərbdən zamanında yardım görə bilməsə də imperatorluğunu bu təhlükədən yenə türklərin əliylə qurtarmayı bacardı: uzların arxasından Balkanlara qədər gəlmiş olan kumanların Tuğorkan (və ya Tuğor xan) və Bönək (Bonyak) adlı başbuğları ilə anlaşaraq onları Çakanın sahillərə yanaşmasını gözləmək üzrə Məriç çayı kənarında Lebuniumda (Omurbəy adlı yerdə) qərargah qurmuş olan peçeneq qüvvələrinin üzərinə göndərdi. 40 min kuman süvarisinin basqınına uğrayan peçeneqlər tamamilə əzildilər (29 aprel 1091)[754]. Siyasi tarixləri bu şəkildə sona çatan peçeneqlərdən geridə qalanlar dağıldılar. Macarıstana gedənlər Peşt çevrəsində və Fertö vilayətində yerləşdirildilər. Bir qismi də uzlara və kumanlarla qarışdı. Balkanlarda qalanlar daha ziyadə Vardar çayı boyunda məskun edilmişdilər. Makedoniyadakı megleno-ulaxları ilə Sofiya ətrafındakı şop-bulğarların peçeneq nəslindən olduqları söylənir. Anadoluda[755], Serbistan, Rusiya, Macarıstan və Qafqaz dağlarıda bəzi yer adları və xalq əfsanələrində peçeneqlərin xatirələri yaşamaqdadır[756].

---

752 Bizans qaynağında: Tzachas, bax: Alexiad: s. 183 və ardı, 198, 214 və ardı. Burada keçən adın Çaka deyil, Çakan olması daha doğrudur (Byz. turc.: I, s. 261); zira yunanlar o tarixlərdə yabançı isimlərin sonundakı n yerinə s yazırdılar. Örnəklər, Byz. turc., II, s. 65, 75, 240 və ardı. Təfsilən bax: İ. Kafesoğlu, Selçuklu Devrinde İzmir Beyinin Adı, II. Milli Türkoloji Kong., 1979.

753 Bax: F. Chalandon, Essai sur le regne d'Alexis I. Comnene, s. 129 və ardı.

754 Alexiad, s. 202 və ardı; A. N. Kurat, Peçenek Tarihi, s. 214-227.

755 Bax: F. Sümer, Oğuzlar..., s. 312 və ardı.

756 Təfsilən bax: A. N. Kurat, həmin əsər, s. 228-254; L. Rásonyi, Tarihdə Türklük, s. 133 və ardı.

Orta Macarıstanda ələ keçən məşhur Nagy Szent Miklos xəzinəsinin altın qabları üzərindəki göytürk yazılı türkcə kitabələrin peçeneqlərə aid olduğu kitabələri oxuyan Gy. Némethin təsbiti ilə ortaya çıxmışdır[757]. Ayrıca cənubi Rusiyada Poltavada tapılan Perescepine xəzinəsi də peçeneqlərə[758] aid sayılmaqdadır.

Adlarının məna və mənşəyi ilə qövmi tərkibləri 60 ildən bəri mübahisə mövzusu olan kumanlar qaynaqlarda başqa-başqa isimlər altında zikr edilmişdilər. Bu baxımdan bozqırlı türk toplumları arasında istisna təşkil edirlər. Onlara bizanslılar və latınlar "kumanos, kumanoi, cumanus, komani", ruslar "polovets", almanlar və digər qərbli millətlər "falben, falones, valani, valwen, pallidi", ermənilər "xartes", macarlar kun, müsəlmanlar “qıpçaq" (qıfşaq, xıfşax) demişlər[759]. Ruslar, almanlar, digər qərblilər və ermənilər tərəfindən verilən isimlər əslində rəng (sarı, sarımtıl, açıq sarı, saman sarısı) ifadə edir. Adlarının ilk dəfə keçdiyi rus xronikasında (1055-1056-cı illərdən xatirə) türkmən, peçeneq və torklarla (uz) eyni cinsdən olduqları bildirilən kumanlar[760] anlaşıldığına görə buralarda, daha ziyadə dış görünüşləri ilə tanıdılmaq istənmişdir. Gerçəkdən şərqli, qərbli bütün qaynaqlar kumanların qumral saçlı sarışın olduqlarında fikir birliyi halındadır[761].

İbn Xordadbehdən (885-ci illərdən) etibarən müsəlman və sonra gürcü qaynaqlarında keçən qıpçaq adı türkcə olaraq öfkəli, birdən qızan şəklində açıqlanmaqda[762], kuman və kun adlarının türk ləhcələrində də "sarımtraq", "solğun”[763] mənasına gəldiyi bildirilməkdədir[764] .

---

757 J. Nemeth, Die İnschriften des Schatzes von Nagy-Szent-Miklos, 1932, Fransızcası: Revue des Etudes Hongoises, XI, 1-2, 1937; müq. et. Fr. Altheim, Geschichte der Hunnen, V., s. 293-317. Xəzinənin rəsmləri və kitabələri: H. N. Orkun, ETY, II, s. 187-207.

758 Peçeneq əsərləri və kuman kurqanlarından çıxan arxeoloji məlzəmə üçün bax: B. Ögel, Türk Küttür Tarihi, s. 277-297.

759 Bax: Gy. Moravcsik, Byz. turc., II, s. 148 və ardı; V. Minorsky, Hudüd..., s. 315 və ardı; A. N. Kurat, Peçenek Tarihi, s. 183.

760 A. N. Kurat, həmin yer.

761 Bax: A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri.., s. 71; yenə onun: Peçeneq Tarihi, s. 186. Kumanlarda görülən bu yüngül fərq iqlim və bəslənmə ilə ilgili ola bilər.

762 Gy. Németh, HMK, s. 36, müq.et: bugünkü dilimizdə qıp-ırda+maq, qıpçaq-hərəkətli, yerində durmaz. Adın fərqli açıqlamaları üçün bax: İA. mad. Kıpçak; P. Pelliot – L. Hambis, həmin əsər, s. 96.

763 Türkcə küba (= solğun) [DLT, III, s. 217]. Bu sözdən: kuba+n, ku+n.

Kuman-qıpçaqların mənşəyinə dair ilk geniş araşdırmanın müəllifi J. Marquart[765] kumanların Uzaq Şərqdə Amur çayı dolaylarında yaşadığını irəli sürdüyü "murqa" adlı bir monqol qövmünü "kun" qəbiləsinə bağlama iddiası, onun qaynaqdakı bəzi kəlmələri yanlış oxuması (ərəbcə "firqə" sözünü qövm adı sanaraq "murqa") dolayısıyla qəbul edilməmişdir. "Kun" isminin yenə bir monqol-tibet qarışığı olan tu-yü-hun qövm adından qısaltma ola biləcəyinə dair G. Halounun düşüncəsi[766] də inandırıcı görünməmişdir. Çünki bəyaz irqın seçkin vəsflərini daşıyan kumanların vücud və çöhrələrində heç bir monqol cizgisi yoxdur, üstəlik, kuman qıpçaq dilində də monqolca ünsürlərə rast gəlinmir[767]. Fəqət kumanların irqi özəllikləri bəzi araşdırıcıları onlarla arilər (hind-avropalılar) arasında ilgi qurmağa sövq etmişdir. Həm soy, həm də kültür baxımından türkü monqoldan çox da ayıra bilmədikləri bilinən, aralarında J. Marquart, P. Pelliot, W. Barthold, D. Rassovsky və başqaları da olan qərbli bilginlər türklərə aid saymadıqları kuman tipinin, nəhayət, monqol bölgəsində türkləşmiş bir hind-avropalı qövmdən irəli gələ biləcəyi üzərində durmuşlar[768]. Hətta rus Qrim-Qrjimaylo Çinin şimalında belə bir toplumun yaşadığını kəşf etmək iddiasında bulunmuşdur[769]. Buna qarşılıq, m.ö. II əsrdə Tanrı dağlarının şimal yamacları ilə Issık göl dolaylarında oturan və başbuğları "Kun-mo" və ya "Kun-mi" (Kun-bəg, Kun-bi?) deyə anılan hun soyuna və kültürünə mənsub və türklərə məxsus bir qurd əfsanəsinə sahib və miladdan sonralar da varlıqlarını sürdürən wu-sun (və ya u-sun) qövmünün[770] Çin mənbələrində (han dövrü) "qırmızı saçlı (qumral), mavi-yaşıl gözlü" olduğu göstərilmişdir[771]. Digər tərəfdən, islam qaynaqlarından (əl-Biruni, 1050-ci illər, Mərvəzi, XII əsrin ilk rübü) anlaşıldığına görə, Orta Asiyada kun adlı bir türk qövmü X əsrin başında Şimali Çində

764 Németh, Die Volksnamen quman und qun, s. 95-109; P. Pelliot-L. Hambis, həmin əsər, s. 304; başqa görüşlər üçün bax: J. R. Hamilton, Les Ouighours..., s. 2; qun = güc, qüvvət, bax: F. Altheim, Geschichte der Hunnen, 1, s. 8, 29.

765 J. Marquart, Über das Volkstum der Komanen, 1914. Bu əsər haqqında P. Pelliot, W. Barthold, A. B. Boswell, Gy Miskolczynin tənqid və mülahizələri üçün bax: A. N. Kurat, Peçenek Tarihi, s. 191; V. Minorsky, Hudud... s, 315; I. Rásonyi, həmin əsər, s. 330.

766 Bax: V. Minorsky, Mervezî, s. 98 və ardı.

767 Bax: A. N. Kurat, Peçenek Tarihi, s. 185 və ardı.

768 Son olaraq, K. Grönbech, The Steppe Region in Worid History, II, s. 24.

769 Bax: A. N. Kurat, həmin əsər, s. 187.

770 Bax: B. Ögel, Çin Kaynaklarına Göre Wu-sun’lar..., s. 277 və ardı.

771 W. Eberhard, Çin’in Şimal Komşuları, s. 104 və ardı; yenə onun: DTCF Dergisi, V, 4, s. 461.

qurulan monqol ki-tan dövlətinin xüsusilə 936-cı ildə Çində Liao sülaləsi olaraq bütün qitəni ələ keçirmə təşəbbüsü qarşısında yerlərini tərk edib "Sarılar ölkəsi"nə (Şariya) doğru çəkilmişdir[772]. Bu "sarı"larla adları eyni mənaya gələn kunların mənşə baxımından ilgisi üzərində durulmuşdur: Mərvəziyə görə, -heç olmazsa bir qismi- Aral gölünə qədər çəkilmiş olan bu "sarı"ların ya "sarı uyğur"lardan (yux. bax: Kan-çou Uyğur dövləti) ola biləcəyi[773] və ya bəlkə də "Sarı-su" çay adında və türgiş xaqanının paytaxtı civarındakı (Çunun qərbi?) ibn Xordadbehin bəhs etdiyi "Sarigh" qəsəbəsində xatirəsi mövcud "sarı türgiş"lərlə birləşdirilə biləcəyi düşünülmüşdür[774]. Üstəlik, kimək ölkəsinə uzandığı sanılan yol üzərində Gərdizinin (Ulu kuman?) deyə qeyd etdiyi bir bozqır sahəsi vardır[775].

Kun-kuman-sarı-qıpçaq məsələsinə dair son araşdırmalara görə[776] durum belə görünməkdədir: (kumanların qərbə köçündən öncə) Orta Asiyada İtil-Seyhun-İrtiş arasında oğuzlar, Tobol, İşim çevrəsində qıpçaqlar, buradan Altaylara doğru kiməklər, Issık göl ətrafında qarluqlar bulunur, daha şərqdə Nan-şan bölgəsində (Mərvəzidəki Şariya) sarı uyğurlar yer alırdılar. Huang-ho dirsəyi dolaylarında nəsturi (xristian) öngütlər vardı. Bax bu zaman kunlar da bu civarda bir yerdə yaşamaqda idilər (zira Mərvəzi, ehtimal ki, onları öngütlərlə qarışdıraraq, kunların xristian olduqlarını söyləyir). "Sarı"ya gələn kunlar (kumanlar) özləri ilə bərabər sarı uyğurlardan bir kütləni də sürükləyərək, Cunqariya qapısından türkmən (qarluq) bölgəsinə, oradan da şimalda qıpçaqların sahəsinə gəldilər. Əğər "300 min çadır xalqının Çindən çıxaraq" qaraxani ölkəsinə saldırmaq istədiklərinə, fəqət Balasağuna 8 günlük məsafədə qaraxani Toğan xan tərəfindən geri atıldıqlarına dair ibn ül-Əsirdəki xəbəri[777] bu hadisə ilə ilgiləndirmək mümkünsə[778] böyük kun-sarı köçünü qıpçaq torpaqlarına çevirən səbəbin qaraxani müqaviməti və əks-hücumu olduğunu qəbul etmək lazımdır. Əslində qərbi göytürk toplumlarından olan qıpçaq kütləsi əski çiklərin[779] X əsrdəki davamı olduğu anlaşılan, İrtiş

[772] Bax: V. Minorsky, Mervezî, mətn, s. 18, tərc., s. 30.
[773] V. Minorsky, Hudud..., s. 317; Mervezî, s. 98-102.
[774] V. Minorsky, Hudud..., s. 284, qeyd. 5.
[775] Bax: Hudud..., s. 306, 315, qeyd 3.
[776] Bax: Czeglédy, A Kunok eredeteröl, s. 43-50.
[777] el-Kamil, 408/1017-1018-ci il. Ayrıca bax: İA. mad. Karahanlılar, s. 256a.
[778] Bax: L. Rásonyi, həmin əsər, s. 137.
[779] Kitabə II, şərq, sətir 26; Şine-usu, şərq, 7, 11.

boylarındakı kiməklərdən[780] İşim-Tobol vadilərində oturan bir qol idi. Kaşğari yimək (imək) qövmündən və bu qövm  qıpçaqların böyüyü sayıldığı halda qıpçaqların özlərini ayrı tutduqlarından bəhs edir[781]. Bundan, Marquarta görə, o sırada (XI əsrin son yarısı) ikili federasiya (kimək=iki yimək, 2 imək) halında yaşayan kiməklərdə idarəçiliyin qıpçaq qolunda olduğu anlaşılmaqdadır. Bu iqtidar dəyişıkliyi hər halda əsrin başlarında meydana gəlmiş və qıpçaqlar Balxaşdan İrtışa qədər hakim bulunduqları sırada cənubdan kun (kuman) sarıların gəlməsi ilə daha da qüvvət  qazanaraq, bu səfər birlikdə (ehtimal ki, şərqdən ki-tan basqısı və ya daha ziyadə yer və otlaq darlığı səbəbi ilə) Volqa üzərindən qərbə yönəlmişlər və sonra önlərindəki uz kütləsi 1048-ci ildə Balkanlara çəkildiyi üçün Cənubi Rusiya sahəsinə intiqal etmişdilər. Bu surətlə rus xronikasında kumanlar (polovtsı) ilk dəfə 1054-ci ildə görünürlər[782]. Hakimiyyətləri Dneprə qədər yayılan bu dövrdə şərqdə "qıpçaq" adı mühafizə edilərkən, qərbdə baş tərəfdə zikr etdiyimiz adlarla anılmağa başlamışlar.  Kumanların (qıpçaqların) monqol istilasına qədər 1,5 əsrdən çox bir müddət Qara dənizin şimal bozqırlarını öz hökmləri altında tutmaları rus və Balkanlar tarixində dərin izlər buraxmışdır. 1055-ci ildə Pereyaslavl knyazı ilə bir müqavilə bağlayan başbuğ Boluşdan sonra kumanlar 1061-ci ildə rusları yendilər və 1068-ci ildə özlərindən qaçan bəzi uz və peçeneq qruplarım xidmətə aldığı gərəkçəsi ilə yenə Pereyaslavla girərək rus knyazlarının birləşmiş ordusunu pərişan etdilər (Alta çayı savaşı. Kiyev civarı), Çerniqov knyazlığına qədər soxuldular. Kiyev knyazı Polşaya qaçdı. 1071-ci ildə Rostovtsev Neyatin bölgəsinə, 1079-cu ildə Voin qəsəbəsinə, ertəsi il Novqorod sahəsinə axınlar edən kumanlar (qıpçaqlar) 1080-ci illərdə Don-Dnestr ağırlıq mərkəzi olmaq üzrə hakimiyyətlərini Balxaş gölü-Talas həvalisindən Dunay ağzına qədər yaymışdılar. Qafqaz dağlarında Kuban bölgəsini də içinə alan bu ərazi şimalda Oka-Sura nəhrləri boyuna, yəni İtil bulğarları sınırına uzanırdı. Şərqi Avropa-Qərbi Sibir bozqır bölgələrinin tamamını təşkil edən kuman-qıpçaq sahəsi o vaxtdan etibarən islam qaynaqlarında "Dəşti-qıpçaq ("Qıpçaq bozqırı") adını almış, Qərb qaynaqlarında (İdrisi, Rubruquis, Plano Carpini və s.) "Comania" (Komaniya) deyə anılmışdır. D. Rassovskiyə görə[783] rus, bulğar, alan, burtas (mordva), xəzər

[780] Təfsilən bax: V. Minorsky, Hudud..., s. 304-310; Mervezî, s. 32,107 və ardı; F. Sümer, Oğuzlar..., s. 31 və ardı.
[781] DLT, III, s. 29.
[782] V. Minorsky, Hudûd..., s. 316; A. N. Kurat,  Peçenek Tarihi, s. 183.
[783] D. Rassovsky, Polovtsi, Sem. Kond. Praha. VII-XI, fransızca özətli.

və ulaxların kuman tabeliyində yaşadıqları bu dövrdə kuman-qıpçaq ölkəsi beş qisim halında idi: Orta Asiya, Yayık-Volqa, Don-Donetsk, aşağı Dnepr, Dunay[784]. Buralarda kuman-qıpçaqlar hər biri öz başbuğlarının ("xan") idarəsində olmaq üzrə ayrı bölüklər olaraq yaşayırdılar və 1091-ci ildə də Ədirnə yaxınlığındakı Lebunium savaşında Bizansın müttəfiqləri, şübhəsiz, ancaq "Dunay" bölüyü mənsubları idi. Bu tarixlərdə Altunapa, Saruxan adlı başbuğlar Qıpçaq bozqırında rol oynayan başlıca simalardı. Kumanlar 1091-ci ildə Macarıstana, 1092-ci ildə Polşaya girdilər, 1093-cü ildə təkrar Bizans torpaqlarında göründülər. 1093-1094-cü ildə rus bölgəsinə axınları davam etdi. Anlaşılır ki, məqsədləri torpaq işğalı deyildi. Peçeneqlərdə də gördüyümüz kimi, bölgədə xəzərlər daxil hər bir bozqır-türk siyasi toplumu üçün keçərli olmaq üzrə, bozqır iqlimindən xaricə çıxılmır, öz həyat tərzlərinə ən uyğun ərazinin mühafizəsini, dış təhlükədən uzaq qalmasını təmin etmək qayəsi ilə bozqırlar ötəsindəki siyasi toplumların daima basqı altında tutulmasına çalışılırdı. Türk torpaqlarının güvənliyi şərtləri içində gerçəkləşdirilən barışlar çox vaxt qarşı tərəf sözündən dönmədiyi müddət ərzində sürüb getməkdə idi. Bu durum bəzən evlənmələrlə də sağlamlıq qazanırdı. Bir anlaşmaya görə, Tuğorkanın (və ya Toğur xan) qızı Kiyev knyazı Svyatopolk ilə (1094), sonra Çerniqov knyazı Oleq başbuğ Osuluğun (Uzluk) qızı ilə evləndi. Beləcə bir ara knyazların və əyanlarının xatunlarından çoxunu kuman şahzadə və qızları təşkil etdi. Bununla bərabər, kuman-rus münasibətləri çox da hüzurlu deyildi. Çünki knyazlar öz aralarındakı mücadilələrdə bir-birlərinə qarşı kumanlardan dəstək almağa çalışır (məsələn, Oleq 1095-ci ildə) və ya yanlarındakı kuman başbuğlarının adamlarını fürsət tapdıqca ortadan qaldırırdılar. 1096-cı ilin əvvəlində Kiyevə göndərilən iki elçi (İtlər və Kıtan) məiyyətləri ilə birlikdə öldürülmüşdülər[785]. Bu hadisə savaşa səbəb oldu. Tuğorkan ilə başbuğ Kürə bəzi qəsəbələri yandırdılar, Kiyevi və civarını yağmaladılar (may 1096). Fəqət knyazların ittifaqı qarşısında savaşı uduzdular. Müharibədə Tuğorkan ilə oğlu ölmüşdülər. İki oğlu kuman başbuğlarının qızları ilə evli olan Kiyev şahzadəsi Vladimir Monomax daha ciddi davrandı, 1097-ci ildə Liyubeç qəsəbəsində tərtiblədiyi böyük toplantı ilə knyazları uzlaşdırmağa, rus müqavimətini təşkilatlandırmağa girişdi və

[784] Bax: D. Rassovsky, Sem. Kond., X, s. 178, ayrıca bax: A.Y.Yakubovskiy. Altın Ordu ve İnhitatı, s. 6. Böyük kuman-qıpçaq kütləsinin sağ-sol təqsimatı içində yaşadıqları, şərqi (sağ qoldakılara "qara qıpçaq", qərbi (sol qoldakılara "ağ qıpçaq" da deyildiyi) bildirilməkdədir. Bax: A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri, s. 74.

[785] A. N. Kurat, həmin əsər, s. 80 və ardı.

1103-cü ildə bütün knyazların başında kumanlara qarşı böyük bir uğur qazandı. Kumanlar buna qısa fasilələrlə şiddətli axınlar halında cavab verdilər (1105-1111-ci illər arasında 4 dəfə) ki, rus xronikalarını dolduran bu mücadilələr ilk rus xalq ədəbiyyatını zənginləşdirmişdir. V. Monomaxın ölümündən sonra knyazlar arasında mübarizələr təkrar alovlandığı zaman kumanlar bundan faydalana bilmədilər. Davamlı çarpışmalarla gənclərini və dirayətli başbuğlarını bir-bir itirən Kiyev civarı kuman birliyində zəiflık əlamətləri yaranmışdı. Dunay kumanlarından bir qismi Macarıstana gedərək əsgərlik etməkdə idi[786]. XII əsrin ikinci yarısında Dnepr kumanlarının bir az toparlandıqları görüldü. Bunlar Könçək ilə Kobyakın (Köpək) başbuğluğu altında Pereyaslavl knyazlığına qarşı hücuma keçdilər (1177, 1179). Aksu (Buq) civarındakılar Kiyevə doğru axınlar etdilər, fəqət 1184-cü ildə knyaz Svyatoslav idarəsindəki şiddətli basqında birləşmiş rus qüvvələrinə məğlub oldular. Rəvayətə görə, verdikləri 7000 əsir arasında 417 bəy və ya bəy oğlu var idi[787]. Ancaq kumanların cavabı da şiddətli oldu: 1185-ci ilin baharında Novqorod-Seversk knyazı İqorun komandanlığındakı birləşmiş rus ordusunu aşağı Don boyunda Kayalı (bugünkü Kagalnik?) çayı qıyısında mühasirəyə alaraq məhv etdilər. Başbuğ Könçəkin idarə etdiyi bu savaşda şahzadə İqor daxil rus ordusundakı knyazların hamısı yaxalanmışdı; əsirlərə yaxşı baxılmış, sonradan qaçmağa müvəffəq olan İqorun yaraları tədavi edilmişdi.

Rus ədəbiyyatının şahəsəri olduğu söylənən rus milli dastanının (Slovo o polku İqoreve) başlıca mövzusu bu 1185-ci il qarşılaşmasıdır. Bu dastanda səfərin ayrıntıları, təbiət, qəhrəmanlıq, üzüntü, İqorun arvadının fəryadları ustalıqla anladılmışdır. 1800-ci ildəkı ilk nəşrindən zamanımıza qədər Rusiyada dəfələrcə yayınlanmış və incələnmiş olan mətnin sonradan uydurulduğuna dair iddialar irəli sürülsə də, tarixi hadisəni əks etdirdiyindən şübhə edilməməkdədir və ayrıca dil, savaş texnikası, silahlar, mədənçilik və s. baxımından ruslar üzərində türk təsirlərini göstərməsi etibarilə sənəd dəyəri böyükdür[788] .

---

786 Macarıstandakı kumanlar üçün bax: İA. mad. Kıpçak.

787 Təfsilat üçün: A. N. Kurat, həmin əsər, s. 84 və ardı.

788 Bax: K. H. Menges, The otiental Elements in the Vocabulary of the Russian Epos, the İgor Tale, 1951; A. N. Kurat, həmin əsər, s. 87 və ardı; L. Rásonyi, Tuna Havzasında Kumanlar, s. 409; yenə onun: Tarihte Türklük, s. 140 və ardı; A. Caferoğlu, Türk Dili Tarihi, II, s. 166; N. Poppe, Rusçadakı Türkçe Kelimeler..., s. 132-158.

Don və Kuban dolaylarındakı kumanların (qıpçaqların) da gürcülərlə yaxın münasibətləri olmuş, bu vəsilə ilə kumanlar Qafqaz dağlarının cənubuna keçmişdilər. Gürcü kiralı Baqratlı II David (1088-1125) Böyük Səlcuqlu imperatorluğunun ən qüdrətli çağına təsadüf edən hökmdarlığının başlarında islam-türk basqısına qarşı dura bilmək və mümkün olduğu təqdirdə Abxaziya ölkəsini və başqa gürcü bölgələrini səlcuqlulardan geri almaq üçün aralarında yavaş-yavaş xristianlığın yayılmaqda olduğu qıpçaqlardan özünə ən yaxın birlik ilə təmas quraraq hərbi dəstək təmin etməyə çalışmış, onlardan aldığı yardımlarla cənub yönündə bəzi hərəkətdə bulunmuş (1109-1110-cu ildə) və gözəlliyi ilə məşhur bir qıpçaq şahzadəsi ilə evlənmişdi. Bu qız yuxarıda adı keçən başbuğ Saruxanın (Charaghan) nəvəsi və onun yaşlılığı dolayısıyla yerinə başbuğ seçilən oğlu Atrakın (Atraka) qızı idi. Atrak da kralın dəvəti ilə özünə bağlı izdihamlı kütlələrlə (40 min ailə) Gürcüstana getdi (1118. İlk böyük köç)[789]. Bu kuman-qıpçaq kütlələri Çoruh, Kür dolaylarını "görünməmiş bir qüdrət və genişliklə canlandırdılar; səlcuqlulara bağlı müsəlman əmirlikləri idarələrinə aldılar və sayı 40 min təxmin edilən bir süvari ordusu ilə Şirvana, Azərbaycana səfərlər etdilər. 1121-ci ildə Borçalı çayı həvalisini ələ keçirdilər. 1123-cü ildə aldıqları Tiflisi gürcü krallığının paytaxtı etdilər. 1124-cü ildə İspir və Oltuya qədər irəlilədilər. Şirvanşahları vergiyə bağlamış, saltuklu, sökmənli, məngücüklü və artuklu bəyləri ilə və daha sonralar Azərbaycan atabəyliyi ilə davamlı mücadilə etmişdilər[790]. Kral III Giorgi (1156-1184) zamanında gürcü hərbi gücünü meydana gətirən qıpçaqlar 1177-ci ildə asi ordu komandanı İvane Orbeliandan kralı himayə etmək surətilə baş komandanlığı təhvil alan ünlü başbuğ Kubasar ilə büsbütün hakim duruma gəldilər. Dövlət adamı Qutlu Arslan kimi qıpçaq bəylərinin idarəsində başlayan -anası tərəfindən qıpçaq- gözəl kraliçə Tamara (1184-1213) dövründə gürcü dövləti şimaldan qıpçaqlar başbuğunun qardaşı Sevinc idarəsində yeni kütlələrin ölkəyə gəlməsi və (ikinci böyük köç: "Yeni qıpçaqlar") hərbi, siyasi sahədə tarixinin ən parlaq çağını yaşadı[791]. Bugün Kür, Çoruh və Çıldır gölü həvalisində qıpçaq türkcəsinə yaxın bir dil danışan əhalinin buraya o tarixlərdə gələn kuman-qıpçaq kütləläriylə yaxın ilgisi olduğu, bölgə xalq ədəbiyyatında bəzi motiflərin o döv-

[789] Bax: M. Brosset, Histoire de la Georgie, I, s. 362.

[790] Təfsilən bax: O. Turan, Doğu Anadolu Türk Devletleri Tarihi, s. 6 və ardı, 19 və ardı, 62, 91, 105, 148 və ardı.

[791] M. Brosset, həmin əsər, I, s. 363 və ardı, 437 və ardı; II, 1851, s. 264, 269, 291 və ardı; L. Rásonyi, həmin əsər, s. 414; İA. mad. Gürcistan.

rün xatirələrini daşıdığı bildirilməkdədir[792]. Səlcuqlu çağının tanınmış şəxsiyyətlərindən, Azərbaycan atabəyliyinin (1146-1225) qurucusu İl-Dəniz[793] də Qafqaz dağlarından gəlmiş bir qıpçaq türkü idi. Gürcistana gəlmələri dolayısıyla Don boylarını bəlkə tamamən, Kuban bölgəsini qismən boşaltmış olan kumanlardan Krım yarımadasında qalanlar şəhərlərə yerləşərək ticarət həyatına atılmış, hətta bəzi kiçik qəsəbələr da qurmuşdular. Fəqət 1203-ci ildə Kiyevi işğal etmələrinə və 1219-cu ildə ruslarla birlikdə qısa bir müddət üçün Galiçiyanı macarlardan almış olmalarına rəğmən, XIII əsrin başlarında artıq "Dəşti-qıpçaq" bütünlüyündə siyasi qüdrətə sahib bir kuman toplumu qalmamış kimidir. Şərqdəkilər qıpçaq, yimək, qanqlı, uran və başqa adlar altında bozqırlarda əski qəbilə yaşayışı içində ikən xarəzmşahlar dövləti ilə, xüsusilə Sultan Əlaüddin Təkişə (1172-1200) xatun olaraq bir şahzadə verdikdən sonra təmaslarmı artıraraq bu türk-islam dövlətində hərbi vəzifələr almış, sərhədlərin genişləməsində böyük xidmətlər göstərmiş və sonra monqolların Orta Şərqi istilasının ərəfəsində xarəzmşahlar imperatorluğu hərbi gücünün tamamını meydana gətirmişdilər[794]. Fəqət bu ordu monqollar tərəfindən yox edildi (1220). Monqollar qarşısında uğursuzluq Dəşti-qıpçaqda da göründü. XIII əsr başlarından etibarən rusların sanki yardımçısı vəziyyətinə girən kumanların Krım çevrəsindəki zümrələri Qara dənizin böyük ticarət limanı Suğdak ilə dolaylarını Anadolu səlcuqlularına tərk etməyə məcbur qalmaqla (1226)[795] iqtisadi yöndən uğradıqları sarsıntını aradan qaldıra bilmədilər. Hələ 1223-cü ildə Cəbə ilə Subatay komandanlığındakı iki monqol tüməninə ruslarla birlikdə məğlub olan kuman-qıpçaqlar (Kalka savaşı)[796] Çingizin nəvəsi Batu idarəsində Dəşti-qıpçaq iç bölgələrinə irəliləyərək İtil Bulğariyasını tapdayıb keçdikdən sonra bir anda rus knyazlarının hərbi güclərini pərişan edən monqol ordusu qarşısında duruş gətirə bilmədilər. Don-Donets hövzəsində başbuğ Kötən komandanlığındakı qüvvələr dağıldı (1239) və başbuğ qurtula bilənlərlə Macarıstana iltica etdi. Kuman-qıpçaqların izdihamlı bir qismi də İtil Bulğariyasına getdi və orada əhali üs-

[792] Bax: F. Kırzıoğlu. Kars Tarixi, I, s. 376-381, 405 və ardı, 415 və ardı; A.N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri.., s. 84.

[793] Bax: İA. mad. İl-deniz; ayrıca təfsilən İ. Kafesoğlu, Harezmşahlar Devleti Tarihi, s. 78 və ardı, 108-112, 138 və ardı, 199-205.

[794] Təfsilən bax: İ. Kafesoğlu, həmin əsər s. 91-101, 128-132.

[795] Təfsilən bax: A. Y. Yakubovskiy, İbn-i Bibi'nin 13. Asır Başında Anadolu Türklerinin Sudak, Polovets (Kıpçak) ve Ruslara Karşı Yaptıkları Seferin Hikayesi, s. 207-226.

[796] Bax: İbn ül-Esir, el-Kamil, 617-ci il hadisələri; A. Y. Yakubovskiy, Altı Ordu..., s. 35-38.

tünlüyü qazanaraq qıpçaq türkcəsinin bulğar ləhcəsi yerinə ümumiləşməsinə səbəb oldu. Bütün qıpçaq bozqırı monqol istilasına uğrayıb Altun-ordu dövləti qurulduqdan (1256) sonra, "Dəşti-qıpçaq" təbiri daha uzun müddət işlənməklə bərabər kuman-qıpçaqların artıq heç bir rolu qalmamışdı[797]. Kuman-qıpçaqlar o dövrdə Misirdə varlıqlarını daha yaxşı ortaya qoymuşlar. XIII əsr başlarından etibarən dağınıqlıqları və getdikcə daralan imkanları üzündən həyat şərtlərinin zorlaşdığını gördüyümüz kuman qıpçaqlar, xüsusilə qıtlıq və heyvan xəstəliklərinin tüğyan etdiyi illərdə Qıpçaq bozqırında slavyanlar dolayısıyla əski tarixlərdən bəri davam edən bir ənənəyə uyaraq sağlam, gürbüz uşaqlarını pul qarşılığında başqa və daha firavan ölkələrə göndərməyə başlamışdılar[798] . Misirdə əyyubi dövləti hərbi gücünü yabançılardan təmin etməyə məcbur olduğundan Dəşti-qıpçaqdan və Qafqaz dağlarından gətirilən qıpçaq, oğuz, çərkəz gənclərini sevinclə qəbul edir və onlara xüsusi kazarmalarda təlim keçirdi. Tam bu sırada Misirə xeyli kuman-qıpçaq dəliqanlısı gələrək orduda xidmətə başladı. Nəhayət, İzzəddin Ay-bəgin 1250-ci ildə əyyubilər yerinə sultan elan edilməsi ilə qurulan Misir türk dövləti qısa zamanda kuman-qıpçaq ünsürünün əlinə keçdi. Bunlardan ehtimal ki, qıpçaq olan Sultan Kotuzdan[799] sonra, Sultan Bəybars[800] özünü həm qüdrətli bir əsgər, həm də yüksək dövlət adamı olaraq göstərdi (1260-1277). İslam xilafətini ehya etmək, monqolları Suriyadan uzaqlaşdırmaq kimi icraatı ilə zamanın seçkin bir hökmdarı oldu. Yerinə keçən Sultan Kalavun (1279-1290)[801] da bir qıpçaq idi. O da birləşmiş monqol-erməni-frank ordularını yenigilərə uğradan "Ən böyük islam hökmdarı" olaraq anayurdu ilə bağlantını davam etdirmiş, Altun-ordu ilə dostanə münasibətlərdə bulunmuş[802] və Misir-türk dövlətində ilk hökmdar sülaləsinin qurucusu olmuşdur. İqtidar çərkəz kölələrinə keçincəyə qədər övladları dövləti idarə etmişlər (1290-1332). Bu dövr içində dövlət “Türk dövləti" (əd-dövlət üt-türkiyyə və

---

[797] Təfsilən bax: A N Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri.., s. 90-97. Şərqdəki qıpçaqlarla ilgili qeydlər üçün bax: P. Pelliot-L. Hambis, həmin əsər, s. 95-112; B. Ogel, Sino-Turcica, s. 275-292.

[798] el-Ömeri (ölümü: 1348), Məsaikul-Ebsar, bax: W. G. Tiesenhausen, Metinlər, 1,1941, s. 365.

[799] İA, mad. Kutuz (Kotuz adı üçün bax: aş. III fəsil, s. 256, qeyd 305).

[800] İA, mad. Beybars.

[801] İA. mad. Kalavun.

[802] Təfsilən bax: M. F. Köprülü, Altın Ordu’ya Ait Yeni Araştırmalar, s. 414 və ardı.

ya dövlət ül-ətrak) deyə anılmış[803], Misir və Suriya "Türkiyə" adını almışdır[804]. Əksəriyyəti ərəbcə danışan yerli xalqın dışında qalanlar üçün ümumi dil türkcə və kültür türk kültürü idi[805] ki, çərkəz idarəsi dövründə də vəziyyət belə davam edərkən ölkə osmanlı türklərinə intiqal etmişdir (1517). Hindistanda Dehli türk sultanlığında ikinci hökmdar ailəsinin qurucusu olub, daha ziyadə Uluğ xan deyə anılan Sultan Balaban (1266-1286) da gəncliyində Dehliyə gedərək dövlət xidmətində olmuş qıpçaq böyüklərindən idi[806].

IX-XIII əsrlər boyunca Şərqi Avropa-Qərbi Sibir bozqırlarına hakim olan peçeneq-uz-kumanların (qıpçaqların) tarixi rolları indiyə qədər saydıqlarımızdan ibarət deyildir. Bunların zamanımıza qədər sürüb gələn başqa mühüm xatirələri vardır. Öncə bu türk boyları rusların Qara dənizə enmələrinə və Balkanlara dolmalarına izin verməmişlər. Sonra Dağıstan həvalisi, Terek boyu və sair bölgələrin türkləşməsində təsirli olmuşlar. Rus xronikalarında knyazlıqlara yerləşdirilən və xatirələri o bölgələrdə hələ də mühafizə edilən berendilərin peçeneqlərdən bir bölük olduğu[807], Kiyev knyazlığında hüdud keşikçisi olduqları irəli sürülən qaraqalpaqların[808] da peçeneq-uz-berendi qarışığından meydana gəldiyi bilinməkdədir[809]. Bunlardan bir qisminin sonralar Ceyhun ağzına gedərək bugünkü qara-qalpaqları təşkil etmiş olduqları anlaşılmaqdadır[810]. Bugün Rumıniyada açıq sarı saçları və mavi

---

803 Qaynaqlarda hökmdarları daima "Müluk üt-türk" (türk hökmdarları) deyə anılan bu dövlətin sahiblərinə çox sonralar "Türk məmlükləri" adı verilmiş, zamanımızda da "Türk kölemənləri" ("Misir kölemən dövləti") deyilmişdir. Halbuki başlanğıcda pul qarşılığı xidmətə alındıqları üçün "məmlük" olaraq göstərilən, fəqət böyük idarəçi, komandan və nəhayət, hökmdar olan bu insanların gerçək köləlik ilə ilgiləri yoxdur. Əsasən, ərəbcə məmlük kəlməsinə bu məna sonradan yaraşdırılmışdır (bax: B. Lewis, İslam, I, s. 253. Bu dildə kölənin tam qarşılığı "əbd"dir). Bu etibarla "Kölemən dövləti", "Məmlük sultanları" kimi deyimlər yanlışdır.

804 Bax: Byz. turc., II, s. 269, 306.

805 Təfsilat üçün bax: A. Caferoğlu, Türk Dili Tarihi, II, s. 162-167, 196-204.

806 Bax: F. Köprülü, İA. mad. Balaban.

807 L. Rásonyi, həmin əsər, s. 132, 146, 320.

808 İA, mad. Kara-Kalpaklar. A. Vámbéry, A Török faj, s. 448-460; D. Rassovsky, Eski Rus Tarihinde Kara-Kalpakların Rolü, Ülkü, sayı 57, s. 248-258; sayı 59, s. 479 və ardı; ayrıca P. P. İvanov, Karakalpakların Tarihine Dair Materyaller, Ülkü, sayı 65-66, s. 417-424, 539-544.

809 Ayrıca bax: B. Kossanyi, həmin əsər, s. 130.

810 Bu xüsusta Kara-Kalpak Şivesi İncelemeleri, bax: TM, X, s. 407-410.

gözləri ilə ətrafdaki toplumlardan ayrılan çanqoların da kumanlardan olduqları qüvvətlə irəli sürülməkdədir[811].

1223-cü il Kalka savaşından sonra Moldaviyadakı kumanların başbuğu Borç xana bağlı kütlələr o zaman "Cumania" deyilən bu bölgədə (şimal-şərqi Rumıniya) xristianlığı qəbul etmiş, onlar üçün yepiskopluq qurulmuş (1233), 1239-cu il yenilgisindən sonra Kötən idarəsində Macarıstana köçənlər Dunay-Tisa arasına yerləşdirilmişdilər. Buradakı yer adları onların xatirələridır (Kis-Kunsaq, Nagy-Kunsaq=Kiçik və Böyük kumanlar; Debretsen-Şərqi Macarıstanda böyük universitet şəhəri Kartsaq və s.). Macar dilində mövcud türkcə sözlərin "orta təbəqəsi" kuman-qıpçaqcaya aiddir. Vaxtilə avarların slavyanları təşkilatlandırması kimi peçeneq və kuman idarəçilərinin də Balkanlarda buna bənzər böyük xidmətləri görülmüşdür, 1185-1237-ci illər arasında Dunayın cənub bölgəsində izdihamlı halda yaşayan kumanların Bizansa qarşı bulğar istiqlal mücadilələrində (1185-1195) başlıca rol oynadıqları anlaşılmaqdadır. Mücadiləni qazanaraq ikinci bulğar dövlətinin başına keçən və ulaxların (sonrakı rumınların) təşkilatlanması tarixində yeri olan çar Asenin (1187-1196) kuman mənşəli olduğu, daha sonrakı bulğar hökmdarlarından bir qisminin kuman olduğu göstərilmişdir[812]. Bizans-İznik imperatoru J.Vatatzes (1222-1254) monqolların önündən çəkilən kumanlardan çoxunu torpaq əvəzində hərbi xidmətə alaraqTrakiyada, Makedoniyada və qərbi Anadoluda yerləşdirmişdir[813].

Peçeneqlərin, uzların və kuman-qıpçaqların şərqi Dunay çevrəsindəki etnik və siyasi durumun təşəkkülündəki təsirləri də ziyadəsilə diqqət çəkicidir. Hazırda Rumıniyada yaşayan və ana dilləri türkcə olan qaqauzların XIII əsrdə oraya gedən səlcuqlularla ilgili olduqları iddia edilsə də[814], bunların daha ziyadə xristianlaşmış bir uz kütləsi olması ehtimalı üzərində durulmaqdadır[815]. Rumıniyada bəzi türkcə yer adları (Teleorman, Derehlui (vadi),

---

[811] Bax: A. N. Kurat, həmin əsər, s. 67 və ardı, 71.

[812] L. Rásonyi, Tarihte Türklük s. 153 və ardı; yenə onun: Tuna Havzasında Kumanlar, s. 422.

[813] L.Rásonyi, Tarihte Türklük, s. 154.

[814] Bax: P. Wittek, Les Gagaouzes, Les gens de Kaykaus, s. 12-24; aynca bax: İA. mad. Selçuklular, s. 395 və ardı.

[815] A.N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri.., s. 67; A. Decei, Le problәmә de la colonisation des Turcs seljoukides dans la Dobrogea au 13e siecle, s. 108-111; T. Kovalski, Dobrucada Türk Etnik Unsurlar, s. 8; Gagauz Edebiyatı: G. Doerfer, Ph. T. Fund, II, s. 835-840. Zamanımızda Gagauzlar ve Durumları: Y. Nabi, Balkanlar ve Türklük, 1936, s. 57-114. Qaqauzlar haqqında geniş biblioqrafiya üçün bax: M. Kiel, The Türbe of Sarı Saltık.., s. 206 və ardı.

Turlui (turlu = duzlu), Arges, Baraqan, Cumana, Peçineaqa, Caraisnan və s.) ilə rumın dilində mövcud türkcə kəlmələrdən çoxu o dövrün xatirələridir. Eyni bölgədə 1330-cu illərdə təşəkkül etdiyi bilinən ilk rumın dövlətinin də kuman-qıpçaq ünsürünə dayanan bir başbuğ ailəsi tərəfindən qurulduğu bilinməkdədir. Qurucusu Tok-təmir oğlu Basar-aba idi (basmaq felindən basar+aba). Aba (=apa, türkcə ünvan) şəkilçisi ilə düzələn adlar oğuzlarda (Ay-aba, Boz-aba), Şərqi və Orta Avropa və Misirin qıpçaq-kuman çevrələrində (Altın-aba, Tonuz-aba, It-aba, Arslan-aba və s.) yayğındır[816]. Rumıniyanın şimalındakı Bessarabiya bölgəsi də eyni adı daşıyır[817]. Basar, Basaroğul tərzində isimləndirmələr Dəşti-qıpçaqdakı monqollarda görünsə də, kəlmə əslən türkcədir, üstəlik, monqol hakimiyyəti dövründə türkcə danışıldığı və xalqın böyük əksəriyyətini türklərin təşkil etdiyi diqqətə alınsa, türkləşmiş monqollardan olduğuna ehtimal verilən Basarabanın[818] türk kültürünü təmsil etdiyi anlaşılar. XV-XVI əsrlərdəki rumın dövlət böyüklərinin xalis türkcə olan adları Akbaş, Akkuş, Bozdoğan, Bilik, Berendey, Barak, Bars, Beybars, Buğa, Belçir, Qara, Qızıl, Kazan, Şişman, Təmirtaş, Tok, Ötəmiş və s.[819] də bu görüşü dəstəkləməkdədir.

XIV əsrin ikinci yarısında Dobrucada qurulan dövləti də kuman türklərinə bağlamaq mümkün görünür. Bir yandan bulğar, bir yandan Bizans iqtidarlarının zəif düşdüyü bu dövrdə Bizans imperatoriçəsi Anna tərəfindən yardımına müraciət edilən (1346-cı ildə) aşağı Dunay bölgəsi məhəlli başbuğlarından Balikanın (türkcə balıqdan) oğlu Dobrotiç (Dobruca bundan gəlir) 1354-ci illərdən etibarən (sonra öz adıyla anılacaq olan) bölgənin hakimi olaraq, 1385-ci ilə qədər Balkanlar və Qara dənizdə mühüm siyasi rol oynamışdır. Mis pulları tapılan oğlu İvanko zamanında (XIV əsrin sonlarına doğru) bir ara rumın tabeliyinə girdiyi sanılan bu kiçik türk "Dobruca dövləti"nin torpaqları 1417-ci ildə osmanlılara intiqal etmişdir[820].

O tarixlərdə Asiya içlərindən Macarıstana qədər yayılan bütün türklərin danışdığı və elm dünyasında "qıpçaq ləhcəsi" (qərbdə "lingua comanesca") deyə anılan kuman dilinin bəlkə ən mühüm xatirəsi 1303-cü ildə Krımda italyan, alman missioner-tacirləri tərəfindən hazırlanan və "Codex

---

816 Təfsilən bax: L. Rásonyi, Tuna Havzasında Kumanlar, s. 401-422.

817 Təfsilən bax: L. Rásonyi, Baszaraba, s. 160-171.

818 L. Rásonyi, Tarihte Türklük, s. 150 və ardı.

819 Bax: L. Rásonyi, L'Origine de Basaraba, Osmitt. Europ. Bibl., III, 1935; Yenə onun: Tarihte Türklük, s. 146-152; ayrıca bax: yenə onun: Kuman Özel Adları, s. 71-144.

820 Təfsilən, İA. mad. Dobruca, s. 633.

Cumanicus" adı ilə tanınan kumanca-latıncə-farsça və kumanca-almanca lüğət (və qrammatika) kitabıdır[821] ki, kumanların xristianlıq dövrü ilə ilgili olmaqla bərabər türk dilinin seçkin yadigarlarından biri qəbul edilməkdədir[822].

## 13. OĞURLAR (BULĞARLAR)

Bulğarlar üçün də 150 ildən çox bir zamandan bəri mənşə aranmış, urallı, fin, slavyan, tatar və s. əsilli olduqları iddia edilmişdir[823]. Nəhayət, türk əsilli olduqlarına dair öncə Vámbéry tərəfindən irəli sürülən görüş[824] G. Fehérin arxeoloji və Gy. Némethin linqvistik araşdırmaları ilə kəsinlik qazanmışdır. Qövm adı olaraq "bulğar" kəlməsi V əsrin ikinci yarısından öncə mövcud deyildi; ilk dəfə 482-ci ildə Bizans imperatoru Zenonun şərq qotlarına qarşı savaşmaq üzrə hərbi yardım istədiyi Qara dənizin şimalındakı toplum ismi olaraq ortaya çıxmışdır[825]. Bulğar adı bir tarixi hadisədən doğmuş idi: Avropa hun hökmdarı Attila öldükdən sonra övladları ilə tabe qövmlər arasında mücadilələr baş vermişdi. Attilanın ikinci oğlu Dəngizikin 469-cu ildə ölməsindən sonra, onun kiçik qardaşı İrnək idarəsində Orta Avropanı tərk edən hun kütləleri Qara dəniz sahillərində rastlaşdıqları başqa türk zümrələri ilə qarışmışdılar[826]. Bu qarışmadan doğan yeni toplum türkcə

[821] Nəşr. K. Grönbech, Monum. Lingua. Asia Majrois, I, Kopenhagen, 1936 (faksimilə); Komanisches Wörterbuch, II, həmin yer, 1942.

[822] Geniş bilgi üçün bax: S. Çağatay, Codex Cumanicus Sözlüğünün Basılışı Dolayısıyla, s. 759-772; A. Caferoğlu, Türk Dili Tarihi, II, s. 168-195; L. Bazin, Les Calendriers..., s. 642-650 (əsərdəki türk təqvimi üçün). Digər kuman dil yadigarları və lüğət kitabları üçün, T. Halasi- Kun, KCsA, III, s. 77-83; yenə onun: Philologica, I, s. 1-37; A. v. Gabain, Ph. T. Fund, II, s. 243 və ardı; E. Tryjarski, Dictionnaire Armeno-Kiptchak d'apres trois manuscripts des collections viennoises, 1-4, Warszawa, 1968-1972. Çexoslovakiyada o dövrdən qalan, indi də yaşayan türkcə yer və ailə adları üçün bax: Y. Blaşkoviç, Çekoslovakya Topraklarında..., s. 344-351.

[823] İ. S. Šišmanov, L'Etymohgie du nom "Bulgar", s. 47-85; V. Beşevliev, Proto-Bulgar Dini, s. 214 və ardı.

[824] H. Vámbéry, Der Ursprung der Magyaren, s. 55 və ardı.

[825] Bax: Byz. turc. I, s. 50.

[826] Təfsilən bax: B. Szasz, A Húnok..., s. 423-439; ayrıca bax: yux. Avropa Hunları.

"bulğar"[827] deyə anılmağa başlandı. Başlanğıcdan 765-ci ilə qədər bulğar hökmdarlarının adlarını və xaqanlıq müddətlərini göstərən və bugün ancaq daha gec zamandan qalma bir rus xronikasında slavyanca tərcümədə sahib olduğumuz "Bulğar xaqanları siyahısı”nda[828] İrnək bulğar hökmdar sülaləsinin banisi olaraq göstərilir.

Hun kütlələri ilə qarışan bu türklərin əsil adı “oğur” idi. Onlar Dunay ağzından Volqaya qədər Qara dənizin şimal bozqırlarında, daha sonraki peçeneqlər və kumanlar kimi ayrı boy birlikləri halında yaşayırdılar: sarağur (sarı/ağ/oğur), bittiğur (beş-oğur), ultinğur~altziağir (altı-oğur), kutriğur-kuturğur (tukurğur=doqquz-oğur), unğur~hunuğur~onuğur (on-oğur), utiğur~uturğur (otuz-oğur)[829]. Bizans tarixçisi Priskosun (V əsr) sabarlar tərəfindən Ural dağlarının şərqindəki yurdlarından uzaqlaşdırılaraq Qara dəniz düzənliklərinə gəldiklərini (461-465-ci illərdə) bildirdiyi oğur türkləri həmin tarixçiyə görə, o zaman üç qrup təşkil etməkdə idilər: sarağur, uroğ (oğur) və on-oğur. Bunlar avarların önündən qərbə çəkilən sabarların qarşısında tutuna bilmək üçün Bizansa elçi göndərmişdilər. Son araşdırmalara görə, oğurlar böyük köçdən öncəki yurdlarında da üç zümrə halında idilər: şərq zümrəsi (Seyhun-Çu çayları və Çalkar gölü həvalisində: on-oğurlar)[830]; orta zümrə (bugünkü qazax-qırğız bozqırı və Emba çayı boyunda ehtimal ki otuz-oğurlar) və qərb zümrəsi (Yayık çayı həvalisində /hər halda/ doqquz-oğurlar)[831]. Bu sıralarda sarağur (ağ-oğur) kütləsinə qarşılıq digərlərinin "qara-oğur"[832] qanadını təşkil etmiş olmaları[833] ehtimal edilir.

---

[827] Bulamaq<bulğamaq? = qarışmaqdan "bulğa+r", bax: Gy. Németh, HMK, s. 95-98; bulğak, bulganç=qarışıqlıq (Kitabələr, I, şimal, 4, 11, şərq, 29, Tonyukuk, 22). Ayrıca bax: A. Caferoğlu, Türk Dili Tarihi, I, s. 92, qeyd 5. Digər bəzi Qərb və islam qaynaqlarında "Burgar, Bular, Biter, Buler və b. şəkillərində də keçir.

[828] Bax: J. Mikkola, Die Chronologie der türkischen Donau-Bulgaren, s. 1-25 (müq. et: L. Ligeti, Nyt. Közlm. 1935, s. 190-271); siyahı və biblioqrafya: Byz. turc, II, s. 296 və ardı; ayrıca geniş təfsilat üçün bax: O. Pritsak, Die sogenannte bulgarische Fürstenliste und die Spruche der Protobulgaren, s. 61-77, 184-242; yenə onun: Die bulgarische Fürstenliste und die Sprache der Protobulgaren, Wiesbaden, 1955; J. Benzing, Das Hunnische, Donaubolgarische und Wolgabolgarische, s. 688 və ardı; R Altheim, Geschichte der Hunnen, I, s. 16-28; V. Beşevliev, Die Protobolgarischen Inschriften, z. 306-323.

[829] Bax: Byz. iurc., II,. s. 89, 152, 189 və ardı, 196,198, 228; B. Szàsz, həmin əsər, s. 467.

[830] Bunların 350-ci illərdə Seyhun yaxınlarındakı soğdca "Bakath" adı ilə zikr edilən bir şəhərləri vardı, bax: K. Czeglédy, Nomad nepek..., s. 19, 92.

[831] Təfsilən bax: D. Simonyi, Die Bulgaren des V. Jahrhunderts im Karpatenbecken, Acta Archaeoiogica, X, Bp. 1959, s. 227-250, bax: L. Rásonyi, Tarihte Türklük, s. 88.

[832] "Kara-Bulğar" bax: De Adm. İmp., II, s. 62; V. Minorsky, Hudud..., s. 439.

Oğurlar oğuzların qardaşlarıdır. Hər halda bir-birlərindən çox erkən dövrlərdə (ən gec m. ö. III əsrdən əvvəl) ayrılmış olmaları (bax: yux. Türklərin yayılmaları) dolayısıyla dillərində bəzi fonetik dəyişmələr meydana gəlmişdir. Ən açıq fərq ana türkcədəki z səsinin oğur ləhcəsində r-yə çevrilmiş olmasıdır. Əslində "oğuz" təbiri doğrudan-doğruya "türk boyları" mənasına gəldiyinə görə, şərqdə qalan və z səsini işlətməyə davam edən ana kütləyə qarşılıq onlardan qərbə doğru ayrıldıqdan sonra r-li ləhcə ilə danışmağa başlayan oğurların (Qərb türklərinin) adlarında da bu fərq diqqəti çəkir: oğuz-oğur[834]. Yuxarıdakı oğur boy birlikləri sırasıyla: 5 oğuz, 6 oğuz, 9 oğuz, 10 oğuz və 30 oğuz deməkdir[835]. Şərq türklərində də belə boy sayı ilə adlandırılmış birliklər vardır (bax: yux. Oğuzlar). Oğur ləhcəsindəki digər bir ayrılıq da söz başındakı y yerinə d söylənməsidir (məsələn, yılan-dilan vb.). Əski yunan coğrafiyaçısı Ptolemey (160-170) Xəzər dənizinə tökülən Yayık çayının (bugün Ural çayı. Əsl türkcə adı XVIII əsrin ikinci yarısında ruslar tərəfindən dəyişdirilmişdir) adını Daih (Daix) şəklində göstərmişdir[836] ki, bu ad bulğarların atalarının II əsrdə Qərbi Sibirdə İtilə (Volqa) doğru uzanan bozqırlarda yaşadıqlarını bəlgələməkdədir. Oğurların tarixi çox-çox geri getməkdədir. Bunların m.ö. III əsr sonlarına doğru Tanrı dağları ətəklərində oturan u-sunlarla (wu-sun) ilgili olmaları ehtimal edilir[837]. Ancaq bu ilgi daha çox yuxarıda kumanlar münasibətilə bəhs etdiyimiz u-sunların oturduqları sahəyə (bəlkə daha öncəki yurdlarına) uyğun gəlir. Çünki eyni tarixdə oğurların daha şimalda Kobdo, Tarbağatay bölgəsində yaşamaqda olduqlarına dair dəlillər vardır. Burada Çin qaynaqları "Ho-chieh" və ya "Wu-chieh" (=Hu-kie və ya Wu-kie, P. Pelliot, 1920; Wu-kie, Hu-kie, U-kit, F. Hirth, 1899; Ho-ku, L. Ligeti, 1940) adlı bir qövmdən

[833] B. Szàsz, həmin əsər, s. 467.

[834] Təfsilən bax: Gy. Neməth, HMK, s. 89-98. Türkcədə z-r dəyişimi; "rhotacismus" üçün bax: yux. “Türklərin yayılmaları”. Tarixdə türk qövmlərinin siyasi və kültürəl durumlarını açıqlamaq baxımından çox mühüm bir linqvistik təsbit olan bu rotasiya məsələsini şübhə ilə qarşıladığı üçün oğur və uyğur adlandırılmalarının anlaşılmasını çətinləşdirən J. Hamiltonun görüşü haqqında bax: Toquz-Oguz et On-Uyğur, s. 37 və ardı.

[835] Fərqli bir görüş üçün bax: D. Pais, A propos de l’Etymohgie de l’ethnique Ogur, Studia Turcica, s. 361 və ardı, 372.

[836] Bax: Gy. Nemeth, həmin əsər, s. 112 və ardı, 190; A. Barthold, L’Asie ancienne, d’aprés Ptolémée, s. 222 (yoxsa Daih əslində daha çirqdi olub yenə Xəzər dənizinə dökülən Emba çayının adımı? bax: həmin əsərdə Ptolemeydən alınan 4 və 6 saylı xəritələr).

[837] A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri.., s. 108; yux. qeyd 232.

söz edirlər[838]. R. Hirth adın çincə şəklinin əsil tələffüzü "uğır" (uyğur deyil) olan bir kəlmədən gələ biləcəyini söyləmişdir[839] ki, bu ad onu doğrulayan Gy. Némethe görə[840] türkcə "oğur"dan başqa bir şey deyildir[841]. M.ö. III əsr başlarında Orta Asiyada oğurların ən mühüm qollarından biri, Çin qaynağında Orta və Cənubi İrtış tərəflərində oturduqları və Çinə sansar, ağ və göy tülkü ("kun-tsun"=kırsa ~ karsak-bozqır tülküsü), xüsusilə sincab dəriləri gətirdikləri bildirilən tinq-linqlərdir[842]. Bu məşhur sincab kürkü tacirlərinin adları da türkcədir: Tinq-li=Teyinli=Sincablı[843]. Bütün oğurlar əsasən xəz ticarəti ilə tanınmışdılar. Qiymətli xəzlər içində sincab dərisi başda gəlirdi[844].

Oğur türklərini daha ziyadə heyvandar olan qardaşlarından ayıran bu bariz ovçuluq və xəz ticarəti yanında onların başqa bir xüsusiyyətləri də qərbdə yaşadıqları coğrafi bölgənin şərtləri gərəyi yaxşı əkinçi olmaları idi. Hər növ əkinçiliyi və meyvəçiliyi zamanına görə ən yüksək səviyyədə bacarırdılar. O tarixlərdə macar dilinə girən oğur türkcəsi kəlmələri (bax: Xəzər xaqanlığı) bunun dəlilləridir.

Qərbi Sibirdəki yurdlarında ikən Orta Asiyada Çi-çi Tanhu dövlətinin çöküşündən (m.ö. 36) sonra eyni bölgəyə çəkilən hun qalıqları ilə qonşu olduqları anlaşılan oğurların daha sonra qərbdə sürətlə bir dünya imperatorluğu halına gələn Avropa hunlarına bağlandıqları xüsusilə sarağurların Attila zamanındakı rollarından bəllidir. Hun imperatorluğu parçalanıb mərkəzi hakimiyyətin yox olması (460-470-ci illər) nəticəsində bu dəfə hun kütlələrilə bərabər qərbdən gəldiyi bilinən İrnək ətrafında toplaşaraq bulğar dövlətini qurduqları görünür. Oğurlar İrnəkin xələfi Mundo (Muncuk?) və ondan sonra gələn 4 hökmdar zamanında 550-ci illərə qədər aralarındakı birliyi sürdürmüşdülər. Bu tarixlərdə belə yayıldıqları təsbit edilə bilər: Qafqaz dağlarının şimalında (Azovun şərqində) on-oğurlar, Don-Volqa dirsəkləri

[838] Bax: De Groot, Die Hunnen..., s. 210, 221. Burada Ho-kut deyə göstərilmişdir.

[839] Fr. Hirth, Über Wolga-Hunnen..., s. 270; yenə onun: Hunnenforschungen, s. 83.

[840] HMK, s. 114.

[841] Ayrıca bax: B. Ögel, İlk Töles Boyları, s. 800-803; hətta ümumiyyətlə Monqol qrupu arasında göstərilən wu-huan=oğur? Bax: G. Clauson, Türk, Monqol, Tungus, s. 117,122.

[842] Bax: W. Eberhard, Çin'in Şimal Komşuları, s. 70 və ardı; Təfsilən B. Ögel, həmin əsər, s, 795-800, 805-811.

[843] Gy. Németh, HMK s. 116; ayrıca Kitabələr, II, şimal, sətir 12, cənub, sətir 12. Ləhcə fərqini diqqətə almadığı üçün tinq-linqləri oğuz qrupuna mənsub tieh-lo (bax: yux. Göytürklər) ilə qarışdırmış görünən K. Czeglédynin iddiası üçün bax: Nomad nepek..., s. 18, 22, 49.

[844] Keçən əsrin ortalarında belə Qərbi Sibirdə əldə edilən heyvan xəzləri arasında birinci planda idi: ildə ortalama 6 milyon ədəd! Bax: Gy. Németh, həmin əsər, s. 115-118.

bölgəsində otuz-oğurlar, Dneprə doğru bozqırlarda doqquz-oğurlar[845]. Bunlardan şərqdəkilər sıra ilə sabarların və göytürklərin hakimiyyəti Azov dənizinə çatdığı zaman (576-cı illər) göytürklərin idarəsinə girmişdilər. Menandrosa görə, otuz-oğur hökmdarı Anaqaios (türkcə əsli: Ana-ağa?)[846] tərəfindən təyin edilmiş olan Ak-kağan adlı qadın başbuğ göytürklərə bağlananlardan idi[847]. Qərbdəkı doqquz-oğurlar (qara-bulğar?) isə illik vergi aldıqları Bizans ilə bəzən dost, bəzən düşmən olaraq münasibətlərini davam etdirirdilər. Slavyan kütlələrini irəli sürərək Bizansa göstərdikləri sürəkli basqı imperator Anastasiosu (491-518) paytaxt İstanbulun qorunması üçün "uzun divar" tikməyə məcbur etmişdi[848] . 530-cu illərdə isə Bizans generalı Belizarios komandanlığında İtaliya savaşlarına qatılmışlar, 549-cu ildə lonqobardlarla çarpışan gepidlərə 10 min süvari ilə yardım etmişdilər. Fəqət Bizans eynən Çin kimi türklərə qarşı həmişə oynadığı oyunu oğurlara da tətbiq etdi. Doqquz-oğur və otuz-oğur qardaşların arasını vurdu, bir-birləri üzərinə qaldırdı. Məğlub olan doqquz-oğurlardan bir qismini (2 min ailə) Trakiyaya yerləşdirdi. Otuz-oğurların Balkanlarda ani bir yürüyüşlə İstanbul yaxınlarında görünmələrinin (550-ci ildə) artıq bir faydası yoxdu. Qara dənizin şimalındakı oğur hakimiyyətinin zəifləməsi avarların yollarında rastladıqları oğur-bulğar türklərindən bəzi kütlələri bərabərlərinə alaraq qərbə doğru sürətlə irəliləmələrini (558-ci ili təqib edən illərdə) asanlaşdırdı. Bayan xaqanın əmrində Dalmaçiyada savaşan bulğarlar 626-cı il İstanbul mühasirəsində avarlara yardımçı qüvvələr təşkil etmişdilər. Bunlar Balkanlara, Şimali İtaliyaya, Macarıstana yayıldılar. Avarlardan məmnun olmayan 9 min qədər bulğar ailəsi öncə Bavariyaya, sonra İtaliyaya daşındı (VII əsrin ikinci yarısı).

---

[845] Doqquz-oğur və otuz-oğur hökmdarları (Bizans tarixçiləri: Prokopios, Menandros, Agathiasdan nəqlən) üçün bax: O. Pritsak, ...Fürstenliste, s. 219 və ardı.

[846] Byz. turc., II, s. 73.

[847] Bax: A Magyarok elödeiröl., s. 48; Ed. Chavannes, Documents..., s. 240.

[848] L. Rásonyi, həmin əsər, s. 90.

# 14. BULĞAR DÖVLƏTLƏRİ

## a)B ö y ü k  B u l ğ a r i y a

Dövlət təşkilatı sistemindəki ilk bulğar birliyində on-oğurların əksəriyyət təşkil etdikləri anlaşılmaqdadır. Bunlar VI əsrdən etibarən Bizans, erməni və Süriya qaynaqlarında Şimali Qafqazda göstərilmişdilər, hətta buraya "Patria On-oguria" (on-oğurların yurdu) deyilmişdir (700l-cü illər). VIII əsrin ilk yarısında da Azov dənizinə doğru yayıldıqları görülür[849]. İslam qaynaqlarındakı tapmaca kimi oxunub açıqlanması çətin olan "V.n.ndr, V.I.ndr" adlı qövmün[850] bunlar olması lazımdır (on ogundur=on-oğur)[851]. 630-cu ildə Orta Asiyada göytürk imperatorluğunun fətrət dövrünə girməsi üzərinə, xəzərlər kimi bulğarlar da idarəni öz əllərinə alaraq Büyük Bulğar dövlətini qurdular. Bunda eyni zamanda avarların 626-cı ildəki uğursuz İstanbul mühasirəsindən sonra xaqanın ölümü (630) ilə Balkanlarda və Şərqi

849 Bax: Gy. Németh, həmin əsər, s. 179 və ardı.
850 Tafsüən, V. Minorsky, Hudud..., s. 465-471.
851 Bax: Gy. Németh, həmin əsər, s. 58 və ardı; O. Pritsak, Yowár und Káwar, s. 386. + dur şəkilçisi üçün bax: L. Rásonyi, Les noms de personnes..., s. 234. Ayrıca bax: V. Minorsky, Addenda..., s. 269.

Avropada hər hansı bir siyasi nüfuz iddiasında bulunamıyacaq[852] qədər zəif düşmələrinin də təsiri ehtimal daxilindədir. Dövlətin qurucusu başbuğ Kourt (=Kurt)[853] Doulo adındakı hökmdar sülaləsinə mənsub idi. O. Pritsaka görə, bu xanədan ta Mo-tundan (=Biktun.m.ö. 209-174) bəri hun tanhuları yetisdirən ünlü T'u-ko (Tu-ku) ailəsidir (çincədəki şəkli T'u-ko-d'o-klak, duoklo=Doulo)[854] ki, bu surətlə bulğar hökmdar sülaləsi (İrnək və ondan 300 sənə öncə hökm sürdüyünə xaqanlar siyahısında işarət edilən Avitoxol[855] yolu ilə) Asiya hun tanhuları ailəsinə bağlanır[856]. Kurtun dağınıq oğur qəbilə birliklərini birləşdirərək siyasi təşkilat meydana gətirdiyi ölkəsinə "Böyük Bulğariya" ("Magna Bulgaria") deyilirdi. Fəqət dövlət uzun sürmədi; Herakleios dövrü Bizansı ilə olduqca sıx münasibətlərdə bulunduğu anlaşılan qurucusunun[857] ölümündən (665) az sonra qonşu xəzər xaqanlığının basqısından parçalandı. Əksəriyyəti otuz-oğur olan bir kütlə şimala çəkildi (dış-bulğarlar=İtil bulğarları); Kurtun oğullarından Bat-Bayan xəzərlərə tabe olaraq, macarların və on-oğur bulğarların başında Qafqazdakı yurdda qaldı. Bugünkü balkarların bunların xələfləri olduğu sanılır[858]. Bat-Bayanın kiçik qardaşı Asparux[859] qələbəlik bulğar kütlələri ilə Dunaya yönəldi (iç-bulğarlar). Balkanlara keçdi (668) və əlverişli torpaqları zəbt

---

[852] Bax: O. Pritsak, ...Fürstenliste, s. 219.

[853] "Bulğar xaqanları siyahısı"nda=Kourt, bax: V. Beşevliev, Die proto..., s. 318; Gy. Moravcsik, Byz. turc., II, s. 144; B. Szàsz, A Hünok.., s. 451, J. Benzing, Das Hunnische, Donaubolgarische und Wolgabolgarische, s. 689. Bizans mənbələrində: Kobratos, Kuvratos və s. bax: Byz. turc. ,həmin yer; adın (Kobrat) türkcə kobratmakdan (toplamaq, yığmaq) gəldiyi haqda görüş üçün bax: Gy. Németh, Kobrat is Əspərüx, s. 7 və ardı.

[854] Kəlmənin türkcə əsli: Türk və ya Tuğlu? bax: yux. Asiya hunları.

[855] F. Altheim, Geschichte der Hunnen, I, s. 20 və ardı. M. s. 147-156 yılları arasında sien-pilərin hücumu zamanı şimal hunlarının tanhusu olması ehtimal edilir, bax: yux. Asiya junları.

[856] Təfsilən bax: O. Pritsak, ...Fürstenliste, s. 193 və ardı, 231; V. Beşevliev, Die proto..., s. 316; M. İ. Artamonova görə (bax: A. N. Kurat, Hazarlara Ait Bir Kitabın Tanıtılması, s. 215) də Böyük Bulğarya xanı, Qərbi Göytürk xaqanının bacısı oğlu (yəni Aşina ailəsinə mənsub) idi; ayrıca bax: P. B. Golden, TDAY, 1971, s. 150. Bulgar Hakanları Listsindeki Tarihlemeler (Takvim Hesapları) ve hükümdar adları hakkında açıklamalar: bax: L. Bezin, Les Calendriers..., s. 651-710.

[857] Bax: T. Halasi-Kun, A Magyarsag..., s. 82 və ardı.

[858] A. N. Kurat, Karadeniz Kuzeyi Türk Kavimleri ve Devletleri., s. 110 (buna qarşı bax: H. Eren, DTCF Dergisi, VII, 2. s. 501); V. Pröhle; Balkarische Studien, Ksz, XV, s. 165-276, XVI, s. 104-243.

[859] Və ya Əspərüx, Byz. turc, II, s. 78, İşbara və ya Əsperi=dəlicə doğan (yırtıcı quş), bax: Gy. Németh, KCsA, II, s. 440 və ardı və ya Əs-börü? "İç və dış bulğarlar" üçün, bax: V. Minorsky, Hudud..., s. 438 və ardı.

edərək yeni bulğar dövlətini qurdu (679) və bu dövlət illik vergiyə bağlanan Bizans tərəfindən 681-ci il tarixli anlaşma ilə tanındı[860].

## b. Dunay Bulğar dövləti

Asparuxun (679-702) imperator IV Konstantinosun müqavimət təşəbbüslərini qıraraq Dobrucanın cənubunda qurduğu və qısa zamanda hərbi və siyasi yönlərdən gəlişdirdiyi dövlət İtil bulğarlarınınkı ilə nisbətdə "kiçik" sayılmış olmaqla bərabər, oğur türkləri tərəfindən qurulan ən uzun ömürlü siyasi təşəkküldür. Dövlətin sağlam təməllərə oturdulduğu, Bizans və avar imperatorluqları kimi iki böyük güc arasında varlığını qorumasından anlaşılır. Dışarıdan gələn bulğar türklərinin (bunlara elmi nəşrlərdə proto-bulğar da deyilir) Balkanlardakı slavyan kütlələrini məharətlə özlərinə bağladıqları görünməkdədir. Ümumiyyətlə qəbul edildiyinə görə, bulğarlar dövlət fikrinə yabançı olaraq ufaq qəbilə həyatı yaşayan slavyan xalqa vətən, dövlət və millət qavramlarını öyrətmiş[861], onları təşkilatlandırmış[862], daha sonra Bizansa qarşı özlərini qoruma qabiliyyəti aşılamışlar[863].

Dunay bulğar dövlətinin ən sıx siyasi münasibətləri, şübhəsiz, Bizans ilə idi. Xəzər şahzadəsi ilə evləndiyini gördüyümüz imperator II Justinianosun bulğar xanı Tervelin (702-718) yardımı ilə ikinci dəfə taxta çıxtığı (705) bilinir, üstəlik, Bizans tarixçisi Agathon 713-cü ildə imperator Philippikosun taxtdan düşməsini bulğarların Bizans torpaqlarında irəliləməsinə bağlamışdır[864] ki, bu da dövlətin qısa zamanda qazandığı qüdrəti ortaya qoyur. 716-cı ildə Bizans ilə bağlanan bir ticarət müqaviləsi nəticəsində 717-

[860] N. Banescu, Le premier habitat de la horde d’Asparuh dans la..., s. 434-440. Kurtun 5 oğlu (Bat-bayan, Kotrağ, Əspərüx, Kübər və b...) üçün bax: Gy. Laszlö, Kovrát Kagán fiainak tortenétéhez, s. 225-230.

[861] G. Fehér, Les monuments de la culture protobulgare et leurs relations Hongroises, s. 1, 26 və ardı.

[862] Slavyan dillərində yaşayan türk əsilli hərbri-idari ünvanlar: boyar=boya, zupan-çoban, bagan>ban və s., və bəzi kültür kəlmələri: G. Fehér, həmin əsər s. 125; K. H. Menges, Altaic Elements in the Proto-Bulgaren Inscriptions, s. 110; yenə onun: A Note on the Compound Titles in the Proto-Bulgaren Inscriptions, s. 441-453; yenə onun: Altajische Kulturwörter im Slavischen, s. 107-116; A. N. Kurat, Eski Slavcadakı Türkçe Sözlere Dair, s. 89-97.

[863] Bax: İ. Dujčev,Sem. Kond., X, 1938, s. 150.

[864] Byz. turc., I, s. 106; C. Head, On the Date of..., s. 106

718-ci illərdə İstanbulun ərəblər tərəfindən mühasirəsinə qarşı paytaxt müştərək müdafiə edilmişdi. Bu işbirliyi bulğar dövlətinə iqtisadi imkanlar və hüzur təmin edirdi[865]. Ancaq VIII əsr ortalarında xaqanlıqda daxili çəkişmələri və xanlardan bəzilərinin öldürülməsini fürsət bilən Bizans Bulğaryaya üst-üstə səfərlər tərtiblədi (imperator Konstantinos V. Kopronymos, 741-775) və çox ziyan vurdu. Nəhayət, IX əsrin əvvəllərində Orta Avropada avar xaqanlığının franklar tərəfindən tam bir çöküntüyə uğradıldığı illərdə Krum[866] adlı ünlü bir bulğar hökmdarının iqtidara gəldiyi görüldü (803-814). Cənubi Macarıstan ilə Transilvaniyanı xanlıq sınırları içinə qatan "mahir sərkərdə və parlaq təşkilatçı" Krum[867] kimi qüdrətli bir qonşudan qorxuya düşən Bizans imperatoru I Nikephoros erkən davranaraq onu basqıya almaq düşüncəsi ilə hərəkətə keçdi (811). Xanlıq paytaxtı Pereyaslavı (Preslav. Şumnunun cənub-qərbində, Çatalar kəndi yaxınlığında) təxrib etdi və irəlilədi. Fəqət vüsət alan çətin savaşlar Nikephorosun yenilməsi, ordusunun məhvi və özünün savaş meydanında ölməsi ilə nəticələndi. Dörd əsr yarıma yaxın bir zamandan bəri ilk dəfə bir Bizans imperatoru düşmən əlində can verirdi. Sonra imperatorluğun şərq əyalətlərindən gətirilən birliklərlə gücləndirilmiş izdihamlı ordusu başında bulğarların üstünə yürüyən II Mikhaeli məğlub edən Krum xan sanki Bizansı ortadan qaldırmağa haqq qazanmış və "altın mizrağını Yaldızlı Kapuya[868] asmağa"[869] and içmişdi O, Sardikanı (Sofya, 809-cu ildə), Niş və Belqrad şəhər-qalalarını işğal edərək[870] Orta Avropa-Yaxın Şərq arası ən böyük ticarət və hərbi-nəqliyyat yolunu nəzarəti altına almışdı. 813-cü ildə Filibe üzərindən Ədirnəyə çatdı, buranı mühasirə altında buraxaraq sürətlə irəlilədi. İstanbulu mühasirəyə

---

[865] Bizans ilə bağlanan 681, 706, 717, 755, 767-ci illər müqavilələri üçün bax: V. Beşevliev, Die protobulgarischen İnschriften, s. 55-66.

[866] Byz. turc., II, s. 154. türkcə Kurum (= qurmaq, təsis etməkdən) və ya qorumaq-dan qorum = qala: Qərbi türkcəsində kerim ~ kerem ~ kerm = hasar, qala (buradan kermen və kremlig "Kreml") qala-şəhər, bax: O Pritsak, Eine altaische Bezeichnung für Kiew, s. 8 və ardı.

[867] A. A. Vasiliev, Bizans İmperatorluğu Tarihi, I, s. 354.

[868] Qala divarında törən qapısı (Yedikuledə, hazırda qapalı), bax: F. Schweinfürth, İstanbul Suru ve Yaldızlı Kapı, s. 261 və ardı.

[869] A. A. Vasiliev, həmin yer.

[870] Böri-tarkan 853-888-ci illəri arasında bir müddət Belqradda bulğar komandanı idi, bax: Byz. turc., II, s. 94.

aldı (814-cü ilin baharı). Fəqət hücumların ən coşğun çağında ansızın ağzından, burnundan qan axmaq surətilə öldü (13 aprel 814)[871].

Oğlu Omurtağ[872] xan (814-831) Bizansla dərhal 30 illik bir ticarət müqaviləsi imzalamaqla isabətli bir iş gördü[873]. Frank imperatorluğu ilə uzlaşma təşəbbüsləri nəticə verməyincə istəməyərək də olsa silaha müraciət edən və Dunay-Sava-Drava hövzəsini almaq, Orta Avropanın Maroş çayı vadisindəki ta Roma dövründən bəri tərk edilmiş olan ən böyük duz mədənlərini yenidən işlətməyə açmaq surətilə dövlətinə əmniyyət və böyük bir sərvət qaynağı qazandıran Omurtağ xanın dövrü Dunay bulğarlarının tarixləri boyu ən parlaq dövrləri olmuşdur. Qurulan şəhərlər, saraylar, geniş ölçüdə inşaat və abadlıq, su yolları, abidələr, bu arada G. Fehér tərəfindən xərabələri ortaya çıxarılan Pliska (Şumnunun şimal-şərqində Aboba kəndi yanında) və Preslav şəhərləri[874] ilə Madara qəsəbəsi (Şumnunun şərqi) civarında yüksək bir qaya üzərində 40 metrlik yer tutan, kitabəli, Krum xanın atlı qabartması o çağın xatirələridir[875]. Fəqət sayıca yerlilərə nisbətlə, şüb-

---

[871] Təfsilat üçün bax: İ. Kafesoğlu, XII. Asra Kadar İstanbulun Türkler Tarafından Muhasaraları, s. 10-14.

[872] Türkcə Omurtağ = Kartalcık? Bax: Byz. turc, II, s. 154.

[873] Müqavilənin kitabə mətni, bax: V. Beşevliev, həmin əsər, s. 190-206.

[874] Təfsilən bax: B. Ögel, Türk Kültür Tarihi, s. 255-276; F. Altheim, Geschichte der Hımnen, V, s. 318-326.

[875] Bax: G. Fehér, Die İnschrift des Reiterreliefs von Madara, Sofia, 1928; V. Beşevliev, həmin əsər, s. 41-47, 71 və ardı, 95-124, 250 və ardı. (Bulğar-türk dövlətində işlənmiş türkcə ünvanlar: boyla, içirgü-boyla, ük-boyla, bağa(n), şubigi /cabğu, yabğu?/, tarxan və s.). Bu son əsərdə bulğar-türkləri dövründən qalma 80-ə qədər kitabə tanıdılmışdır. Bunlardan bəzilərinin türkcə tərcümələri, B. Ögel, həmin əsər, s. 274 və ardı.

Madaradakı qaya qabartmasının hansı millətə aid olduğu haqqında ta 1896-cı ildən bəri müxtəlif görüşlər irəli sürülmüş, bəziləri bu əsərdə İran-sasani təsiri görmüş, bəziləri də onu əski traklardan qalma bir antic çağ (yunan-Roma) sənət nümunəsi sayaraq, süvarinin məhəlli bir trak tanrısını təmsil etdiyini iddia etmişdir (Təfsilən bax: D. Krandzalov, Les reliefs du cavalier thrace et la tradition problematique de I'histoire Protobulgare, s. 137-151). Qaya qabartmaları ənənəsinin sasanilərə bağlana biləcəyi və Balkanlardakı bir əsərdə antik çağ təsirlərinin görüləcəyi təbii sayılmaqla bərabər, Madara süvari qabartmasının türk-bulğar sənəti örnəklərindən olduğu dəlilləri ilə ortaya qoyulmuşdur (bax: G. Fehér, A Bolgar-Törökök szerepe es müveltségə, s. 34-38). Süvarinin ətrafında yer alan kitabədə mövcud bulğar xanlarının adlarından başqa G. Fehér qabartmanı sasani və yunan-Roma əsərləri ilə qarşılaşdıraraq, fərqləri, özəlliklə bu türk bəlgələrini göstərmişdir: 1. Süvarinin əlindəki bardaq (türklərdə andiçmə törənində işlənən qutsal qab, 2. Tuğ (bax: G. Fehér, s. 37, rəsm 10), 3. Süvarinin saçının uzun kəsilmiş olması, 4. Təsvirdə bir ov səhnəsinin olmaması. Bunlara təsvirdə yer verilən iki heyvandan, ümumiyyətlə köpəyə bənzədilənin, əslində,

həsiz, çox az olan bulğar türklüyü yavaş-yavaş o tarixlərdə yazıları belə olmayan və yuxarıdakı yunan hərfləri ilə yunanca yazılı[876] kitabələrdən də anlaşılacağı üzrə Bizans kültürünün təsiri altındakı slavyan əksəriyyətinin etnik basqısını hiss etməyə başlamışdı. Təşkilatlandırılan slavyanlar dövlət xidmətlərinə qəbul edilir, türk ünsürün yerlilərlə evlənmələri artır, idarəçiliyin zəruri nəticəsi olaraq izdihamlı yerli xalq dili üst təbəqədə yayılır və türklər slavyanlaşırdılar. Omurtağ xandan sonra daha da vüsət alaraq davam edən bu proses (Malamır, 831-836; Presiyan, 836-852 zamanları), Boris xanın[877] (852-889) 864-cü ildə ortodoksluğu rəsmən qəbul edərək, o zamana qədər tək yaradıcı "Tanqra~Tanqry" (=Tanrı) inancında yaşayan bulğarları[878] xristianlaşdırması ilə tamamlandı. 869-870-ci illərdəki İstanbul kilsələr toplantısında bulğar kilsəsinin müstəqil yepiskopluq olaraq qərb (katolik) kilsəsi təmsilçiləri tərəfindən tanınması üzərinə Romanın Balkan yarımadasındakı iddialarının sona çatması ilə[879] türk dövləti xarakterini büsbütün itirərək slavyan-Bizans kültür çevrəsinə girdi[880] .

qurd olması da əlavə edilə bilər (qabartmanın orijinal fotoları diqqətlə incələnsə /bax: G. Fehér, həmin əsər, lövhə XII/ bu heyvanın qurd olduğu anlaşılar: qafa, çənə, quyruq), Yuxarıdakı maqalə sahibi Krandzalov 17 il Bolqarıstanda türk-bulğar kültür əsərləri üzərində çalışan Fehérin 1940-cı ildə nəşr etdiyi bu kitabı görməmiş olmalıdır. Qaya qabartmasında yalnız kitabə üzərində duran və bu kitabənin G. Fehér tərəfindən oxunuşunu geniş ölçüdə dəyişdirərək, fərqli izahlar verən Beşevliev isə kitabədən birinci bölümün Tərvəl xan (ölümü: 718), ikinci bölümün Kormesios xan (latınca mənbələrdə Cormesius. türkcə əsli Kormuş, Kurmış (ölümü: 756; bax: Gy. Moravcsik, Byz. turc., II [1958], s. 164), üçüncü bölümün isə Omurtağ xan zamanına aid olduğu və xanlardan ikincisinin kitabədə Krumesin (=Krum, Krumış, ölümü: 814. Adın digər şəkilləri: Krumes, Krumos, Krummos, latın mənbələrində Crumas, Crumnus, slavyanca Krumi və s., bax: Byz. turc., II, s. 174) olaraq yazılan adın Kormus ola biləcəyi düşüncəsindədir (bax: V. Beşevliev, Die protobulgarischən Inschriften, s. 99, 115).

[876] Nadirən türkcə (bax: J. Deny, Une inscription en langue proto-bulgare découverte á Preslav, s. 235-239; İ.Venedikov, Trois inscriptions protobulgares, 1950, bax: V. Beşevliev, Les inscriptions..., s.874, qeyd 1), Orxon yazısı ilə (Fr. Altheim, Geschichte der Hunnen, I, s. 260).

[877] Boris=əsli türkcə, barıs, parıs=pars və ya böri, bax: K. H. Menges, Altaic Elements..., s. 115 və ardı. Xristian olunca Mixael adını aldığı bilinir (Boris Mikhael bax: Byz. turc, II, s. 93).

[878] G. Fehér, A Bolgar-Törökök szerepe és müvltsége, s. 72; V. Beşevliev, Les inscriptions protobulgares, XXIX-XXX, s. 479.

[879] Bax: N. Zlatarsky, Sem. Kona., IV, s. 67 və ardı.

[880] Türklərin "xan" ünvanı da Borisin xələfi Simeon (893-917) tərəfindən "çar"a çevrildi (bax: F. Lot, Les invasions Barbares, s. 228). Proto-bulğarların kültürü haqda ümumi bilgilər üçün bax: C. Fehér, Les monuments..., Arc. Hung. VII. Yenə onun: Türko-Bulgar, Macar ve Bunlara Akraba Milletlerin Kültürü, s. 290-320. Bütün bu bəlgələrə rəğmən oğur-bulğarların monqol kökündən iranlı (!) bir qövm olduğu və dillərinin də türkcə dışında bir altaylı

## c) İtil (Volqa) bulğar dövləti

Böyük Bulğarya dövlətinin parçalanması nəticəsində İtil-Çolman (Kama) sahəsinə çəkilən bulğarların əksəriyyətini buraya yaxın oturduqları bilinən otuz-oğurların təşkil etdiyi anlaşılır. Bölgənin yerli xalqı fin-uqorları (çeremis, mordva, zıryan, votyak qövmləri və b.) da idarəsi altına alan bulğarların orada hunlardan, sabarlardan, uzlardan və xəzərlərdən də bəzi qalıqlar tapdıqlarına şübhə yoxdur. Beləliklə, bölgə daha böyük sürətlə türkləşmiş olurdu. İtil bulğar dövlətinin ilk dövrləri haqqında XII əsrdə Volqa çayı yoluna hakim olmaq uğrunda rus knyazlıqları ilə aparılan bəzi mübarizələr dışında aydınladıcı bilgi azdır. Ancaq bulğarlar bir müddət xəzər xaqanlığına bağlı olsalar da, sağlam bir siyasi təşkilat qurmuşlar, bu, həmin dövlətin monqol istilasına qədər 5,5 əsr yaşamasından bəllidir. Bunun səbəbi bulğarların əkinçiliyə əlverişli torpaqları dəyərləndirə bilən mahir əkinçi olmaları, eyni zamanda ticarətdən də yaxşı baş çıxarmaları idi. Orta İtil sahəsi təbiət zənginliyi və nəqliyyat baxımından gərəkli imkanlara sahib idi. Şimal bölgələrini Xəzər dənizi-İran-Qafqaz dağları-Türküstan və dolayısıyla Orta Asiyadakı böyük karvan yoluna bağlayan, o çağlarda mühüm arteriya olan Volqa, Kama kimi böyük çayları və bunların Ak-İtil, Vyatka, Susma, Sura kimi qolları və ayrıca verimli torpaqları, otlakları, ormanları, heyvandarlığı, dəriçiliyi (Bizansa qədər yayılan "bulğari" xəzi məşhurdu), kürkçülüyü ilə bulğar ölkəsi xüsusilə Xəzər xaqanlığının zəiflədiyi illərdən etibarən qüvvətli bir varlıq halında gəlişmişdi. Bulğarlar bir çox şəhər və qəsəbələr qurmuşdular: Suvar, Osal, Tetiş, Cüke-tav, Züyə, Kaşan, Kərməncük, Kazan (əski Kazan)[881]. Bunların arasında Volqa-Kama qovuşağına-cənuba doğru-100 km qədər məsafədə İtil qıyısındakı paytaxt "Bulğar" şəhəri IX-XII əsrlərdə Şərqi Avropanın ən mühüm ticarət mərkəzi idi[882]. Doğuda başqırdlar,

(!) dildən törəyə biləcəyi haqqında bəzi rus (Xalıkov, Genin və b.) alimlərin ciddiyyət dışı iddiaları üçün bax: P. B. Golden, Khazar studies, 1, s. 47 və ardı.

881 1974-1975-ci illərdə aparılan qazıntılarda 1177-ci ildə qurulduğu anlaşılan Kazan şəhər-qalasının xərabələri ortaya çıxarılmışdır. Bax: A.H. Halikov, Kazan Nerede ve Ne Zaman Meydana Gelmiş?, s. 44-54. Kazan adı, ehtimal ki, burada irəli sürüldüyü kimi, türkcə "hüdud bölgəsi" və ya "hüdud xəttiı" mənasına gəlməkdədir.

882 Təfsilat üçün bax: A. Y. Yakubovskiy, Altın Ordu ve İnhitatı, s. 7-14; A.N. Kurat, Karadeniz Kuzeyi Türk  Kavimleri ve Devletleri.., s. 112-115.

qərbdə burtaslar və ruslar ilə həmsərhəd olan ölkədə bulğarların başlanğıcda birər xanın idarəsində 4 qrup (bulğar, suvar, barsula, skif) olduqları, fəqət X əsr ortalarından etibarən hamısının bir xan idarəsində birləşdikləri sanılır[883].

İtil bulğarları haqqında ən güvənilən bilgi ərəb müəllifi ibn Fədlan tərəfindən verilmişdir. Ticari təmaslar dolayısıyla islam dini və kültürünün yayılmağa başladığı ölkədə bulğar xanı Almış müsəlmanlığı əslindən öyrənmək istədiyini Bağdada, abbasi xəlifəsinə bildirmiş, xəlifə əl-Müqtədir din xadimləri və məscid inşası üçün memarlardan ibarət bir heyəti Bulğar şəhərinə göndərmişdi. Hicri 309-cu (m. 921/922) ilin martında yola çıxaraq paytaxtda bulğar xanını ziyarət edən (may 922) heyətin başçısı ibn Fədlan[884] səyahət qeydlərində bulğarlardan başqa oğuzlar, peçeneqlər, basqırdlar, xəzərlər və slavyanlar haqqında da maraqlı məlumat verməkdədir.

X əsrin ilk rübündə əski türk təşkilat və ünvanlarını (yıltavar=iltəbər; buyruk və turun=tudun?) mühafizə etdikləri anlaşılan İtil bulğarları[885] islamı qəbul etməklə Şərqi Avropada türk-islam kültürünün təmsilçisi oldular. Camilər tikildi, qazılıq quruldu (XII əsrin ikinci yarısında bulğar qazısı Yəqub bin Neman), digər islam ölkələri ilə də bəzi təmaslar oldu[886] və bu islam kültürü dövlətin süqutundan sonra da davam etdi[887].

XIII əsrin ilk rübündə belə "Böyük Bulğariya" ("Magna Bulgaria") deyə anılan[888] İtil bulğar dövləti monqollar tərəfindən yıxıldı. 1223-cü ildəki birinci monqol hücumu olduqca zərərsiz atladılsa da, Batu xan idarəsindəki əsil böyük ordu Şərqi Avropada ilkin bulğarlara çarpdı. Əhalini öldürən, şə-

---

[883] İbn Fadlan Seyahetnamesi, s. 74; Hudüd..., s. 460 və ardı.

[884] Səyahətnamə bir neçə dəfə nəşr edilmiş və açıqlamalara mövzu olmuşdur: Z. V. Togan, İbn Fadlans Reisebericht, ZDMG, Leipzig 1939 (1968, 2); H. Ritter, Zum Text von İbn Fadlans Reisebericht, ZDMG, 1942, s. 98-126; K. Czeglédy, Act. Or. I. Bp. 1951, s. 217-260, bax: TM. X, 1953, s. 406 və ardı. Ayrıca nəşr və rusca açıqlama: Kraçkovsky, Leningrad 1939; faksimile və açıqlamalar: A.P. Kowalski, Kharkov, 1956. Qeydlərlə S. Dahhan, Dəməşq, 1959, farsca tərc. Tehran, 1967. Ayrıca bax: Minorsky, Mervezî, s. 110-116. Səyahətnamənin türkcə tərcüməsi: İlahiyat Fakültesi Dergisi, 1, 2, 1954, s. 59-80; İtil bulğarları ilə ilgili bölümünün nəşri və türk. tərc: A.N.Kurat, həmin əsər, s. 312- 322. X əsrdə İtil dövlətinin coğrafi və etnik durumu (burtas, barsula?, asgil? qövmləri) haqda bax: V. Minorsky, Hudûd..., s. 162,460-465.

[885] Bax: K. Czeglédy, Yıltavar Unvanı, s. 173-187; Németh, HMK s. 213.

[886] 1024-cü ildə Sultan Mahmud Qəznəviyə qiymətli hədiyyələrlə göndərilən bulğar elçisi, bax: Minorsky, , s. 110 və ardı.

[887] XIV əsrin əvvəllərinə aid ərəb hərfləri ilə yazılı məzar daşı kitabələrindən örnəklər; bax: A. N. Kurat, həmin əsər, s. 322 və ardı.

[888] Gy. Németh, HMK s. 306 və ardı.

hər və kəndləri yıxan monqollar məscid, cami və hamamlarla süslü, 50 min sakinli Bulğar şəhrini də tamamilə təxrib etdilər (1236). Onlar çəkildikdən sonra Dəşti-qıpçaqda qurulan Altun Ordu xanlığı zamanında qılınc artığı bulğarların yenidən şənləndirməyə çalışdıqları əski Bulğar şəhəri Pulat Timur xan tərəfindən ikinci dəfə ağır təxribata uğradıldı (1361) və üçüncü dəfə Timurun Altun Ordu xanı Toxtamışa qarşı səfəri əsnasında təxrib edildi (1391). Tutunmasına imkan qalmayan xalq dağıldı. Bir qismi Kamanın şimalına Kazan çayı boyuna köçdü. XV əsr ortalarında buralarda bulğar-qıpçaq qarışığı müsəlman əhali vardı ki, sonrakı Kazan xanlığının əsas əhalisini bunlar təşkil etmişdir. Digər tərəfdən, dilləri oğur türkcəsinin bir ləhcəsi olan, eyni bölgədəki çuvaşlar əski bulğarların törəmələridir[889].

[889] K. Czeglédy, Nomád népek., s. 97-109; A. N. Kurat, həmin əsər, s. 117 və ardı, O. Pritsak, Bolgaro-Tschuvaschica, s. 274-314; İA, mad. Bulgar; J. Benzing, PH. T. Fund., II s. 842 və ardı; L. Rásonyi, həmin əsər, s. 97 və ardı. İtil Bulğariyasmdakı qazıntılarda əldə edilən arxeoloji məlzəmə üçün bax: B. Ogel, Türk Kültür Tarihi, s. 239-253.